# Çingiz Abdullayev
# YEKUN DİAQNOZ

## YEKUN DİAQNOZ

*Analiz əxlaqi cəsədyarmadır: yalnız dağıdıcı fəaliyyət göstərir.*

***Pyer Buast***

## I HİSSƏ

Onlar şahmat oynayırdılar. Bu cütlüyün hər bir işində apar-ıc-ı sima Dronqo idi. Onun üstünlüyünü təkcə yaxın dostu və indiki ortağı Edqar Veydemanis deyil, digər dostları və ünsiy-yətdə olduğu tanışları da etiraf edirdilər. Amma analitik şüura və ən ağlagəlməz cinayətləri açınaq qabiliyyətinə ma-lik Dronqo çox tez-tez dostuna uduzurdu. Son ana kimi mü-ba-rizə aparsa da, bir qayda olaraq, daha səbirli və ehtiyatlı Vey-demanisə güzəştə gedirdi. Növbəti dəfə uduzan Dronqo gülüm-sədi:

— Görünür, mənim rasional təfəkkürüm yoxdur.

— Yox, — xeyirxah Edqar etiraz etdi, — sadəcə, sənin şüurun şahmat tərzində deyil. Hamı öz xüsusiyyətlərinə əsaslanır. Sən cinayətləri açmağı bacarırsan, başqa bir kimsə şahmatı səndən yaxşı oynayır. Məncə, hər şey doğrudur, yoxsa Erkül Puaro və ya Şerlok Holmsın əvəzinə ən yaxşı xəfiyyələr Lasker və ya Steynits olardı.

— Təsəlli vermə, — Dronqo etiraz edərək ayağa qalxdı. — Mən şahmat üzrə dünya çempionu ilə iki dəfə oynamışam. Biz Harri Kasparovla yerliyik.

— Onunla oynamısan? — Edqar təəccübləndi. — Niyə bu haqda mənə heç vaxt danışmamısan?

— Elə ona görə... Bir dəfə məni məktəb yığmasında oynamaq üçün Pionerlər Sarayına dəvət etmişdilər. Orda məndən bir neçə yaş kiçik oğlan var idi. O məni elə tez uddu ki, mən sakitcə daha bir partiya oynamağı xahiş etdim. Oğlan razılaşdı və yenə uddu. Bax beləcə, mən Kasparovun özünə iki dəfə uduzdum. Elə o vaxtdan ondan xeyli pis

oynayıram.

Veydemanis gülümsədi. O, ümumiyyətlə, azdanışan idi və nadir hallarda gülümsəyirdi. Edqarın ən böyük tərifi bərkdən öskürməsi idi. Bu "öhö-öhö" – tembri və tezliyindən asılı olaraq – həm razılıq, həm də narazılığı ifadə edirdi. Elə in-di də gülümsədi, amma susdu. Heç biri ehtiınal etməzdi ki, bir dəqiqə sonra baş verən hadisələr Dronqonu planlarını dəyişməyə — və ən səs-küylü qalmaqallardan birinə çevrilən iki qətl hadisəsinin təhqiqatı ilə məşğul olmağa məcbur edəcək.

Dronqo şahmat taxtasına bir daha nəzər saldı. Qurtuluş yox idi. Veydemanis bütün mövqelər üzrə qələbə qazanırdı. Heç bir müdafiə kömək edə bilməzdi. O, ah çəkib gözlərini kənara zillədi və birdən televizordakı aparıcı onun diqqətini çəkdi. Daha sonra ekranda keçmiş baş nazir müavini, akademik, elmlər doktoru, bir çox mükafatlar laureatının şəkli peyda oldu. Diktor onun vəzifələrini və xidmətlərini sayırdı. Dronqo televizorun səsini qaldırdı. Aparıcı baş nazir müavininin öldüyünü elan etdi. Amma bunun necə baş verdiyini dəqiqləşdirmədi. Dronqo və Veydemanis baxışdılar. Ölənin əlli səkkiz yaşı var idi və xəstə adama oxşamırdı. Özü də məlumatda — onun xəstəliyi haqda heç nə deyilmirdi. Diktor baş-qa xəbərlərə keçdi. Dronqo səsi aşağı salıb qaşqabaqla dos-tuna baxdı.

— Qəribədir, — o, televizorun ekranına düşüncəli tərzdə bax-dı, — ölüm haqda bu şəkildə danışılanda adama həmişə qəri-bə gəlir. O, necə ölüb? Avtomobil qəzasında həlak olub? Balkondan yıxılıb? Konservdən zəhərlənib? Belə şeylər haqda dəqiq məlumat vermək lazımdır ki, şayiələr yaranmasın. Xüsusən də ölən belə tanınmış adamdırsa.

— Yəqin avtomobil qəzasında həlak olub, — Edqar ehtimal etdi. — Bəlkə onlar bu qəza haqda danışınaq istəmirlər. Hərdən belə də olur. Bəlkə o, sükan arxasında olub və hadisənin səbəb-karı özüdür.

— Bu halda onun avtomobil qəzasında həlak olduğunu deyərdilər, — Dronqo etiraz etdi. — İndi jurnalistlər dinləyicilərə belə məlumatları çatdırmağı xoşlayırlar. Ona görə bu haqda ətraflı danışmaq şansını qaçırmazdılar. İndi başqa kanala çevirib baxarıq görək, orda keçmiş baş nazir müavininin

ölümü haqda nə deyəcəklər.

— Baxaq, — Veydemanis deyindi.

Dronqo pultun düyməsini sıxdı.

Qırx dəqiqə sonra başqa kanalda xəbərlər proqramı başladı. Proqramın elə başlanğıcında aparıcı keçmiş baş nazir müavininin ölümü haqda məlumat verdi. Onun elmi xidmətləri və vəzifələri sayılırdı, amma yenə də ölümün başvermə səbəbləri haqda heç nə deyilmədi.

Dronqo Edqara nəzər saldı.

— Eyni mətndir, — Veydemanis burnunun altında dedi, — sanki o birinin surətidir. Ölüm haqda məlumat eyni mər kəzdən ötürülüb. Orda jurnalistlər olmayıb...

— Və ya onları buraxmayıblar, — Dronqo ehtimal etdi. — Maraqlıdır, görəsən, o, harada ölüb?

Sanki sualına cavab olaraq qapının zəngi çalındı. Onlar bir-birinə baxdı. Dronqonun mənzili yerləşən elit binada xüsusi mühafizə var idi. Amma mühafizəçilərdən heç kim zəng edib qonaq gəldiyi haqda Dronqonu xəbərdar etməmişdi. Bu adam mühafizəçilərin yanından ötüb keçə bilmişdisə, bu onun qeyri-adi statusundan xəbər verirdi. Həm də, deyəsən, qonaq ev sahibinin evdə olduğunu bilirdi. Kabinetə keçən Dronqo müşahidə kamerasını yandırdı. Qapıda köhnə tanışı dayanmışdı. Dronqo çiyinlərini çəkib kədərlə gülümsədi və qapını açmağa getdi.

— Tanışımız gəlib, — Veydemanisə dedi. — Kim olduğuna baxa bilərsən. Məncə, onu dərhal tanıyacaqsan.

Edqar kabinetə keçib monitora baxan kimi qonağı tanıdı. Dronqo qapını açdı. Kandarda Federal Təhlükəsizlik Xidmətinin keçmiş direktor müavini general Potapov dayanmışdı.

— Axşamınız xeyir, Leonid Aleksandroviç, — Dronqo onu elə intonasiya ilə salamladı ki, sanki çoxdan məhz bu qonağın gəlişini gözləyirdi. — Elə bilirdim, sizi bir daha görməyəcəyəm.

— Siz məni məhz bu sözlərlə qarşılamalı idiniz, — qonaq narazılıqla deyindi.

— Keçin, — Dronqo generalı içəri buraxdı. — Müha fizənin yanından bu qədər rahat keçməyinizdən belə çıxır ki, sizin iş yerinizə onlar əvvəlki kimi hörmət qoyur.

— Sizinlə danışmaq mənimçün həmişə çətin

olub, – Potapov asta səslə söz güləşdirdi.

O, alçaqboylu, keçəl, rəngsiz üzündə domba gözləri olan adam idi. Həmişə tünd rəngli ciddi kostyumlar geyinər və üzünə təəccüb ifadəsi verən dairəvi eynək taxardı. Evə girən qonaq plaşını asıb kabinetə tərəf yönəldi. Ordan çıxan Veydemanisi görüb anlayışla başını tərpətdi:

– Demək olar ki, bütün komanda toplaşıb. Yalnız dostunuz Krujkov çatmır.

– FTX veteranları ilə mini-futbol üzrə yoldaşlıq matçı oynamağı təklif etmək üçün gəlmisiniz? – Dronqo qonağından xəbər aldı.

Potapov heç bir şərh vermədi. Kabinetə keçib divanda əyləşdi. Dronqo və Veydemanis onun ardınca girdilər.

– Bu nə adətdir? – Potapov deyindi. – Siz niyə məni hər dəfə belə nəzakətsizliklə qarşılayırsınız?

– Məsələ burasındadır ki, sizinlə ünsiyyət mənə o qədər də böyük həzz vermir, – Dronqo cavab verdi. – Siz bir qayda olaraq, ən uyğunsuz zamanda peyda olur və ən xoşagəlməz şeylər haqda xahiş edirsiniz. Bir dəfə siz mə nə köməyimin əvəzi olaraq milyon dollar vəd etmişdiniz. Əlbəttə ki, pulu mənə ödəmədilər, amma sağ qalma-ğa icazə verdilər. Bu isə sizin üçün böyük xeyirxahlıq idi. Ümumiyyətlə, mən sizin təşkilatınızla iş görməyi sev mirənı. Son vaxtlar idarənizdə həddən artıq təsadüfi insan lar peyda olub. Bu isə peşəkarlığın səviyyəsinə təsir edir.

Potapov üz-gözünü turşutdu. Havanı burnuna çəkib dedi:

– Bu da mənimçün peşəkar çıxıb. Bütün dünya bilir ki, siz “Farenheyt” ətrindən istifadə edirsiniz. Binanızın girişindən belə bu ətir duyulur. Onu çoxdan dəyişə bilərdiniz.

– Mən müşahidə xidmətində işləmirəm, – Dronqo xatırlatdı, – sevimli qoxumsa mənə ınane olmur. Əgər “Farenheyt” sizi belə qıcıqlandırırsa, mənzilimi tərk edə bilərsiniz.

– Kifayətdir, – Potapov onun sözünü kəsdi, – biz artıq iltifatlı sözləri bölüşdük, indi isə danışaq. Sizinlə vacib işim var.

– Danışaq, – Dronqo razılaşdı, – amma əvvəlcə mənim sualıma cavab verin. Siz indi harada işləyirsiniz? Axı FTX-dən bir neçə ay əvvəl getmisiniz? Yoxsa artıq qayıtmısınız?

– Yox, qayıtmamışam, – Potapov qaşqabaqla

cavab verdi. – Çox gözəl bilirsiniz ki, mən getməmişəm, "məni göndərdilər". Və onda düşünmürdüm ki, sizinlə görüşəcək və bu kimi işlərlə məşğul olacağam. Ölkədə hakimiyyətə başqa prezident gəldi...

– Sizin keçmiş həmkarınız... Onunla birgə başqa zəmanə də gəldi, – Dronqo qonağın sözünü kəsdi.

– Ola bilər, – Potapov razılaşdı, – amma mənim təcrübəm gərəkli oldu. Məni prezidentin mühafizə xidmətinə rəis müavini vəzifəsinə dəvət etdilər. Və indi həmin vəzifədə işləyirəm.

– Təbrik edirəm, – Dronqo dedi, – bax belə, istedad həmişə özünə yol tapır. Belə kadrlara hər vaxt ehtiyac olur. Onlardan həmişə istifadə etmək olar. İstənilən işdə və istənilən vaxt.

– Hə, – Potapov razılaşdı, – amma sizin istehzanızı anlamıram. Sizin yanınıza çox vacib bir işə görə gəlmişəm. Bizə köməyiniz lazımdır.

– Bunu artıq təxmin etmişdim. Yoxsa siz çətin ki bura "Farenheyt"i "iyləmək" üçün gələrdiniz. Xüsusən də o sizi belə qıcıqlandırırsa.

– Mən belə demədim, – Potapov gülümsədi.

– Eybi yoxdur. Sizin səlahiyyətlərinizə nələr daxildir?

– Moskvadakı və Moskva vilayətindəki obyektlərin mühafizəsi. Barvix, Jukovka, Qorki, qərəz, bütün obyektlər. Mən çox vacib bir iş üçün gəlmişəm, – general təkrar etdi.

– Nə olub?

– Qətl. Dünən axşam Jukovkadakı bağında çox məşhur bir adamı öldürüblər. Təəssüf ki, bu xəbər çox sürətlə yayıldığına görə biz bu gün onun ölümü barədə rəsmi məlumat yaydıq...

– Baş nazirin keçmiş müavini akademik Qluşkov... – Dronqo həmsöhbətinin sözünə yekun vurdu.

Potapov qeyri-ixtiyari əlini gicgahına apardı. Eynəyini düzəltdi.

– Siz hardan bilirsiniz ki, onu öldürüblər, – yavaşca soruşdu.

– Artıq bir saatdır ki, bütün kanallar Fyodor Qriqoryeviç Qluşkovun qəfil ölümü barədə danışır, – Dronqo izah etdi. – Onun məhz Jukovkada yaşadığını xatırladım. Bundan başqa, siz mənim yanıma belə gözlənilmədən gəlməzdiniz. Deməli, hər şey üst-üstə düşür. Heç bir kanal keçmiş baş nazir

müavininin necə və niyə öldüyünü bildirmədi. Bəlkə bunu siz deyəsiniz?

Potapov Veydemanisə nəzər saldı. O, yaxşı bilirdi ki, Edqar SSRİ DTK-nın birinci baş idarəsinin keçmiş zabiti olub. Ona görə bir qədər ləngiyərək dedi:

— Onu tapançadan güllələyiblər. Qatil yalnız bir atəş açıb — ürəyinə. Ən maraqlısı odur ki, heç kim atəş səsi eşitməyib — nə qonşular, nə də bizim mühafizəçilər: heç kim. Qərəz, Qluşkovu öldürüblər. Meyitini ikinci mərtəbədə, kabinetdə tapıblar. Tapançanı tapa bilmə yiblər, o itib. Bizim ekspertlər müəyyən edib ki, atəş Bernardelli sistemindən "P-18 kompakt" modelli tapançadan açılıb.

— Bernardelli? — Dronqo təəccübləndi. — Çox nadir modeldir. Bildiyim qədər, həm də bahalıdır. Tapançanın sahibini müəyyən etmək o qədər də çətin olmaz. Bu tapançaların maraqlı, ikisıralı düzümü olur. Son modelləri bir neçə min dollar dəyərindədir. Bu tapançanın kimə məxsus olduğunu aydınlaşdırmısınız?

— O bizim kartotekadan keçməyib.

— Qəribədir, — Dronqo qaşlarını çatdı. — Belə tapança nadir tapılır. Məncə, onlardan ölkədə yoxdur. Bəlkə silah Qluşkovun imiş? Bəlkə ona kimsə hədiyyə edib?

— Onun belə tapançası olmayıb. Ən azından, onu kimsə görməyib — nə arvadı, nə oğlu. Biz başqa şeydən şübhələnirik. Evdən köhnə sikkələrdən ibarət çox qiymətli kolleksiya itib. Bunu müəyyən etməyə macal tapmışıq.

— Qarət məqsədilə qətl? — Dronqo inanmadı. — Quldurlar mühafizə olunan qəsəbədə peyda olub baş nazirin keçmiş müavininin evinə girməkdən qorxmayıblar. İstəyirsiniz ki, mən buna inanım?

— Mən özüm də inanmıram, — Potapov etiraf etdi, — amma biz tapançanı və kolleksiyanı tapmadıq. Bizdə olan məlumata görə, kolleksiya unikal olub, orda çox nadir sikkələr varmış — 3-4 yüz min dollar dəyərində.

— Çox maraqlıdır, — Dronqo mızıldandı. — Qonşuları sorğu-sual etmisiz?

— Əlbəttə, — generalın səsində narazılıq hiss olundu. — Qluşkovun evinin yanında daha üç ev var. Birində Elmlər Akademiyasının vitse-prezidenti, digərində ölkənin Gömrük Xidmətinin rəhbəri, üçüncüsündə xarici işlər nazirinin müavini yaşayır.

Yəqin ki, başa düşürsünüz, biz onların evində axtarış apara bilməzdik. Üçü də şübhələnmək üçün heç bir əsas olmayan tanınmış insanlardır. Hərçənd, hər üçü ilə söhbət aparmışıq, onların ailə üzvləri ilə də danışmışıq. O axşam bağ evində çox adam olmayıb. Xarici işlər nazirinin arvadı xəstəxanada olduğundan o, bağ evində oğlu ilə tək imiş. Akademik arvadı və qızı ilə şam edib. Bizim baş gömrükçümüz isə həyətində arvadı ilə gəzintiyə çıxıbmış. Başqa heç kim. Və onların heç biri heç nə eşitməyib. Buna baxmayaraq, Qluşkov öldürülüb, sikkə kolleksiyası itib, silah isə tapılmayıb. Mühafizəçilər əmin edir ki, bağ evinə kənar adam gəlməyib. Kompleksin özündə səksənə yaxın ev var. Biz hamıdan şübhələnə bilmərik. Nəzərə alsaq ki, qəsəbənin sakinləri arasında on beşə yaxın federal nazir və iyirmi nazir müavini var. Qısası, axmaq situasiyadır. Özü də bu gün cümədir. Bazar ertəsi axşam prezident Moskvaya qayıdır. Qluşkovun dəfni də bazar gününə nəzərdə tutulub. Əgər o günə kimi qatili tapa bilməsək, mühafizə xidmətinin bütün rəhbərliyi özünə yeni iş yeri axtaracaq. Mən də həmçinin.

Dronqo diqqətlə həmsöhbətini dinləyirdi. Potapov hekayətini bitirəndə Dronqo Veydemanisə nəzər saldı. O, həmişəki kimi danışılanlara öz münasibətini heç bir şə kildə bildirmədən susurdu. Dronqo özü qərar verməli idi.

— Onun ailəsi böyükdür? — Dronqo qaşqabaqla maraqlandı.

— Arvadı, oğlu, qızı, nəvələri. Biz onlarla da söhbət etmişik. Bütün bizim xidməti ayağa qaldırmışıq. Artıq institutda onun müavinləri ilə danışmağa da macal tapmışıq. Heç bir ipucu yoxdur. Mərhumu sürücüsü tapıb. Səhər Fyodor Qriqoryeviçin arxasınca gəlib və onu təqribən bir saat gözləyib. Bu, sürücünü təəccübləndirib. O, evə girərkən akademikin öldürüldüyünü görüb. Dərhal bizim əməkdaşları, “Təcili Yardım” xidmətini və prokurorluq işçilərini çağırıblar. Sürücü hazırda FTX-dədir. Amma onun tam alibisi var. O, bütün gecəni evdə, ailəsi ilə birlikdə olub. Və səhər həmişəki kimi Qluşkovun arxasınca gəlib. O vaxta qədər akademik artıq bir neçə saat idi ki, ölmüşdü. Buna baxmayaraq, sürücünü sorğu-sual etmək üçün saxlayıblar. Hərçənd, aydındır ki, onun bu işə dəxli yoxdur. O, Jukovkaya doqquzun yarısı gəlib və

akademiki heç bir halda öldürə bilməzdi; heç nəyi gizlədə və oğurlaya da bilməzdi.

— Niyə? — Dronqo soruşdu.

— O, evə tək girməyib, — Potapov izah etdi. — Görünür, Qluşkovun onun zənglərinə cavab verməməsindən ehtiyatlanıb. Mərhum dəqiqliyi ilə seçilirdi və heç vaxt heç hara gecikməzdi. Ona görə sürücü mühafizəçilərdən birini çağırıb və onlar evə girmək üçün birinci mərtəbədəki şüşəni sındırıblar. Əsas odur ki, qapı içəridən bağlı olmayıb. Onu, sadəcə olaraq, örtüblər. Qluşkov adətən qapını kilidlə bağlayıb, — Potapov dedi. — Sürücünü FTX-yə aparıblar, amma bu, onlara heç nə verməyəcək. Sürücü darvazadan bağa girəndə Qluşkov artıq sağ deyilmiş. O, bazar ertəsi dəfn olunacaq, — general bir daha xatırlatdı. — Biz hadisənin necə baş verdiyini, Qluşkova kimin atəş açdığını və sikkələri kimin götürdüyünü aydınlaşdırmağa borcluyuq. Bir sözlə, bu cinayəti açmalıyıq.

Dronqo ayağa qalxıb kitab rəfinə yaxınlaşdı və kitablara baxdı. Daha sonra sanki nəsə xatırlayıb, kitab şkafları olan böyük zala keçdi. Potapov çaşqınlıqla Veydemanisə baxdı. Bir dəqiqə sonra Dronqo kabinetə qayıtdı. Əlində səksəninci illərin sonunda məşhur alimlərin müəllifliyi ilə buraxılmış kitab var idi. Müəlliflərin biri də akademik Qluşkov idi.

— Maraqlı insan olub, — Dronqo kresloda əyləşərək düşüncəli — tərzdə qeyd etdi. — Bəs siz niyə öz keçmiş iş yerinizə güvənmirsiniz? Axı FTX müstəntiqləri, yəqin ki, artıq təhqi-qata başlayıblar.

— Prokurorluq da təhqiqata qoşulub, — Potapov təsdiq etdi. O, bir qədər susdu. — Elə bilirdim, siz məni anlayarsınız. Əgər məlum olsa ki, mühafizə olunan obyektə kənar adamlar gi-rə bilib... Onda hər şeyə görə məhz bizim xidməti günahlan-dıra-caqlar. Deməyə ehtiyac yoxdur ki, xüsusi xidmətlər arasında həmişə elan olunmamış rəqabət olub. FTX bizim xid-mətin özünə qatılmağına sevinərdi və onlar əllərindən gə-ləni edəcəklər ki, qeyripeşəkarlığımızı sübut etsinlər. Pro-kurorluğa — gəlincə, o son illər Prezident Administrasiyasının əlin-də dəyənək rolunu oynayır. Orda da bir çox adam var ki, bizim mühafizə xidmətinin bütün rəhbərliyini məmnuniyyətlə dəyi-şib, onların yerinə öz əlaltılarını qoyardılar. Belə demək mümkünsə, burda

çox böyük oyun gedir və bizi "günah keçisi" etməyə çalışacaqlar.

— Demək istəyirsiniz ki, cinayət məhz sizin xidməti ittiham etmək üçün törədilib? — Dronqonun susduğunu görən Veydemanis dəqiqləşdirdi.

— Hə, — Potapov Edqara baxmadan başını tərpətdi. O, Dronqonun cavabını gözləyirdi.

— İki gün, — Dronqo ah çəkdi. — Niyə sizdə həmişə bu qə-dər qısa zaman müddətləri olur, general? Doğrudanmı belə he-sab edirsiniz ki, mən cəmi iki sutkaya bu işin öhdəsindən gələ bilərəm?

— Düzünü bilmək istəyirsiniz? — Potapov soruşdu. — Hə, mən belə hesab edirəm. Buna əminəm. Bizə kömək edə biləcək — yeganə adam sizsiniz. Əgər bazar ertəsi prezidentə real faktlar təqdim edə bilməsək, əminəm ki, bizim xidmətin formasını dəyişib FTX-nin tabeçiliyinə verəcəklər. Sizin necə işlədiyinizi bilirəm, Dronqo. Mənə elə gəlir ki, sizin mühakimələrinizdə mistik nəsə var, sanki siz başqalarının fikrini oxuya bilirsiniz. Doğru olaraq qeyd etdiniz ki, mən əvvəllər FTX-də işləmişəm. Mən sizinçün çox maraqlı ola biləcək bir faktı sizə heç vaxt deməmişəm. Bizim analitik xidmətimiz bir dəfə sizin intellektinizi hesablayıb. Sizin intellektiniz yüz səksən vahiddir. Ona görə özünüz də anlayırsınız ki, bizə kömək edə biləcək yeganə ekspertsiniz.

Dronqo Veydemanisə nəzər saldı. O, razılıq əlaməti olaraq başını tərpətdi.

— Amma intellektim elə də böyük deyil, — birdən Dronqo qeyd etdi. — Şahmatda həmişə Edqara uduzuram. Bəlkə onu dəvət edəsiniz? Və ya Harri Kasparovu.

Potapov çaşqınlıqla Veydemanisə nəzər saldı. O, baş verənlərə heç bir şəkildə münasibətini bildirməyərək sakitcə öskürdü.

— Başa düşmədim, — general etiraf etdi, — siz razısınız, ya yox? Biz sizə müəyyən miqdarda qonorar da ödəməyə hazırıq, təki razı olasınız.

— Mənə sizdə olan bütün materiallar lazımdır, — Dronqo işgüzar tona keçdi, — Jukovkaya giriş, mərhumun ailə üzvləri və qonşuları ilə danışmaq imkanı. Məni öz xidmətinizin əməkdaşı kimi təqdim edə bilərsiniz. Və əlbəttə, maşın verməlisiniz ki, qəsəbədə öz maşınım və sürücümlə peyda olmayım.

— Əlbəttə, biz hamısını edərik. Başqa?

— Bircə şəxsi xahiş, — Dronqo dedi. — Əgər nəsə edə bilsəm, siz özünüzə “Farenheyt” alacaqsınız. Və hamının qarşısında etiraf edəcəksiniz ki, bu, dünyada ən yaxşı qoxudur. Danışdıq?

Potapov başını tərpədib gülümsədi.

— Razıyam, — dedi, — iki flakonu üstümə boşaldacağam.

# II HİSSƏ

Maşınlar qəsəbəyə girəndə axşam onun yarısı idi. Növbədə olan mühafizəçi Potapovun avtomobilini tanıdı. Maşın darvazanın yanında peyda olan kimi növbətçi generalın gəlişi barədə növbədə olan zabitlərə məlumat verdi. Maşın ikimərtəbəli evə çatana qədər qəsəbənin dərinliklərində Mühafizə Xidməti əməkdaşları Potapovu və onun yoldaşlarını evdə qarşılamaq üçün hazır idilər. Dronqo müşahidə qabiliyyəti belə işlərdə tez-tez kömə yinə çatan Veydemanisi də özü ilə götürmüşdü.

Mühafizə Xidmətinin iki zabiti qaşqabaqla Dronqo nun maşından düşməyinə baxırdı. Onlardan biri ortaboylu, enlikürək, çuxura düşmüş gözləri olan, saçları qısa vurulmuş kişi idi. Digərinin isə hündür boyu, həmkarından daha iri gövdəsi, asiyalılara məxsus gözləri var idi. Prokurorluq və FTX əməkdaşları artıq burada yox idilər. Onlar cəsədi yarılmaq üçün morqa göndərib, evi tərk etmişdilər. Daha sonra cəsəd yas mərasiminin keçirilməsi üçün başqa yerə aparılmalı idi.

— Nikolay Çislov, — Potapov birinci zabiti təqdim etdi, — bu isə şöbə müdiri Şərif Qumarovdur. Tanış olun. Bu, haqqın-da danışdığımız məşhur Dronqodur. Bu isə onun ortağı Edqar Veydemanisdir.

Əlsıxmaya ehtiyac yox idi. Hamı başla salamlaşıb evə girdi. Cinayət törədilən yerlərdə həmişə xüsusi energetika olur. Dronqo buna dəfələrlə əmin olmuşdu. Evə girərkən burda hökm sürən qəribə sükuta təəccübləndi.

— Evdə kimsə qalıb? — Dronqo sakitcə soruşdu.

— Hə, — Çislov başını tərpətdi, — mərhumun arvadı və oğlu ikinci mərtəbədədir. Biz onlardan xahiş etmişik ki, digər əşya-lara əl dəyilmədiyinə əmin olmaq üçün hər şeyi yoxlasınlar.

— Cəsədi yarıblar? — Dronqo daha bir sual verdi.

Çislov Qumarova nəzər saldı. Digəri sakitcə başını tərpətdi. Görünür, çoxdanışan deyildi və məlum faktlar haqqında əməkdaşının danışmağına üstünlük verirdi.

— Artıq yarılma aparılıb, — Çislov təsdiq etdi. — Patoloqoanatomlar ölümün yaxından açılmış atəşdən olduğunu təsdiqlədilər. Mərhumun köynəyində və yaranın ətrafında dəqiq barıt izi var.

Hətta çox yaxın məsafədən açılan atəş zamanı yaranan barıt yanıqları da var.

— Eləmi? — Dronqo maraqlandı. — Siz bu haqda danışmamışdınız, Leonid Aleksandroviç.

— Onsuz da özünüz öyrənəcəkdiniz, — Potapov yavaşca cavab verdi. — Hesab edirdim ki, buraya gəlib hər şeyi öz gözlərinizlə görməyiniz daha yaxşı olar.

— Yaxın atəşdən qalan barıt yanıqları... — Dronqo qaşlarını çatdı. — Göstərə bilərsiniz, atəş hara açılıb? — Çislova müraciət etdi.

O, Potapovla Qumarovun gözündə etiraz görmədiyin dən sağ əli ilə ürək nahiyəsini göstərdi.

— Bax bura, — dedi, — düz ürəyinə. Və ya bir az aşağı.

— Bəlkə o, özü özünü güllələyib? — Dronqo ehtimal etdi. — Belə bir variant mümkündür?

— Bəs onda tapança hanı? — Potapov etiraz etdi. — O hara itib? Sikkə kolleksiyası niyə yoxa çıxıb? Bundan başqa, intihar edənlər adətən, öz əməllərinin səbəbini izah edən qeyd qoyurlar. Düşünürsünüz ki, Qluşkov özünü güllələyib belə bir yazı qoymazdı?

Dronqo onun suallarına heç bir şərh vermədən kiçik zaldan keçərək ətrafa baxmağa başladı. Ev o qədər də böyük deyildi, cəmi bir neçə otağı vardı – iki otaq və mətbəx aşağıda, üç otaq da yuxarıda yerləşirdi. Ev sahibinin kabineti və iki yataq otağı yuxarıda idi. Birinci mərtəbədə mətbəxə bitişik yemək otağı və sağ tərəfdə qonaq otağı yerləşirdi.

Qonaq otağından əynində tünd boz rəngli cemper və göy şalvar olan cavan oğlan çıxdı. Dronqo baş nazirin keçmiş müavininin televizorda göstərdikləri şəklini xatırladı. Cavan oğlan təəccüblü dərəcədə atasına oxşayırdı. Həmin girdə sifət, qalın qaşlar, eynək.

— Akademik Qluşkovun oğlu Oleq, — Potapov onu təqdim etdi. — Bu isə bizim ekspertdir, — ad çəkmədən Dronqonu göstər-di.

Dronqo salamlaşdı.

— Əyləşin, — divan və stolun ətrafındakı stulları göstərən Oleq qonaqları dəvət etdi. Özü kresloda əyləşib dərindən ah çəkdi. — Hər şey elə gözlənilməz, elə qorxulu alındı ki! Biz bütün otaqlara baxmışıq. Amma sikkə kolleksiyasından başqa heç nə itməyib. Hər halda, Veronika Andreyevna da belə hesab edir.

Dronqo qaşlarını çatıb Potapova baxdı. Deyəsən, general ona hansısa lazımi məlumatları bildirməyib. Niyə oğlu anasını belə adlandırır?

— O, indi hardadır? — Potapov maraqlandı.

— Öz yataq otağında, — Oleq cavab verdi. — Mən artıq getməyə hazırlaşırdım, amma sizin əməkdaşlarınız xahiş etdilər ki, yubanım.

— Siz getmək istəyirdiniz? — Dronqo dəqiqləşdirdi. — Ananız isə bağda tək qalmağa hazırlaşırdı?

Oleq qaşqabağını tökdü. Nəsə demək istəyirdi ki, birdən addım səsləri eşidildi – dul qalmış Qluşkova pilləkənlə aşağı düşürdü. Kişilər yerlərindən qalxdılar. Qonaq otağına hündürboy qadın daxil oldu. Görünüşcə yaşı qırx beş olardı. Açıq rəngli gur saçları və dəqiq görünən almacıq sümükləri vardı. Uzun qara don geyinmişdi. Dronqo onun bir qədər uzunsov gözlərinə və nazik burun pərlərinə diqqət yetirdi. Görünür, qadın artıq kosmetoloqların əlinə və cərrah bıçağı altına düşmüşdü. Ona baxmaq kifayət idi ki, Oleqin nəyə görə bu qadına adı və atasının adı ilə müraciət etdiyi aydın olsun. Qadın yaşına görə onun anası ola bilməzdi.

Hamı ilə başla salamlaşan Veronika Andreyevna masaya tərəf gedib özünə stul çəkdi və oğulluğundan bir qədər kənarda oturdu. Dronqo onun Oleq tərəfə baxmadığına da diqqət yetirdi.

— Belə gec gəldiyimizə görə bağışlayın, — Potapov ev sahibəsinə müraciət etdi, — amma bizim ekspert cənab Dronqo gəlib, sizinlə danışmaq istəyirdi.

— Əlbəttə, — qadın dedi.

Hiss olunurdu ki, həyəcanlanır, amma zahirən özünü sakit göstərməyə çalışır. Oleq daha çox həyəcan keçirirdi. Vaxt ötdükcə əsəbdən üzü dartılırdı.

— Siz evdə hər şeyi nəzərdən keçirmisiniz? — Potapov soruşdu. — Sikkə kolleksiyasından başqa heç nə itməyib?

— Heç nə, məncə, heç nə. Oleq atasının kabinetinə baxıb. Orda da heç nə itməyib.

Onun üzü azca şişmiş və gözləri qızarmışdı. Bundan başqa, heç nə onun ərini qəfil itirmiş dul qadın olduğunu bildirmirdi. Oleq daha üzgün görünürdü.

— Belə bir vaxtda sizi narahat etdiyimiz üçün

bağışlayın, – Dronqo dedi, – sizə bir neçə sualım var.

– Nə istəyirsiniz, soruşun, – qadın etinasızlıqla dedi, – mənimçün artıq fərqi yoxdur. Sizin prokurorlarınız məni üç saat sorğu-sual ediblər. Daha sonra qonşuları sorğusuala tutublar. Səbəbi məlum deyil. Bizim evdə olan bir hadisə barədə qonşular hardan bilsin? Ətraf ağaclıq və kolluqdur. Qonşu evlər hətta günortalar, demək olar ki, görününür.

Veronika Andreyevna əlini uzadıb stolun üstündəki "Kemel" qutusundan siqaret çıxardı. Oleq yanındakı tumbanın üstündə olan alışqanı ona vermək üçün heç tərpənmədi də. Onun əvəzinə Çislov öz alışqanını çıxardı. Ev sahibəsi ona təşəkkür etdi.

– Dünən axşam Fyodor Qriqoryeviç tək olub? – Dronqo soruşdu.

– Hə, – qadın ah çəkdi, – adətən, onu sürücü gətirirdi, amma hərdən özü gəlirdi. Ümumiyyətlə, maşın sürmək xoşuna gəlirdi, deyirdi ki, bu onu sakitləşdirir. Dünən axşaın saat 8-də gəldi. Mən şəhərdəki evimizdə qalmışdım. O bir saatdan sonra mənə zəng etdi və biz nə haqdasa danışdıq. İndi nə haqda olduğunu heç xatırlaya da bilmərəm. Sonra sanki nəsə hiss etdim. Ona zəng etməyə başladım. Mobil telefonu sönmüşdü, şəhər telefonu isə cavab vermirdi. Düzünü desəm, elə bilirdim ki, o, gəzınəyə çıxıb. O, tez-tez gecələr evin ətrafında gəzişirdi. Buralar onun xoşuna gəlirdi. Saat 11-də yenə zəng etdim. Yenə heç kim cavab vermədi.

O, dərindən ah çəkib ağzından qatı tüstü buraxdı. Dronqo düşündü ki, iyirmi il əvvəl bu qadın, yəqin ki, çox gözəl olub. Hərçənd, elə indi də kişilərin xoşuna gələrdi. Onun koppuş, hissiyyatlı dodaqları vardı.

– Bütün gecəni pis yatdım, – Veronika Andreyevna davam etdi, – səhər isə mənə xəbər verdilər ki...

O, siqareti külqabıya sıxıb söndürdü. Səsi titrədi, gözləri yaşardı. Üzünü çevirdi. Dronqo Oleqə baxdı. O, qaşqabaqlı oturmuşdu, analığının sözlərinə heç bir reaksiya vermirdi. Onun analığına münasibətində valideyninin seçimini bəyənməyən böyük uşaqlardakı kimi gərginlik hiss olunurdu.

– Onu bizim sürücü İlyuşa tapıb, – onun yenə səsi tit rə-di, – zəng etdi və mən dərhal ikinci

sürücünü çağırıb onunla – birlikdə gəldim. Təqribən, 30-40 dəqiqə sonra. Bu vaxt artıq burda xeyli adam var idi. Milis, prokurorluq, "Təcili Yardım"ın həkimləri, bizim mühafizəçilər. Hamısı – yadımda qalmadı. Fyodor Qriqoryeviçi dərhal görmə-dim. Sizin ekspertlər orda işləyən vaxt məni otağa buraxmadılar. Sonra biz Oleqlə birlikdə kabinetə girdik...

O susub Dronqoya baxdı.

– Təsəvvür etmirəm ki, onu kim öldürə bilər, – etiraf etdi, – Fyodor Qriqoryeviç çox yaxşı insan idi. O, heç vaxt heç kimə pislik etməyib. Niyə hər şey belə bitdi?

Şəhər telefonu zəng çaldı. Dəstək Veronika Andreyev nanın yanındakı stolun üstündə idi. O, dəstəyi götürdü.

– Hə, – kədərlə dedi, – dəhşətdir, Valeçka. Çox sağ ol. O sizi çox sevirdi. Çox sağ ol. Hə, dəfn mərasimi bazar ertəsidir. Yox, yox. Çox sağ ol. Sonra sənə hər şeyi danışaram. Hə, ürək, hə, hə. Qəfil. İnfarkt. Bağışla. Hə, çox sağ ol.

O, dəstəyi asdı.

– Mobil telefonu söndürmüşəm, – üzrxahlıqla dedi. – Deyirlər, televizorda Fyodor Qriqoryeviçin öldüyü haqda məlumat veriblər. İndi hamı zəng etməyə çalışır. Yaxşı ki, bağdakı nömrəni iki ay əvvəl dəyişmişik, yeni nömrəni çox adam bilmir. Yoxsa heç danışmağa imkan verməzdilər.

Potapov anlayışla başını tərpətdi.

– Son günlər Fyodor Qriqoryeviçin davranışlarında qeyri-adi heç nə sezməmişdiniz ki? – Dronqo soruşdu. – Bəlkə onun həyəcanlandığını hiss eləmisiz? Və ya başqa nəsə?

– Məndən bu haqda artıq soruşublar, – o, sakitcə dedi. – Əlbəttə, yox. Müstəntiqlər nədənsə, elə düşünür ki, o özünü güllələyə bilər. Amma onun tapançası yox idi. Həm də o bunu niyə etsin ki? Yox, yox. Mən bilirəm: onu bu axmaq sikkə kolleksiyası üzündən öldürüblər. Bu sik kələr haqda öyrənən kimsə hiss olunmadan bağa girə bilib.

Çislovun mobil telefonu zəng çaldı. O, üzr istəyib qonaq otağından çıxdı. Və demək olar ki, dərhal Qumarovu çağırdı. Mühafizə xidmətinin hər iki əməkdaşı qonaq otağından çıxdı. Çıxmazdan əvvəl Qumarov Potapova nəsə pıçıldadı və o, razılıqla başını tərpətdi. Mühafizə əməkdaşları gedəndən

sonra mühit bir qədər sakitləşdi, gərginlik azaldı. Evdə bu qədər kənar adamın olması Veronika Andreyevnanın və Oleqin psixikasına açıq-aşkar təsir edirdi.

— Necə düşünürsünüz, bu kolleksiya haqda kim bilə bilərdi? — Dronqo soruşdu.

— Hər kəs, — o təəccübləndi. — Fyodor Qriqoryeviç açıqürəkli, xeyirxah insan idi. O, insanlardan heç nəyi gizlətmirdi. Bizim evimizdə həmişə çoxlu qonaqlar olurdu...

Oleq ayağını tərpətdi və Veronika Andreyevna bu jesti sezdi.

— Hə, — o meydan oxuyurmuş kimi dedi, — bizim həmişə çoxlu dostlarımız olub. Bunda pis heç nə görmürdük. Amma mən heç kimdən şübhələnə bilmərəm. Bizim tanışlarımız hamısı abırlı adamlardır. Hərçənd, indi hər şey dəyişib, bilinmir, kimə abırlı demək olar.

Oleq qaşlarını çatdı, amma etiraz etmədi. Analığının yanında o, yaşına nisbətən daha çox sıxılırdı.

— Evdə başqa qiymətli əşya yox idi? — Dronqo dəqiqləşdirdi.

— Hardan? — Veronika Andreyevna gülümsədi. — Bi zim qiymətli əşyamız hardan olacaqdı ki? Akademik Qluşkovu tanımaq lazım idi. Çox gözütox adam idi, heç vaxt pul yığmaz, xidməti durumundan istifadə etməzdi. Nazir müavini vəzifəsində işləyən istənilən məmur elə varlanardı ki, nəinki övladlarına, nəvələrinə də bəs edərdi. Bir neçə zavodu özəlləşdirməyə və ya hansısa müəssisəni ələ keçirməyə macal tapardı. Amma Fyodor Qriqoryeviç belə şeylər haqda düşünməzdi. Yəqin xatırlayırsınız, o iki dəfə baş nazirin müavini olub. Qəzetlər həmişə onun yüksək əxlaqi prinsiplərindən yazırdı. O, çox şərəfli adam idi — bəzən hətta özünə və ailəsinə zərərli ola biləcək qədər.

— Məncə, o, ailəsini təmin etmək üçün kifayət qədər zəngin insan idi, — Oleq acı-acı söylədi.

O, fikrini davam etdirmədi, amma hamı onun nə demək istədiyini başa düşdü. "Cavan arvadının bütün şıltaqlıqlarını ödəmək üçün kifayət qədər zəngin idi" – mərhumun oğlu bunu demək istəyirdi. Görünür, Veronika Andreyevna da onun hücumunu məhz belə anladı. Qaşlarını çatıb ikrahla Oleqə baxdı.

— Mən şikayət etmirəm, — əsəblə dedi, — sadəcə olaraq, atanın necə abırlı, şərəfli adam olmağından danışıram.

O, əlini uzadıb daha bir siqaret götürdü. Çislov otaqda yox idi. Otaqdakı kişilərin heç biri çəkmirdi. Veronika Andreyevna yanında alışqan olan Oleqə baxdı. Sükut bir neçə saniyə çəkdi. Daha sonra Oleq əlini uzadıb alışqanı götürdü və analığına verdi.

Qadın bu "alicənablıqdan" fısıldayıb alışqanı yandırdı. Telefon yenidən zəng çaldı. O, üzünə matəm ifadəsi verərək dəstəyi götürdü.

— Eşidirəm sizi, — kədərli dul səsi ilə dedi. — Kimdir da-nı-şan? — Birdən onun səsi dəyişdi. — Hə, bu mənəm. O, hə-lə burdadır. İndi dəstəyi ona verərəm. Çox sağ ol. Bizi ne-cə sevdiyini bilirəm, — acıdilliklə dedi və dəstəyi Oleqə- uzatdı. — Sənin arvadındır, — pərt olmuş oğulluğuna dedi.

O, yerindən sıçrayıb dəstəyi götürdü.

— Nə olub? — eynəyini düzəldərək soruşdu.

— Nə vaxt gələcəksən? — dəstəkdən kifayət qədər yüksək qadın səsi eşidildi. Səsi yanında oturan Dronqo da eşitdi. — Niyə orda o zibillə oturmusan?

— Bağışla Tanya, biz məşğuluq, — Oleq arvadını sakitləşdirməyə çalışdı.

Görünür, arvadı ərinin analığına qohumluq hissləri duymurdu.

— Nə işlə məşğulsan? — arvadı əsib-coşdu.

Oleq, nəhayət, üzr istəyib qonaq otağından çıxanda o qışqırmağa davam edirdi.

— Onun arvadı isterik xəstədir, — Veronika Andreyevna yaranınış səhnədən razı qalaraq bildirdi. — Buna görə o, belə çəkingəndir. Anası onu rəfiqəsinin qızı ilə evləndirib. Bir yerdə onu tamamilə çərlədiblər. Fyodor Qriqoryeviç heç vaxt onun bu seçimini bəyənməyib.

— Onun anası sağdır? — Dronqo soruşdu.

— Yox, — Veronika Andreyevna cavab verdi. — O, xəstəxananın baş həkimi işləyib. Deyirlər, elə hökmran qadın olub ki, hətta ətrafındakı mikrobları belə məhv edib. On il əvvəl ölüb. Bundan öncə oğlunu rəfiqəsinin qızına evləndirməyə macal tapıb. Yəqin onu tezliklə kəndirləmək istəyirmiş, — qəddarcasına ehtimal etdi, — çünki vecsiz olduğunu bilirmiş. İki il sonra biz Fyodor Qriqoryeviçlə qarşılaşdıq.

— Siz neçə il birlikdə yaşadınız?

— Rəsmi olaraq altı il. İlk iki il biz

münasibətlərimizi gizləyərək, sadəcə, görüşürdük.

— Siz ərdə olmusunuz?

— Bunun Fyodor Qriqoryeviçin ölümünə bir dəxli var? — o, təəccüblə çiyinlərini çəkdi. — Hə, mən ərdə olmuşam. İki dəfə. Hər ikisində də uğursuz. Fyodor Qriqoryeviç mənim üçüncü ərim idi. Mənsə onun ikinci arvadıyam. İnsanlar bəzən çatışmayan ikinci yarısını uzun müddət axtarırlar. Sizə elə gəlmir?

— Yəqin, — Dronqo gülümsədi. — Belə şəxsi suallar verdiyimə görə üzr istəyirəm. Keçmiş ərlərinizlə münasibətləriniz yaxşıdır?

— Düşünürsünüz ki, onlardan hansısa hasarı aşıb evə girərək Fyodor Qriqoryeviçi öldürüb? — o gülümsədi. — Bu, fantastikadır. Mənim birinci ərim külli miqdarda dövlət əmlakını mənimsədiyinə görə həbsxanada yatır. Onun çıxmağına hələ bir neçə il var. İkinci ərim isə hazırda Çexiyadadır. O biznesmendir və çex müəssisələri ilə iş aparır. Gördüyünüz kimi, ərlərimin tam alibisi var. Deyəsən, sizin həmkarlarınız belə deyirlər.

— Doğrudur, — onsuz da isterik vəziyyətdə olan qadını qıcıqlandırmamaq üçün təsdiqlədi. — Suala görə bağışlayın, — Dronqo davam etdi, — bəs qonşularla münasibətiniz necədir?

Veronika Andreyevnanın qaşları çatıldı. Üzü azca köl-gələndi. Sonra bir qədər əsəblə cavab verdi:

— Bizim hamı ilə yaxşı münasibətimiz olub. Niyə soruşursunuz?

— Mən onlarla da danışmalıyam. Bəlkə kimsə evə yad adamın yaxınlaşdığını görüb?

— Onlar sizə heç nə deməyəcək, — Veronika Andre yevna onu dərhal kədərləndirdi. — Bundan başqa, görünür, siz hara gəldiyinizi başa düşmürsünüz. Burda höku mət adamları və dövlət müəssisələrinin rəhbərləri yaşayır. Bura oğruların və quldurların yaşadığı yer deyil...

— Şübhəsiz, — Dronqo nəzakətlə razılaşdı, — amma mən sizin qonşularla olan münasibətinizi bilməliyəm.

— Dostcasına. Akademik Perelman ərimin Akade miyadan kolleqasıdır. Lopatin və Romanovskiy həddən artıq məşğul adamlar olduğuna görə bizə gec-gec gəlirdilər. Hərçənd, Vsevolod Vitalyeviç bizə bir neçə dəfə gəlib. Onlar öz sikkələri haqda danışırdılar. Lopatin də bir və ya iki dəfə gəlib. O, ümumiyyətlə, Fyodor Qriqoryeviçə minnətdar idi.

Onun arvadı Nelli ilə mənim yaxşı münasibətim var. Ərlərimiz işdə çox məşğul olduqlarından biz onunla tez-tez tək qalırdıq. Ona görə Nelli Lopatina ilə yaxınlaşmışıq.

O dərindən ah çəkdi.

— Bütün evli qadınların hekayəti eynidir. Nə qədər ki ərlərimiz yüksək vəzifə tutur, biz evdə oturmağa borcluyuq. Bizim vəziyyətimizdə işə düzəlmək, demək olar ki, mümkün deyil: bütün ölkə bizim ərimizi tanıyır və məxfiliyimizi qoruyub saxlaya bilmirik. Bundan başqa, biz ailədə əmin-amanlığı və evdə normal mühiti təmin etməliyik. Narazılıq etmirəm, sadəcə olaraq, akademik Qluşkovun arvadı kimi yüksək statusa uyğunlaşmağın çətinliyindən danışıram.

— Lopatin və Romanovskilərdən başqa yaxında akademik Perelmanın ailəsi də yaşayır, — Dronqo xatırlatdı. — O da ərinizin Akademiyadan kolleqasıdır?

— Hə. Amma onun ailəsindən biz daha çox qızını görürdük, — Veronika Andreyevnanın səsində pis gizlədilən narazılıq eşidildi. — O, Fyodor Qriqoryeviçin uşaqları ilə birlikdə oxuyub və özünü az qala onun ailə üzvlərindən biri sayırdı. Gənc və diribaş qızdır. Ümumiyyətlə, hesab edirəm ki, insanlar bağ evinə dincəlməyə gəlir, qonaq qəbul etməyə yox. Siz mənimlə razı deyilsiniz?

Görünür, az əvvəl Qluşkovun evində çoxlu qonaqların olduğu haqda danışdıqlarını unutmuşdu. “Freydin dediyi kimi tipik səhvdir, – Dronqo düşündü. – Bir tərəfdən, Qluşkov çox tanınmış olduğundan insanları özünə tərəf çəkib. Digər tərəfdən, yeni arvadı kişini köhnə tanışlarından hər şəkildə uzaq tutmağa çalışıb ki, birdən köhnə tanışlar köhnə xatirələri oyada bilər”. Oleq qonaq otağına girdiyindən Dronqo heç bir cavab verə bilmədi. O, dəstəyi analığına uzatdı.

— Akademik Arxipovdur, sizinlə danışmaq istəyir.

Qadın dəstəyi götürüb üzünə yenə matəm ifadəsi verdi. Onun gözəl aktyorluq məharəti vardı. Əmin, istehzalı üz ifadəsi kədərli dulun matəm sifəti ilə əvəz olundu.

— Salam Sergey Alekseyeviç. — Veronika Andreyevna ah çəkdi.

Oleq üzünü çevirdi, görünür, analığının belə

davranış tərzi onu qıcıqlandırırdı.

— Böyük dərddir, — qadın titrək səslə davam etdi. — Hə, dünən axşam. Yox. Ürək deyil. Sonra sizə hər şeyi danışaram. Hə, hə, əlbəttə. Yox, dəfn bazar ertəsi olacaq. Deyirlər, prezident özü də gələcək, — o, şöhrətpərəstliyini boğa bilmədi.

Oleq Potapova nəzər saldı.

— Mən sizə lazım deyiləm ki? — soruşdu. — Gedə bilərəm? Veronika Andreyevnanın arxasınca sürücüsü gəlib.

Potapov Dronqoya baxdı.

— Sizin maşınınız var? — Dronqo soruşdu.

— Hə, — Oleq bir qədər təəccüblə dedi. — Sizi şəhərə qədər aparmaq lazımdır?

— Sizi yubatmamaq üçün şəhərə kimi sizinlə getmək istərdim. Həm də bir az söhbət edərik. Zəng edən arvadınız idi?

Oleq bir qədər qızardı.

— Mən qala bilərəm, — o, qətiyyətlə dedi.

— Vacib deyil, — Dronqo etiraz etdi. — Məncə, biz Veronika Andreyevna ilə söhbətimizi tezliklə bitirəcəyik.

Oleq analığının Dronqonun köhnə tanışı olan akademik Arxipovla danışdığını qeyd etdi. Amma burda bu haqda danışmağa dəyməzdi. Oleq əvvəlki yerində oturub söhbətin sonunu gözlədi.

Veronika Andreyevna danışığı bitirib dəstəyi yerinə qoydu. Üzü yenə əvvəlki kimi sakit idi.

— Onsuz da rahat buraxmayacaqlar, — ah çəkərək dedi. — Təsəvvür edirəm, evdə nələr baş verir.

— Sizin sürücünüz gəlib, — Oleq dedi.

— Çox sağ ol, — o, etinasızlıqla cavab verdi.

— Sizin sürücünüz var? — Dronqo dəqiqləşdirdi.

— Hə, əlbəttə. Fyodor Qriqoryeviçin institutdan öz sürücüsü var idi. Onunla uzun müddət işləmişdi. Mənim sürücüm isə maaşı bizdən alır və yalnız mənimlə işləyir.

— Aydındır. Sonuncu sual. Sizin bağ qonşularınızla heç bir söz-söhbətiniz olmayıb ki? Bəlkə hansısa mübahisə, münaqişə və ya anlaşılmazlıq olub?

— Nə danışırsınız, — o, kədərlə gülümsədi, — bizim qonşular çox yaxşı insanlardır. Həddən artıq. Əgər düşünürsünüzsə ki, onlardan kimsə...

— Çox sağ olun, — Dronqo dedi. — Sizi yubatdığımız üçün bağışlayın.

Kişilər ayağa durdu.

— Mən şəhərə gedəcəyəm, — Oleq analığına bildirdi, — Alla sabah Stokholmdan gəlir.

— O mənə zəng edib, — Veronika Andreyevna sakitcə dedi.

Qadın sağollaşdı və bu vaxt şəhər telefonu yenidən zəng çaldı. Potapov anlayışla ah çəkdi.

— O, həddən artıq məşhur adam idi.

Dronqo giriş qapısına yaxınlaşdı. O çırpılsa, kilid avtomatik bağlanırdı. Burda, birini yalnız içəridən bağlamaq mümkün olan daha iki kilid var idi. Dronqo bütün cəftələrə baxdı.

— FTX ekspertləri artıq işləyiblər, — Potapov dedi, — kilidlərə heç kim dəyməyib. Mətbəxin pəncərələri sındırılıb. Burda başqa heç bir iz yoxdur. Biz hətta it ilə birgə kinoloq da çağırmışıq. Amma bura çox tapdanıb və o qədər çox maşın var ki, it iz götürə bilmədi.

Onlar evdən çıxdılar. Oleq gödəkcəsini geyinib onun ardınca tələsdi.

— Arxipov, — Veydemanis yavaşca xatırlatdı, — bu, həmin akademikdir?

— Hə, — Dronqo da sakitcə cavab verdi, — ümid edirəm ki, sabah onunla söhbət edə bilərəın. Qoy Potapov səni şəhərə aparsın, mənsə Oleqlə gedəcəyəm.

— Bu doğru qərardır, — Edqar razılaşdı. — O, çox kompleksli adamdır. Yaxşısı budur, sən onunla təklikdə danışasan. Sağ ol. Əgər lazım olsam, zəng edərsən.

Dronqo Potapovla sağollaşdı.

— Sabah şənbədir, — xatırlatdı, — qrafikimiz çox sıxdır. Məni maraqlandıran bəzi adamlarla söhbət etmək lazım gələcək. Mobil telefonunuzun nömrəsini mənə verin.

Potapov Dronqonun yeddi rəqəmin hamısını yadda saxlayacağına əminliklə nömrəsini dedi. Dronqo nömrəni təkrarlayıb xatırlatdı:

— Sizi səhər saat 10-da gözləyirəm. Sağ olun.

Oleqin maşınına yaxınlaşarkən evin yanında dayanan boz "Audi"yə diqqət yetirdi. Maşının dəbdəbəli salonunda əyləşən gənc sürücü sahibəni gözləyə-gözləyə mürgüləyirdi. "Gözütox adam üçün həddən artıq yaxşı maşındır", – Dronqo kiçik

Qluşkovun göy rəngli “Pejo”suna əyləşərkən düşündü.

# III HİSSƏ

Maşın darvazadan çıxdı. Mühafizəçilər qəsəbədən çıxan hər iki kişiyə diqqətlə baxırdılar. Adəti üzrə, bir mühafizəçi əvəzinə darvazanın yanında bir neçə nəfər var idi. Çislov Dronqonu tanıyıb maşını buraxmağı əmr etdi. Dronqo ətrafa baxdı. Onların ardınca tünd rəngli "Nissan" çıxdı. Onlar nəhayət, şoseyə çıxanda Dronqo soruşdu: – Alla sizin böyük bacınızdır?

— Hə, — Oleq cavab verdi, — o, Stokholmda işləyir, bizim xarici ticarət kompaniyasının nümayəndəliyində. Əri ilə artıq iki ildir orda yaşayır.

— Onunla münasibətləriniz yaxşıdır?

— Normaldır, — Qluşkov cavab verdi.

— Bəs analığınızla?

"Ona belə suallar verməк olmaz" – Dronqo düşündü. Maşın azca kənara sürüşdü. Oleq həddən artıq əsəbi reaksiya verdi.

— Onunla da normaldır, — bir qədər gərgin səslə dedi.

— Atanızın evlənməyinin əleyhinə idiniz?

Oleq ona baxdı.

— Yola baxın, — Dronqo məsləhət gördü.

— Hə, — Oleq dedi, — biz əleyhinə idik. Mən də, bacım da. Veronika Andreyevna ilə qarşılaşarkən atamın yaşı əllidən çox idi. Yəqin o qadının iki dəfə uğursuz ailə qurduğunu bilirsiniz. Birinci əri həbsxanaya düşüb, digəri Çexiyaya qaçıb. Bu sizə nəsə deyir?

— Onun çətin həyatı olduğunu deyir.

— Zarafat edirsiniz? — Oleq qaşqabaqla maraqlandı. — Doğrudanmı, siz heç nə başa düşmürsünüz? Atam o vaxt artıq tanınmış adam idi. Baş nazirin müavini, akademik, professor, institutun direktoru. Onun öz həyatı haqda necə danışdığını eşitdiniz? Hələ ona nəsə çatmadığını deməyə cürət edir. Atamın bütün pulu, əlaqələri, tanışları, dəyərli əşyaları indi bu qadına qalacaq... Bilmirsiniz, miras necə bölünür?Axı siz hüquqşünassınız.

— Qorxuram ki, sizi sevindirə bilməyim, — Dronqo etiraf etdi. — Miras hüququndan xatırladığım qədər, sizə atanızın mirasından çətin ki nəsə düşə. Əgər vəsiyyətnamə yoxdursa, əmlak ər-arvad və həddi-büluğa çatmamış övladlar arasında

bölünür. Onlar birinci növbədə vərəsə sayılır. Özü də mirasın yarısı arvadına çatır, digər yarısı isə arvadı ilə uşaqları arasında bölünürdü...

— Deməli, arvadı yarıdan çoxunu alır? — Oleq açıqaşkar əsəbiləşmişdi. Görünür, bu sual onu daha çox maraqlandırırdı. — Əgər o heç harda işləmirsə?

— Bu, məncə doğrudur, — Dronqo qeyd etdi. — Axı birgə həyat zamanı qazanılmış əmlak onlardan hansının işləməyindən asılı olmayaraq, ər-arvad arasında bölünür. Mirasın yarısı onun qanuni haqqıdır. Qalan yarısı digər vərəsələr arasında bölünür. Amma sizi kədərləndirməli olacağam. Sizə istənilən halda heç nə çatmayacaq. Həd di-büluğu aşmış övladlar qeyd-şərtsiz vərəsə sayılmır. Və əgər notariusda təsdiq olunmuş vəsiyyətnamə yoxdursa, atanızın bütün əmlakı Veronika Andreyevnaya çatacaq.

— Biz məhkəməyə müraciət edəcəyik, — Oleqin üzün də qırmızı ləkələr peyda oldu. — Belə olmaz! Bu düzgün deyil, ədalətli deyil.

— Bu məsələni öz vəkillərinizlə müzakirə edərsiniz, — Dronqo məsləhət gördü. — Atanızla axırıncı dəfə nə vaxt danışmısınız?

— Nə? — Oleq soruşdu.

Görünür, o, hələ də miras haqda fikirləşirdi.

— Axırıncı dəfə atanızla nə vaxt danışmısınız? — Dronqo səbirlə bir daha soruşdu.

— Dünən... Yox, srağagün.

Oleq karıxdı, eynəyini düzəltdi. Hiss olunurdu ki, həyəcanlanır.

— Daha dəqiq xatırlaya bilməzsiniz? — Dronqo sərt baxışlarını həmsöhbətindən çəkmədən inadla soruşdu.

Oleq başını buladı.

— Dünən, — dərindən ah çəkdi, — dünən axşam. Yal-nız prokurorluq əməkdaşlarına srağagün demişəm. Qorx dum və nədənsə yalan dedim.

Dronqo doğru düşünmüşdü. Kiçik Qluşkova eyni zamanda həm maşın sürmək, həm miras haqda düşünmək, həm də yalan danışaraq suallara cavab vermək çətin idi.

— Onları niyə aldatmısınız? — Dronqo ciddi tərzdə soruşdu.

— Onlara heç nə danışmaq istəmirdim, — Oleq etiraf etdi. — Biz dünən atamla mübahisə etmişdik. Hətta buna mübahisə demək olmazdı... Mənim

planlarım onun xoşuna gəlmirdi. Mənə isə pul lazım idi. Dəstəkləməsini istədim. Amma o, etiraz etdi. Vəssalam.

— Nə planlar? — Dronqo soruşdu.

— Biz ərzaq alırıq, — Oleq izah etdi. — Dostlarla birlikdə pul qoyub Almaniya və Polşadan ərzaq alırıq. Sonra onları ölkəyə gətiririk.

— Bəs o, niyə əleyhinə idi? Məncə, Qluşkov əsl ticarət adamı idi.

— Bilmirəm. Amma bizim biznes onun xoşuna gəl mirdi. Və o bu haqda mənə tez-tez deyirdi.

— Onunla saat neçədə danışmısınız?

— Təqribən saat 8-8:30-da. O məni dinləmək istəmə diyini deyib dəstəyi asdı. Bundan başqa, söhbətimiz olmadı. İndi heç xatırlamaq istəmirəm. Necə düşünürsünüz, anamın şəxsi əşyaları da o qadına çatacaq?

— Bu sizi hər şeydən çox maraqlandırır, — Dronqo qeyd etdi.

— Hər şeyin ona çatacağı fikri mənə pis təsir edir. Özünüz də başa düşürsünüz ki, o qadın atamı heç sev məyib. Anamın ölümündən sonra atam özünü çox yalqız hiss edirdi, o da bundan istifadə etdi. Onun yaşı əllini təzəcə keçmişdi...

— Onda yalnız özünüzü günahlandırmalısınız, — Dronqo ciddi tərzdə dedi. — Onu tək qoymaq lazım deyildi. Bacınız və siz ona daha çox diqqət yetirə bilərdiniz.

— Siz heç nə bilmirsiniz, — Oleq ah çəkdi. — O, çox çətin adam idi.

— Onun düşmənləri var idi?

— Məncə, hə. Bəziləri onu çox sərt tənqid edirdilər. O, hökumətə birinci dəfə düşəndə də, ikinci müddətə razılaşanda da. Zarafatla deyirdi ki, hökumətdə "ikinci müddət"ə razılaşmaqla residivist olub. Amma onda hökumətdən kifayət qədər tez getdi. Elə defoltdan bir az qabaq. İstefa ərizəsini özü vermişdi. Onda bütün qəzetlər bu haqda yazıb onu tənqid edirdilər. Bir neçə aydan sonra məlum oldu ki, o, haqlı imiş.

— Onu çətin ki, bundan ötrü öldürsünlər. Bəlkə intihar edib? Necə bilirsiniz, o özünü öldürə bilərdi?

— Yox, — Oleq cavab verdi, — əsla. Dünən axşam onun la danışanda mütləq hiss edərdim. Yox, yox. Bu, qətl dir... Bəs siz belə hesab etmirsiniz?

— Hələ bilmirəm, — Dronqo etiraf etdi. — O,

boyca sizdən hündür idi?

— Hə. İrigövdəli kişi idi.

— Bu halda qatil atanıza bu qədər yaxınlaşmaqla böyük risk edib. Və ya qatil sizin tanışlarınızdan kimsə ola bilərdi?

— Bizim tanışlarımız arasında belə adamlar yoxdur, — Oleq qızararaq və eynəyini əsəblə düzəldərək dedi.

— Onun tapançası var idi?

— Siz də düşünürsünüz ki, o özünü güllələyə bilər? — Oleq qaşlarını çatdı. — Hamı tapança axtarır, sanki silah özü atəş açır. O tapançadan atəş açan qatili axtarmaq lazımdır. Atamın heç vaxt belə silahı olmayıb. Bizim evdə iki tüfəngimiz var. Amma bildiyimə görə, atam artıq üç ildir ki, onlardan istifadə etmir. Hərçənd, əvvəllər tez-tez ova gedərdi. Tapançası isə heç vaxt olmayıb. Bu tamamilə dəqiqdir.

— Analığınızla münasibətləriniz pis olub? Soruşduğum üçün bağışlayın, amma mən sizin ailədaxili mühitinizi başa düşməliyəm.

— Heç də rahat olmayıb, — Oleq etiraf etdi. — Biz onu qə-bul etmirdik. Ona görə mən və bacım Jukovkaya o qə dər də tez-tez gəlmirdik. Düzü, Veronika Andreyevna da bura gəlməyi çox sevmirdi. Nədənsə, dövlətin verdiyi bağ evində yaşamaq ona həqarətli görünürdü. O hesab edirdi ki, atamın öz bağ evi olmalıdır. Atam Jukovkaya köçəndə öz bağ evini mənə vermişdi. Hələ birinci dəfə nazir müavini olan vaxtı. Bağını akademik olduğu üçün əlindən almamışdılar. Sonra buranın daha rahat olduğunu gördü. Hər bazar ertəsi bura yemək bişirməyə və təmizlik işləri üçün qulluqçu gəlirdi.

— Dəqiq hər bazar ertəsi gəlirdi? — Dronqo narahat oldu.

— Bildiyimə görə, yox. Onlar qadının nə vaxt gəlməsini razılaşdırırdılar. Bu haqda artıq prokurorluq əməkdaşları da soruşublar. Dünən o burda olmayıb. Adətən, o, atamın xidməti maşınında gəlirdi. Səhər gəlib bütün günü qalırdı. Yemək bişirirdi, yuyurdu, yığışdırırdı, təmizləyirdi, axşam isə şəhərə qayıdırdı. Başqa günlər o bizim evdə işləyirdi. Daha doğrusu, atamın evində.

— Onun şəhərdəki evi böyükdür?

— Hə, əlbəttə. Biz Kutuzov prospektində yaşayırdıq. Ümumi sahəsi 180 kvadrat metrdən çox,

beş otaqlı evdir. Biz bu evdə böyümüşük. Atam 43 yaşında akademik olub. Evi isə o, müxbir üzv olanda veriblər. O vaxt Keldış özü onun üçün canfəşanlıq edirdi və bizə belə bir dəbdəbəli ev verdilər.

— Onlar orda ikilikdə yaşayırdı?

— Veronika Andreyevna ilə, — Oleq təsdiqlədi, — amma qadın onun evinə dərhal köçmədi. Daha doğrusu, belə olmadı. Atam onu dərhal evə buraxmadı. Onlar bir neçə il başqa yerlərdə görüşmüşdülər, hərdən bura gəlirdilər. O vaxtlar onun Jukovkada bağının olmağının əleyhinə deyildi, — kiçik Qluşkov acı-acı qeyd etdi. — O, indi başqa şeylər istəyir. Amma o vaxtlar o bizim evi görməyi arzulayırdı.

— Onun öz uşaqları var?

— Əlbəttə. İkinci ərindən bir qızı var. İndi 22 yaşındadır. Ərə gedib, Amerikada yaşayır. Məncə, Detroytdadır. Bir sözlə, anası kimi işgüzar qızdır. Hərdən mən çox qətiyyətli oluram, amma siz mənim nə vəziyyətdə olduğumu başa düşürsünüz.

Dronqo susdu. O, kiçik Qluşkovla razılaşmadı. Amma etiraz da etmədi. Maşın şəhərə girirdi.

— Sizi hara aparım? — Oleq soruşdu.

Dronqo ünvanı dedi. Oleq başını tərpədib sürəti artırdı:

— Yəqin arvadınız artıq narahat olur.

— Yanınızda mobil telefon yoxdur ki? — Dronqo ona tərəf döndü.

— Batareyam sönüb, doldurmağa macal tapmamışam, — Oleq izah etdi, — ona görə arvadım şəhər telefonuna zəng eləmişdi. Adətən, o Veronika Andreyevna ilə danışmamaq üçün mobil telefona zəng edir. Onlar qarşılıqlı olaraq bir-birini sevmir.

— Dünən axşam atanız sizə zəng etmişdi, yoxsa siz ona?

— Doğrudanmı bu elə vacibdir? Deyəsən, mən zəng etmişdim. Yoxsa o? Dəqiq yadımda deyil...

— Yenə də, kim zəng etmişdi?

— Mən, — Oleq etiraf etdi.

— Siz onun sikkə kolleksiyasını görmüsünüz?

— Əlbəttə, görmüşəm. Onun kolleksiyası haqda hələ televizorda xüsusi reportaj da veriblər. Deyirdilər ki, onun bəzi sikkələri unikaldır və dünyada analoqu yoxdur. O bu kolleksiyanı bütün ömrü boyu yığıb.

— Deməli, onun kolleksiyası haqda çox adam

bilib.

— Hamı bilirdi. O, heç gizlətmirdi, onları tez-tez qonaqlarına, dostlarına fəxrlə göstərirdi.

— O, hansısa numizmat-klubun üzvü idi?

— Məncə, hə. O, hərdən kolleksiyaçılarla görüşürdü. Yeri gəlmişkən, onlardan biri qonşuluqda yaşayırdı. Bi zim qonşumuz Vsevolov Vitalyeviç Romanovskiy.

— Romanovski? — Dronqo bir qədər özünü itirmiş halda soruşdu. — xarici işlər nazirinin müavini?

— Hə, — Oleq dedi. — O, tez-tez atamın yanına gəlirdi və onlar birlikdə yeni əldə etdikləri nüsxələri müzakirə edirdilər.

— Atanızın bağının yanında daha üç bağ var, — Dronqo düşüncəli tərzdə dedi. — Siz orda yaşayan qonşuları tanıyırsınız?

— Orda çox məşhur adamlar yaşayır, — Oleq təəccüb ləndi. — Onlardan biri — Abram Moiseyeviç Perelman Elmlər Akademiyasının vitse-prezidentidir. Biz birbirimizi çoxdan tanıyırıq. Onun kiçik qızı Alla ilə bir sinifdə oxuyub. Onun təqribən 70 yaşı var. Gömrük Xidməti rəhbəri — Mixail Nikolayeviç Lopatini isə teztez televizorda göstərirlər. O, az qala teleulduza çevrilib. Onsuz heç bir prezentasiya keçmir. Siz yəqin onu görmüsünüz.

— Ola bilər, — Dronqo dedi. — Romanovskinin ailəsi böyükdür?

— Yox. Böyük oğlu diplomatdır, Avstriyada işləyir. İkinci oğlu, məncə, Leninqradda yaşayır. Vsevolod Vitalyeviç özü bağında arvadı ilə yaşayır. Onlar atamla tez-tez görüşürdülər. Amma indi arvadı xəstə olduğu üçün tək qalır.

— Perelman?

— Onun üç uşağı var: iki oğlu, bir qızı. Böyük oğlu fizika üzrə elmlər doktoru, professordur. İkinci musiqiçidir, Konservatoriyada dərs deyir. O da professordur. Qızı isə filoloqdur. Deyəsən, alman ədəbiyyatı üzrə işləyir. Onların anası ukraynalıdır. Atam həmişə Abram Mioseyeviçin ailəsini bizə nümunə göstərərdi. Onların böyük, mehriban ailəsi var. Oğlanların hər ikisinin iki uşağı var. Alinanın da bir oğlu var. O, qardaşları 13 və 15 yaşında olarkən dünyaya gəlib.

— Ərdədir?

— Yox, boşanıb, — Oleq gülümsədi. — Ola bilsin,

bu, Perelman ailəsinin yeganə uğursuzluğudur. Hərçənd, əri onunla birlikdə oxumuşdu. Onlar bir sinifdə oxuyub, bir parta arxasında oturublar. Ona görə bacım onların hər ikisini tanıyırdı.

— Bəs, yeni baş gömrükçü?

— O biz tərəfə təzəlikcə köçüb. Onun gənc, çox effektli arvadı var. Görünür, o bizim evdə peyda olanda analığımın əsəblərinə toxunur. Ümumiyyətlə, Veronika ilə yola getmək çox çətindir. Atamın onu seçməsi məni həmişə təəccübləndirib. Onun ətrafında həmişə gözəl və ağıllı qadınlar olub. Hərçənd, etiraf edirəm ki, son illər mən bağa gec-gec gəlirdim.

— Sizin uşaqlarınız var?

— Var. İki əkiz oğlan, — Oleq qürurla dedi. — Bunun atamın ölümünə nə dəxli var?

— Mən tam informasiya yığmalıyam, — Dronqo izah etdi. — Bəs bacınızın uşaqları var?

— Yox. Amma səbəbini soruşmayın. Deyəsən, Alla özü uşaq istəmir. Gələndə özündən soruşarsınız.

— Bacınızla münasibətiniz yaxşıdır?

— Normaldır, — Oleq gülümsədi, — ən azından birbirimizə dözürük. Deyəsən, sizin evə çatdıq. Başqa sualınız var?

— Sonuncu. Necə düşünürsünüz, atanız zəngin adam idi?

— İndiki zəmanə üçün o qədər yox. Onun hər şeyi var idi: evi, bağı, hökumətin verdiyi bağ, iki maşını, hətta bu kolleksiyası. Amma ona çox zəngin adam demək olmaz. Özünüz indiki zəmanəni bilirsiniz. Bizim bəzi qonşuların hesabında milyonlarla dollar var. Qəsəbənin digər ucunda neft şirkətinin vitse-prezidenti yaşayır. Onun rəsmi maaşı yüz əlli min dollardır. Keçən ilə kimi ABŞ prezidentinin maaşı 200 min dollar idi. Bu da sizə fərq.

— Belə başa düşdüm ki, atanızın sizə kömək etməyini istəmişdiniz. Əgər onun pulu yox idisə, onu hardan tapmalı idi?

— Mən demədim ki, o kasıb adam idi, — Oleq etiraz etdi. — Siz "zənginlik" haqda soruşdunuz. Mənim anlayışıma görə, "zəngin" insanlar milyonlarla dollar pulu olan oliqarxlardır. Atamın isə bütün əmlakı yığılıb hesablansa, bir neçə milyon dollar edər. Amma nağd pulu o qədər də çox deyil. 600 və ya 700 yüz min. Məncə, onun bizim və

Avstriya banklarında hesabları var idi. Amma dəqiq bilmirəm. Və bir də sikkə kolleksiyası.

— Hər adamın var-dövlət haqda öz təsəvvürü var. Eləcə də xoşbəxtlik haqda, — Dronqo şərh verdi.

— Nə? — Oleq başa düşmədi.

— Heç nə. Çox sağ olun. Mənə çox kömək etdiniz. Bir daha başınız sağ olsun.

Dronqo maşından düşüb ətrafa boylandı. Və dərhal qanı qaraldı. Qəsəbədən çıxarkən onların arxasınca yola düşən maşını tanıdı. Həmin tünd rəngli "Nissan". Onun təsadüfə inanmağa ixtiyarı yox idi – bunun üçün həddən artıq avam adam olmalısan. O isə heç vaxt belə olmayıb. Dronqo yanından uzaqlaşan "Pejo"ya baxdı. Gecənin qaranlığında Oleq Qluşkov onları izləyən maşını sezməyə bilərdi. Maşında özlərini gizlətməyə çalışmayan iki nəfər oturmuşdu. Hər iki naməlum adam diqqətlə Dronqoya baxırdı.

O gülümsədi, onlara əl yelləyib evə tərəf yönəldi. Əgər adi agentlər tapıb onun izinə salmaq və ya Mühafizə İdarəsinin yararsızlığını sübut etmək üçün məşhur adamı güllələmək mümkündürsə, onda onun bütün analitik axtarışları nəyə lazımdır? Mühafizə xidmətinin bütün fəaliyyəti üzərində tam nəzarət əldə etmək üçün FTX-də belə bir cinayətə əl ata bilərdilər. Nəzərə alınsa ki, yeni prezident mərhumu tanıyırdı və özü də DTK orqanlarından çıxmışdı. Bir atəş və bütün problemlər həll olunur. DTK-nın nə vaxtsa vəzifəli insanların mühafizəsi ilə məşğul olan məşhur doqquzuncu idarəsini bərpa edib mühafizə xidmətini qaytarmaq olar. Yalnız bir atəş...

Dronqo binaya girib öz mərtəbəsinə qalxdı. Qapını açıb işığı təzəcə yandırmışdı ki, telefon zəng çaldı. O, saata baxdı. Gecə yarısına az qalmışdı. Maraqlıdır, görəsən, kimin yuxusu qaçıb? Avtocavablayıcının qoşulmağını gözləmədən özü dəstəyi götürdü.

— Eşidirəm, — Dronqo dedi.

# IV HİSSƏ

— Axşamınız xeyir, — tanış səs dedi.

Dronqo qaşlarını çatdı. Səs çox tanış idi. Nəzərə alınsa ki, bu gün səhər general Potapov onun qonağı olub və içində müşahidəçilər olan maşın onları Jukovkadan bura qədər izləyib, deməli, gecə vaxtı və ınəhz bu gün kimin zəng etdiyini bu dairədən axtarmaq lazım idi.

— Salam, — Dronqo hafizəsində tanış səsləri və adları araşdıraraq cavab verdi.

— Mənə elə gəldi ki, sizə özüm zəng etsəm, daha yaxşı olar, cənab Dronqo, — naınəlum adam situasiyadan həzz alaraq dedi.

Və bu an Dronqo onu xatırladı. Bir neçə il əvvəl Sibirdə, Çoqunaş qəsəbəsində onlar birlikdə işləyiblər. İkilikdə. O bu özündənrazı səsi və bu gizli sadizm notlarını xatırladı, zəng edəni tanıdı.

— Nikolay Aleksandroviç, düşünmürdüm ki, ınənə özünüz zəng etməyə qərar verəsiniz, — Dronqo dedi.

— Siz məni tanıdınız? — zəng edən heyrətləndi. — Yaxşı yaddaşınız var, Dronqo. Məni belə tezliklə xatırlayacağınızı bilməzdim.

— Hardan gəldiyim və Jukovkadakı bağda kimin öldürüldüyü bilinsə, sizin daha əvvəl niyə zəng etmədiyinizi yalnız ehtimal etmək qalır, general Zemskov.

Nikolay Aleksandroviç Zemskov əsrin sonundakı kadr təmizləmələrindən salamat qurtaran azsaylı FTX generallarından biri idi. O, ömrü boyu əks-kəşfiyyatda işləmişdi və özünün "kritik" yaşına baxmayaraq, təqaüdə çıxana kimi FTX-də işləmək niyyətində idi. Onun çətin xasiyyəti vardı. Amma təcrübə və peşəkar ustalığı analitik qabiliyyət və bəsirət çatışmazlığını kompensasiya etməyə imkan verirdi.

— Siz hər şeyi doğru başa düşmüsünüz, — Zemskov deyindi. — Bu, adi qətl deyil, cənab Dronqo. Akademik çox tanınmış adam idi. Ola bilsin ki, bu terrorçuların işidir və siyasi aksiyadır. Və ya şəraiti qeyri-sabit hala gətirməyə çalışan naməlum qüvvələrdir. Hərçənd, bunun qarət olduğunu da ehtimal edirik. Çünki bağdan unikal sikkə kolleksiyası itib. Hər nədirsə, biz öz

təhqiqatımızı aparmaq fikrindəyik. Düşünürəm ki, siz belə bir nöqsana yol vermiş Mühafizə Xidmətinin özünə bəraət qazandırmaqdan ötrü hər şey edəcəyini başa düşürsünüz. Amma qətl baş verib, naməlum qarətçi isə gözə görünmədən aradan çıxıb. Sizin öz təhqiqatınızı aparmağınız o qədər də vacib deyil. Bu, heç nə verməyəcək.

— Sizin sözlərinizi məsləhət kimi qəbul etməliyəm, yoxsa əmr kimi? — Dronqo qalstukunun düyününü boşaldaraq soruşdu.

— Sizə necə xoşdur, eləcə, — Zemskov cavab verdi. — Mənə Leonid Aleksandroviçin hara getdiyi məruzə olunan kimi dərhal onun köhnə dostluq xatirinə sizə baş çəkdiyini anladım.

— Siz də "köhnə dostluq" xatirinə mənə zəng etməyə qərar vermisiniz? — Dronqo maraqlandı. — Məni qəsə bədən evə kimi müşayiət edənlər sizin adamlarınız idi?

— Siz ki, ağıllı adamsınız! — Zemskov gülümsündü. — Elə bilirdiniz ki, Potapovun mühafizəsidir?

— Başa düşmürəm, niyə belə həyəcanlanırsınız? Əgər sikkə kolleksiyasını oğurlayıblarsa, bu, Mühafizə Xid mətinin əsaslı qüsurudur. Yoxsa siz doğrudan da onların idarəsinin tam nəzarətiniz altına keçməsini istəyirsiniz?

— Bu sarsaq hekayəti sizə Potapov danışıb? — Zemskov soruşdu. — Deyəsən, o, Mühafizə Xidmətinə keçməzdən əvvəl bizdə işlədiyini unudub. Və bir də unudub ki, satqınları heç harda sevmirlər. O cümlədən Mühafizə Xidmətində də.

— Siz öz idarələrinizi bir-biri ilə mübarizə aparan təşkilatlar sayırsınız? — Dronqo soruşdu. — Artıq hərbi terminlər işlədirsiniz? Sizdə satqınları güllələyirlər? Yoxsa siz onları hərbi dövrün qanunlarına əsasən asırsınız?

Dronqo ilə danışmaq çox çətin idi. Məntiqdən başqa, onun istehzası da güclü idi. İstənilən söhbətdə hətta ən ciddi həmsöhbəti belə ələ sala bilərdi.

— Necə bilirsiniz, elə də edin, — Zemskovun söhbətə bütün marağı itdi. — Elə hesab edin ki, mən sizi xəbərdar etdim. Qətlin təhqiqatını prokurorluq aparır. Biz öz təhqiqatımızı aparacağıq. Və məncə, sizin köməyinizə ehtiyacımız yoxdur.

— Siz mənə mane olmağa çalışırsınız? — Dronqo sonuncu sualı ilə generalı divara dirədi.

— Sağ olun, — general dəstəyi atdı. Deyəsən, o lap özündən çıxmışdı.

Dronqo dəstəyi qoyub gülümsədi və əynini dəyişməyə getdi. Bir neçə dəqiqə sonra o, qaynar duşun altında olarkən telefon yenə zəng çaldı. O, diqqət kəsildi. Avto cavab-layıcı qoşuldu. Amma hamamdan kimin zəng etdi-yi eşidilmirdi. Dronqo suyu kəsib Potapovun səsini eşitdi:

— Dəstəyi götürün, mən bilirəm ki, evdəsiniz.

Qonşu otağa ayaqyalın getməli oldu. Yataq otağına girib dəstəyi götürdü və Potapovla salamlaşdı.

— Siz artıq Oleqlə danışmısınız? — Potapov maraqlandı.

— Təkcə onunla yox, — Dronqo cavab verdi.

— Nə mənada? — Potapov ehtiyatlandı.

— Sizin keçmiş kolleqanız zəng etmişdi. Nikolay Aleksandroviç, — Dronqo izah etdi. — O bizə təhqiqatı dayandırmağı məsləhət gördü...

Qısa fit səsləri eşidildi. Dronqo gülümsədi. Mobil telefonu çıxarıb Potapovun nömrəsini yığdı.

— Düşmənlər bizə danışmağa imkan vermir, — Dronqo is-teh-za ilə dedi. — Məncə, mənim telefonum dinlənilir. Zem-skov — mənə təhqiqatdan imtina etməyi məsləhət gördü.

— İt oğlu! — Potapov qızışdı. — Onlar həmişə belə edirlər. Nə özləri işləyir, nə də başqalarına işləməyə imkan verirlər. Hər şeyi bizim idarənin üstünə atmaq istəyirlər. Onlara görə günahkar həmişə başqalarıdır. Milis, hərbçilər, Mühafizə Xidməti — kim olur olsun, bircə onlar yox...

— Deyəsən, yaxın vaxtlara kimi siz digər tərəfdə idiniz, — Dronqo xatırlatdı.

— Mən onda da belə düşünürdüm, — Potapov deyindi, — indi daha çox... Biz Qluşkovun bağında nə baş verdiyini bilmirik, amma istənilən halda, mühafizəçilərimiz heç kimi buraxınayıblar. Buna biz cavabdehik. Amma əgər hansısa anormal hasarı aşıb qəsəbəyə girə bilibsə, bu bizim əınəkdaşların səhlənkarlığı yox, sadəcə, bədbəxt hadisədir. Siz eşitməmiş olmazsınız, hətta Bukinhem sarayında da bir dəfə mühafizənin görmədiyi kənar adam peyda olmuşdu.

— Prezident qayıdandan sonra ona bu hekayəni danışacaqsınız? — Dronqo soruşdu.

— Yox, danışmayacağam. Ümid edirəm ki, bazar

ertə si günorta biz əsl qatilin adını biləcəyik. Əsl qatilin, Dronqo! Mən əminəm ki, siz onu tapa biləcəksiniz.

— Çalışaram, — Dronqo burnunun altında dedi. — Sabah səhər Qluşkovun müavinləri və katibəsi ilə danışmalı yam. Məncə, bu çətin deyil.

— Sabah şənbədir, — Potapov xatırlatdı, — onlarda iş günü deyil.

— Sabah səhər onlar hamısı institutda olacaq, — Dronqo etiraz etdi. — Bizim kanallarda bir neçə dəfə akademik Qluşkovun qəfil ölümü haqda məlumat veriblər. Sabah onlar mütləq instituta gələcəklər. Heç olmasa, öz direktorlarının dəfnini təşkil etmək üçün.

— Düzdür, — Potapov könülsüz razılaşdı. — Daha nə?

— Bir də Qluşkovun hər üç qonşusunun dosyesi: Romanovskinin, Lopatinin və Perelmanın. Səhərə qədər çatdırarsınız?

— Əlbəttə, yox. Axşama yaxın hər şeyi etməyə çalışarıq, — Potapov dedi. — Siz ki başa düşürsünüz, söhbət adi adamlardan getmir.

— Ən azından çalışın, — Dronqo məsləhət gördü, — və nəzərə alın ki, mən onların hər biri ilə danışmalıyam.

— Başa düşürsünüz ki, bu adamlar kimdir? — Potapov geri çəkilmədi. — Biri nazirdir, digəri nazir müavini, üçüncüsü dünya şöhrətli akademik. Əgər onlardan biri şikayət etsə, məni qovarlar. Siz bunu təsəvvür edirsiniz?

— Bəs siz ehtimal edirsiniz ki, mənim təhqiqatım bu görüşlər olmadan da keçinə bilər? — Dronqonun səsində dilxorçuluq var idi. — Bəlkə sizə elə gəlir ki, mənim parapsixoloji qabiliyyətim var və insanların fikirlərini uzaq ınəsafədən oxuya bilirəm. Əgər elədirsə, onda gəlin təhqiqatımızı indi bitirək.

— Məni qorxutmaq lazım deyil, — Potapov qaşqabaqla məsləhət gördü. — Bilməzdim ki, Zemskov sizi belə tez tapar. Bu mənim səhvimdir. Sizi Qluşkovun oğlu ilə buraxınaq lazım deyildi. Onlar dərhal hər şeyi başa düşüblər.

— Bazar ertəsi birlikdə zülm çəkərik. Hələ ki, hər şeyi danışdığımız kimi təşkil etməyə çalışın. Sağ olun.

Potapov sağollaşıb telefonu söndürdü.

Dronqo vanna otağına qayıtdı. Onun ehtiyatda

iki günü vardı. Bir tərəfdən bu çox azdır. Digər tərəfdən çoxdur. Təhqiqat düzgün aparılsa, çox şey öyrənmək olar. Səhər akademik Arxipova zəng etmək lazımdır. O, Qluşkovun arvadına başsağlığı vermişdi. Deməli, onlar kifayət qədər yaxın olublar.

Hər bir qətl özündə hansısa sirr daşıyır. Amma qatilin adı və cinayətin başvermə üsulu bilinənə kimi. Əslində, istənilən təhqiqatda cinayətin əsasını təşkil edən üç sual qoymaq lazımdır ki, hər bir cinayət onun cavablarından ibarətdir.

İlk və ən vacib sual: qətl kimə sərfəlidir? Bu haqda hə lə qədim romalılar da yazırdı. Əgər birinci suala düzgün cavab verilsə, təhqiqat düzgün yolla gedəcək. İkinci sual: cinayəti kim törədə bilər? Birinci sualla ikincinin cavabı hər zaman üst-üstə düşməyə bilər. Bəzən, hansısa bir adamın ölümü çoxlarına sərfəli ola bilər, amma çox az adam cinayət törətməyə qadirdir. Və təcrübəli peşəkarın borcu – cinayət törədə biləcək adamların dairəsini mü-əy-yən etməkdir. Nəhayət, üçüncü sual: cinayət necə baş verib? Axı şübhəlilər arasında elə adamlar olar ki, onlar heç bir hal-da lazımi anda cinayət baş verən yerdə olmaya bilərlər. Qatili tapmaq üçün bu üç suala cavab vermək vacibdir. Bü-tün problem ondadır ki, bu üç suala məhz düzgün cavab verilməlidir. Yoxsa cinayəti açmaq mümkün olmayacaq.

Dronqo düşündü ki, o, dəfələrlə belə çətin tapşırıqla qarşılaşıb. Cinayətlər dəfələrlə onu günahkarları axtarmağa məcbur edib. Bəzən o özündə izaholunmaz bir şey hiss edirdi. Hansısa görünməyən daxili qüvvə onun özünə belə meydan oxumağa vadar edərək sübut edirdi ki, Şər cəzalana bilər və cəzalanmalıdır. O, heç vaxt özünü Xeyirin tərəfində vuruşan cəngavər kimi hiss etməmişdi. Bunun üçün o həddən artıq çətin, dünyəvi və günahkar insan idi. O, daha çox özünü Ədalətin tərəfində vuruşan insan kimi hiss edirdi. İnsanların həmişə arzuladığı iki anlayış – Ədalət və Azadlıq – onun təhqiqatında və öz həyatında birləşmişdi. Bu iki şüar onun tale və təhqiqatlarının lövhəsində təsvir olunmuşdu. Bütün ömrü boyu o azad insan olaraq qalmışdı. Bütün təhqiqatlarını Ədalət uğrunda mübarizəyə həsr etmişdi – onun ədalət haqda olan anlayışları ilə heç də həmişə üst-üstə düşməyən abstrakt Xeyir uğrunda yox, kömək etməyə çalışdığı

konkret insanlar uğrunda.

Səhər doqquzda durdu ki, üzünü qırxıb görüşə hazırlaşa bilsin. Onun yarısı adətən, yuxudan tez duran Edqar Veydemanis zəng etdi.

— Sənə nəsə lazımdır? — Edqar soruşdu. — Lyonya Krujkov zəng etmişdi, nə vaxt gələcəyini soruşdu.

— Məni on ikinin yarısı evin yanında gözləyin, — Dronqo xahiş etdi. — Köhnə tanışlarımdan biri ilə söhbət etmək istəyirəm.

Saat onda aşağı düşdü, amma arxasınca göndərilməli maşın yox idi. Bir neçə dəqiqə gözlədikdən sonra Potapovun mobil nömrəsini yığdı.

— Nə olub? — Dronqo soruşdu. — Niyə maşın gəlməyib?

— Mən bir saatdan sonra gələcəyəm, — Potapov qaşqabaqla dedi. — Bizim planlarımız dəyişib. Zemskov öz rəhbərliyinə məruzə edib ki, biz paralel təhqiqat aparmağa çalışırıq. Və indi məni öz rəisimin hüzuruna çağırıblar.

— Eybi yox, öz maşınımı çağıraram. Saat 12-də mənim evimin yanında görüşərik. Sizsə mənimçün iki gün almağa cəhd edin.

— Deyəsən, o sizi də bezdirib, — Potapov anladı.

— Mənə mane olunmağını sevmirəm, — Dronqo etiraf etdi.

Sürücüsünə zəng edib gəlməyi xahiş etdi. Bundan sonra daha bir nömrə yığdı. Saat on birə on beş dəqiqə işləmişdi.

— Eşidirəm, — katibə dedi.

— Sabahınız xeyir. Zəhmət olmasa, deyin, Sergey Alekseyeviç işdədir?

— İşdədir, amma məşğuldur.

— Zəhmət olmasa, ona çatdırın ki, Dronqo zəng edib.

— Nə? — qız təəccübləndi. — Həmin? Bu sizsiniz, Dronqo?

Bir dəfə Dronqo onların institutunda təhqiqat aparmış dı və o vaxtdan onun adı orda xüsusi hörmətlə çəkilirdi.

— Görünür, siz yenisiniz? — Dronqo gülümsədi.

— Mən xəstə olanı əvəz edirəm... Oy, siz doğrudan Dronqosunuz?

— Siz məni Sergey Alekseyeviçlə calaşdıra bilərsiniz?

— Əlbəttə, bir saniyə...

Dronqo düşündü ki, populyarlığın öz müsbət tərəf ləri var.

— Salam əziz dost! — akademik Arxipovun səsi eşidildi. — Siz çoxdandır ki, bizi yada salmırsınız.

— Mən sizinlə görüşməliyəm, — Dronqo dedi. — Söhbət etmək istəyirdim.

— Əlbəttə, — Arxipov dərhal razılaşdı, — elə indi gəlin.

— Mənə dedilər ki, məşğulsunuz. Bəlkə bir az gec gəlim?

— Yox. Mən sizin nə işlə məşğul olduğunuzu bilirəm, axı. Yəqin ki, mənim elmi araşdırmalarımdan yox, bizim kiçik problemlərdən daha vacib problemlər haqda danışacaqsınız. Gəlin, sizi gözləyirəm.

— Çox sağ olun, — Dronqo həyəcanla dedi.

Yarım saatdan sonra Dronqo Arxipovun institutunda idi. Çay gətirən gənc katibə ona möcüzə kimi baxırdı.

— Bir az da keçsə, o məndən avtoqraf istəyəcək, — qız çıxandan sonra Dronqo güldü.

— Bizim institutda Dronqo adına bir pərəstiş var, — akademik gülümsədi. — Sizin sensasiyalı təhqiqatınızdan sonra haqqınızda əfsanələr dolaşır. Sizi eyni zamanda həm Şerlok Holms, həm Erkül Puaro, həm də komissar Meqre hesab edirlər.

— Yaxşı ki, xanım Marpl hesab etmirlər, — Dronqo burnunun altında dedi.

— Mənimlə nə işiniz var idi? — Arxipov Dronqo ilə üzbəüz kresloda oturdu.

Katibə çay gətirdi. Akademik yüksək qan təzyiqinə görə çoxdan qəhvə içmirdi. Dronqo isə haqlı olaraq qəhvənin ürək aritmiyası yaradacağını düşünərək daha çox çay içirdi.

— Dünən televizorda akademik Qluşkovun ölümü haqda məlumat verdilər, — Dronqo başladı.

— Hə, — Sergey Alekseyeviç qaşqabaqla dedi. — Hər şey belə axmaqca alındı. Biz bazar ertəsi Akademiyada iclasda görüşmüşdük. Belə bir yersiz ölüm. Deyirlər, infarktdır. Amma bizim bildiyimizə görə, o cavan adam idi. Onun heç 60 yaşı yox idi. Akademik üçün bu yaş deyil.

— Onun araşdırmaları hansısa bir ölkənin maraqlarını təmsil edə bilərdi?

— Onun elmi axtarışları dünya elminin maraqlarını təmsil edirdi, — Arxipov ah çəkdi. — O

bizim aparıcı iqtisadçımız idi. Dərin təfəkkür idi. Bəs siz niyə başqa ölkələr haqda soruşursunuz?

— İnsan qəfil öləndə müəyyən bir narahatlıq yaradır. Ona görə mən hər şeyi yoxlamaq istəyirəm. Onun son zamanlar heç bir problemi yox idi ki?

— Bilmirəm. Bizim maraq sahələrimiz toqquşmur. Amma düşünmürəm ki, onun ölümünə səbəb ola biləcək problemləri olsun. O, infarktdan ölməyib? — akademik birdən soruşdu.

— Hələ ki, başqa məlumat yoxdur, — Dronqo yalan dedi. — Siz onun ailəsini yaxından tanıyırdınız?

— Kifayət qədər. Əvvəllər bizim arvadlarımız rəfiqə idi. Daha doğrusu, mənim arvadım və onun arvadı dostluq edirdi. Siz yəqin bu haqda bilirsiniz. O, on il bundan əvvəl vəfat edib. Fyodor Qriqoryeviç arvadının ölümünü çox ağır qarşıladı. Yəqin bunda mənfur nəsə var. O, nə qədər adamı onkoloji xəstəlikdən xilas etmişdi, özü isə beyin xərçəngindən vəfat etdi. Əməliyyat mümkün deyildi və o bunu yaxşı başa düşürdü. Böyük faciədir! Deyəsən, o hətta intihar etməyi də düşünmüşdü. Amma sonradan yaxınlarının həyatını daha da çətinləşdirməmək üçün sonuna qədər getməyə qərar verdi. Özü də həmin vaxt Quşkov baş nazir müavini idi və onun ölümü lazımsız söz-söhbət yarada bilərdi. Çox yaxşı qadın idi. Allah rəhmət eləsin! Yaxşı mütəxəssis idi. Ondan sonra kişi bir-iki il key kimi gəzdi.

— Daha sonra Veronika Andreyevna ilə qarşılaşdı.

— Onu anlamaq olar. Arvadı öləndə onun 48 yaşı vardı. Bu yaşda kişiyə qadınsız çətin olur. Həm də o tərkidünya deyildi axı. Veronika isə inadkar qadındı. Onlar bir müddət görüşdülər. Amma düşünmürdüm ki, onların münasibətləri bu qədər ciddiləşə bilər. Görünür, Qluşkov başqa cür düşünürmüş. Doxsan beşinci ildə yenə söhbət gəzdi ki, onu hökumətə qaytarmaq lazımdır. Subay qalmaq və yeniyetmə oğlanlar kimi görüşə getmək ona yaraşmazdı. Toy olmadı. Nikahdan dərhal sonra o, Almaniyaya simpoziuma getdi. Qayıdandan sonra prezident onu qəbul edib dərhal iqtisadiyyat naziri vəzifəsini təklif etdi. O vaxt Qluşkov imtina etmişdi. Doxsan yeddinci ildə isə baş nazirin müavini vəzifəsinə razılaşdı. O vaxt belə hesab edirdi ki, Çernomırdin hökuməti ölkəni süquta aparır. O, iqtisadiyyatın hansı spekulyasiyalar üzərində qurulduğunu və hökumət

kağızlarına görə hansı faizlərin alındığını görürdü. Fyodor Qriqoryeviç o vaxt sübut etdi ki, ucuzlaşdırılmış rubl və qurulmuş koridor heç hara aparmayan məhvedici yoldur. Heç kim ona qulaq asmadı. Doxsan yeddinci ildə pulu havadan düzəldirdilər. Doxsan səkkizinci ilin martında o öz arzusu ilə istefa verdi. Bir ay sonra bütün hökuməti istefaya göndərdilər. Daha bir neçə ay sonra isə defolt elan olundu. Belə məlum oldu ki, akademik Qluşkov iqtisadiyyatımızın yeni şəkil aldığını deyən bir çox iqtisadçılardan daha uzaqgörən imiş. Elə onda hər şey süquta uğradı.

— O öz institutuna qayıtdı?

— O, ordan heç getməmişdi. Hətta baş nazir müavini olan vaxtlarda belə, direktor olaraq qalmışdı.

— Düşünürsünüz ki, ikinci arvadı ticari səbəblərə görə ona ərə gedib?

— Nə danışırsınız, — Arxipov əlini yellədi, — əlbəttə, yox. Belə şeyi demək olar? Əlbəttə, istənilən qadına varlı adama, akademikə, baş nazir müavininə ərə getmək xoşdur. Amma demək olmaz ki, bu, əsas səbəbdir. O vaxta kimi o artıq iki dəfə ərdə olub və deyəsən, heç nəyə ehtiyacı olmayıb. Veronika onu özünəməxsus şəkildə sevirdi. Əri də ona bağlanmışdı. Qadın onun xarici görkəminə yaman diqqət ayırırdı. O, dəbli qalstuklar taxır, sürtüyü xatırladan kostyumlar geyinirdi. Bir dəfə mən onda sırf arvadının təsirilə geydiyi bir şərf görmüşdüm. Təbii ki, o, cavan arvadının sayəsində dəyişmişdi.

— O qədər də cavan deyil, — Dronqo qeyd etdi, — onun ən azı 45 yaşı var.

— Utanmırsınız? — Arxipov gülümsədi. — Yaxşı ki mənim arvadım sizi eşitmir. Bəs sizin neçə yaşınız var?

— Qırx iki. Və mən çoxdandır ki, özümü gənc hiss etmirəm, — Dronqo etiraf etdi.

— Nahaq yerə. Yaşca mən sizin atanız yerindəyəm, amma özümü kifayət qədər cavan hiss edirəm. Və bununla qürur duyuram. Bilirsiniz, rəhmətlik dramaturq Volodin nə deyib? Yeri gəlmişkən, o mənim ən sevdiyim müəllifdir. “Xoşbəxt olmamaq ayıbdır”. Mənsə əlavə edərdim: “Cavan olmamaq ayıbdır”.

— Razıyam, — Dronqo gülümsədi. — Amma mənə

elə gəldi ki, Fyodor Qriqoryeviçin ikinci arvadının uşaqları ilə münasibətləri o qədər də yaxşı deyil.

— Ola bilər, — Arxipov bir qədər susub razılaşdı. — Siz problemi olmayan ailə tanıyırsınız? Xüsusən də belə incə məsələdə. Mən bu yaxınlarda, nəhayət, sevimli qadını ilə evləndikdən sonra imperator II Aleksandrın oğlu ilə olan qarşılıqlı münasibətləri haqda oxumuşam. Əlbəttə ki, arvadının ölümündən sonra. Onun oğlu və varisi o qədər qəzəblənmişdi ki, masada atasının rəsmi arvadı və dörd övladının anası knyaginya Dolqorukova olanda, nümayişkaranə surətdə nahara gəlmirdi. Bu da sizə tarixi nümunə. Əlbəttə, atasının özündən on beş yaş kiçik qadınla evlənməsi böyük uşaqların xoşuna gəlmir. Özü də qızı Allanın 35 yaşı var. Analığı ilə qızı arasında olan yaş fərqi, analığı ilə atası arasında olandan daha az idi. Düzünü desəm, — Arxipov azca Dronqoya tərəf əyildi və səsini alçaltdı, — Qluşkovun balaca bir zəifliyi var idi. O, cavan və gözəl qadınları sevirdi. Həm birinci, həm də ikinci evliliyi zamanı. Onun institutunda həmişə elə qadın əməkdaşları olurdu ki, digər direktorlar ona qibtə edirdi. Bu, onun qızı Allanın heç xoşuna gəlmirdi. Özü də oğlu Oleqin evliliyi o qədər də uğurlu olmamışdı. Onun arvadında həmişə əsəb krizisləri olur. Bu da təbii ki, Qluşkovun uşaqları ilə olan münasibətlərinə öz təsirini göstərirdi. Amma nəvələrini həddən artıq çox sevirdi.

— Siz onun Jukovkadakı bağında olmuşdunuz?

— Əvvəllər olmuşam, son illər yox. Mən başsağlığı vermək üçün Veronika Andreyevnaya zəng etmişdim. Dəfndə də mütləq iştirak edəcəyəm.

— Siz onun bağ qonşularını tanıyırsınız?

— Yox. İndi orda tamam başqa adamlar yaşayır.

— Bəs onun uşaqlarını yaxşı tanıyırsınız?

— Onlar mənim gözümün qabağında böyüyüblər. Alla həmişə müstəqil insan olub. Məqsədyönlü, ağıllı, nə istədiyini bilən. O, valideynlərinin ən yaxşı cizgilərini özündə cəmləşdirib: tələbkarlıq, inadkarlıq, enerji. İsveçə köçmək qərarını özü vermişdi. İndi əri ilə orda yaşayır. Deyəsən, hansısa firmanın maraqlarını təmsil edir.

— Onların uşağı yoxdur?

— Yox. Məncə, Allanın hansısa problemləri var idi, amma arvadım bunu daha yaxşı bilir. Oleq bir neçə il sonra doğulmuşdu. Mənə elə gəlir ki, Alla ondan həmişə üstün idi. Oleq həmişə ikinci olurdu.

Və bu rola da alışmışdı. Sonra onu çox tez evləndirdilər. Anası yaman xəstə idi. Ona görə oğlunun taleyini qurmaq qərarına gəlmişdi. Yəqin bu səhv idi. Onlar hər ikisi çox gənc idi...

— Oleq mənə demişdi ki, bizneslə məşğul olur.

— Çox uğursuz. Əvvəlcə o iqtisadçı olmaq istəyirdi. Hətta atasının institutunda namizədlik dissertasiyası da yazmağa macal tapmışdı. Atası onun sistematik uğursuzluqlarına rəğbət bəsləməsə də, kömək edirdi.

— Oğul Qluşkovun məhz hansı bizneslə məşğul olduğunu bilirdiniz?

— Yox. Dəqiq bilmirəm. Amma nədənsə onun bu fə-aliy-yəti atasının xoşuna gəlmirdi. Deyəsən, Alma ni-ya-dan hansısa ərzağı gətirirdilər. Daha dəqiq deyə bilməyəcəyəm, bağışlayın.

— Necə düşünürsünüz, Sergey Alekseyeviç, Qluşkov intihar edə bilərdi?

Arxipov fikrə getdi. Sonra başını buladı:

— Məncə, yox. O, güclü adam idi. Yox... Uduzmağı, təslim olmağı sevmirdi, həmişə sonuna qədər gedirdi. Niyə soruşursunuz? Bağda nə baş verib?

— Əgər söhbətimiz haqda heç kimə heç nə deməməyə söz versəniz, hər şeyi danışaram.

— Sözsüz. Mən hamısını başa düşürəm — sizin nə işlə məşğul olduğunuzu və bütün söhbətlərin məxfi qalmasının vacibliyini. Beləliklə, orda nə baş verib?

— Onu ölü vəziyyətdə tapıblar.

— İnfarkt?

— Yox. Onu güllələyiblər. Tapança yoxa çıxıb. Onun unikal sikkə kolleksiyası da itib.

— Belə, — Arxipov qaşlarını çatdı, — deməli, belə... — Eynəyini çıxarıb dəsmalla sildi, sonra yenə taxdı. — Onun ailə üzvləri ilə danışın, — qaşqabaqla məsləhət gördü, — qonşularla da danışın. O özünü güllələyə bilməzdi. Bu qətldir. Ən adi bir qətl. Niyə Veronika Andreyevna mənə heç nə deməyib?

— FTX əməkdaşları qətl haqda danışmamağı məsləhət görüblər, — Dronqo izah etdi. — Dəfn bazar ertəsinə təyin olunub. Qluşkovu şəxsən tanıyan prezident də gələcək. Ona görə də o vaxta kimi akademikin ölümünün əsl səbəbini kiminsə bilməsi arzuolunmazdır.

— Başa düşürəm, — Arxipov məyusluqla

dedi. – Heç təsəvvür belə etmirəm ki, Fyodor Qriqoryeviçi kimsə öldürə bilər. Vəhşicəsinə cinayətdir. Bəyənı qəsəbə qorunmurdu?

– Əlbəttə, qorunurdu. Buna baxmayaraq, cinayət baş verdi.

– O, tək olub?

– Hə. Ən azından ailə üzvlərindən heç biri evdə olmayıb. Heç kim də qonaq gəlməyib.

– Bəs qonşular? Orda axı ev çoxdur. Kimsə qonşuları yoxlayıb?

– Yoxlayırlar, – Dronqo ah çəkdi, – amma onun yaxın qonşularının arasında xarici işlər nazirinin müavini Romanovski və Gömrük Xidməti rəhbəri Lopatin də var. Üçüncü qonşusunu siz də tanıyırsınız. Bu, Elmlər Akademiyasının vitse-prezidenti Abram Moiseyeviç Perelmandır. Məncə, Perelmandan və ya qonşulardan kimdənsə şübhələnmək lazım deyil, hərçənd, istisnasız hamını yoxlayacaqlar.

– Əlbəttə ki, Perelman olmaz, – Arxipov canlandı, – bu tam istisnadır. Abram Moiseyeviç milçək də öldürə bilməz.

– Görürsünüz. Qızı xaricdə yaşayır. Oğlu evdə olmayıb. Arvadı Moskvada qalıb. Fyodor Qriqoryeviç isə öldürülüb. Kolleksiya da itib. Və heç bir iz yoxdur.

– Onu kim tapıb? Arvadı? Oğlu?

– Sürücü. Onlar mühafizəçi ilə şüşəni sındırıb evə giriblər. Öldürülmüş Qluşkovu da onda tapıblar.

– Nə pis hadisədir, – Arxipov burnunun altında dedi. – Qorxulu və yöndəmsiz! Doğrudanmı, onu bu kolleksiya üzündən öldürüblər? Ola bilməz.

Dronqo susdu. O, dostunun ölümünün həmsöhbətinə necə pis təsir etdiyini görürdü. Hətta onu istəmədən incitdiyinə görə peşman da oldu. Amma həqiqəti demə dən getməyə ixtiyarı yox idi. Yoxsa akademiklə məxfi söhbət yalana çevriləcəkdi. O isə hətta ali məqsədlər na minə olsa belə, Sergey Alekseyeviçi aldatmaq istəmirdi. Özü də həqiqəti gizlətmək mümkün deyildi: bazar ertəsi Arxipov onsuz da həqiqəti öyrənəcəkdi. Və başa düşəcəkdi ki, Dronqo onu aldadıb.

– Sonuncu sual, – Dronqo dedi. – Bağışlayın, bu sualı verməyə məcburam. Necə düşünürsünüz, oğlu və ya arvadı belə bir işə qol qoyar?

– Yox! – Arxipov əlini yellədi. – Nə danışırsınız! Dəli olmusunuz? Axı özünüz dediniz ki, onlar bağda

olmayıb.

— Mən şəxsən olmadıqlarını dedim. Bəlkə onlar bu iş üçün kimisə tutublar, kiməsə tapşırıblar. Axı Qluşkov zəngin insan idi...

— Bəsdir, — Arxipov ah çəkdi. — Mən bunu dinləmək belə istəmirəm. Oleq və ya Veronika belə bir işə... Yox, yox. Belə bir ehtimal üçün insanlıq düşməni olmalıyam. Yox, heç vaxt. Oleq ideal oğul, Veronika da ideal həyat yoldaşı olmaya bilər, amma belə bir işi... Heç vaxt.

— Çox sağ olun, Sergey Alekseyeviç.

Dronqo ayağa durub əlini Arxipova uzatdı.

— Gözləyin! — Akademik gözlənilmədən dedi. — Mən Romanovskini xatırladım. Deyəsən, o da məşhur numizmatdır. Bildiyimə görə, onlar tez-tez Fyodor Qriqorye viçlə görüşüb yeni nümunələri müzakirə edirdilər. Əl bət-tə, başa düşürəm, o qatil yox, xarici işlər nazirinin müavinidir. Amma bu kolleksiyaçılar bir az başdanxarab olurlar. Bunu dediyimə görə bağışlayın, amma mənə elə gəldi ki, bu məlumatı sizə deməliyəm.

Dronqo sağollaşıb kabinetdən çıxdı. Qəbul otağından çıxanda isə xəstə katibənin yerində oturan qızın rəğbətli baxışları onu müşayiət edirdi.

“Romanovski... – Dronqo düşündü. – Niyə də yox? Axı deyildiyi kimi, bütün kolleksiyaçılar bir az başdanxarab olurlar”.

# V HİSSƏ

Evə vaxtında çata bilmədi. On ikinin yarısından Edqar Veydemanis Leonid Krujkovun maşınında onu evinin yanında gözləyirdi. Son zamanlar paytaxt əhalisinin bəlasına çevrilən tıxaclar ona vaxtında çatmağa imkan vermədi. Evə çatanda saat bir idi. Potapovun maşını Krujkovun maşınının yanında dayanmışdı.

Dronqo maşından düşüb dostlarına əl yellədi ki, onu gözləsinlər. Özü isə generalın maşınına yaxınlaşdı.

— Salam, — Potapovla salamlaşıb, arxa oturacaqda onun yanında əyləşdi. — Nəsə olub?

— Hə, — Leonid Alekseyeviç ah çəkdi. — Mənə qulaq burması — verdilər. Avantürizmdə və xidməti nizam-intiza mı pozmaqda ittiham etdilər. Qərəz, xatırla-maq belə istə mirənı. Hərçənd, mən öz rəhbərimdən sizə təhqi-qatı davaın etdirmək üçün icazə aldım. Şəxsən özüm məsulam.

— Öz karyeranızı ortaya qoymusunuz, — Dronqo qaşları nı çatdı. — Bu adi oyun deyil, Leonid Aleksandroviç, burda — belə gedişlər çox təblükəlidir. Birdən sizə kömək edə bilməsəm?

— Onda məni istefaya göndərəcəklər, — Potapov ah çəkdi. — Siz əsas məsələni bilmirsiniz. Biz bütün videoyazılara baxmışıq. Yan kameraların birindən görünür ki, Qluşkovun bağına tərəf bir neçə nəfər keçib. Bu o demək deyil ki, onlar qatildir, amma onlar videonun yaddaşına düşüblər. Hərçənd, əlbəttə ki, biz onları sorğu-sual edə bilmərik. Ola bilər ki, onlar, sadəcə olaraq, axşam gəzintisinə çıxıblar.

— Kim? — Dronqo qısaca soruşdu.

— Qonşular, — Potapov yenə ah çəkdi. — Ola bilsin onlar, sadəcə, Qluşkovun evinin yanından keçirmiş və içəri girməyə də bilərlər...

— Məhz kim və hansı ardıcıllıqla, — Dronqo onun sözünü qabalıqla kəsdi.

— Əvvəlcə Lopatin, sonra Romanovskiy. Ən axırda da Perelmanın qızı keçir.

— Videoya onların nə vaxt qayıtdığı düşüb?

— Yox. Görünür, onlar evin o başına dövrə vurublar. Öz bağlarına getmək üçün belə daha rahatdır.

— Başqa heç kim olmayıb?

— Heç kim. Bu, hasarın yanındakı yaxın yolu müşahidə etmək üçün qurulan kameradır, ona görə görüntülər bir qədər pozulub. Amma hər üçünü tanımaq mümkündür. Nəzərə alın ki, onların orda peyda olmağı heç bir anlam vermir. Evə digər tərəfdən, heç kimə görünmədən də yaxınlaşmaq mümkündür.

— Siz videoyazını FTX-yə ötürmüsünüz? — Dronqo soruşdu.

Potapov gülümsədi.

— Özünüz dediniz ki, mən karyeramı ortalığa qoymuşam. Niyə Zemskova belə bir hədiyyə etməliyəm? Bu gün şənbədir, iş günü deyil. Biz videoyazını onlara bazar ertəsi verərik. Qanuna uyğun olaraq. Əvvəlcə prokurorluğa, müstəntiqə göndərəcəyik. Surətini isə FTX-yə. Əgər onlar belə qanunpərəstdirsə.

— İstəyirsiniz ki, mən bu iki gündən istifadə ediın, — Dronqo başa düşdü.

— Çox istəyirəm, — Potapov təsdiqlədi. — Bizim əli-miz də onlara məlum olmayan bir sübut olmalıdır. Hərçənd, əminəm ki, onların heç biri nə Qluşkovu öldürə, nə də onun kolleksiyasını oğurlaya bilərdi. Yox, tam əminəm: belə bir şey mümkün deyil...

— Onların əlində nəsə var? — Dronqo soruşdu. — Onların əlində hansısa əşya görünmür ki?

— Yox, əlbəttə. Hərçənd... hə. Romanovskinin əlində balaca bir çanta var, amma düşünmürəm ki, o, çantasında silah gizlədib. Ümumiyyətlə, bu mənasız ideyadır. Xarici işlər naziri müavinindən şübhələnmək... Cəfəngiyatdır! Yox, biz heç kimdən şübhələnmirik. Amma ola bilsin ki, onlardan kimsə Qluşkovun bağına keçməyə cəhd göstərən kənar adamı görüblər.

— Dediniz ki, müstəntiqlər qonşularla danışıb?

— Onların necə danışdığını özünüz başa düşürsünüz də! Gəlib, üzr istəyib soruşublar ki, onların evində atəş və ya qışqırıq səsi eşidilməyib ki? Təbii ki, heç kim heç nə eşitməyib. Müstəntiqlər də üzr istəyib gediblər. Bu ranqın adamlarını sorğu-sual etmək üçün ölkənin baş prokurorunun şəxsi razılığını almaq lazımdır. Ən azı...

— Mənə isə belə icazə lazım deyil, — Dronqo anladı. — Axı mən dövlət işçisi yox, xüsusi ekspertəm.

— Siz mənim planımı düzgün başa düşdünüz, — Pota pov dedi. — Yalnız onların hər biri

ilə söhbət etmək qalır.

— Əvvəlcə biz Qluşkovun işlədiyi instituta getməliyik, — Dronqo xatırlatdı. — İstəyirsinizsə, mənim maşınımda gedərik. Və ya sizin.

— Sürücünüzü buraxın, — general təklif etdi. — Mənimlə gedərik. Yeri gəlmişkən, öz köməkçilərinizi də buraxa bilərsiniz. Onları niyə çağırmısınız ki?

— Onları görmüsünüz, amma mənə heç nə demirsiniz, — Dronqo başını buladı. — Elə bilirdim, siz onlara fikir verməmisiniz.

— Axı mən FTX-də işləmişəm, — Potapov xatırlatdı. — Yeri gəlmişkən, general rütbəsini də bu idarədə almışam.

— İndi isə siz oranı o qədər də sevmirsiniz, — Dronqo qeyd etdi. — İstərdim ki, onlar mənə kömək etsinlər.

— Lazım deyil, — general xahiş etdi. — Bir var ki, siz təhqiqatı mənim köhnə tanışım və xüsusi ekspert kimi təklikdə aparırsınız. Bu işin təfərrüatına qoşmağa ixtiyarımızın olmadığı bir qrup adamın fəaliyyət göstərməsi isə tamam başqa işdir. Onda sizin təhqiqatınızın gedişindən asılı olmayaraq, mənim mütləq problemlərim olacaq.

— Aydındır, — Dronqo ah çəkdi. — Yaxşı, mən öz adamlarımı buraxaram. Məni burda gözləyin.

O, Krujkov və Veydemanisin oturduğu maşına yaxınlaşıb dedi:

— Bugünlük mənə lazım olmayacaqsınız. Bizim gene ralın bəzi problemləri var. Və o xahiş edir ki, bu gün köməkçilərim olmasın.

— Nə olub? — Edqar maraqlandı.

— Onların əlinə qonşuların Qluşkovun evinin yanından keçdiyini qeydə alan videoyazı keçib. Və bunu bazar ertəsinə qədər vermək istəmirlər. Mənim üçün vaxt qazanırlar. General şərt qoyub: əgər mən təklikdə işləsəm...

— Xüsusi ekspert kimi, — Veydemanis anladı.

— Elədir. Mənim zəngimi gözləyin. Bəlkə doğrudan da qalan iki gün ərzində nəsə öyrənə bildim.

— Uğurlar, — Edqar dedi.

Dronqo Potapovun maşınına qayıtdı.

— Getdik, — o dedi, — mən Qluşkovun işlədiyi institutun rəhbərliyi ilə görüşməliyəm. Onun neçə müavini var idi?

— İki. Savitski və Tumanyan. Hərçənd formal olaraq rəhbər Savitski sayılırdı. Tumanyan təsərrüfat fəaliyyətinə cavabdeh idi.

— Aydındır. Düşünürəm ki, onlar institutda olacaq. Amma orda sizin keçmiş kolleqalarınız da ola bilər...

— Doğrudur, — Potapov qaşqabaqla təsdiq etdi. — Hərdən mənə elə gəlir ki, siz şüurlu surətdə başınıza iş açırsınız. İnstituta getmək əvəzinə nə qədər ki onlar bizim videoyazı haqda xəbər tutmayıb, gəlin qayıdaq və həmin axşam Qluşkovun evinin yanında olanların hər biri ilə söhbət etməyə çalışaq. Siz orda nə öyrənəcəksiniz? Yeni iqtisadi nəzəriyyələr? Və ya onların öz pullarını necə xərclədiyini? Bu səfərdə məna görmürəm. Biz ancaq Zemskovu və əməkdaşlarını qıcıqlandıracağıq. Siz ki başa düşürsünüz, sizin gəlişiniz haqda ona dərhal məruzə edəcəklər.

— Şübhə etmirəm. Amma mənə elə gəlir ki, instituta getməyimi siz özünüz istəməlisiniz...

— Niyə? — Potapov qaşlarını çatdı.

— Əvvəla, bu, Zemskovun diqqətini bağdan uzaqlaşdırıb digər obyektə kökləyəcək. İkinci, bizim əlavə vaxtımız yaranacaq. Və nəhayət, ən vacibi: Qluşkov kimi tanınmış adamın ölümünü onun işlədiyi yerə bir dəfə də baş çəkmədən təhqiq etmək olmaz. Bu, mümkün deyil. Mən, heç olmasa, ölümündən əvvəlki gün onun əhva lının necə olmasını, onu hansı problemlərin narahat etdiyini, kiminlə danışdığını bilməliyəm.

— Prokurorluq əməkdaşları yəqin ki, artıq onun kabinetini möhürləyiblər, — Potapov xatırlatdı, — ona görə biz heç bir şəkildə ora girə bilməyəcəyik. Mən prokurorluğun möhürünü qıra bilmərəm, siz bunu gözəl bilirsiniz.

— Buna ehtiyac olmayacaq, — Dronqo həmsöhbətini sakitləşdirdi. — Mən ancaq onun müavinləri ilə danışmaq istəyirəm. Eyni zamanda, onun katibəsini də danışdıraram. Adətən katibələr öz rəisləri haqda onların arvadlarının bildiyindən daha çox şey bilir. Yoxsa siz belə hesab etmirsiniz?

— Necə istəyirsiniz, elə də edin, — general razılaşdı. — Nəticə etibarilə, mən situasiyanı sizə başa saldım. Əgər biz səhv etsək, məni təkcə qovmayacaqlar. Gizlətdiyim videoyazıya görə məni cəzalandırıb rütbəmi alçaldacaqlar. Və heç kim

arxamda durmayacaq. Belə şeyləri bağışlamırlar.

— Sizin hələ situasiyanı dəyişməyə vaxtınız var, — Dronqo qeyd etdi. — Gəlin maşını döndərib geri qayıdaq. Siz öz videoyazınızı Zemskova verirsiniz, məni isə evə qoyursunuz. Bununla da öz təhqiqatımızı bitiririk. Bu variant daha çox xoşunuza gəlir?

— Nə fərqi var? — Potapov çiyinlərini çəkdi. — Bu halda məni bazar ertəsi, dəfndən dərhal sonra qovacaqlar. Qatilin mühafizə olunan obyekt ərazisinə necə daxil olduğunu prezidentə izah etmək çətindir. Əsl qatili tapmasaq, belə də olacaq. Mənim çıxış yolum yoxdur, Dronqo. Siz mənim yeganə şansımsınız. Amma bu sizə ağlınıza gələni etməyə ixtiyar vermir.

— Mənim haqqımda necə də pis fikirdəsiniz, — Dronqo başını buladı. — Belə demək olar ki, mən sizin gələcək xilaskarınızam, sizsə mənim haqqımda belə pis şeylər danışırsınız.

— Zarafat etmək fikrim yoxdur, — general qeyd etdi. — Hərdən mənə elə gəlir ki, sizin təhqiqatlarınızda qeyrireal, mistik element var. Siz necə bir istedada malik olduğunuzu özünüz də anlamırsınız. Görünür, Tanrı istedadı o qədər də ciddi insanlara paylamır. Motsart, Puşkin, Dali... Davam edəsi olsam, siyahı çox uzun alınacaq...

— Gözəl siyahıdır, — Dronqo gülümsədi, — siz indi mənə Salyerini xatırladırsınız. "Sən, Mosart, heç özünə layiq deyilsən". Amma sizinlə razı deyiləm. Məni bu sıraya qatmaq olmaz. Adını çəkdiyiniz adamlar dahi idilər, ona görə həyata istehza ilə baxırdılar. Onlar başqa ölçülərlə yaşayır, Leonid Aleksandroviç. Onlara heç nəyi sübut etmək lazım deyil, qibtə və qisas hissi onlara yaddır, onlar karyera haqqında düşünmür. İnsanları iki tipə bölmək olar — dahilər və sadəcə, istedadlılar. İstedadlı adam heç kimin nail ola bilmədiyi məqsədə nail olur. Dahi isə özündən başqa heç kimin görə bilmədiyi məqsədə nail olur. Ona görə sakitləşin. Mən, sadəcə olaraq, sənətkaram. Həyatın, öz biliyini sağ qalmaq üçün tətbiq etməyə məcbur etdiyi analitik. Adi, xüsusi ekspert. Nə az, nə çox.

— Əgər siz bazar ertəsinə kimi Qluşkovun qətlini aça bilsəniz, hamıdan əvvəl mən özüm sizə dahi deyəcəm, — Potapov donquldandı.

— Niyə bu qədər əminsiniz ki, onu öldürüblər?

Bəlkə bu, intihardır?

— Bəs tapança hanı? Mən yalnız faktlara inanmaq ınəc-buriy-yətindəyəm. Onun özünü güllələdiyi tapançanı mənə göstərməyincə, inanmayacağam. Bundan əlavə, intihar — edənlər adətən ya başlarına, ya da ağızlarına atəş açırlar. Amma heç bir şəkildə ürəkdən vurmurlar, çünki səhv etmək mümkündür.

— Siz hələ onun vəsiyyətnaməsinə baxın, — Dronqo etiraz etdi. — Elə alimlər var ki, onlar öz başlarını beyin ləri ilə birlikdə elmi müəssisələrə vəsiyyət edirlər. Məsələn, dahi Eynşteyn belə edib. Bəlkə Qluşkov da öz beynini hansısa instituta vəsiyyət edib. Ona görə başını zədələməmək üçün ürəyinə atəş açıb.

— Siz ciddi deyirsiniz, yoxsa yenə zarafat edirsiniz?

— Əlbəttə, zarafat edirəm. Məndə mərhum haqda artıq müəyyən fikir formalaşıb. Və əmin deyiləm ki, belə bir güclü adam heç bir yazı qoymadan özünü güllələsin.

Potapov razılıqla başını tərpədib uzun müddət susdu. Maşın institut istiqamətində şütüyürdü. Şənbə səhəri olduğundan maşın həmişəkindən az idi. Ona görə onlar iyirmi dəqiqəyə instituta çatdılar. General maşından düşüb narazılıqla ətrafa boylandı. Sanki institutun ətrafında düzülən FTX əməkdaşlarını görməyə ümid edirdi. Am ma binanın qabağında heç kim yox idi. Meydançada dayanan ona yaxın maşının keşikçisi qəzet oxuyurdu. Gələnləri görüb başını qaldırdı və heç bir söz demədən yenə oxumağına davam etdi.

Potapov və Dronqo institutun binasına birlikdə girdi lər. Girişdə mühafizəçi dayanmışdı.

— Kimin yanına gəlmisiniz? — o maraqlandı.

— Savitski və ya Tumanyanın yanına, — Potapov dedi. — Biz Mühafizə Xidmətindənik. Bu da vəsiqəm.

Mühafizəçi diqqətlə vəsiqəni oxuyub başını tərpətdi:

— Keçə bilərsiniz. Bu gün buraxılış büromuz işləmir. Siz yəqin Fyodor Qriqoryeviçin ölümü ilə bağlı gəlmi siniz. Dünən prokurorluqdan xeyli adam gəlmişdi. DTKdan da.

— DTK artıq çoxdan yoxdur, — Potapov sərt şəkildə qeyd etdi.

— Nə fərqi var? — mühafizəçi etiraz etdi. — Qoy

olsun FTX. Adını nə qədər dəyişirsən dəyiş, onsuz da insanlar ona DTK deyəcək. DYP-çiləri də nahaq yerə dəyişdilər. Onsuz da onlar bizim üçün DYP-çi olaraq qalacaq. Savitski və Tumanyanı dördüncü mərtəbədə tapa bilərsiniz. Fyodor Qriqoryeviçin kabineti olan yerdə.

Dronqo təbəssümünü gizlədib Potapovun ardınca getdi.

— Bu elmi müəssisələrdə hətta qarovulçu və xadimələr də filosof olurlar, — Leonid Aleksandroviç qeyd etdi.

Onlar dördüncü mərtəbəyə qalxdılar. Dəhlizdə bir neçə kişi siqaret çəkərək sakitcə söhbət edirdi. Görünür, hamı institut rəhbərinin ölüm xəbəri ilə sarsılmışdı.

— Savitskinin kabineti hardadır? — Potapov ciddi tərzdə soruşdu. Kişilərdən kimsə dəhlizin sonunu göstərdi. Onlar qəbul otağına keçdilər. Burda direktorun iki müavininin — Savitski və Tumanyanın kabinetləri yerləşirdi. Katibə stolu arxasında altmış yaşlarında bir qadın əyləşmişdi.

— Salam, — Potapov kəsik-kəsik dedi, — biz Mühafizə Xidmətindənik. Cənab Savitski yerindədir? Bizim onunla vacib işimiz var.

— Başa düşürəm, — qadın ayağa durdu, — amma o yoxdur. Elmlər Akademiyasının Rəyasət Heyətindən çağırıblar. Onlar Fyodor Qriqoryeviçin dəfninə hazırlaşırlar. Siz yəqin bu məsələ ilə əlaqədar gəlmisiniz?!

— Ola bilər, — Potapov birbaşa cavabdan yayındı. — Bəs Tumanyan işdədir?

— Boris Arsenoviç işdədir. İndi şöbə müdiri onun yanındadır, amma siz keçə bilərsiniz. Mən sizin haqqınızda ona xəbər verərəm.

Yerinə oturub telefonlardan birini qaldırdı:

— Boris Arsenoviç, sizin yanınıza Mühafizə Xidmətinin əməkdaşları gəlib. Sizinlə danışmaq istəyirlər. Gələ bi lər-lər? Onlar qəbul otağındadır.

O, cavabı dinləyib dəstəyi qoydu və dedi:

— Keçə bilərsiniz.

Potapov birinci keçdi. Kiçik kabinetdə masa arxasında enlikürək bir kişi oturmuşdu. Keçəl başı bilyard şarını xatırladırdı. Qonaqları görüb ayağa durdu, ortayaşlı həmsöhbəti ilə sağollaşdı. O, eynəyini düzəldib üzr istəyərək kabinetdən çıxdı.

— Əyləşin, — Tumanyan stolun yanındakı əlavə

stulları göstərərək sakitcə dedi.

Dronqo kabinetdəki mebelə diqqət yetirdi. Elmi müəssisələrin çoxu çətinliklə dolandığı bir vaxtda bu kabinetdə və qəbul otağında alman istehsalı olan bahalı ofis mebeli vardı. Qluşkovun institutu açıq-aşkar korluq çəkmirdi. “Hərçənd, – Dronqo düşündü, – son on ildə peyda olub iqtisadiyyat və keçid dövrünün problemləri ilə məşğul olan institutlar, öz ərazilərini icarəyə verməyə, əməkdaşlarını işdən çıxarmağa məcbur olan və lazımi hökumət maliyyəsini illərlə almayan ənənəvi elmitədqiqat institutlarından daha yaxşı yaşayırlar”.

— Sizi eşidirəm, — Tumanyan ah çəkdi. — Yəqin Fyodor Qriqoryeviçin dəfni ilə əlaqədar gəlmisiniz. Biz artıq bu məsələ ilə məşğul oluruq.

— Yox, — Potapov Dronqoya nəzər salaraq cavab verdi. — Biz sizə bir neçə sual vermək istərdik.

— Buyurun, — Tumanyan başını tərpətdi. — Dünən bütün — günü prokurorluğun əməkdaşları bizi sorğu-sual ediblər. Sizin suallarınıza da cavab verməyə hazıram.

— Siz institutda çoxdan işləyirsiniz? — Dronqo soruşdu.

— Onun əsası qoyulan andan. Səksən səkkizinci ildən.

— Direktorunuz həmişə Qluşkov olub?

— Əlbəttə. Bizim institutu elə o yaradıb. Hətta Fyodor Qriqoryeviç baş nazir müavini olanda belə direktor kimi qalırdı. Öhdəliklərinin icraçısı isə Savitski idi. Yeri gəlmişkən, o, tezliklə gəlməlidir...

— Deməli, siz Fyodor Qriqoryeviçi yaxşı tanıyırdınız?

— Çox yaxşı tanıyırdım. Gözəl insan idi. Ağıllı, tədbirli, mətin, müdrik, yaraşıqlı. Qadınların yaman xoşuna gəlirdi. Belə bir insanı itirdik...

— Cümə axşamı işdə idiniz?

— Bütün günü. Hamıdan da gec getdim, axşam saat səkkizdə.

— Həmin gün akademik Qluşkovu axırıncı dəfə nə vaxt gördünüz?

— O, bağa gedəndə. Mən onun yanına sənədləri imzalatmağa getmişdim, o artıq çıxmağa hazırlaşırdı. Sənədləri imzalayıb dərhal getdi.

— Əhval-ruhiyyəsi necə idi?

— Adi. Düzü, çox yorğun idi. Son vaxtlar hiss edirdim ki, onun bəzi problemləri yaranıb, amma o,

heç vaxt heç nə demirdi. Mənsə elə tərbiyə almamışam ki, bu haqda soruşum. Xüsusən də Fyodor Qriqoryeviç kimi bir adamdan.

— Qeyri-adi heç nə sezmədiniz?

— Yox. Heç nə. Onun şəhər telefonuna zəng gəldi. Dəstəyi götürdü. Deyəsən, ailə üzvlərindən biri zəng etmişdi, dəqiq bilmirəm. Amma o, qısaca dedi: "Evdə görüşərik". — Və əşyalarını yığmağa başladı.

— Kimin zəng etdiyini dəqiqləşdirmədiniz?

— Əlbəttə, yox. Bizdə belə suallar vermək qəbul olunmayıb.

— O, pis əhvalda getdi?

— Bunu sezmədim.

— Bilmirsiniz, Qluşkovun tapançası ola bilərdi? Bəlkə hansısa bir nümayəndə heyəti hədiyyə edib və o, kabinetdə dururdu?

— Tapança? — Tumanyan başa düşmədi. — Onun heç vaxt tapançası olmayıb. Deyəsən, tüfəngi var idi. Amma tapança haqda heç nə bilmirəm.

— Son zamanlar institutun hansısa problemləri yox idi ki?

— Siz problem olmayan müəssisə tanıyırsınız? — Tumanyan təəccübləndi. — Əlbəttə, olub. Hər cür problem doludur. Amma əgər düşünürsünüzsə ki, Fyodor Qriqoryeviç buna görə ölüb, səhv edirsiniz. O, heç vaxt ürəyindən şikayət etmirdi. Ola bilsin, qəfil infarkt olub. Onun axı stresi çox idi. Hökumətdən birinci dəfə gedəndə rahat idi. Amma ikinci dəfə onu kim danlamadı ki! Xüsusən də jurnalistlər. Bir məqalə xüsusilə şərəfsizcəsinə yazılmışdı. "Strateji pessimist" adlanırdı. Görünməmiş faizlərin ödəndiyi dövlət istiqrazlarının zərərindən birinci danışan o idi axı! Doxsan səkkizinci ilin avqustunda defolt elan olunanda isə hamı onun haqlı olduğunu etiraf etdi. Həmin jurnalist bura gəlib başqalarından daha ağıllı çıxan akademik haqqında reportaj hazırlamaq istəyirdi. Amma Qluşkov onu qəbul etmədi. Çox prinsipial, olduqca şərəfli kişi idi. Əgər hökumətdəkilərin hamısı onun kimi olsaydı, biz çoxdan İsveçrə və ya Norveçdə olduğu kimi yaşayardıq.

— Onun düşmənləri var idi?

— Nə qədər desəniz. Düşünürsünüz ki, onun hər şeyi öz adı ilə çağırması başqalarına xoş idi? Oğrulara oğru deyirdi. Cinayətkar özəlləşdirmədən, qanunların natamamlığından istifadə edən

oliqarxlardan danışırdı. O, ümumiyyətlə, belə hesab edirdi ki, ən iri müəssisələrin dəyər-dəyməzinə satıldığı özəlləşdirmənin nəticələrinə yenidən baxılmalıdır. Buna görə onu çoxları sevmirdi. Qluşkov qəbulların birində neft maqnatlarından birinə beləcə də demişdi: "Səni neftin üstünə qoyublar deyə, özünü hamıdan ağıllı sayırsan. Yalnız ona görə ki, vaxtında özünə yaxşı yer eləyə bilmisən. Sən hələ şirkətini saxlamalı və sübut etməlisən ki, doğrudan da ağıllısan". Təsəvvür edirsiniz?

— O zəngin insan idi?

Tumanyan qaşlarını çatıb başını qaşıdı.

— Əlbəttə ki, kasıb deyildi, — Boris Arsenoviç dedi. — Neçə illər akademik olub, müxtəlif vəzifələrdə işləyib. Doxsanıncı illərin əvvəllərində hökumətdən birinci dəfə gedəndə xaricilərə Rusiyada öz bizneslərini necə aparmaq haqda məsləhətlər verən şirkət yaratmışdı. O vaxt bu məsləhətlərə görə yaxşı pul ödəyirdilər. Amma həmin vaxtlarda da heç nədən sui-istifadə etmirdi. Ölkə maraqlarını həmişə şəxsi maraqlarından öndə tuturdu. Heç vaxt bizim qanunların yanından ötüb keçmək üçün istənilən məbləği ödəməyə hazır olan müştərilərlə işləməzdi. Belələrini dərhal otaqdan qovardı.

Potapov Dronqoya nəzər saldı. Baxışı sanki onların boşuna vaxt itirdiyini deyirdi.

— Onun katibəsi işdədir? — Dronqo sonuncu sualını verdi.

— Yox, onun arvadının yanına gedib. Zoya Pavlovna Qluşkovla son on beş il müddətini işləyib. Onun sağ əli idi. Dünən biz, hətta "Təcili Yardım" çağırmışdıq, Fyodor Qriqoryeviçin qəfil ölümü haqda eşidəndə halı xarab olmuşdu... Ümumiyyətlə, dünəndən bizdə müxtəlif şayiələr gəzir. Bəziləri hətta gic-gic danışır, amma mən qəti olaraq bunun kökünü kəsirəm. Qluşkov elə adam deyildi ki, özünü kirlətsin. Büllur kimi idi, əsl kişi idi. İndi belələri azdır.

Potapov bir daha Dronoqoya baxdı.

— Çox sağ olun, — Dronqo ayağa qalxdı, — bizə çox kömək etdiniz. Dəfn nə zamandır?

— Bazar ertəsi saat dörddə. Saat 12-dən isə vida mərasimi başlayacaq. Deyirlər, prezident də gələcək. Öz akademiklərimiz də təbii ki, olacaqlar. Savitskini elə hər şeyi normal hazırlamaq üçün çağırıblar. Mən bilmirəm, bizim halımız necə olacaq. İnstitut birmənalı şəkildə Fyodor Qriqoryeviçin avtoritetinə

səbəb yaşayırdı, – Tumanyanın səsində ilk dəfə olaraq çaşqınlıq eşidildi.

– Sağ olun, – Dronqo əlini ona uzatdı.

Onlar kabinetdən çıxanda Potapov narazılıqla qeyd etdi:

– Sizə demişdim ki, bura gəlməyə dəyməz. İndi bağa getmək olar, artıq saat üçdür.

– Yox, – Dronqo etiraz etdi, – biz Veronika Andreyev nanın yanına gedəcəyik.

– İndi orda mərəkədir! – Potapov hirsləndi. – Siz nə danışdığınızı anlayırsınız?

– Getdik, – Dronqo heç nə izah etmədi. – Qluşkovun necə öldüyünə dair ilk ehtimallarım yaranmağa başlayıb.

# VI HİSSƏ

Akademik Qluşkovun Kutuzov prospektindəki evinin girişində çoxlu adaın toplaşınışdı. Səhər onun öldüyü haqda məlumatı təkrar vermişdilər və indi keçmiş kolleqaları onun evinə gəlməyə başlamışdı. Maliyyə naziri Fyodor Qriqoryeviçin dul arvadına başsağlığı vermək üçün gəlmişdi. Evdə gələnləri iki hissəyə bölən iki mərkəz hiss olunurdu. Qluşkovun keçmiş tələbələrinin çoxu, qohumlar və tanışlar başsağlığını İsveçdən atasının dəfninə gələn böyük qızı Allaya verirdi. Bu, Veronika Andreyevnanın açıq-aşkar narazılığına səbəb olurdu. Az bir hissə ənənəvi olaraq, mərhumun dul arvadı kimi ona yanaşırdı. Çox az bir hissə tədbirli tərpənərək hər iki qadına başsağlığı verirdi.

Alla kəskin, kobud üz cizgiləri olan, həm anasına, həm də atasına oxşayan, iri gövdəli qadın idi. Amma böyük çənə və burun Fyodor Qriqoryeviçin üstünlüyü idisə, Allada onlar qüsura çevrilmişdi.

Alla başdan ayağa qara geyinmiş halda yas ınərasi minin ən azı analığı qədər sahibəsi olduğuna zərrə qədər şübhə etmədən başsağlığını atasının kabinetində qəbul edirdi. Oleq gələnlərin suallarına cavab verərək ortada vurnuxurdu. O, atasının qəfil ölümü mövzusundan mümkün qədər yayınmağa çalışırdı. Amma şayiələr bütün şəhər boyu yayılırdı və bir çoxları başsağlığı verərkən Oleq Fyodoroviçin üzünə, atasının ölüm sirrini açmağa çalışaraq, sınayıcı nəzərlərlə baxırdılar.

Veronika Andreyevna vaxtın böyük hissəsini qonaq otağında olmuşdu. Nadir hallarda yataq otağına girirdi. O, ögey qızının özünü necə apardığını sezirdi və buna görə dilxorçuluğu bir az da dərinləşirdi. Gələnlərin başsağlığına cavab verərkən o hər an Alla haqda düşünürdü. Əlbəttə ki, ərinin şəxsi əşyalarından bəzi şeyləri uşaqlarına vermək lazım gələcəkdi. Məsələn, kitabları. Əgər onları götürmək istəsələr. Əlbəttə ki, ən qiymətlilərini yox, amma bəzi kitabları onlara vermək olar. Ərinin kostyumlarını, ailəvi şəkillərini, atasının elmi araşdırmaları olan qovluqları mərhumun oğlu götürə bilər. Əgər Allanın hansısa xırda-xuruş bəzək-düzək xoşuna gəlsə, onu həvəslə güzəştə gedər. Amma mənzil, mebel, aralarında müasir rəssamların babat

əsərləri olan rəsm əsərləri, Fyodor Qriqoryeviçin ölümündən sonra qalan bütün qiymətli əşyalar və pulu yalnız ona qalmalıdır.

O, ərinin, anasına məxsus bütün qiymətli daş-qaşlarını Allaya verdiyini xatırlayırdı. Bu əməlini bu üzük və sırğaları qızından başqa heç kimdə görmək istəmədiyi ilə izah etmişdi. Əlbəttə ki, bu evə yenicə girmiş Veronika Andreyevna etiraz etməyə cürət etməmişdi. O zaman özünü bu evdə hələ əmin hiss etmirdi. Ona görə bu incikliyi, sadəcə, udmalı oldu. Hərçənd, o, belə hesab edirdi ki, bütün bunlar ona çatsa, daha yaxşı olar. Amma Fyodor Qriqoryeviç başqa cür qərar verdi. Vero nika Andreyevnanın etiraz etməyə cəsarəti çatmadı. O, özlüyündə mərhum ərini sevirdi və ona yaxşı münasibət bəsləyirdi. Amma ona həmişə elə gəlirdi ki, əri uşaqlarına ondan daha çox diqqət ayırır. Onun bəzi şeyləri dəyişmək və Qluşkovun diqqətini öz qızına yönləndirmək üçün etdiyi cəhdlərinə baxmayaraq, böyük bir dəyişiklik baş verməmişdi. Hərçənd, əri onun qızına da kömək edirdi. O, Amerikaya gedəndə də, orda yerləşib yaşayanda da.

Veronika Andreyevna əsəblə düşünürdü ki, ərinin bir çox iş yoldaşları onu sevmir və tənha dul kişini ələ keçirən bambılı hesab edirlər. Əlbəttə, kişinin varlı və məşhur olmağı ona xoş idi. Bu, onların münasibətlərində ən vacib rolu oynadı. O, rəfiqələrinə deyirdi ki, Fyodor Qriqoryeviçi zənginliyi və məşhurluğuna görə yox, dərhal qiymətləndirdiyi ağlına və xasiyyətinə görə seçib. Bu sözlərdə az da olsa, həqiqət payı var idi. Onun doğrudan da ağlı və yaxşı xasiyyəti var idi. Amma əgər bunlar zənginlik və məşhurluqla birləşməsəydi, o, Veronika üçün çox da maraqlı olmazdı – onun öz sahəsində böyük uğurlar qazanmış, amma o qədər də yaxşı dolanmayan bir çox akademik dostları kimi. O, tez-tez Qluşkovun yanına gələn iki filoloqu xüsusən sevmirdi. Ədəbiyyat və filologiya yeni Rusiyada gəlirsiz və perspektivsiz sahə sayılırdı. Təbii ki, bu da Qluşkovun dostlarının gəlirində və xarici görkəmində öz əksini tapırdı. Veronika Andreyevna ərinin bu səfilləri qəbul etməsini sakit qəzəblə izləyirdi. Əri həmişə onları məşhur restoranlara nahara aparır və hər şeyi özü ödəyirdi. Bu da arvadının artmaqda olan qəzəbinə səbəb olurdu. "Onlar bir daha burda görünməyəcək – o, gizli sevinclə düşündü. – Heç kim

də onları yedirməyəcək. Qoy özlərinə başqa sponsor axtarsınlar".

Dronqo və general Potapov qonaq otağına girdilər. Ətrafa boylanan Dronqo pəncərənin yanında hündürboylu, gözəl, gənc bir qadın gördü. O, çox gözəl idi, sanki hansısa dəb jurnalının üz qabığından çıxmışdı. O, pəncərəyə baxaraq yanındakı qadınla söhbət edirdi. Dronqo düşündü ki, belə qadınlar adətən, məşhur agentliklərdə top-model işləyirlər. Maraqlıdır, görəsən, o ev sahibəsinin nəyidir?

Veronika Andreyevna içəri girənləri gördü. O, Dron qoya hələ dünən diqqət yetirməyə başlamışdı. Ağıllı baxış, sakit, məqsədyönlü. Deyəsən, onunla yaşıddır və ya bir qədər cavan. "Maraqlıdır, görəsən, o evlidir, ya yox? Bir də ki, nə fərqi var? Geyimindən görünür ki, kifayət qədər varlı adamdır". Hər üç ərinin gəlir səviyyəsi ona təkcə Moskvada yox, eləcə də Avropa ölkələrinin ən bahalı mağazalarının xidmətlərindən istifadə etməyə imkan vermişdi. Uzun illər ərzində o, bahalı paltarı cır-cındırdan fərqləndirməyi öyrənmişdi. Dronqonun əynində bahalı, italyan kostyumu var idi. Onun açıq mavi, zaponkalı köynəyinin biçimi və parçasının keyfiyyətini, qalstukunu və döş cibində bir qədər əzilmiş dəsmalını da özlüyündə dəyərləndirdi. Bu adam onu sorğu-sual edən adi müstəntiqlərə bənzəmirdi. Onlar eyni, yeknəsəq, boz kostyumlar geyinir və boz qalstuklar taxırdı. Bundan başqa, Dronqonun ayağında yumşaq dəridən ayaqqabı var idi. Amma onun dərhal diqqət yetirdiyi əsas şey qoxu oldu. Bahalı fransız ətri idi. Bu onun çox sevdiyi "Farenheyt" idi. "Yəqin o ya generaldır, ya da idarə rəhbəri" – düşündü. Qonaqlara tərəf yönələrkən dul qadın üzünün matəm ifadəsini saxlamağa və gülümsəməməyə çalışırdı. Nəticə etibarilə o, cavan qadın idi və öz gələcəyi haqda düşünməli idi. Bu adam isə onun xoşuna gəlirdi.

Potapov salamlaşarkən, qadın ona diqqət yetirmədi. Onunla yüngülcə salamlaşıb Dronqoya nəzər saldı.

– Salam, – nəzakətlə salamlaşdı, – bir daha başınız sağ olsun.

– Çox sağ olun, – o ah çəkdi. – Dünən siz mənə dəstək oldunuz. Orda işləyənlərin arasında siz yeganə mədəni insansınız.

Potapov gülümsədi, amma heç nə demədi.

– Sizə bir neçə sual vermək istəyirəm, – Dronqo dul qadına müraciət etdi. – Biz başqa otaqda söhbət edə bilərik?

– Əlbəttə, – o, gələnlərdən kiminləsə salamlaşıb Dron qoya onu izləməyi işarə edərək qonaq otağından çıx-dı.

Potapov da onların ardınca çıxırdı ki, bir addım atıb, fikrini dəyişdi. Divarın yanında dayanıb rəsm əsərinə tamaşa etməyə başladı.

Qonaq otağı və kabinetdən başqa mənzildə biri həmişə boş olan iki böyük yataq otağı da var idi. Onu qonaqlar və ya əvvəllər arabir gələn Qluşkovun uşaqları üçün saxlamışdılar. Amma son illər uşaqlar bura gəlmirdi. Veronika Andreyevnanın öz yataq otağı səliqəsiz olduğundan o, Dronqonu bura dəvət etdi.

Onlar içəri girəndə Dronqo qərarsız halda ətrafa boylandı. Bütün stullar qonaq otağına aparılmışdı. Veronika Andreyevna otağın küncündə olan kiçik divanda əyləşib qonağı da yanına dəvət etdi. Dronqo yaxına gələndə yenə onun ətrini hiss etdi.

– Sizi eşdirəm, – kədərlə gülümsəyərək dedi. – Mən dən daha nə soruşmaq istəyirsiniz? Yeri gəlmişkən, dünən sizin adınızı və vəzifənizi tam başa düşmədim.

Dronqonun yadında idi ki, Potapov dünən onun vəzifəsi haqda heç nə deməmiş və qadın da heç nə soruşmamışdı. Görünür, Qluşkovun ölümü öz təsirini göstərmişdi, dünən o bu işlərin hayında deyildi. Amma bu gün artıq özünü ələ almışdı, hətta gülümsəyirdi.

– Mən xüsusi ekspertəm, – özünü təqdim etdi. – Məni adətən, Dronqo kiıni çağırırlar. Belə daha rahatdır.

– Bəs sizin yoldaşınız – o da ekspertdir?

– Yox, o generaldır. Mühafizə Xidmətində işləyir.

– General!

Qadının təbəssümü daha da dərinləşdi, sanki yoldaşının general olması həmsöhbətini hiss olunmadan daha əhəmiyyətli edirdi.

Dronqo düşündü ki, hərdən qadın intuisiyası paradoksal nəticələrə gətirib çıxarır. Əgər Potapov qonaq otağında qalıb söhbət aparmağı Dronqoya həvalə edibsə, deməli, faktik olaraq, Dronqonun liderliyini etiraf edib. Veronika Andreyevna da məhz belə düşünmüşdü.

— Nə qəribə adınız var? — o dedi.

— Məni çoxdan belə adlandırırlar, artıq adət etmişəm. Siz sonuncu dəfə Fyodor Qriqoryeviçlə söhbət edərkən onun həyəcanlı olduğunu hiss etmədiniz ki?

— Əlbəttə, yox. Yoxsa dərhal bağa gedərdim. Yox. Hər şey normal idi. Hərçənd, o dedi ki, özünü formada hiss etmir. Ona aspirin içməyi məsləhət gördüm. Əgər bilsəydim ki, hər şey belə bitəcək...

— Necə düşünürsünüz, qonşulardan kimsə əvvəlcədən zəng etmədən sizə gələ bilər? Elə-belə, dostyana?

— Yox. Əlbəttə, yox. Jukovkada belə münasibətlər qəbul olunmayıb. Orda yüksək dövlət vəzifələrində işləyən əxlaqlı insanlar yaşayır. Əvvəldən zəng etmədən kiminsə evinə getmək heç kimin ağlına gəlməz. Yox, yox. Bu istisnadır.

— Dünən siz qonşular haqda danışanda Perelmanın qızını "yaman diribaş qız" adlandırdınız. Bununla nə demək istəyirdiniz?

— Elə onu, — Veronika Andreyevna əsəblə gülümsədi. — O axı, Alla ilə bir sinifdə oxuyub. Onlar yaşıddırlar. Əl-bət tə ki, birinci sinifdən atasının dostu haqda eşidib, onu tanıyırdı. Bilirsiniz də, adətən necə olur. Gənc qadınlar — tez-tez yaşlı kişilərə vurulur. O erkən ərə getməyə və boşanmağa macal tapıb. Sonra isə hər əlverişli fürsətdə Fyodor Qriqoryeviçin gözünə görünməyə çalışırdı. Məncə, qız onu, sadəcə olaraq, izləyirdi. Onu başa düşürəm. Romantik bir eşq. Kişi, əlbəttə ki, ona fikir vermirdi. Xüsusən də onun atası ilə dostluq etdiyi halda. Amma qız hərdən inadkarlıq edirdi...

— Məsələn?

— Hərdən zəng edirdi. Tanış ədəbiyyatçılardan və nə dən-sə, bizdən daha çox ona zəng edən Alladan salam deyirdi. Adi qadın fəndləri. Mən belə xırdalıqlara fikir vermirdim. Fyodor Qriqoryeviç qadınların xoşuna gəlməyi bacarırdı. Bu onun əsas üstünlüklərindən biri idi.

— O, gözəl qadınları sevirdi?

— Hər bir normal kişi kimi. O, gözəlliyin dəyərini anlayırdı, — sanki öz evliliyi ilə dediklərini təsdiq edirmiş kimi başını qürurla qaldırdı.

— Deyirlər ki, sizin qonşunuz Lopatinin də gözəl arvadı var.

— Bu, onun ikinci arvadıdır, — Veronika

Andreyevna gülümsədi, – amma o, hələ qızcığazdır. Onun yaşı 25-dən çox olmaz. Bir neçə il bundan əvvəl, deyəsən, Afrikada gözəllik müsabiqəsində qalib gəlib. Hündürboy, qəşəng qızdır. Amma Fyodor Qriqoryeviçi tanımaq lazım idi. O, qadınlarda təkcə xarici görkəmi yox, həm də intellekti və daxili zənginliyi də dəyərləndirirdi. Onun üçün vacib o idi ki, gözəl simanın arxasındakı adam kimdir. Buna görə o mənə belə, yaxşı münasibət bəsləyirdi. Lopatinin arvadı gözəl insandır. Biz onunla çox yaxın olmuşuq. Deyəsən, o, bizim bağ evində mənim münasibət qurduğum yeganə adamdır. Yeri gəlmişkən, o, indi qonaq otağındadır. Başsağlığı verməyə gəlib. Ola bilsin, ona diqqət yetirmisiniz. O, pəncərənin yanında oturub.

– Yox, görmədim, – Dronqo bunu eşitməyin həmsöhbətinə necə xoş olacağını bildiyindən yalan dedi.

– Qeyri-adi bir şey yoxdur, – Veronika Andreyevna canlandı, – əl ilə çəkilmiş kimi gözəl simadır. Gözləri isə boşdur.s

– Siz itən sikkə kolleksiyasını görmüşdünüz? – Dronqo təhlükəli mövzunu dəyişməyə qərar verdi.

– Onun bir neçə xüsusi albomu var. Sikkələrin qoyulduğu məxməri qutulardan ibarət albom idi. Albomları çox idi, məncə, səkkiz və ya doqquz ədəd. Onları evdə saxlayırdı. Amma iki albomu həmişə seyfdə və ya stolun siyirməsində saxlayırdı. Fyodor Qriqoryeviç məhz bu iki albomu özü ilə bağa aparmışdı. Deyəsən, iki gün əvvəl idi. Mən onları necə götürdüyünü görmüşdüm. Orda ən qiymətli nüsxələr var idi. Özü deyirdi ki, bu sikkələrin bəzisi unikaldır. Onların qiymətini bilmirəm, amma düşünürəm ki, bir neçə yüz min dollardır. Məhz bu iki albom itib. Biz Oleqlə hər yeri axtardıq. Kabineti də, stolu da. Evə qayıdandan sonra seyfi də yoxladım. İki ən qiymətli albom heç bir yerdə yox idi. Əlbəttə ki, mən albomlar haqda prokurorluğun müstəntiqlərinə dedim. Onlar numizmatlar klubundan orda məhz hansı sikkələrin olduğunu dəqiqləşdirmək qərarına gəldilər. Romanovskidən də onda hansı nüsxələrin olduğunu soruşacaqlar, əlbəttə, ki, əgər o xatırlayırsa. Mən bütün sikkələr haqda məlumat olan kataloqun olduğunu da xatırladım. O həmişə ərimdə olurdu. Biz onu da tapa bilmirik. Yoxsa hansı

sikkələrin itdiyi yadımıza düşərdi. Amma dəqiq bilirəm: onun kolleksiyasının ən yaxşı sikkələri olan iki albom itib.

— Romanovski sizə teztez gəlirdi?

— Hərdən. O da məşhur numizmatdır. Amma mən ağlıma belə gətirmirəm ki, o belə bir işə qol qoya bilər. Sikkədən ötrü qonşunu öldürmək?! Axı o, səfil deyil, ölkənin xarici işlər nazirinin müavinidir, onu tez-tez televizorda göstərirlər.

— Elə bilirsiniz, televizorda göstərilən adamlar adi oğrular ola bilməz? — Dronqo gülümsədi. — Həm də necə! Kitabla bağlı qalmaqal yadınızdadır? Müəlliflər onu yazmadan yüz min dollar almışdılar. Axı bizi əmin etmişdilər ki, onlar Yer üzünün ən əxlaqlı və şərəfli adamlarıdır. Bütün ölkə bilirdi ki, bu belə deyil. Amma məmurlar cəzasız qalacaqlarına əmin idilər.

— Düşünmürəm ki, o öldürə bilər, — Veronika Andreyevna qorxdu. — Hansısa sikkə üzündən cinayət törətmək? Yox, məncə, elə deyil.

— Onu yaxşı tanıyırsınız?

— Hamı kimi. O qədər də yox. Onlar adətən, kabinetə girib sikkələrə baxaraq hansısa təfərrüatları müzakirə edirdilər.

— O bilirdi ki, Fyodor Qriqoryeviç sikkələri harda saxlayır?

— Bilirdi, — dodağını azca dişləyib başını tərpətdi.

— Qətl günü siz evdə olmusunuz?

— Bunu niyə soruşursunuz? — o incidi. — Düşünürsünüz ki, belə bir dəhşətli cinayəti törədə bilərəm?

— Tamamilə əminəm ki, yox. Amma sizi izləyə bilərdilər...

— Bilmirəm. Adətən, kişilərin baxışına fikir vermi rəm. Mən onlara artıq alışmışam. Ona görə adi kişi marağını müınkün — müşahidədən fərqləndirmək mənimçün çətin olur.

Öz vaxtında o, kişilərin xoşuna gəlməyi bacarıb. Dronqo onun iradını qiymətləndirib gülümsədi.

— Siz həmin gün harda olduğunuzu danışa bilərsiniz?

— Əlbəttə. Müstəntiqlər də ınəndən bu haqda soruşublar. Səhər Fyodor Qriqoryeviç işə getdi. Təqribən saat 12-də mən maşını çağırtdırıb manikürçünün yanına getdim. Sonra fitnes-mərkəzə

gedib təqribən, saat 4-də evə qayıtdım. Axşam rəfiqələrim bizə gəlməli idi.

— Gəldilər?

— Biri hə. Biz onunla çay içdik. Əgər istəsəniz, özünüz ona zəng edib soruşa bilərsiniz, — o meydan oxuyurmuş kimi dedi.

— Hörmətli Veronika Andreyevna, — Dronqo yumşaq şəkildə dedi, — suallarımdan incimək lazım deyil. Mənim vəzifəm — həqiqəti bərqərar etməkdir. Çox gözəl başa düşürəm ki, siz bağa gəlib, hündür hasarın üstündən gözə görünmədən keçib, öz ərinizi güllələyib, sonra silahı da götürüb, eləcə də gözə görünmədən gedə bilməzdiniz. Mən ekspert-analitikəm, fantast deyiləm. Ona görə xahiş edirəm, əsəbiləşməyəsiniz. Hərçənd, sizin yerinizdə olsaydım, yəqin ki, mən də əsəbiləşərdim. Bəs Fyodor Qriqoryeviç nahar fasiləsində evə gəlirdi?

— Hə, o, tez-tez evdə nahar edirdi. İşdə verilən ye mək-ləri sevmirdi. İnstitutda da nadir hallarda nahar edirdi. Hə, o yemək yeməyə evə gəlirdi. Bizim evdə hər gün aşpaz işləyir. Kişini də o yedirdirdi. Ondan soruşa bilərsiniz. O, indi mətbəxdədir.

— Lazım deyil. Hər şeyə görə çox sağ olun, üzr istəyirəm.

Dronqo ayağa durdu, qadın da qalxdı.

— Ümid edirəm, sizin bütün suallarınıza cavab verdim, — o gülümsədi.

— Elədir, — Dronqo təsdiq etdi.

Onun uzanmış əlini öpüb soruşdu:

— Bəs sizin ögey qızınızla danışmaq olar?

Veronika Andreyevnanın üzündəki təbəssüm itdi. Azca qaşlarını çatıb qonağa sınayıcı nəzər saldı. Beynindən “Heç bir kişiyə güvənmək olmaz” fikri keçdi.

— Onunla nə danışacaqsınız ki? — qadın bir qədər əsəblə soruşdu. — Qətl baş verən zaman Alla Moskvada olmayıb. O sizə nə danışa bilər?

— Mən onun atasının qonşularla olan münasibətinin bəzi təfərrüatlarını dəqiqləşdirmək istərdim.

— O, qonşular haqda, ümumiyyətlə, heç nə bilmir. Lopatin və Romanovskilər Alla əri ilə İsveçə gedəndən sonra köçüblər.

— Amma özünüz dediniz ki, Alla Abram Moiseyeviç Perelmanın qızı ilə bir yerdə oxuyub. Yoxsa elə deyil?

— Necə istəyirsiniz, elə də edin, — o, çiyinlərini çəkdi, — amma başqa yerdə danışın. Ümid edirəm, mənim yataq otağını ona lazım olmayacaq.

Veronika Andreyevna qəfil çevrilib otaqdan çıxdı. "Bu hiyləgər tip öz yaraşığından və hələ də yataq otağında qalan xoş ətrindən istifadə edərək məndən bütün informasiyanı öyrəndi", – o düşündü. Dronqo dul qadının vəziyyətini anlayaraq onu saxlamağa cürət etmədiyindən kabinetə keçdi. Orda Alla atasının kreslosunda oturmuşdu. Yanındakı stolun üstündə atasının Elmlər Akademiyasından kolleqaları olan iki Nobel mükafatı laureatı ilə birgə şəkli var idi. Dronqo bir daha düşündü ki, qızı təəccüb doğuracaq dərəcədə atasına oxşayır.

— Bağışlayın, — o, stola qısılmış Allaya müraciət etdi. Kabinetdə qonaq otağındakından daha çox adam vardı. — Başınız sağ olsun. Mən sizinlə danışmaq istərdim.

— Çox sağ olun. Siz kimsiniz?

— Ekspert-analitik. General Potapovla birlikdə gəlmişəm. Məni adətən, Dronqo deyə çağırırlar. Atanızın ölümü ilə bağlı gəlmişəm.

— Müstəntiq artıq mənimlə danışıb, — o, soyuq tərzdə cavab verdi. Allanın ağır, diqqətli baxışları vardı. Hiss olunurdu ki, o, sərbəst qərar verməyə alışmış hökmran qadındır.

— Biz danışmalıyıq. Bu sizin atanızla əlaqədardır, — Dronqo israr etdi.

— Elə indi və burda? — Alla təəccübləndi. — Bəlkə bunu bir neçə gündən sonra etmək olar?

— Mənim vaxtım yoxdur, — o etiraz etdi. — Birisigün atanızın dəfnidir və bizi maraqlandıran bəzi suallara cavab tapmaq istərdik.

— Yaxşı, — Alla ayağa qalxdı, — gedək qonşuların yanına. Burda onsuz da danışmağa imkan verməyəcəklər.

Kimsə Allaya başsağlığı vermək üçün yaxınlaşdı. O təşəkkür etdi. Mənzildəki adamların arasından birtəhər sivişib pilləkən meydançasına çıxdılar. Qonşunun qapısı açıq idi.

— Zina, — Alla görkəmindən 40 yaşı olan ev sahibəsinə müraciət etdi, — olar biz sizin evdə söhbət edək?

— Əlbəttə, — qadın başını tərpətdi, — atamın kabinetinə keçin.

Alla birinci keçdi. Görünür, o, əvvəllər də bu

mənzildə olub. Böyük kabinetdə iki stolun üstündə daşlar və minerallardan ibarət kolleksiya düzülmüşdü. Rəflərdə çoxlu kitab var idi. Burda evdə işləyən alimlərin evində olan yüngülvarı səliqəsizlik hökm sürürdü.

— Onun atası indi xəstəxanadadır, — Alla əzik divanda əyləşərək izah etdi. — Məşhur geoloqdur. Biz bura, demək olar ki, eyni vaxtda köçmüşük.

— Aydındır, — Dronqo onun yanında oturdu. — Atanızın ölümünü sizə nə vaxt xəbər verdilər?

— Dərhal. Oleq zəng edib dedi ki, atam ölüb. Nədən öldüyünü demədi, mən də dəqiqləşdirmədim. Biz ərimlə dərhal Moskvaya gəldik. Artıq aeroportda öyrəndik ki, o öldürülüb. Əclaflar! Həmişə düşünürdüm ki, hər şey belə də bitəcək.

— Niyə?

— Atamın düşmənləri çox idi. Onun sərbəst mövqeyi, rüşvətxor iqtisadiyyat haqda obyektiv fikirləri bir çox məmurların xoşuna gəlmirdi. Onun çıxışlarını oxuyun, özünüz hər şeyi başa düşəcəksiniz. Əvvəlki prezident ona nifrət edirdi. Hərçənd... o kimi sevirdi ki? Defoltun necə baş verdiyi yadınızdadır? Defoltdan dərhal sonra hökumət başına Primakov gəldi. Atam düşünürdü ki, onlar, doğrudan da, ölkəni xilas edir. Və bir müddət sonra Primakov və komandası qovulandan sonra kəskin məktub yazaraq qəzetlərdə mövcud rejimə qarşı ittihamlarla çıxış etməyə başladı. Onda bir çoxları belə hesab edirdi ki, bu, hakimiyyətə əsl şillədir. Əlbəttə ki, bu çıxışı ona bağışlamadılar.

— İndi hesab çürütmək, məncə, o qədər də rasional deyil, — Dronqo qeyd etdi. — Bundan başqa, belə məqalələr və çıxışlar nə o vaxt, nə də indi qərar qəbul edən adamlara təsir etmir. Onlar öz pulları ilə məşğuldur və yalnız gəlirləri azalanda vurnuxurlar. Onlar üçün qalan hər şey boşdur.

— Atam həddən artıq sərbəst adam idi, — Alla ah çəkdi. — Qərbdə ona hörmət edirdilər. Bilirsiniz, institut və Akademiyaya nə qədər başsağlığı göndəriblər? Bizə fasiləsiz zəng edirlər.

— Bilirəm, — Dronqo cavab verdi. — Mən dünən bağa getmişdim və analığınızla tanış oldum. Zəng doğrudan da çox idi.

— Artıq tanış olmağa macal tapmısınız, — Alla acı-acı gülümsədi. — O, indi madam Qluşkovadır və

bütün başsağlıqları onun adına gəlir.

— Bu sizi təəccübləndirir?

— Artıq mənim üçün fərqi yoxdur, — o etiraf etdi. — Sizdə siqaret var? Deyəsən, mən qutumu atamın kabinetində unutmuşam.

— Mən siqaret çəkmirəm, — Dronqo dedi.

— Düz edirsiniz, — Alla başını tərpətdi. — Atam bu qadınla evlənəndə mən əleyhinə idim.

— Bilmək olar niyə?

— Məncə, hər şey onsuz da aydındır, — Alla çiynini çəkdi. — Atam onun üçüncü əridir. Və hər üçündə o, tam imkanlı kişilərə sevgi bəsləyib. Onların hər birinin axırı pis qurtarıb. Biri həbsxanaya düşüb, digəri az qala müflisləşib xaricə gedib. Üçüncünü də öldürdülər. Elə bil "qoşası" var — o, qaşqabaqla zarafat etdi. — Ərləri öz mövqelərini tərk edəndən sonra bu qadın ani olaraq, onlara öz marağını itirir. Nəhayət, zəngin və məşhur dul kişi tapmışdı.

— Sizə elə gəlmir ki, qısqanırsınız?

— Əlbəttə qısqanıram. Mən, ümumiyyətlə, atamın evlənməyini istəmirdim. Xüsusən, belə qadınla. Uşaqlar eqoist olur, — o razılaşdı, — xüsusən, belə atanız varsa. Bizə elə gəlirdi ki, o, həmişə bizimlə olmalıdır. Ona görə hər ikimiz Veronika Andreyevnaya ehtiyatla yanaşırdıq. Özü də o, məndən yaşca az böyükdür.

— Atanızın qiymətli sikkələri itib. Sizə bu haqda deyiblər?

— Yox, — Alla təəccübləndi. — Hansı sikkələr? Sikkə lərin bura nə dəxli?

— Prokurorluqda belə bir versiya var ki, qiymətli sikkələr atanızın ölümünə səbəb ola bilər.

— Cəfəngiyatdır! — Alla hirslə dedi. — Onlar atamın adını ləkələmək üçün hər cür rəzilliyə hazırdırlar. Onun öldürülməsi azlıq edir, hələ bir bunu adi məişət hadisəsinə- çevirmək istəyirlər. Sikkələrlə bağlı səfeh hekayətlər quraşdırırlar! Hamı başa düşür ki, bu, siyasi qətldir. Naməlum qarətçi mühafizə olunan obyektə, daha sonra başqasının bağına necə girib, gözə görünmədən atəş açıb sakitcə də çıxıb gedə bilərdi? Əlbəttə ki, bu sifarişli qətldir. Yəqin ki, bu işə xüsusi xidmət orqanları da qoşulub. Bütün qonşuları danışdırmaq lazımdır. Bəlkə onlar Jukovkadakı evin yaxınlığında kənar adamlar görüblər.

— Siz atanızın bağ qonşularını yaxşı

tanıyırsınız? – Dronqo soruşdu.

– Təzələri tanımıram. Deyəsən, bu Lopatin və Romanovskidir. Onlar bir neçə il bundan əvvəl köçüblər. Amma Perelmanı yaxşı tanıyıram. Biz onun qızı ilə bir sinifdə oxumuşuq.

– Siz dostluq edirdiniz?

– Niyə bu haqda keçmiş zamanda soruşursunuz? – Alla təəccübləndi. – Biz indi də rəfiqəyik. Alina ilə çox yaxşı ınünasibətlərimiz var.

– O boşanıb?

– Hə. Ona uğursuz ər düşdü. O, elə vüqarlı, yaraşıqlı, məxməri səsli oğlan idi ki! Amma iradəsiz və vecsizin biri çıxdı. Hərdən belə kişilərə rast gəlinir: zahirən şəkli yaxşıdır, amma içi boşdur. Buna görə də ona dözməmək qərarına gəldi. Düşünürəm ki, düz də edib.

– O sizin bağınıza və ya Moskvadakı evinizə gəlib?

– Əlbəttə gəlib. Moskvada yaşadığım müddətdə biz tez-tez ünsiyyətdə olurduq. Mən gedəndən sonra daha bizə gəlmədi. Hərçənd, Jukovkada bağlarımız yanyanadır.

– Bəlkə o sizin atanızın yanına gəlib? Onların münasibəti necə idi?

– Lap yaxşı. Hə, deyirəm axı... Yəqin siz analığımla söhbət etməyə macal tapmısınız. O, atamı Alinaya yaman qısqanır. Ağıllı və savadlı Alinanın fonunda o, axmaq kimi görünür. Alina Hessenin yaradıcılığından danışmağa başlayanda və ya Paviçin yeni romanını müzakirə edəndə Veronika Andreyevnanın miqren tutmaları başlayır. Belə adları eşidən kimi o ağrıyır. Analığımı ömrü boyu daha bayağı şeylər maraqlandırdığına görə Alinanı heç sevmir.

– Bu gün gələnlərin arasında Alina da var?

– O, bura gəlməyəcək. Veronikanın ona olan müna sibətini yaxşı bilir. Alina indi bağdadır. Atamın ölümünə görə yaman xiffət edir. O, heç mənimlə də danışa bilınədi.

– Sizə bir qədər nəzakətsiz sualım olacaq. Bunu soruşduğuma görə bağışlayın. Atanız gözəl qadınları sevirdi?

– Çox. Amma məncə, bu onun qüsuru deyildi. Hərçənd, Veronika ilə münasibətlərində daha ehtiyatlı ola bilərdi.

– O sizin məktəb rəfiqənizə diqqət yetirə bilərdi?

— Yəqin Alina onun xoşuna gəlirdi, — Alla azca düşünüb dedi, — amma onların arasında heç nə yox idi. Mənim rəfiqəmi tanımaq lazımdır. O, evli bir kişinin özünə pərəstişkarlıq etməsinə icazə verməyəcək qədər nəcib insandır. Hərçənd, məncə, atam onun xoşuna gəlirdi. Hətta çox xoşuna gəlirdi. Amma onların arasında heç nə ola bilməzdi.

— Çox sağ olun. Daha sualım yoxdur.

— Amma mənim var. Bu sizin nəyinizə lazımdır? Mən suallarınızdan belə hiss edirəm ki, siz atamın ölümünü adi məişət cinayəti kimi qələmə vermək istəyirsiniz. Oğurlanmış sikkələr. Onun Alina ilə mümkün əlaqəsi. Bütün bunlar lazımsız suallardır. Onu, ona nifrət edən hansısa yüksək vəzifəli məmurun əmri ilə öldürüblər. Sizsə başqa nəsə quraşdırmaq istəyirsiniz.

— Mən yalnız həqiqəti axtarıram, — Dronqo etiraz etdi. — Mənə atanızın qətlinin necə və niyə baş verdiyini öyrən mək üçün bütün xırdalıqları bilmək vacibdir. Sağ olun.

Mənzildən çıxarkən pilləkən meydançasında Potapo vu gördü. O, Dronqoya qaşqabaqla baxıb sakitcə dedi: – Numizmatlar klubundan bizə Qluşkovda ola biləcək sikkələrin siyahısını veriblər. Ekspertlərin dəyərlən dirməsinə görə itən albomların dəyəri təqribən yarım milyon dollardır. Onlar nadir nüsxələr imiş.

# VII HİSSƏ

Pilləkənlə düşərkən yuxarı qalxan bir kişi ilə üz-üzə gəldilər. Dronqo düşündü ki, artıq bu adamı hardasa görüb. Enlikürək, ortaboylu, gözəçarpan keçəli, qəhvəyi gözləri, bir qədər uzun burnu, yanağında böyük xalı vardı. Potapov ona əl uzatdı:

— Salam, Mixail Nikolayeviç.

Kişi cavabında köhnə tanışı kimi general Potapovun əlini sıxdı və Dronqo anladı ki, bu, Gömrük Komitəsinin sədri Lopatindir.

— Bu, bizim ekspert-analitik Dronqodur, — Potapov öz ortağını təqdim etdi.

Lopatin əlini uzatdı. Əlsıxma qısa və güclü oldu.

— Sizin haqqınızda eşitmişəm, — baş gömrükçü dedi, — deyirlər, siz dolaşıq cinayətlərin təhqiqatında ən yaxşı ekspertsiniz.

— Şayiələr həmişəki kimi şişirdilib, — Dronqo etiraz etdi.

— Bədbəxtliyə bax, — Lopatin donquldandı, — o, hələ yaşamalı idi. O, cəsarətli, şərəfli və güclü insan idi.

— Hə, — Potapov mısmırıqla razılaşdı, — indi hamı qatilin axtarışı ilə məşğuldur. FTX də, prokurorluq da, bizim idarə də.

— Və siz təhqiqata öz ekspertinizi qoşmusunuz, — Lopatin anladı.

— Hə, cinayətkarı tapmağa çalışırıq, — Potapov etiraf etdi, — amma hələlik heç bir nəticə yoxdur.

— Üzr istəyirəm, Mixail Nikolayeviç, — birdən Dronqo dedi, — srağagün Qluşkovun evinə getmişdiniz?

— Məni elə pilləkəndə sorğu-suala tutursunuz? — Lopatin istehza ilə soruşdu.

— Əlbəttə, yox. Amma Mühafizə İdarəsinin quraşdırdığı müşahidə kamerası sizin bağın yanında olduğunuzu qeydə alıb.

— Mən gəzirdim, — Lopatin çiyinlərini çəkdi. — Yeri gəlmişkən, siz arvadımla danışa bilərsiniz. Həmin axşam biz birlikdə gəzişirdik. Əvvəlcə, tək idim, sonra isə onun arxasınca getdim və qəsəbənin yollarında birlikdə gəzişdik. Hərdən bu, ağır gündən sonra tarazlığı bərpa etməyə imkan verir.

Dronqo Potapovun qaşlarının çatıldığını gördü.

Onun nöqteyi-nəzərinə görə belə nüfuzlu rəhbəri pilləkəndə sorğu-sual etmək subordinasiyanın yolverilməz pozulması demək idi.

— Razıyam, — Dronqo Potapovun qəzəbli baxışlarını görməzliyə vuraraq dedi. — Siz Fyodor Qriqoryeviçi yaxşı tanıyırdınız?

— Əlbəttə, — Lopatin təəccübləndi, — o, baş nazir müavini olarkən mən Gömrük Komitəsinin rəis müavini oldum. Sonra isə o məni rəis vəzifəsinə məsləhət gördü. Hamı bu haqda bilir...

— Bağışlayın bizi, Mixail Nikolayeviç, — Potapov söhbətə qoşuldu, — sizi daha yubatmayaq.

— Eybi yox, — Lopatin qaşlarını çatdı, — mən hər şeyi başa düşürəm. Yersiz ölümdür.

O sağollaşıb pilləkənlə yuxarı qalxdı.

— Dəli olmusunuz?! — həmsöhbətləri növbəti mərtə bəyə qalxandan sonra Potapov Dronqoya hücum etdi. — Özünüzü nə hesab edirsiniz?! Bu, binanın girişinə təsa düfən girmiş səfil deyil. O, federal nazir səviyyəsində mə-mur-dur. Ümid edirəm, onun pəncərədən girib, Qluş kovu — öldürüb və sikkələri oğurlayıb gizlətdiyini düşünmürsünüz.

— Düşünmürəm, — Dronqo razılaşdı, — amma ona bir neçə sual verməli idim. Siz də nahaq yerə belə tələsdiniz. Onunla söhbəti bitirməmişdim.

— O çıxanda danışarsınız, — Potapov təklif etdi, — ya da axşam onun yanına Jukovkaya gedərik. İstənilən halda, bəzi ədəb qaydalarını gözləmək lazımdır. O, mərhumun dul arvadına və qızına başsağlığı verməyə gəlib. Siz isə öz suallarınızı yeridirsiniz.

— Əgər həmişə ingilis etiket qaydaları üzrə davransaydım, heç bir cinayəti aça bilməzdim, — Dronqo etiraz etdi.

Onlar binanın girişindən çıxdılar. Həyətdə və binanın qar-şı-sındakı küçədə çoxlu sayda maşın və adam var idi. Po tapov bəzi tanışları ilə salamlaşıb pıçıltı ilə Dronqoya dedi:

— Qalmaqalımız təmin olunub. Ağacların altında, mə ni üzdən tanıyan FHRİA (Federal Hökumət Rabitə və İnformasiya Agentliyi) əməkdaşlarından ibarət qrup dayanıb. Məncə, Zemskov bizim bura gəlişimizdən artıq bu gün xəbər tutacaq.

Dronqo FHRİA-da keçmiş DTK əməkdaşlarının işlə diyindən xəbərdar idi. Federal Hökumət Rabitə Agentliyi Dövlət Təhlükəsizlik Komitəsi dağılandan

sonra xüsusi idarə idi. FTX və FHRİA-nın bir çox əməkdaşları birbirini yaxşı tanıyırdı.

— Onlar onsuz da əvvəl-axır öyrənəcəkdilər, — o, maşına tərəf gedərkən qeyd etdi.

Onlar maşına oturarkən Potapov ondan soruşdu:

— Necə istəyirsiniz, Lopatini gözləyək, yoxsa dərhal Jukovkaya gedək? Romanovski axşam gələcək, amma Perelman indi ordadır.

— Gedək, — Dronqo cavab verdi. — Lopatinlə sonra danışarıq. Gedək Jukovkaya.

— Nəhayət, nədəsə mənimlə razılaşdınız.

Potapov sürücüsünə bağ evləri olan qəsəbəyə getməyi tapşırdı.

Dronqo demək olar ki, bütün yolboyu susdu. Potapov onun düşüncələrini bölmək istəmirdi. Yalnız maşın qəsəbəyə aparan yola dönəndə soruşdu:

— Sizin artıq hər hansı ipucunuz var? Bunu kimin etdiyini heç olmasa, təxmin edə bilirsiniz?

— Hələ ki cavaba hazır deyiləm, — Dronqo etiraf etdi, — mənim faktlarım çatmır, amma bəzi detallar artıq bitmiş şəklə düzülür.

— Sizcə, bu, kənar adam idi? — Potapov qaşqabaqla soruşdu.

— Əmin deyiləm. Qonşularla söhbət etmək lazımdır. Belə başa düşdüm ki, qətl anında mərhumun nə arvadı, nə oğlu, nə də qızı bağda olub. Düzdür?

— Biz hər şeyi yoxlamışıq. Veronika Andreyevna doğrudan da evdə olub, Oleq isə öz ofisində imiş, daha sonra evə gedib. Biz hər şeyi dəqiqəbədəqiqə yoxlamışıq. Alla, ümumiyyətlə, Stokholmda olub. Yaxın qohumları rahatlıqla istisna edə bilərsiniz.

— Deməli, cinayətin məişət xarakterli olması versiyasını kənara atmaq olar. Onu miras ucbatından öldürməyiblər. O, axı kasıb adam deyildi. İki versiya qalır. Birinci, qarətçi sizin mühafizəçini aldadıb, əməkdaşlarınız tərəfindən görülmək riski ilə hündür hasarın üstündən keçib Qluşkovun bağına girərək və nədənsə çox yaxına gələrək onu güllələyib. Daha sonra isə evdə olan iki ən qiymətli albomu oğurlayıb. Evdən isə götürülməli başqa şeylər də olub. Mən bu versiyaya o qədər də inanmıram.

— Onda qonşular qalır, — Potapov qaşqabaqla qeyd etdi.

— Elədir.

— Axı bu qətiyyən mümkün deyil, — general

dərhal etiraz etdi. – Nazir, nazir müavini, yaşlı akademik. Onlardan hansından şübhələnəcəksiniz?

– Vacib deyil ki, qətli onlardan hansısa törətsin. Axı bağ evində onların qohumları, dostları və tanışları da qala bilərdi.

– Heç kim olmayıb, – Potapov ümidsizliklə ah çəkdi. – Kənar heç kim olmayıb! Hətta sürücülər də bağda yubanmayıb. Şeflərini gətirib dərhal gediblər. Lopatin öz gənc arvadı ilə olub. Qətl anında bağda Perelmandan başqa arvadı və qızı varmış. Romanovskinin arvadı xəstə olduğu üçün xəstəxanadadır. Həmin axşam o bizim Avstriyadakı səfirin müşaviri olan oğlu ilə birlikdə olub. Oğlu sabah Vyanaya uçur. Biz onunla danışmışıq, o heç nə görməyib və eşitməyib. İkinci mərtəbədəki yataq otağında yatıb. Hətta Romanovskinin oğlu da hesaba alınsa, bizim yalnız yeddi şübhəlimiz var. Kimdən şübhələnməyi əmr edirsiniz? – Generalın üzünü qırmızı ləkələr sardı. – Mən kimdən şübhələnməliyəm? Akademik Perelmandan, yoxsa nazir Lopatindən? Yoxsa ölkənin ən məşhur diplomatlarından biri olan Romanovskidən? Bəlkə onun oğlundan? Və ya Perelmanın qızından? Kimdən şübhə lənməliyəm?!

– Əsəbiləşməyin, – Dronqo məsləhət gördü. – Əgər siz hamını şübhəlilər siyahısından çıxırsınızsa, onda məni niyə dəvət etmisiniz? Yalnız ona görə ki, mən sizin öz versiyanızı dəstəkləyim? Xüsusi xidmət orqanlarının əlbirliyindən? Siz ki FTX generalısınız, doğrudanmı, bu varianta inanırsınız?

– Elə inandığıma görə generalam, – Potapov çox sakit və acı-acı dedi. Sonra soruşdu: – Əgər onlardan heç biri Qluşkovu öldürə bilməzdisə, əgər qarətçi gözə görünmədən bağa girib gizlənə bilməzdisə, onda Fyodor Qriqoryeviçi kim öldürüb və sikkələri kim oğurlayıb? Ümumiyyətlə, mənə elə gəlir ki, sikkələri cinayətin əsl səbəbini gizləmək üçün oğurlayıblar. Numizmatlar deyir ki, onlar unikal sikkələrdir və onları satmaq şansı sıfıra bərabərdir. Hansısa kirli işbirliyində iştirak etməkdən qorxan heç kim onları almaz. Bəs onda onları niyə götürüblər? Əgər oğru axmaqdırsa və əlinə ilk düşəni götürübsə, niyə məhz albomları götürüb? Bəs əgər axmaq deyilsə, həlledici anda Qluşkovun ondan tapançanı almaq riski ilə niyə qurbanına bu qədər yaxınlaşıb? Mərhum iri gövdəli və güclü insan olub, sizin kimi, Dronqo.

— Mərhumla müqayisə olunanda adama ləzzət verir, — Dronqo donquldandı.

— Mən düzgün ifadə etmədim, — Potapov qeyd etdi. — Heç nəyə baxmayaraq, bizim necə bir vəziyyətə düşdüyümüzü anlayırsınız? Prezidentə nə məruzə edim? Havadan çıxan, hasarın üstündən keçərək Qluşkovu öldürüb havada əriyib gedən naməlum cani haqda nağıl danışım? Ya da sübut etməliyəm ki, Qluşkovu Akademiyadan kolleqası və ya ölkənin ali məmurlarından biri öldürüb. Başa düşürsünüz, biz hamımız necə axmaq bir vəziyyətə düşmüşük? Bu arada, bizim prezident də keçmiş FTX əmək daşıdır və yeri gəlmişkən, sizin də kolleqanızdır. O, axı ixtisasca hüquqşünasdır. Biz versiyalarımızı ona necə — izah edəcəyik? O bizi, sadəcə olaraq, qovacaq. Hamı-mızı. Heç dinləməyəcək. Peşəkar hüquqşünasa və FTX-nin keçmiş direktoruna öz şübhələrimizdən danışmaq? — Mənim vəzifəmi endirəcəklər. Cəhənnəmə göndərə-cəklər.

— Əsəbiləşmək lazım deyil, — Dronqo yenə dedi. — Düzünü desəm, inanmıram ki, sizin xüsusi xidmətlərin əlbirliyi ilə bağlı versiyanız prezidentin xoşuna gəlsin. Belə bir iddianı irəli sürmək üçün inandırıcı faktlar lazımdır.

— Sizi elə buna görə çağırmışıq, — Potapov ah çəkdi. — Bizə hansısa faktlar, versiyalar, ehtimallar lazımdır. Yox sa nə olacağını heç təsəvvür belə etmirəm.

Maşın qəsəbənin ərazisinə girib darvazanın yanında dayandı. Yaxınlaşan əməkdaş maşının salonunda oturanlara nəzər saldı. Bu, Çislov idi. General Potapovu və onun yanında oturan Dronqonu tanıyıb salamlaşdı və işarə etdi ki, maşını buraxsınlar.

— O mənim maşınımı yaxşı tanıyır, — maşın yerindən tərpənəndə Potapov sakitcə qeyd etdi, — amma indi onlar bütün maşınları yoxlayırlar. İstisnasız. Sizin təhqiqa tınızın necə bitəcəyini bilmirəm, amma bazar ertəsinə kimi tutarlı bir versiyamız olmasa, mən istefa verəcəyəm.

Maşın akademik Perelmanın ailəsinin yaşadığı evə yaxınlaşdı. O qədər də böyük olmayan, tünd qəhvəyi rəngdə sadə qapılı ikimərtəbəli ev idi. Dronqo və Potapov maşından düşdülər.

— Siz Qluşkovun qızı ilə söhbət

etmisiniz, – general dedi. – O necə düşünür, atasını kim öldürə bilərdi?

– Alla belə hesab edir ki, onunla siyasi rəqibləri haqqhesab çürüdüb.

– Getdikcə daha da çətinləşir, – Potapov burnunun altında dedi. – Ümid edirəm, öz ehtimalları haqda danışmamağa ağlı çatar.

Pilləlləri qalxıb zəngi basdılar. Heç kim cavab vermədi. Potapov təlaşla Dronqoya baxıb zəngi bir daha basdı. Qapının arxasında sakitlik idi.

– Yatıblar? – general əsəblə deyinərək, düyməni üçüncü dəfə basmaq üçün əlini qaldırdı.

Bu an qapı açıldı. Astanada hündürboylu, altmış yaşlarında, nə vaxtsa sahib olduğu gözəlliyin izlərini saxlaya bilmiş yaşlı bir qadın dayanmışdı. Onun gözləri qeyri-adi – zümrüd rəngdə idi. Qaralmış dərisi və tünd rəngli saçları var idi. Görünür, qapını açan Perelmanın arvadı idi.

– Salam, – Potapov salamlaşdı. – Şənbə günü narahat etdiyimiz üçün bizi bağışlayın. Mən Mühafizə Xidmətindən general Potapovam, bu isə bizim ekspertdir. Biz Abram Moiseyeviçlə söhbət etmək istərdik.

– Qluşkovla... bağlı.

O, "ölüın" sözünü işlətmək istəmirdi. Hiss olunurdu ki, həyəcanlanır. Dronqo onun əllərinə fikir verdi. Onlar ınöhkəm və əzələli idi. Görünür, onun əcdadları arasında kəndli və kazak olub.

– Hə, – Potapov dedi, – biz danışmalıyıq.

– Buyurun, – qadın qonaqları içəri buraxdı. – Biz adətən, həmişə qapını açıq qoyuruq. Ona görə zənglərə fikir vermədik. Hamı bilir ki, biz qapını heç vaxt bağlamırıq. Amma bu hadisədən sonra... Fyodor Qriqoryeviçlə...

O, ah çəkib ərinin arxasınca getdi. Kiçik qonaq otağının mərkəzində stullarla əhatə olunmuş stol var idi. Divar boyunca divan, iki kreslo və televizor qoyulmuşdu. Bir dəqiqə sonra otağa alçaqboylu, başında araqçına oxşar gülməli papaq olan bir kişi daxil oldu. Çal saçları, qalın qaşları və sərt baxışı var idi. Onun ardınca arvadı da daxil oldu. Perelman qonaqlarla nəzakətlə salamlaşıb stol arxasına keçərək hamını dəvət etdi. Ev sahibəsi sanki ona suallara cavab verməkdə kömək etmək istəyirmiş kimi ərinin yanında oturdu. Dronqo və ortağı ər-arvadla biixtiyar üz-üzə qaldılar. Sanki hər iki cütlük

əvvəldən mübarizəyə məhkum olunmuşdu.

— Sizi şənbə günü narahat etdiyimiz üçün bağışlayın, Abram Moiseyeviç, — Potapov bir qədər həyəcanla başladı, — biz qonşunuz akademik Qluşkovun ölümü ilə bağlı təhqiqat aparırıq. Ona görə də biz onun bütün qonşularını, o cümlədən də sizi narahat etməyə məcburuq.

— Başa düşürəm, — Perelman dedi. — Fyodor Qriqoryeviçin ölümü bizi çox sarsıtdı. Dünən sizin kolleqalarınız gəlmişdi, prokurorluqdan və... Bu idarə indi necə adlanır?..

— FTX — arvadı dedi.

— Çox sağ ol, Klavdiya. Düzdür, FTX. Bizi artıq sorğu-sual ediblər. Əgər hesab edirsinizsə ki, davam etmək lazımdır, biz razıyıq.

Potapov Dronqoya nəzər salaraq təşəbbüsü ona ötürdü.

— Siz həmin gecə nəsə eşitmişdiniz? — Dronqo soruşdu.

— Heç nə, — Perelman cavab verdi. — Əgər burdan atəş səsləri eşidilsəydi, dərhal milisə zəng vurardım. Yox, biz heç nə eşitmədik.

Arvadı əllərini sinəsində çarpazlayaraq sakit oturmuşdu. Sanki çağırılmamış qonaqlara heç nə deməyəcəyini və ərinə də nəsə deməyə imkan verməyəcəyini hiss etdirirdi.

— Siz onu yaxşı tanıyırdınız? — Dronqo soruşdu.

— Çox yaxşı, — Perelman təsdiq etdi. — Bilirsiniz, bizim əvvəllər başqa yerdə öz bağımız var idi. Anına onun saxlanmasına və mühafizəsinə çoxlu pul lazım idi. Məndə və uşaqlarımda isə bu qədər pul yox idi. Ona görə biz öz bağımızı satdıq. Fyodor Qriqoryeviç isə Elmlər Akademiyasının vitse-prezidenti kimi mənə Jukovkada bağ təklif etdi. Hərçənd, mən bunun mümkünlüyünə şübhə etsəm də, o özü buna qərar verdi. Və artıq uzun illərdir ki, yaşadığımız bu evi mənə verdilər. Əvvəllər, onun birinci arvadı sağ ikən biz tez-tez bir-birimizin evinə qonaq gedərdik.

— Daha getmirsiniz?

Perelman arvadına nəzər saldı. O, üzünün anlaşılmaz ifadəsini saxlamışdı. Kişi çiynini çəkdi.

— Onun cavan arvadı, başqa maraqları var. Biz ünsiyyətdə az olurduq...

— Daha bir-birinizin evinə qonaq getmirdiniz? — Dronqo israr etdi.

— Biz ünsiyyətdə az olurduq, — Abram

Moiseyeviç təkrar etdi.

İnadkar müstəntiq onun arvadının açıq-aşkar xoşuna gəlmirdi.

Amma Dronqo davam etdi:

— Onun ailəsini yaxşı tanıyırsınız?

— Mənə elə gəlirdi ki, tanıyıram. Onun böyük qızı bizim kiçik qızımızla birlikdə oxuyub. Onların çox yaxşı oğlu var. Xeyirxah, diqqətcil, nəzakətli. İndi ailəlidir, əkiz uşaqları var. Oleq elmi atıb bizneslə məşğul olmağa başlayıb. Deyəsən, ərzaq gətirir. Fyodor Qriqoryeviçin əvvəlki arvadını biz yaxşı tanıyırdıq, dostluq edirdik, ünsiyyətdə olurduq.

— Fyodor Qriqoryeviç necə adam idi?

— Yaxşı. Abırlı, düzgün, şərəfli, güzəştsiz. Həmişə təəccüblənirdim ki, o bizim hökumətdə necə işləyir. Elə adamlar orda adətən, çox qalmır. Ona hamı hörmət edirdi. Amma o iki dəfə istefa vermişdi. Siz belə vəzifələrdən öz arzusu ilə istefa verən neçə məmur tanıyırsınız? Ona görə belə hesab edirəm ki, Fyodor Qriqoryeviç mənim həyatım boyunca tanıdığım ən düzgün və prinsipial insan idi.

— Gözəl xarakteristikadır, — Dronqo başını tərpətdi.

— Başqa heç nə deyə bilmərəm.

Abram Moiseyeviç arvadına tərəf dönüb başını buladı. O, arvadının söhbətə qarışmasını istəmirdi. Amma qadın həyəcan keçirirdi. Onun öz həyəcanını necə çətinliklə gizləməyə çalışdığı aydın hiss olunurdu.

"O niyə belə həyəcanlanır? – Dronqo düşündü. – Niyə Qluşkovun adı çəkilən kimi bu vəziyyətə düşür? Nə baş verdiyini anlamaq lazımdır".

— Axırıncı dəfə Qluşkovun bağında nə vaxt olmusunuz? — Dronqo soruşdu.

Perelman bir daha arvadına baxdı. Qadın dərindən ah çəkdi. Amma yenə ərinə danışmağa imkan verərək susdu.

— Bir neçə il əvvəl, — Abram Moiseyeviçin qanı qaraldı. — Dəqiq xatırlamıram. Biz qonşulara gedişimizi qeydə almırıq.

— Siz Akademiyadan kolleqanızın evində sonuncu dəfə nə vaxt olduğunuzu xatırlamırsınız? — Dronqo inanmadı. — Hətta o faktı da nəzərə alsaq ki, bu bağı sizə məhz Qluşkov verib?

— Biz ünsiyyətdə az olurduq, — Perelmanın arvadı özü-nü saxlaya bilməyərək söhbətə qarışdı və

inciklikla əlavə etdi: – Siz bizi elə sorğu-suala tutursunuz ki, sanki qonşumuzu biz öldürmüşük.

– Siz niyə elə düşünürsünüz ki, onu öldürüblər? Axı məlumatda bu haqda deyilməyib?

– Cavan oğlan... – Perelmanın arvadı coşdu.

– Klavdiya... – kişi qorxmuş halda xahiş etdi.

– Eybi yox, – qadın üzünü çevirdi. – Cavan oğlan, – o, Dronqoya müraciətlə təkrar etdi, – deməliyəm ki, sizin istintaqı aparma tərziniz xoşumuza gəlmir. Niyə bizim Qluşkovla olan münasibətlərimiz sizi bu qədər maraqlandırır? Sizə axı izah olundu ki, biz çoxdan qonşu evdə olmamışıq. Məncə, bu kifayət edir.

– Ola bilər, – Dronqo razılaşdı. – Amma sizin qızınız Qluşkovun qızı ilə bir sinifdə oxuyub. Axı özünüz bu haqda dediniz. Amma görünür, onun hələ də Alla ilə yax-şı münasibət saxladığını əlavə etməyi unutdunuz. Bəlkə səhv edirəm?

– Bizim qızımızın bura nə dəxli var? – Klavdiya Perelman yüksək səslə soruşdu. – Mənə elə gəlir ki, siz bizim ailəyə həddən artıq böyük diqqət ayırırsınız.

– Qızınız Qluşkovun bağında olub? – Dronqo təslim olmurdu.

– Bəsdir! – Klavdiya ayağa durdu. – Biz artıq sizinlə danışmaq istəmirik.

– Klava... – Perelman qarışmağa çalışdı.

– Sən onların niyə gəldiyini başa düşmürsən? – arvadı qəzəblə qışqırdı. – Onlar bu hekayəyə Alinanı qarışdırmaq istəyirlər. Mən imkan verməyəcəyəm...

– Ana, – onun arxasından qəfil səs eşidildi, – qışqırmaq lazım deyil. Yəqin onlar artıq hər şeyi bilir. Ona görə də məhz bizə gəliblər.

# VIII HİSSƏ

Hamı çevrildi. Qapıda hündürboylu, otuz yaşlarında gənc bir qadın dayanmışdı. Gözlərinin altında aydın görünən tünd dairələr vardı. Görünür, Qluşkovun ölümü ona valideynlərindən daha pis təsir etmişdi. Üzdən atasına oxşayırdı, bir qədər uzunsov çənəsi var idi. Amma qalan cizgiləri və gözlərinin rəngi anasına bənzəyirdi. Amma anasından daha gözəl idi. Gözəl bədən quruluşu, yaşıl gözləri vardı. Astanada dayanıb otaqdakılara baxırdı. Əynində qara, düz ətək, tünd rəngli cemper var idi. Saçlarını arxadan yığmışdı.

— Bəsdir, ana, — o, anasına müraciət etdi. — Müstəntiqlər boş yerə gəlmir. Yəni başa düşmürsən ki, onlar niyə gəlib?

— Alina! — anası hirslə dedi. — Sən dəli olmusan! Niyə aşağı düşmüsən?

— Sənin ucadan səsini eşitdim, ona görə qərar verdim ki, söhbətdə mən də iştirak etməliyəm.

— Mən istəmirəm ki, səni sorğu-suala çəksinlər, — anası həyəcanlandı. — Bu, atanla bizim işimizdir, sən qarışma.

— Ana, — Alina qaşlarını çatdı, — mən öz problemlərimi həll edəcək qədər böyümüşəm.

— Yaxşı olar ki, siz bizə qoşulasınız, — Dronqo onu yumşaq tərzdə dəvət etdi. — Və gəlin, bir qədər sakitləşək, yoxsa bizim söhbətin gərginliyi elektrik cərəyanında öz əksini tapacaq.

Onun zarafatı atmosferi bir qədər yumşaltdı. Alina masaya tərəf bir addım atdı. Dronqo yerindən sıçrayıb ona yer verdi. Qız başı ilə ona təşəkkür etdi. Dronqo koridordan daha bir stul gətirdi.

— Görürsən, ana, — Alina dedi, — qonağımız centlmendir, sənsə onu təxribatçı sayırsan.

— Necə istəyirsən, — Klavdiya dedi. — Düzünü desəm, sənin hoqqaların məni bezdirib.

— Klava! — Abram Moiseyeviç yenə məzəmmətlə dedi.

Hər bir qayğıkeş ata kimi o, həmişə qızının tərəfində idi. Potapov bu qalmaqala qarışmadan qulaq asırdı. Dronqo öz stulunu masaya tərəf çəkdi.

— Bağışlayın ki, belə alındı, — o, burnunun altında dedi. — Sizi qəzəbləndirmək istəmirdim. Amma mən bilməliyəm ki, siz niyə mərhumla

ünsiyyəti dayandırmısınız.

— Biz dayandırmamışıq... — Klavdiya izah etməyə çalışdı.

— Gözlə, — birdən əri onun sözünü kəsdi, — qoy, Alina danışsın.

— Siz nə öyrənmək istəyirsiniz? — qız soruşdu.

— Hər şeyi, — Dronqo dedi. — Mən sizin Qluşkov ailəsi ilə olan bütün münasibətləriniz haqda bilmək istəyirəm. Bu illər ərzində baş verən hər şeyi.

— Heç nə baş verməyib, — Alina cavab verdi. — Vali deynlərimə bu mövzuda danışmaq xoş deyil. Düşü-nürəm ki, siz onları başa düşürsünüz. Fyodor Qriqor-yeviçin ölümü bizim işlərimizi alt-üst etdi.

Perelman dərindən ah çəkdi, arvadı qaşqabaqla susurdu. Potapov tərpənmədən oturmuşdu. Sanki Alinanın fikrini dəyişib susacağından qorxurdu.

— Bizim ailələrimiz dostluq edirdi, — Alina davam etdi. — Biz Alla ilə bir sinifdə oxumuşuq, dostluq etmişik, atalarımız isə tez-tez Akademiyada görüşürdü. Mən tez-tez onlara gedirdim. Onun birinci arvadının məndən çox xoşu gəlirdi. Sonra ərə getdim. Bilirsiniz də, bu necə olur... Düşünürdüm ki, ideal ər tapmışam. Əlbəttə ki, səhv etmişdim. Bizim kifayət qədər patriarxal ailəmiz var. Belə hesab olunur ki, ailə bir dəfə və ömürlük qurulur. Mən bir müddət dözdüm, amma sonra boşanmağa qərar verdim. Valideynlərim bu işdə məni dəstəklədilər. Buna görə onlara çox minnətdaram.

O, atasına baxdı, kişi ona gülümsədi. Onun qızına necə böyük məhəbbətlə baxdığı hiss olunurdu.

— Fyodor Qriqoryeviçin arvadı ağır xəstə idi. Hamımız bilirdik ki, o ölümə məhkumdur. Biz Alla ilə, atasına kömək edərək, onu dəstəkləməyə çalışırdıq. Sonra isə o öldü... — Alina dərindən ah çəkdi. — Arvadının ölümü ona çox pis təsir etmişdi. O vaxtlar onlara tez-tez gedirdim. Demək lazımdır ki, o, olduqca maraqlı, söhbətcil insan idi. Yəqin ki, mən ona bir az heyran olmuşdum...

O bu sözləri deyərkən anası mısmırığını salladı.

— Əlbəttə ki, bizim aramızda heç nə yox idi, ola da bilməzdi, — anasının reaksiyasını sezən Alina cəld dedi. — Özü də bir müddət sonra Fyodor Qriqoryeviçin həyatında Veronika Andreyevna peyda oldu. Sonra onlar evləndilər. O, bir qədər qəliz insandır. Nədənsə, Qluş kovun keçmiş həyatı ilə bağlı

olan heç kimi sevmədi. Tədricən Fyodor Qriqoryeviçin bütün dostlarını sıxışdırmağa başladı. Allanın analığı ilə münasibətləri tutmadı və o əri ilə İsveçə getdi. Onların gedişindən sonra biz Qluşkovla ünsiyyəti praktik olaraq kəsdik. Bizi görəndə Veronika Andreyevnanın necə əsəbiləşdiyini görürdük. Son bir neçə ildə biz yalnız bir dəfə Qluşkovun 55 illiyində onlarda olmuşuq. Hərdən biz onunla gəzintilər zamanı görüşüb söhbət edərdik. Mən, təbii ki, onların evinə getmirdim. Çünki Veronika Andreyevnanın ınəni görərkən əsəbiləşdiyini bilirdim. Nəyə görəsə mənə yaman qısqanırdı. Görünür, qorxurdu ki, ərini onun əlindən ala bilərəm. Yəqin, özünə o qədər də əmin deyilmiş.

— Amma siz ona zəng edirdiniz, — Dronqonun tonunda əminlik var idi.

— Siz hardan bilirsiniz? — Alina təəccübləndi. — Hə, hər-dən zəng edirdim. Bizim çoxsaylı müxtəlif proqramlarımız var idi və Fyodor Qriqoryeviç tez-tez bizə kömək edirdi. Yəqin özünüz anlayısınız, indi ədəbiyyat jurnalı və qəzetləri nə vəziyyətdədir. Qluşkov çoxlarına kömək edirdi. Onun nüfuzlu dostları çoxdur. Hərdən ona zəng edəsi olurdum. Bir neçə dəfə institutda onun yanına da getmişdim. Orda Veronika Andreyevna ilə rastlaşmaq riski yox idi. Amma o, nə cürsə mənim gəlişlərim haqda öyrənirdi.

Alinanın qaşları çatıldı.

— Mənə elə gəlir ki, o, ərini bütün qadınlara qısqanırdı. Yəqin özünə çox da arxayın olmayıb. Nə Alla, nə də Oleqin ailəsi ilə münasibət qura bildi. Oğlu bağa, ümumiyyətlə, ayda bir, ən çoxu iki dəfə gəlirdi. O da atasının köməyindən istifadə etməyə və ya hansısa məsələ ilə bağlı kiməsə zəng vurmağı xahiş etmək üçün gəlirdi.

— Oleqin nə işlə məşğul olduğunu bilirsiniz?

— Deyəsən, Almaniya və Polşadan ərzaq gətirirdi. Onlar kommersiya firması yaratmışdılar. Alla bir dəfə bu haqda danışmışdı. Amma mən məsələnin dərininə varmamışdım.

— Aydındır.

Dronqo azca susdu ki, otaqdakılar sükutu hiss etsinlər. Sonra soruşdu:

— İki gün əvvəl Qluşkovun bağında nə baş verdiyini bilirsiniz?

— Bilirəm, — Alina cavab verdi.

Anası sakitcə ah çəkdi. Atası gərildi. Potapov qurcuxdu, sanki Alina Qluşkovu öldürəcəyini etiraf edəcəkdi.

— Siz qatili gördünüz? — Dronqo dəqiqləşdirdi.

— Yox. Amma mən bilirəm ki, onu öldürüblər.

— Bilmək olar, hardan?

— Hə, əlbəttə. Həmin axşam onun evinin yaxınlığında idim. Biz zəngləşmişdik, o, məndən onların evinə gedib lazımi kağızları götürməyi xahiş etdi. O bir neçə ədəbiyyat muzeyinə vəsait ayrılmasına nail olmuşdu. Bilirsiniz, onlar öz ünvanına çatana qədər uzun müddət keçir. O isə insanları sevindirmək istəyirdi. O özü zəng edib sənədləri götürməyi xahiş etdi. Mən onun səsində bir qədər gərginlik hiss etdim. Bir az dilxor idi. Səsi də qəribə idi — küt və yorğun.

Alina atasına nəzər saldı, onun təqdiredici baxışını görüb davam etdi:

— Onun yanına təqribən 9-da və ya bir qədər gec getdim. Evə yaxınlaşdım. Qapı açıq idi. Bu məni təəccüb ləndirdi. Qapını döydüm, səslədim, zəng etdim. Amma heç kim cavab vermədi. Onda mən evə girdim...

— Bəsdir! — anası onun sözünü kəsdi. — Sən təsadüfən orda olmusan.

— Qoy danışsın, — Perelman etiraz etdi. — O, bütün bunları hələ dünən danışmalı idi, amma sən onu müstəntiqlərlə görüşməyə qoymadın.

— Mən evə girdim, — Alina sanki şüursuz halda davam etdi, — qonaq otağına keçdim. Yenə səslədim, amma heç kim cavab vermədi. Pilləkənlə yuxarı qalxdım.

O, dərindən içini çəkdi.

Anası azca yerindən qalxdı, amma Alina əlinin hərəkəti ilə onu saxladı.

— Mən kabinetə girib Fyodor Qriqoryeviçi gördüm. O, masanın yanında döşəmədə uzanmışdı. Bircə baxış kifayət idi ki, hər şeyi başa düşəsən. Mən heç ona yaxınlaşmadım. Özüm təəccübləndim, necə oldu ki, qışqırmadım. Mən şokda idim. Bir neçə dəqiqə dayanıb cəsədə baxdım. Sonra çevrilib heç nəyə toxunmamağa çalışaraq aşağı düşdüm. Nəyə görəsə Veronika Andreyevnadan qorxdum. Elə bilirdim, ərinin ölümünə görə o məhz məni ittiham edəcək. Evdən qaçaraq çıxdım. Çıxarkən ayağımla qapını örtdüm. Daha sonra Qluşkovun bağını

dolanaraq öz evimizə tərəf qaçdım. Qarşıdan atam gəlirdi. Onu görüb üstünə atıldım. Deyəsən, nəsə dedim, amma o, heç nə başa düşmədi...

Alina susdu.

— O məni evə gətirib yatızdırdı. Nəsə sayıqlayırdım, amma dəqiq heç nə deyə bilmədim...

— Mən heç nə başa düşmədim, — Abram Moiseyeviç söhbətə qoşuldu. O, belə hesab edirdi ki, artıq qızının köməyinə yetmək vaxtıdır. — Əgər qətl baş verdiyini anlasaydım, dərhal milis çağırardım. Amma elə bildim ki, əsəb pozğunluğu keçirir. Biz ona sakitləşdirici dərman verdik və o yatdı. Elə titrəyirdi ki, hətta "Təcili Yardım" çağırmaq istəyirdim. Səhər Qluşkovun ölümü haqda öyrənəndə biz hər şeyi başa düşdük. O hey qətl haqda danışırdı, mən də elə başa düşmüşdüm ki, o, bizim itimiz haqda danışır.

— Hansı it? — Potapov başa düşmədi.

— Yarım il əvvəl bizim itimiz ölmüşdü, — Perelman izah etdi. — Yük maşınının altında qalmışdı. O, hamının sevimlisi idi. Xüsusən, Alina və onun oğlu ilə daha meh-riban idi. Hamımız çox xiffət etdik. Alinanın onda da əsəb pozğunluğu olmuşdu. Biz elə düşündük ki, o təkrarlanır.

— Səhər prokurorluq və milis əməkdaşları Jukovkaya gəldilər, — Alina davam etdi. — Mən hələ də yatırdım deyə, qəsəbədə nə baş verdiyini bilmirdim. Oyananda isə artıq hamı hadisə barədə bilirdi.

— Alina yatarkən müstəntiqlər bizə gəldi, — Perelman izah etdi, — yoxsa biz heç kimi aldatmazdıq. Təbii ki, biz heç nə eşitməmişdik. Hərçənd, artıq Alinanın kimin ölümü haqda danışdığını anlamağa başlayırdım. O, ayılanda — hər şeyi bizə danışdı. Dərhal müstəntiqə zəng etmək istəyirdim, amma Klavdiya məni daşındırdı. Heç vaxt özümü belə pis hiss etməmişdim. Mənə elə gəlirdi ki, biz müstəntiqdən lazımlı bir informasiyanı gizlədirik. Biz qorxurduq ki, bir şey edə bilmərik, yalnız qızımızı pis vəziyyətdə qoyarıq. O heç nə görməyib və eşitməyib. Onun yeganə günahı ondan ibarətdir ki, böyük simpatiya ilə yanaşdığı Fyodor Qriqoryeviçi ölü vəziyyətdə görüb və güclü stress keçirib. Yəqin ki, biz də heç nə başa düşmədiyimizə görə günahkarıq.

— Heç kim sizi ittiham etmir, — Dronqo dedi. — Hər bir adam sizin situasiyaya düşə bilərdi.

— Mən ki sənə deyirdim, Klavdiya, insanlar hər

şeyi düzgün başa düşəcək, — Perelman dedi. — Nahaq bu qədər narahat olurdun.

Onun arvadı susurdu.

— Alinaya nə olacaq? — o, nəhayət, soruşdu.

— Heç nə, — Potapov cavab verdi. — Bizim vəzifəmiz qatili tapmaqdır. Siz məhz nə gördüyünüzü bizə təfərrüatı ilə danışa bilərsiniz?

— O, yerdə sanki ağrıdan qıvrılmış şəkildə uzanmışdı. Amma gözləri açıq idi. Mən onun öldüyünü dərhal anladım, — Alina susdu. — O qorxulu mənzərə gözlərimin önündən heç vaxt getməyəcək... Mən heç Allaya da danışa bilmədim...

— Orda tapança yox idi ki? — Dronqo soruşdu. — Bəlkə o onun yanında idi? Bəlkə Qluşkov özünü güllələyib?

— Yox, — Alina qəti şəkildə cavab verdi, — yanında tapan-ça yox idi. Amma mən başa düşdüm ki, qətl az əvvəl baş verib. Onun qanı hələ qurumamışdı. Dəhşətli mənzərə idi...

— Siz evdə heç kimi görmədiniz?

— Heç kimi. Yoxsa mütləq qışqırardım. Mən bütün otaqları gəzdim. Kimsə olsaydı, görərdim. Ya da heç olmasa, hiss edərdim.

— Siz bilirdiniz ki, Fyodor Qriqoryeviç nadir sikkələr toplayır?

— Əlbəttə, bilirdim. O, onları mənə göstərmişdi. Am ma çoxdan. Mən hələ balaca qızcığaz olanda.

— Onun stolunun üstündə sikkələr olan albom yox idi ki?

— Yadımda deyil. Amma hətta olsaydı belə, fikir verməzdim.

— Bəlkə yadınıza salasınız?

— Yox. Mən heç bir albom görmədim.

Dronqo Potapova nəzər saldı.

— Mənim daha sualım yoxdur, — o, ayağa qalxaraq dedi. — Yalnız bircə məsləhətim var. Özünüzü bu qədər üzməyin, Alina. Siz baş verənlərə görə günahkar deyilsiniz. Sizin yerinizdə istənilən adam ola bilərdi...

— Amma mən dərhal hay-küy salsaydım, bəlkə də qatili tuta bilərdilər.

— Bu məlum deyil, — Dronqo etiraz etdi. — Düşünür-sü nüz ki, bu kənar adam olub?

— Əlbəttə. Onu qarət edib öldürüblər...

— Bu vacib deyil. Qluşkovu sizin qəsəbədə yaşayanlardan biri də öldürə bilərdi.

Alina diksindi. Atasına, daha sonra anasına baxdı. Karıxmış halda Dronqoya baxdı.

— Ciddi deyirsiniz? — soruşdu. Səsi titrəyirdi.

# IX HİSSƏ

Dronqo susurdu. O, sakitləşməyin bütün ailə üzvlərinə necə çətin başa gəldiyini görür və onların vəziyyətini anlayırdı. Ona görə daha heç nə dəqiqləşdirmədən ayağa qalxdı.

— Bağışlayın, — dedi, — sizi heç cür narahat etmək istə məzdim. Amma hərdən təhqiqat zamanı günahsız insanlara əziyyət vermiş olursan. Bir daha üzr istəyirəm.

O, çıxışa tərəf getdi. Potapov da üzrxahlıq edərək onun ardınca tələsdi. Onlar küçəyə çıxdılar.

— Bunun sizdə necə alındığını anlaınıram, — general dedi. — Niyə onlar müstəntiqlərə heç nə demir, amma sizə sanki günahları çıxarırmışsınız kimi ürəklərini boşaldırlar.

— Bəlkə də elə buna görə, — Dronqo cavab verdi. — Siz ki gördünüz, mən söhbəti necə başladım. Necə əsəbiləş diklərini görürdüm, ona görə də düşündüm ki, onları adət etdikləri tarazlıqdan çıxarım. Sonra Alina peyda oldu. Burda da nəzakət nümayiş etdirdim, öz stulumu ona verərək qəzəbli anası ilə hər şeyi danışmağa cəhd edən qızı arasında bir növ vasitəçi olmağa çalışdım. Alinanın hər şeyi danışmağa qərar verdiyini anlamışdım. Bircə ona kömək etmək qalırdı.

— Yalnız kömək, — Potapov deyindi. — Hərdən mənə elə gəlir ki, sizin istedadınız var. İnsanlarla danışmaq istedadı.

— Çalışıram, amma öz aramızdır, bu, həmişə alınmır... Artıq axşam saat beşdir. Bəlkə Romanovski gəlib? Axı bu gün şənbədir.

— Gedək onun yanına, — Potapov razılaşdı, — amma nəzə-rə alın: Romanovski akademik Perelman deyil. Sizin təcavüzkar taktikanız burda işə yaramaya bilər. Özü də iki gün əvvəl onun evində qadın olmayıb. Avstriyadan gələn oğlu ilə olub. Yeri gəlmişkən, bizdə olan məlumata görə, kiçik Romanovski sabah gecə geri — Vyanaya uçur. Əlbəttə ki, müstəntiqlər onunla danışıb. Amma yaxşı olar ki, siz də onu sorğu-sual edəsiniz. Nəzərə alın ki, mən Vsevolod Vitalyeviçə sizin rəsmi statusunuzu təsdiqləyə bilməyəcəyəm. Akademik Perelman Mühafizə Xidməti tərəfindən tutulmuş xüsusi ekspertlə prokurorluq müs tən-tiqini və ya FTX

əməliyyatçısını fərqləndirməyə bi lər. Amma Xarici İşlər nazirinin müavini bunu, yəqin ki, bilir. Biz bu işin içinə nə qədər çox giririksə, sizin avantüranız mənə bir o qədər şübhəli görünür. Deyəsən, mən cümə günü raport yazmalı idim.

— Bunu etməyə hələ vaxtınız olacaq, — Dronqo etiraz etdi. — Gedək Romanovskigilə.

Onlar çınqıl döşənmiş yolla gedirdilər. Perelmanın bağından Romanovskinin evinə ya birinci bağın ətrafından dolanaraq asfalt yolla, ya da cığırla birbaşa getmək olardı. Romanovskinin evinə çatan zaman qarşılarında ikimərtəbəli, sanballı bir ev gördülər. Birinci mərtəbənin pəncərələrində naxışlı çərçivələr var idi. Dronqo onları görüb maraqlandı və yaxına gəldi. Jukovka sakinləri adətən, pəncərələrə çərçivə salmırdılar. Qəsəbə mühafizə olunurdu. Ona görə bir çoxları, Perelmanlar kimi, heç bayır qapısını bağlamırdılar.

Qapı açıldı. Astanada ortayaşlı, alçaqboy bir kişi göründü. O, keçəltəhər idi. Dronqo onun qəhvəyi gözlərinə, bir qədər əyri burnuna və böyük çənəsinə diqqət yetirdi. Evinin pəncərəsinin yanında tanımadığı adamları görərkən narahat olmuşdu.

— Siz kimsiniz? — o, tələbkarlıqla soruşdu. — Sizə nə lazımdır?

Potapov ona tərəf yeridi.

— Mühafizə Xidmətindənik, — o, xidməti vəsiqəsini çıxardı. — Bu da sənədim.

Kişi vəsiqəyə diqqətlə baxıb onu Potapova qaytardı.

— Deməli, siz general-mayorsunuz, — o, hörmətlə dedi. — Bağışlayın, elə bildim, kənar adamsınız.

— Niyə kənar? — Potapov anlamadı.

— Siz iki gün əvvəl burda nə baş verdiyini bilirsiniz. Çox yersiz və qorxunc bir qətl. Bağışlayın ki, özümü təqdim etmədim. Sergey Vsevolodoviç Romanovski, Avstriyadakı Rusiya səfirliyinin müşaviri.

— Siz, kiçik Romanovskisiniz, — Potapov başa düşdü.

— Əgər atamın oğlu olduğumu nəzərdə tutursunuzsa, hə. Amma daha bir kiçik Romanovski var, mənim oğlum. Romanovskilərin uzun zəncirinin bir halqası.

O gülümsədi. Sergey Romanovski bataqlıq

rəngində əzik velvet, cins şalvar, rəngli köynək, onun üstündən də qolsuz köynək geyinmişdi.

— Keçin içəri, — Romanovski dəvət etdi. — Atam tez liklə gəlməlidir. Belə başa düşdüm ki, siz məhz onunla danışmaq istəyirsiniz.

— Sizinlə də, — Potapov dedi.

— Mənimlə? — Sergey Vsevolodoviç maraqlandı və çiyinlərini çəkdi: — Başa düşmürəm, mən sizin nəyinizə lazım ola bilərəm. Düşünürsünüz ki, qonşumuzu öldür mək üçün Avstriyadan durub bura gəlmişəm?

Dronqo gülümsündü. Səfirlik müşavirinin güclü yumor hissi var idi. Onlar Perelman və Qluşkovun evləri ilə müqayisədə xeyli böyük evə girdilər. Görünür, Romanovski hökumətdə keçmiş baş nazir müavinindən daha böyük nüfuza malik imiş.

— Buyurun, — Sergey Vsevolodoviç onları otağa də vət etdi. — Atam bura üç il əvvəl köçüb. Deyəsən, ona qədər burda prezidentin müşavirlərindən biri yaşayıb. Ümumiyyətlə, biz bura köçmək istəmirdik. Atam uzun müddət məhz bu bağdan imtina edirdi.

— Niyə? — Potapov soruşdu. — Burda onun nə xoşuna gəlmirdi?

— Siz burda nə baş verdiyini bilmirsiniz? — Romanovski gülümsədi. — Bütün Jukovka bu haqda bilir. Bura yaxın yerdə keçmiş xarici işlər nazirinin bağı var idi. Axı siz onun necə xoşagəlməz adam olduğunu bilirsiniz. O, amerikalılarla “eşqbazlıq” edərkən bütün diplomatlar onların siyasətinə “hə, hə” deməklə məşğul idilər. Razı olmayanları aradan götürürdülər, etiraz edənləri qovurdular. Onun bizim xarici siyasətimizə vurduğu ziyanı hələ uzun müddət xatırlayacağıq. Görünür, onun qonşularını belə xain nazir bezdiribmiş. Və günlərin bir günü nazirin bağı od tutub yandı. Yanğınsöndürənlər də heç nə edə bilmədi. Və ya etmək istəmədi. Ev büsbütün yandı. Hesab edirəm ki, onun bəxti gətirib: xarici işlər naziri kimi fəaliyyəti müddətində xəyanətkarlığına görə onu dünyanın istənilən sivil ölkəsində cinayət məsuliyyətinə cəlb edərdilər. Amma keçmiş epoxada bu mümkün deyildi. Onda bütün qonşular belə qeyri-adi üsulla öz protestlərini bildirdilər.

— Sizin atanız necə düşünür? — Dronqo böyük divana əyləşərək soruşdu.

— O da belə düşünür, — Romanovski kresloda

əyləşərək dedi, – amma köhnə qanunpərəst adam kimi keçmiş xarici işlər nazirinə bu şəkildə münasibət göstərilən bir qəsəbədə qalmağı özünə rəva bilmirdi.

– Yaxşı qəsəbəniz var, – Dronqo Potapova nəzər salaraq istehza ilə dedi. – Belə çıxır ki, Qluşkovun ölümü Jukovkada yaşanan birinci fövqəladə hal deyil. Bəlkə yenə qonşulardan ibarət sinklit toplaşaraq Qluşkova ölüm hökmü çıxarıb? Sizdə sinklit seçkilidir, yoxsa təyin olunur?

– Yaxşı versiyadır, – Sergey Vsevolodoviç gülümsədi, – amma Qluşkovla bağlı işdə yox. Bütün qonşular onu sevir və hörmət edirdi. O, çox səbatlı kişi idi. Hərçənd, bir qədər arvadbazlığı da vardı. Qadınların xoşuna gəlirdi və mənçə, hərdən öz mövqeyindən istifadə edirdi. Özü də o bir müddət dul qalmışdı. Mənçə, bu durum onun xoşuna gəlirdi. Bizim gənc qadınlar Qluşkovun üstünə "hücum çəkdilər". Əgər onu öldürüblərsə, bu, tamamilə qısqanclıq səbəbindən ola bilər. O, ikinci arvadı üçün ideal ər deyildi. Hərçənd, o şəxsən mənim xoşuma gəlirdi.

– Fyodor Qriqoryeviç sizin atanızla dostluq edirdi, – həmsöhbətinin bu qədər sərbəstliyini bəyənməyən Potapov ciddi şəkildə xatırlatdı.

– Elədir, – Sergey Vsevolodoviç şən halda razılaşdı. – Nə olsun ki? Onların ümumi maraqları var idi – sikkə kolleksiyası. Bilirsiniz, Qluşkovun və atamın kolleksiyaları hətta Vyana və Londona qədər gedib çıxıb. Hər ikisində nadir sikkə nüsxələri var. Hərçənd, atam deyir ki, onun kolleksiyası Fyodor Qriqoryeviçinkinin, sadəcə, miskin oxşarıdır. O, bütün ömrü boyu sikkə yığıb.

Potapov cəld Dronqoya baxdı.

– Onlar tez-tez görüşürdülər? – general dəqiqləşdirdi.

– Bilmirəm. Amma, mənçə, tez-tez görüşürdülər. Onların söhbəti tuturdu. Mənçə, Qluşkovun ölümü atama yaman təsir edib. Burda danışırlar ki, qonşumuzu qarət edib, sonra da öldürüblər. Amma mən bu versiyaya o qədər inanmıraın. Qluşkovu öldürmək kimin nəyinə lazımdır axı? Son illər o yalnız öz institutu ilə məşğul olurdu.

– Bəs sikkələr? – Dronqo söhbətə qarışdı.

– Nə? – Romanovski çaşdı.

– Özünüz dediniz ki, Qluşkovun nadir sikkə

kolleksiyası var idi.

— Sizə elə gəlir ki, onu sikkələrə görə öldürüblər? — Romanovski heyrətləndi və qanı qaraldı. — Demək, siz buna görə gəlmisiniz... Düşünürsünüz ki, atamın hansısa bir şəkildə bu cinayətdə əli ola bilər? Qluşkovun sikkələri itib?

— Bilmirəm, — Dronqo cavab verdi. — Yaxşı olar ki, bu haqda prokurorluq müstəntiqləri ilə danışasınız. Biz onun evində axtarış aparmamışıq. Bizi Qluşkovun evin də kənar adamların peydası ehtimalı maraqlandırır.

— Düşünürsünüz ki, məşhur numizmat və kolleksiyaçı atam bu işlə əlaqəli ola bilər?

— Yox, — Dronqo cavab verdi. — Bu mövzunu bu qə dər qabartmaq lazım deyil. Biz, sadəcə, faktları dəqiq ləşdiririk. Siz həmin axşam nə işlə məşğul idiniz?

— Yatırdım, — Romanovski gülümsədi. — Bunu məndən artıq iki dəfə soruşublar. İkinci mərtəbədə yatmışdım və Qluşkovun evinə sarı heç baxmırdım. Özünüz qalxıb yoxlaya bilərsiniz. Bizim yataq otağımızdan onun evi görünür, amma mən o tərəfə baxmırdım. Heç kimi də görməmişəm. Amma hətta kənar kimisə görsəydim də, buna heç bir əhəmiyyət verməzdim. Mən bağ qonşularını, xüsusən də Qluşkovun yeni qohumlarını və dostlarını yaxşı tanımıram. Gənc bir qadını görə bilmişdim. O evdən qaçanda mənə elə gəldi ki, bir qədər özündə deyil. Müstəntiqlərə heç nə demədim. Özüm də bilmirəm niyə. Yəqin ona yazığım gəldi. Onun qatil yox, qurban görkəmi vardı.

— Bəs niyə bu haqda müstəntiqlərə heç nə demədiniz? — Dronqo maraqlandı.

— Bilmirəm, — Sergey Romanovski çiyinlərini çəkdi. — Onlar səhər tezdən, mən atamın kabinetində işlədiyim zaman gəldilər. Ümumiyyətlə, bizim evə gəldiklərinə görə üzr istəyərək yanıltmac şəklində sorğu-sual etdilər. Atam bu vaxt işdə olduğundan onunla yalnız telefonla danışdılar. Qərəz, onlar bizi o qədər də narahat etmədilər, demək olar ki, heç bir sual vermədilər. Bizim nə etdiyimizi, kimi görə biləcəyimizi dəqiqləşdirirdilər. Uniformada olan adamlar gəlib eynitipli növbətçi suallar verəndə adam cavab vermək istəmir. Artıq söz — artıq problemdir. Mən kifayət qədər qısa cavablar verirdim. Onlar da dərhal çıxıb getdilər. Sonradan

düşündüm ki, gərək onlara gənc qadın haqda danışaydım...

— Və siz başqa heç nə sezmədiniz? — Dronqo növbəti sualını verdi.

— Yox, heç nə. Ən azından, mən heç bir quldur və oğru görmədim. Yoxsa ona dərhal fikir verər və bunu müstəntiqlərə danışardım.

— Siz yuxarıdakı yataq otağında olmusunuz, — Dronqo davam etdi. — Və dediniz ki, ordan Qluşkovun evindən çıxan adamları görmək olardı.

— Hə, — Sergey Vsevolodoviç təsdiqlədi, — nə olsun ki?

— Başqa heç kimi görmədiniz?

— Heç kimi, — onun yalnız bir saniyəliyə dili tutuldu.

İnsan qəsdən yalan danışmaq istəyəndə daha çətin olur. Şahidlərin və şübhəlilərin dindirilməsi üzrə ixtisaslaşmış ekspertlə söhbət zamanı da yalan danışmaq çətin olur. Romanovski gözlərini çəkdi. Onun həyəcanlandığı hiss olunurdu.

— Siz yatmağa neçədə getmişdiniz? — Dronqo dəqiqləşdirdi.

— Təqribən, saat 7-də. Və iki saat yatdım.

— Doqquza kimi?

— Hə.

— Avstriyada çoxdan işləyirsiniz?

— Altı ildir. Bu sizi niyə maraqlandırır?

— Moskvaya nə vaxt gəlmisiniz?

— Çərşənbə günü. Bilmək olar, mənə niyə belə qəribə suallar verirsiniz?

— Vyana ilə Moskva arasındakı vaxt fərqi iki saatdır, — Dronqo izah etdi. — Demək istəyirsiniz ki, Vyana vaxtilə axşam saat beşdə yatırsınız? Mənə elə gəlirdi ki, diplomatların daha gərgin qrafiki olur. Yoxsa həmin gün siz çox yorulmuşdunuz?

— Məni təzadlı fikirlərdə tutmağa çalışmayın, — Roma-novski hirsləndi. — Sizə dedim ki, yatmışdım. Və heç nə görməmişəm. Qadını da görməmişəm. Yəqin ki, o mə nim yuxuma girib. Başqa heç nə bilmirəm və daha si-zin-lə danışmaq istəmirəm. Əgər lazım olsam, məni rəs-mi çağırışla prokurorluğa və ya məhkəməyə çağıra bilər-siniz.

— Bəs siz onda danışacaqsınız ki, naməlum qadından başqa, atanızın da Qluşkovun evindən çıxdığını görmüsünüz? — Dronqo qəfil soruşdu.

Romanovski dondu. Susdu. Sonra sanki köpdürülmüş oyuncaqdan hava buraxılmış kimi büzüşdü. Amma özünü dərhal ələ aldı.

— Mən heç nə görməmişəm, — qəti şəkildə dedi. — Qaraqorxu gəlmək də lazım deyil. Siz heç nə bilmirsiniz, ona görə məni ilişdirmək istəyirsiniz. Köhnə fənddir. Amma sizdə heç nə alınmayacaq! Mən heç nə görməmişəm və eşitməmişəm. Yatmağa isə ürəyim istəyəndə gedə bilərəm.

— Bizdə videoyazı var, — Dronqo Potapovun üzünün necə dəyişdiyini görərək izah etdi. Amma artıq ona əhəmiyyət vermirdi.

— Nə videoyazı? — Sergey Vsevolodoviç anlamadı.

— Mühafizə Xidmətinin kameralarından biri Qluşko vun bağının yanında quraşdırılıb, — Dronqo izah etdi. — Videoyazıda mərhumun evinə yaxınlaşanların hamısı qeydə alınıb. Orda ən son olanlardan ikisi sizə tanış adamlardır...

O susdu. Potapov ah çəkdi. O artıq anlamışdı ki, Dron qo riskli yola girib. General düşündü ki, bu axşamdan başqa onların yalnız sabahkı günü qalır. Başqa heç nə. Birisigün səhər tezdən istefa ərizəsi yazmalıdır. Əlbəttə ki, əgər ona elə-belə çıxıb getməyə icazə versələr...

— Evdən sonuncu dəfə sizə məlum olan gənc qadın çıxıb, — Dronqo diqqətlə Romanovskini izləyirdi. — Amma ondan əvvəl evdə daha bir qonaq olub. Və siz böyük ehtimal ki, onu görmüsünüz. Siz onu tanımaya bilməzdiniz. Onun kim olduğunu deyim?

— Lazım deyil, — Sergey Romanovski küt səslə dedi. — Mən bilirəm.

— Siz onu görmüsünüz. Məhz buna görə siz heç nə xatırlamamısınız, hörmətli Sergey Vsevolodoviç. Siz qadın haqda danışmaq istəməmisiniz, çünki evə girən digər adam haqda da sual yaranacaqdı. Ona görə müstəntiqlərə heç nə deməmisiniz. Bu gün isə bizdən sikkələrin itməsini öyrənəndə anladınız ki, kolleksiyaçı qonşulardan birini Qluşkovun qətlinə necə bağlamaq olar. Və dərhal digər adamı təmizə çıxarmaq üçün qadın haqda danışmağa başladınız.

— Sizin adınız nədir? — Sergey Romanovski ikrahla gözlərini qıydı. — Komissar Meqre, yoxsa Erkül Puaro? Bəlkə siz Şerlok Holmssunuz? Sizə qulaq asılsa, dünyanın ən ağıllı adamısınız. Yoxsa siz

məmurları qorumaq əvəzinə, təhqiqatlar üzrə ixtisaslaşmısınız?

— Elədir ki var, — Dronqo gülümsəyərək təsdiqlədi, — ixtisaslaşmışam.

— Mən öz ortağımı sizə təqdim etməyi unutdum, — Potapov birdən pis gizlədilən təntənə ilə dedi. — Yalnız mən Mühafizə Xidmətində işləyirəm. Qarşınızdakı ekspert-analitik Dronqodur. Məhz cinayətlərin təhqiqatı üzrə dünyanın ən yaxşı ekspertlərindən biri.

— Dronqo? — Sergey Vsevolodoviç kreslosundan qalxaraq heyrətlə dedi. — Ola bilməz! Siz həmin Dronqosunuz?

# X HİSSƏ

Belə bir situasiyanın dadını yalnız bir neçə saniyəliyə çıxar-maq olar. Sonra işi xatırlamaq lazımdır. Dronqo öz popul-yarlığını sevmirdi və hətta bundan bir qədər ehtiyatla nırdı. Yaradıcı peşələrə, şou-biznes və incə-sənət – adamlarına bu qədər zəruri olan məşhurluq onun peşəsindən olan adamlar üçün tamamilə əks göstə-rici idi. O istəyərdi ki, tanınmasın. Anıma onun təhqi-qatlarının hər bir üzvü üçün hündürboy, enlikürək, geniş alınlı və nüfuzedici, istehzalı gözləri olan bu qladiator görkəmli adamı unutmaq asan deyildi. “Dronqo” adının özü ümumiləşirdi, getdikcə da-ha çox adam onun haqda öyrənməyə başlayırdı. Belə məş hurluq hərdən təhqiqatlar zamanı ona mane olurdu. –

– Adətən, məni Dronqo çağırırlar, – o, Potapova qorxunc bir nəzər salaraq razılaşdı.

General qazandığı zəfərin həzzini yaşayırdı. Hiss edirdi ki, Dronqodan Mühafizə Xidmətinin əlində olan videoyazı haqqında danışdığına görə qisas alıb.

– Sizin haqqınızda eşitmişəm, – Sergey Vsevolodoviç dərhal dedi, – amma mənə elə gəlirdi ki, siz də ədəbiyyat əsərlərinin digər uydurma qəhrəmanları kimi folklorun bir personajısınız. Düşünmürdüm ki, sizi şəxsən görə bilərəm.

– Hamısı əsldir, – Dronqo təsdiqlədi, – ayaqlar, əllər, baş. Amma şişirtmək lazım deyil. Mən adi ekspertəm.

– Ona görə təsadüfən Jukovkaya gəlmisiniz, – Romanovski çəpəki gülümsədi. – Nahaq bu işə baş qoşmusunuz, cənab Dronqo. Belə yerlərdə qatil axtarmaq olmaz. Bu, çox təhlükəlidir. Bundan başqa, heysiyyətinizi də incidə bilərsiniz. Siz hətta qatili tapsanız belə, onu həbs etməyə imkan verməzlər. Bu fəndgir nömrə sizlik deyil. Ondansa, adi cinayətkarlarla məşğul olun. Orda siz daha da ucalacaqsınız.

– Məncə, sizə ölkənizi Avstriyada necə təmsil etmək haqda məsləhətlər vermədim. Onda niyə siz mənə məsləhət verməyi mümkün sayırsınız? Yoxsa siz artıq başqa cinayətləri açmısınız?

– Haqlısınız, – Sergey Vsevolodoviç gülümsədi. – Qoy hər kəs öz işi ilə məşğul olsun.

Kimsə qapının zəngini basdı. Hər üç kişi bir-

birinə baxdı. Zəngi bir daha basdılar. Romanovski gülüm-səyə rək qapını açmağa getdi. Bir neçə dəqiqə sonra onun səsini eşitdilər:

— Axşamın xeyir.

— Salam, Sergey, — gələnin əmin səsi eşidildi.

— Bu, onun atasıdır, — Potapov yerindən qalxdı.

— Sizin içinizdə adicə yaltaq məmur oturub, — Dronqo qeyd etdi. — Nə vurnuxursunuz? Bəlkə elə Romanovski qonşusunu öldürərək onun kolleksiyasına sahib çıxıb? Kolleksiyaçılar arasında ağlagəlməz tiplərə rast gəlinir. Bunlar öz kolleksiyalarını artırmaq üçün hətta cinayətə belə hazır olan əsl fanatiklərdir...

— Bircə belə şeyləri onun yanında danışmayın! — Potapov dəhşətdən əlini yellədi. — Heç bir işarə olmasın, Dronqo! Unutmayın ki, o, xarici işlər nazirinin müavinidir. Ən yüksək həddə nəzakətli olmağa çalışın.

Kişi otağa girdi. O, ortaboylu idi. Böyük keçəl başı, Sergeydə olduğu kimi əyri burnu, daha iri, qəhvəyi gözləri və oxşar çənəsi vardı. Bahalı yun kostyum geyinmişdi. Dronqo gözlərini qıydı: "Kəşmir". Yəqin "Balansiaqa"dır. Amma qalstuku o qədər də dəbdəbəli deyildi. Güman ki, onu İtaliyadan alıb. Markası məlum deyildi. Hərçənd, açıq mavi rəngli köynəyin fonunda zolaqlı qalstuk pis görününürdü.

Romanovski qonaqlara sual dolu baxışlarla nəzər saldı. Dronqo və Potapov ayağa durdular. Nazir müavini onlara əl uzatmadan qısaca salamlaşdı. Kresloya tərəf gedib az əvvəl oğlu oturan yerdə oturdu. Oğlu yerinin tutulduğunu görüb gülümsəyərək divanın digər tərəfində olan kresloda yerini rahatladı.

— Beləliklə, — Romanovski dedi, — belə başa düşdüm ki, siz yenə mənim yanıma gəlməyə qərar verımisiniz. Sizi tanıyıram, Leonid Aleksandroviç, sizi hələ FTX-də işlədiyiniz vaxtlardan xatırlayıram. Ortağınızı isə birinci dəfədir görürəm.

— Ekspert–analitik Dronqo, — Potapov kolleqasını təqdim etdi.

— Lap yaxşı. Deyəsən, mənim oğlum onun haqda eşidib. Deyir ki, o güclü peşəkardır. Daha yaxşı. Sizə necə kömək edə bilərəm? Nəzərə alın ki, biz artıq dünən prokurorluq əməkdaşları ilə danışmışıq.

— Bu istintaq deyil, Vsevolod Vitalyeviç,

— Potapov yumşaq tərzdə qeyd etdi. — Biz ancaq söhbət etmək üçün gəlmişik.

— Dərhal da pressinq başladı, — Sergey Romanovski söhbətə qarışdı. — Onlar belə hesab edir ki, onları aldadıram. Məndən hey sikkələr və sizin görüşünüz haqda soruşurlar. Sanki sən Fyodor Qriqoryeviçin sikkələrini oğurlaya bilərsən. Sonra dedilər ki, onlarda sənin Qluşkovun evinə girdiyini göstərən videoyazı var.

Cansıxıcı sükut çökdü. Böyük-Romanovski qaşlarını çatdı. Dronqo düşündü ki, oğlu kifayət qədər ağıllıdır. Təhqir olunmuş ləyaqət bəhanəsi altında o, bir neçə cümlə ilə öz söhbətləri haqda atasına danışaraq ona optimal davranış xətti hazırlamağa kömək etdi.

— Hesab edirsiniz ki, mən Fyodor Qriqoryeviçi öldürə bilərəm? — Vsevolod Vitalyeviçin səsi sakit idi.

— Biz bunu demədik, — Potapov dərhal cavab verdi. — Mənim kolleqam sizin kolleksiyanızla maraqlanırdı. İş bundadır ki, Qluşkovun kolleksiyasının ən qiymətli eksponatları itib.

— Hansı eksponatlar? — böyük Romanovski yaxından maraqlandı.

— Nadir sikkələri saxladığı iki göy albom, — Potapov izah etdi.

— Hə, mən onlar haqda bilirəm, — Vsevolod Vitalyeviç qaşqabaqla etiraf etdi. — Onlar əntiqə nümunələr idi. Bəs niyə belə düşünürsünüz ki, onları oğurlayıblar? Onları elə-belə qoymurdu. Və demək olar ki, heç vaxt bağ evinə gətirmirdi. Biz onlara adətən, onun şəhər evində baxırdıq. Onları seyfdə saxlayırdı.

— Onlar orda yoxdur, — Dronqo dedi. — Heç harda yoxdur. Nə mənzildə, nə bağda. Onun arvadı isə belə hesab edir ki, kişi onları bağa aparıb.

— Qəribədir, — böyük Romanovski qaşlarını çatdı, — o, nadir hallarda belə edirdi. Və o albomlar itib?

— Hə. Prokurorluq müstəntiqləri hesab edir ki, onları qatil götürüb.

— O necə ölüb? — Vsevolod Vitalyeviç qaşqabaqla soruşdu.

— Kimsə ona yaxınlaşaraq atəş açıb. Qatil qurbanın çox yaxınında olub. Yalnız bir atəş. Buna baxmayaraq, heç kim heç nə eşitməyib.

— Sizə elə gəlir ki, mən gedib qonşumu güllələyərək onun sikkələrini oğurlamışam? Bütün bunlar həddən artıq axınaqlıq deyil? Hərçənd ki, istənilən kolleksiyaçı o nüsxələri arzulayır. Amma mənim Qluşkovu öldürdüyümü düşünmək... Bu mənim üslubum deyil, cənablar. Cəsarətlə deyə bilərəm ki, biz dost idik. Bir-birimizi çox yaxşı başa düşürdük.

— Qluşkovun sikkələrinin əsl dəyəri haqda sizdən başqa daha kim bilirdi? — Dronqo maraqlandı.

Nazir müavini susdu. Sonra qəti şəkildə dedi:

— Əslində, heç kim. Mənə elə gəlir ki, burda Qluşkovdan və məndən başqa numizmat yoxdur. Daha doğrusu, yox idi. İndi mən tək qaldım.

— Sikkələrin əsl dəyəri haqda yalnız siz bilirdiniz? — Dronqo əl çəkmədi.

— Düşünürəm ki, hə.

— Bir də mən, — Sergey Romanovski qəfildən dedi. — Mənim də sikkələrdən bir az başım çıxır. Uşaqkən onları təsnifatlaşdırmaqda atama kömək edirdim.

— Sənin bura nə dəxlin var! — atası həyəcanlandı. — Özünə böhtan atmaq lazım deyil. Sən numizmat deyilsən, diplomatsan.

— Siz də diplomatsınız, — Dronqo xatırlatdı, — amma bu sizə ölkənin ən məşhur numizmatlarından biri olmağa mane olmur.

— Sergey heç vaxt kolleksiyaçı olmayıb, — böyük Romanovski qəti şəkildə etiraz etdi. — Onun sözlərinə fikir verməк lazım deyil. O yatmışdı və heç nə görməyib...

— Mən onlara Qluşkovun evindən gənc qadının çıxdığını gördüyümü dedim, — oğlu dedi.

— Sən heç nə görə bilməzdin, — atası əsəblə dedi. — Sən axı həmin vaxt yatırdın... Perelmanın qızı haqda danışmaq lazım deyildi. O təsadüfən orda olub.

— Onun qonşunuzun qızı olduğunu hardan bilirsiniz? — Dronqo soruşdu.

— Sergeyin sözlərindən, — Vsevolod Vitalyeviç izah etdi. — O, qadının görkəmini təsvir edərkən mən onun Ab ram Moiseyeviçin qızı Alina olduğunu anladım. Qluşkov deyirdi ki, Alina onun qızı ilə bir sinifdə oxuyub.

— Onların hansısa münasibəti var idi?

— Bilmirəm, cavan oğlan. Mənə belə suallar

vermək lazım deyil. Öz evimdə onları eşitmək mənə xoş deyil. Qluşkovla qadınlar arasındakı münasibətlər haqda heç nə bilmədən bu suallara cavab verə bilmərəm. Bilmək də istəmirəm.

— Bağışlayın, sizi təhqir etmək istəmirdim. Siz onu Qluşkovun evində görmüşdünüz?

— Bir, ya iki dəfə. O da çoxdan. Yox, deyəsən onun yubileyinə gəlmişdi. Dəqiq xatırlamıram.

— Oğlunuz Mühafizə Xidmətinin əlində olan videoyazı haqda artıq danışıb. Orda sizin Qluşkovun evinə doğru getdiyiniz qeyd olunub.

— Sizdə mənim Qluşkovun evinə girdiyimi göstərən videoyazı var? — Romanovski dəqiqləşdirdi.

— Yox. Orda yalnız sizin evə tərəf yollandığınız görünür.

— Doğrudur. Təqribən axşam saat 7-də mən evdən çıxıb Qluşkovgilə yollandım. Biz çoxdandır görüşməmişdik, ona görə numizmatlar klubunda mənə təklif olunan yeni sikkələrlə bağlı onunla məsləhətləşmək istəyirdim. Külli miqdarda pul istəyirdilər, məndə isə o qədər yox idi. Evə yaxınlaşanda orda sakitlik idi. Əvvəlcə zəngi basdım, sonra qapını döydüm. Qapı açıq idi. Bərkdən Fyodor Qriqoryeviçi çağırdım, amma mənə heç kim cavab vermədi. Onda mən qapını örtüb evə gəldim. Əxlaqlı bir adam kimi içərisində adam olmayan evə girə bilməzdim.

— Siz qapını bərk bağladınız? Kilid bağlandı?

— Yox. Mən onu əvvəl örtüldüyü kimi örtdüm. Bizim qəsəbədə qapıları kilidlə bağlamaq qəbul olunmayıb. Cümə axşamına kimi elə bilirdik ki, bizim etibarlı mühafizəmiz var.

— Siz evə girmədiniz? — Dronqo dəqiqləşdirdi.

— Demək olar ki, kandarda dayanmışdım. İstənilən halda mənim barmaq izlərimi orda tapmayacaqsınız. Yalnız zəngin düyməsində ola bilər.

— Yox, — Dronqo etiraz etdi. — Səhər Qluşkovun sürücüsü gəlib bir neçə dəfə zəngi basıb. Və bütün əl izlərini silib — əgər onlar orda olublarsa! Amma videoyazıdan görünür ki, siz evə tərəf gedirsiniz. Düşünürəm ki, oğlunuz sizin Qluşkovun evindən çıxdığınızı görüb.

— Mən heç nə görməmişəm, — Sergey Vsevolodoviç qəzəblə söz güləşdirdi.

— Ola bilər, — Dronqo razılaşdı, — amma atanızın

Qluşkova axşam viziti haqda danışdığını eşitdiniz.

— O mənə heç nə deməyib, — Sergey odlandı. — Mən heç nə görməmişəm.

— Qluşkovun evindəki sakitlik sizə şübhəli görün mədi? — Dronqo böyük Romanovskidən soruşdu.

— Yox. Son zamanlar bağda heç kim qalmırdı. Qızı İsveçə köçmüşdü, arvadı ilə oğlunun arvadı arasında isə barışmaz ziddiyyət var idi. Ona görə nəvələri nadir hallarda bağda görünürdülər. Bu səbəbdən evdə heç kimin olmamağı məni təəccübləndirmədi. Düşündüm ki, Fyodor Qriqoryeviç gəzməyə çıxıb.

— Başqa heç nə sezmədiniz?

— Yox, heç nə. Albomları da mən götürməmişəm — əgər bu haqda soruşmaq istəyirsinizsə.

— Sizə klubda təklif olunan sikkəni isə qonşunuza göstərmək qərarına gəlmisiniz, — Dronqo əminliklə dedi.

— Siz hardan bilirsiniz? — Romanovski təəccübləndi.

— Ehtimal etdim. Siz evə yaxınlaşarkən əlinizdə balaca bir bağlama olub. Mən belə düşündüm ki, siz onu alması üçün qonşunuza aparmısınız. Bəlkə düz demirəm?

— Hər şey belə sadədir, — Vsevolod Vitalyeviç burnunun altında dedi. — Təəccüblüdür, amma siz haqlısınız! Sikkə məndə idi və istəyirdim ki, Fyodor Qriqoryeviç onu alsın. Amma onu evdə tapmayıb geri qayıtdım. Mənim bütün hekayəm budur.

— Niyə bu haqda müstəntiqlərə danışmamısınız?

— Onlarda sizin videoyazınız yox idi, — Romanovski dərhal cavab verdi, — ona görə onlar mənimlə belə danışmağı özlərinə rəva görməzdilər. Bundan başqa, onlar bizim klubdakı yeni sikkə haqda da heç nə bilmirdilər.

— Sizdən sonra Perelmanın qızı evə girib və Qluşkovu ölü vəziyyətdə tapıb. Necə olub ki, siz bunu görməmisiniz?

— Onu harda tapıb? Birinci mərtəbədə?

— Yox, ikinci. O, tapança atəşi ilə öz kabinetində öldürülüb.

— Görürsünüz, deməli, o, ikinci mərtəbəyə qalxıb. Amma mən bunu etmədim. Biləndə ki evdə heç kim yoxdur, çıxıb getdim. Mənim yerimdə istənilən ədəbli adam belə edərdi. Sizə deyə biləcəyim başqa heç nə yoxdur. Görünür, gənc qadın

məndən daha cəsarətli çıxıb. Amma mən dəvət olunmuramsa, başqalarının evinə girməyə adət etməmişəm.

— Əgər siz ikinci mərtəbəyə qalxsaydınız, mərhumu görərdiniz və onda ola bilsin ki, müstəntiqlərə qatili tapmaq daha asan olardı, — Dronqo qeyd etdi.

— Ola bilər, — Romanovski razılaşdı, — amma bunun üçün ikinci mərtəbəyə qalxmalı idim. Hardan biləydim ki, orda qətl baş verib? Yoxsa ona kömək etmədiyimə görə məni ittiham etmək istəyirsiniz?

— Bildiyimə görə, sizin köməyiniz heç nəyi dəyiş məyəcəkdi, — Dronqo etiraz etdi. — Güllə Qluşkovun düz ürəyinə dəyib, onun xilas olmaq üçün heç bir şansı yox idi. Amma biz, heç olmasa, onun nə vaxt öldürüldüyünü bilərdik.

— Gözləyin, — Romanovski onu jestlə dayandırdı. — Siz niyə belə əminsiniz ki, onu mən gələnə qədər öldü rüblər? Bəlkə mən ora yaxınlaşanda o, binanın o biri tərəfində gəzişirmiş. Mən gedəndən sonra qayıdıb və dərhal öldürülüb. Ona görə Perelmanın qızı onu tapıb. Belə bir variantı tamamilə istisna etmisiniz?

Potapov Dronqoya nəzər saldı. O, başını yellədi.

— Bu variantı da ehtimal edirəm. Amma istənilən halda bu, qəhvə çöküntüsündəki fala bənzəyəcək. Biz heç nəyə əmin ola bilmərik.

Sergey Romanovski dərindən ah çəkdi.

— Təəssüf ki, onu öldürüblər. Amma mənə elə gəlir ki, siz, sadəcə olaraq, vaxt itirirsiniz. Qatili tamam başqa yerdə axtarmaq lazımdır. Sizə elə gəlmir ki, qonşulardan başqa, ayrı şübhəlilər də ola bilər?

— Nə mənada? — Potapov qaşqabaqla xəbər aldı.

— Sizin mühafizəçiləriniz, — Sergey Vsevolodoviç gülümsədi. — Onların arasında Qluşkovun kolleksiyasından xəbər tutan və silah işlədə bilən adam ola bilər. Razılaşın ki, qatili nazirlər və akademiklər arasında yox, ən azından silah işlədə bilən mühafizəçilər arasında axtarmaq lazımdır.

İndi də Dronqonun Potapova baxmaq növbəsi idi. Bununla yanaşı, Dronqo gülümsəyirdi. Onların bütün variantlarını kənar edən yeni versiya xoşuna gəlmişdi.

— Biz öz adamlarımızı yoxlayırıq, — Potapov istəmədən etiraf etdi. — İki gün əvvəl Jukovkada

növbədə olan bütün mühafizəçiləri yoxlamışıq. Onların silahını da, mümkün əlaqələrini də araşdırmışıq... Bizim heç bir şübhəmiz yoxdur. Ümumiyyətlə, biz öz əməkdaşlarımıza etibar etməyə alışmışıq.

— Belə qısa müddətdə siz onların hər birini yoxlaya bilməzsiniz, — Sergey Romanovski ibrətlə dedi. — Öz adamlarınıza daha diqqətlə yanaşmaq lazımdır, cənab general!

— İcazə verin, situasiyanı izah edim, — Dronqo Potapovun köməyinə yetişdi. — Məsələ burasındadır ki, sizin qonşunuzu adi tapançadan öldürməyiblər. Bu, İtaliya istehsalı olan "Bernardelli P-18 kompakt" tipli tapançadır. Belə bahalı silah ayda cəmi yüz dollar alan adi mühafizəçidə ola bilməz. Razılaşın ki, belə bahalı tapança adi mühafizəçidən daha çox nazir və ya akademikdə ola bilər, — Dronqo açıq-aşkar həmsöhbətinə sataşdı.

— Bernardelli, — kiçik Romanoski atasına baxdı. — Çox bahalı modeldir.

— Sizin silahlardan başınız çıxır? — Dronqo təəccübləndi.

— Bir az. Mən biatlon üzrə yarışlarda iştirak etmişəm, ona görə bəzi silahları tanıyıram. O cümlədən də tapançaları.

— Deməli, siz də peşəkarsınız, — Dronqo gülümsədi.

— İşarənizi başa düşmürəm, — böyük Romanovski dedi. — Mənim oğlum peşəkar diplomatdır və ölkəmizin Avstriyadakı səfirliyində müşavirdir. Ümid edirəm, onun iki gün əvvəl Jukovkada tamamilə təsadüfən peyda olduğunu dərk edirsiniz. Onun evində təmir gedir, mənim şəhərdəki mənzilimdə isə heç kim yoxdur. Arvadım xəstəxanada yatır, bunu yoxlaya bilərsiniz. Məhz buna görə o, bağa gələrək mənim yanımda qalır.

— Sizi heç kim ittiham etınir, — Potapov onu sakitləşdirmək üçün tələsdi. — Biz ancaq nələrisə dəqiqləşdirmək istəyirik.

— Sizə və oğlunuza sonuncu sualım, — Dronqo dedi. — Atanız gələnə kimi siz dediniz ki, keçmiş qonşunuz yaxşı adam olsa da, arvadbaz idi. Öyrənə bilərəm, bu sözlərlə nə demək istəyirdiniz? Və nəyə görə sizdə belə bir təəssürat yaranıb?

Atası oğluna sərt nəzər saldı. Oğlunun boşboğazlığı xoşuna gəlməmişdi. Sergey

Vsevolodoviç mısmırığını salladı. O düşünmürdü ki, Dronqo onu beləcə pis vəziyyətdə qoymağa cürət edə bilər.

— Mən nəzərdə tuturdum ki... düşünürdüm ki... o, qadınların xoşuna gəlirdi, — kiçik Romanovskinin dili dolaşdı.

— Mənə elə gəldi ki, siz daha konkret bir şeyi nəzərdə tutursunuz, — Dronqo əl çəkmirdi.

— Onun nəyi nəzərdə tutduğu artıq sizə izah olundu. Özü də mərhum haqda belə təfərrüatları soruşmaq heç də xoş deyil, — böyük Romanovski sərt şəkildə qeyd etdi.

— Əksinə, — Dronqo etiraz etdi, — məhz belə təfərrüatlar həqiqəti bərqərar etməyə kömək edir. Siz ki qatilin tapılmağını istəyirsiniz!

Vsevolod Vitalyeviç lənətləyərək üzünü çevirdi. O artıq oğlunu axırıncı sualdan qorumaq fikrində deyildi. Sergey ümidsizcə atasına baxıb birdən dedi:

— Bu haqda çoxları bilirdi...

— Nə haqda? — Dronqo diplomata sonuna qədər təzyiq göstərməyə qərar verdi.

— Gənc və gözəl qadınlar onun xoşuna gəlirdi, — Sergey Romanovski karıxmış halda cavab verdi, — və yəqin ki, qonşularımızdan da kimsə onun xoşuna gəlirdi...

— Məsələn, — Dronqo geri çəkilmədi.

— Perelmanın qızı, — Sergey Romanovski bu sözü dedikdən sonra rahatlıqla nəfəs dərdi.

— Vəssalam?

— Bəlkə daha kimsə var, mən bilmirəm... Bilmirəm. — Onun bərk həyəcanlandığı hiss olunurdu.

— Lopatinin arvadı da onun xoşuna gəlirdi?

— Lopatinin bura nə dəxli var? — Atası anladı ki, mütləq söhbətə — qarışmalıdır. — Oğlumu bu şəkildə sorğu-suala tutmağınız xoşuma gəlmir. Bunlar çirkin işarələrdir. Sa bah sizin rəhbərliyinizə bu haqda bildirməli olacağam...

— Çox sağ olun, — Dronqo ayağa durdu. — Biz bitirdik. Narahat etdiyimiz üçün bağışlayın, Vsevolod Vitalyeviç. Siz də Sergey Vsevolodoviç.

Onun sözlərindəki kinayəni hiss etməmək mümkün deyildi. Hər iki diplomat heç bir söz demədi və Dronqo ilə Potapov evdən çıxanda heç yerlərindən durmadılar.

# XI HİSSƏ

Onlar küçəyə çıxanda Potapov dəsmal çıxarıb alnını sildi.

— Siz Romanovskilərlə elə danışırdınız ki, — o, bir qədər narazılıqla dedi, — sanki cinayəti onlardan biri törədib.

— Onların heç biri mənim xoşuma gəlmədi, — Dronqo tutqun şəkildə dedi, — biri evi müşahidə edərək ordan kimin çıxdığını görüb, digəri isə evdə olub və bunu müstəntiqlərə deməyi “unudub”.

— Məncə, onu başa düşmək olar, — Potapov qeyd et di. — Hamı onun kolleksiyaçı olduğunu bilir. Özü də o, Qluşkova təklif etmək üçün əlində qiymətli sikkə ilə gə-lib. Evdə heç kimin olmadığını görüb qayıdıb. Onun yerində olsaydım, mən də belə edərdim.

— Sizdə eyni məmur psixologiyasıdır, — Dronqo başını buladı. — Artıq axşam saat 7-dir, — o, saata baxdı. — Ola bilsin, Lopatinlər gəlib və biz onlarla danışa bilərik.

— Siz artıq Mixail Nikolayeviçlə danışmısınız, — Potapov xatırlatdı. — Məncə, insanlarla münasibəti korlamaq məqsədəuyğun deyil. Mən onsuz da istefa verməli olacağam. Amma unutmayın ki, mən general təqaüdüm əlimdən çıxandan sonra harasa işə düzəlməliyəm.

— Əgər biz qatili tapmasaq, siz təkcə iş və general təqaüdünüzü yox, eləcə də harasa işə düzəlmək perspektivinizi itirəcəksiniz, — Dronqo qəddarcasına dedi. — Ona görə siz var gücünüzlə mənə kömək etməlisiniz.

— Onsuz da əlimdən gələni edirəm. Həqiqi sözümdür, əgər bu gedişlə qatili tapsanız, mən hamının yanında sizi dahi adlandıracağam. Yeri gəlmişkən, biz iki gündür şəhərdə ora-bura qaçışırıq, amma hələ ki, bir nəticə yoxdur.

— Mənə elə gəlir ki, biz çox şey öyrənmişik, — Dronqo etiraz etdi. — Hər necə olsa, biz Lopatinlərlə danışmalıyıq. Əlbəttə ki, əgər etiraz etməsəniz.

— Mən artıq hər şeyə razıyam, — Potapov əlini yellədi.

Onlar Lopatinlərin evinə sarı yollandı. Əraziyə

girişdə iki nəfərin oturduğu, narıncı rəngli “Kraysler Voyadcer” dayanmışdı. Onun yanında tünd göy rəngli “Mersedes S-klass” dayanmışdı. Yaxınlaşmaqda olan naməlum adamları görəndə “Krayslerdəki” kişilərdən biri maşından düşdü.

— Siz kimsiniz? — qaşqabaqla soruşdu.

— Bu nə sualdır? — Potapov üz-gözünü turşutdu. — Sizi bura kim buraxıb? Siz burda neyləyirsiniz?

— Öz yolunla get, ay kişi, — maşından düşən dedi.

İkinci naməlum adam da maşından düşdü.

— Sənədlərinizi göstərin, — Potapov tələbkarlıqla əmr etdi. — Siz burda neyləyirsiniz? Sizi niyə qəsəbəyə buraxıblar?

— Sənə deyirlər, sürüş burdan, — birinci dedi.

— Gözləyin, — Dronqo söhbətə qarışdı. — Kobudluq etmək nəyə lazım? Şübhə etmirəm ki, siz burda ali dövlət adamını qoruyursunuz. Amma əvvəlcə kiminlə danışdığınızı bilin.

— Bunun bizə dəxli yoxdur, — maşından birinci düşən yekəpər oğlan dedi və sanki hücum gözləyirmiş kimi Dronqonun gözlərinə baxdı. — “Kobud”a görə cavab verəcəksən! — O, əlini qaldırdı.

Dronqo kənara bir addım atdı.

— Lazım deyil, — o barışdırıcı tərzdə dedi. — Gəlin, fikir ayrılığımızı müzakirə edək...

— Ay səni!..

Birinci söyüş söyüb ona tərəf bir addım atdı. Dronqo ona tərəf təəssüflə baxdı və birdən sağ əli ilə qəfil zərbə en-dirdi. O, xırıldayaraq böyrü üstə yerə sərildi. İkinci təəccüblə — Dronqoya baxdı. Mühafizənin dörd nəfər əmək daşı artıq onlara tərəf qaçırdı.

— Bu odur! — İkinci naməlum adam Dronqonu gös tərdi. — Tutun onu!

Amma gələn əməkdaşlar Dronqonu yox, onun ortağını tutdu.

— Siz nə edirsiniz? — o dartınaraq qışqırdı. — Onlar bizə hücum etdilər!

— Bağışlayın, yoldaş general, — mühafizə əməkdaş-la rın-dan biri Potapova müraciətlə dedi. Bu, Çislov idi. — İndi onları burdan rədd edərik.

— General?! — Dronqonun yıxdığı pəzəvəng dedi. — Siz generalsınız?

— Mən ki sənə dedim, əvvəl danışmaq lazımdır, sonra yumruqlamaq! — Dronqo başını buladı.

— Bunlar kimdir? — Potapov sərt halda soruşdu. — Bunlar bura necə düşüblər?

— Lopatinin sürücüsü və köməkçisidir, — Çislov izah etdi. — Onların daimi buraxılışı var və bağın keşiyini çəkirlər. Əlavə mühafizəçi qismində. Axşam getməyə söz veriblər.

— Öz mühafizəçilərimiz kifayət edir, — Potapov dedi. — Amma istəyirlərsə, qala bilərlər. Ancaq camaatın üstünə hücum çəkməsinlər. Buraxın onları.

Mühafizə Xidmətinin əməkdaşları bir addım geri çəkildi.

— Gedə bilərsiniz, — Potapov əmr etdi.

— Bağışlayın, cənab general, — Lopatinin sürücüsü dedi.

— Bizdə belə müraciət etmirlər, — Potapov ciddi halda qeyd etdi. — Biz "yoldaş general" deyirik. Hər keçəni də düşmən saymaq lazım deyil. Bu qəsəbədə yaxşı mühafizə var. Burda normal adamlar yaşayır.

Son sözləri deyərkən o, Dronqoya baxdı və qaşqabağını salladı. Sonra Lopatinin evinə tərəf getdi. Dronqo da onun arxasınca düşdü. Potapov astanada qapının zəngini basdı. Evdən bərkdən qadın səsi gəldi. Görünür, arvadı ərindən qapını açmağını istəyirdi. Bir müddət sonra qapı açıldı. Lopatin əynində idman şalvarı və mayka, ayağında şapşapla astanada dayanmışdı. Potapov və Dronqonu görüb mısmırığını salladı.

— Mənim ruhum üçün gəlmisiniz? — o, yorğun halda soruşdu. — Belə qərar vermisiniz ki, məni xüsusi "işgəncə ilə" sorğu-sual etmək lazımdır?

— Bağışlayın, Mixail Nikolayeviç, bizim ekspert sizinlə danışmaq istərdi, — Potapov dedi.

— Görürəm, — Lopatin kənara çəkildi ki, onlara içəri keçməyə imkan versin. Ondan hiss olunacaq dərəcədə spirt iyi gəlirdi. — Bağışlayın, mən əynimi dəyişim. Elə bilirdim ki, heç olmasa, axşam dincələ bilərəm. — O, asılqandan tünd rəngli köynək götürüb geyindi.

— Kimdir gələn? — yuxarıdan həmin qadın səsi gəldi.

— Mənim yanıma gəliblər, — Lopatin narazılıqla qışqırdı. — Otağa keçin, — o bir qədər ləngərlənib təklif etdi.

Böyük otaqda kiçik stolun ətrafında yarımdairə

şək lin-də iki divan, dörd kreslo, eləcə də üstündə müxtəlif içkilər olan təkərli kiçik masa vardı. Lopatin kresloda otu-rub qonaqlara müraciətlə soruşdu:

— Mənim zırramalarım sizi saxlamadı?

— Çalışdılar, — Potapov gülümsədi, — amma bizim eks pert onlara nə qədər haqsız olduqlarını başa saldı. Elə mə-nim əməkdaşlarım da yaxında idi.

— İşçiciklər, — Lopatin başını bulayaraq telefonu çıxardı və nömrə yığdı.

— Saşa, — öz sürücüsünə dedi. — Gedə bilərsiniz. Sizin heç bir faydanız yoxdur. Vəssalam. Bitdi. Sabah səhər mə-nə zəng edərsən. Yox, gəlmək lazım deyil.

O, telefonu yığışdırdı.

— Bu mənim ikinci sürücümdür, — dərindən ah çəkib izah etdi. — Birinci düz yerdə ayağını sındıra bilib. İndi mən onun sağalmağını gözləməliyəm. Bu isə heç nə bilmir və heç nə başa düşmür.

— Siz öz həyatınız üçün qorxursunuz? — Dronqo soruşdu.

— Niyə belə düşünürsünüz?

— Sizin sürücünüz və mühafizəçiniz evin yanında dayanıb heç kimi buraxmırdı.

— Bu, mühafizəçi deyil, köməkçidir, — Lopatin cəld dedi. — Mənə statusuma görə mühafizəçi verilmir. Yalnız baş nazirə və güc strukturlarının rəhbərlərinə verilir.

— Gömrük Komitəsi bunlara aid deyil? — Dronqo gülümsədi.

— Biz adi federal idarəyik, — Lopatin cavab verdi. — Nəsə içəcəksiniz?

— Çox sağ olun, mən demək olar ki, içmirəm.

— Bəs siz, Leonid Aleksandroviç?

— Bir az viski.

— Buz da qoyum?

— Yox, çox sağ olun. Mən təmiz xoşlayıram.

Lopatin enli stəkan götürüb tünd göy etiketli butulkadan viski süzdü. Dronqo viskinin bu növünü tanıdığına və onun qiymətini bildiyinə görə gülümsündü. Gömrük Komitəsinin rəisi açıq-aşkar dolanışıqdan korluq çəkmirdi.

— Siz dediniz ki, Gömrük Komitəsinə təyinatı Qluşkov sayəsində almısınız, — Dronqo xatırlatdı. — Bəs buna qədər harda işləmisiniz?

— Nazirlər Kabinetində.

Lopatin özünə etiketsiz butulkadan konyak süzdü. Onları, üstündə iki birləşmiş kitab şəkli olan

karton qutudan çıxardı. Bu, seçmə "Hennesi" idi.

— Mən Maliyyə Nazirliyində, daha sonra Nazirlər Kabinetində məsul vəzifədə işləmişəm. Sonra isə Gömrük Komitəsinə keçdim, — Lopatin izah etdi.

O, konyakdan bir qurtum içdi. Hiss olunurdu ki, içkilərdən yaxşı başı çıxır.

— Siz Qluşkovun uşaqlarını yaxşı tanıyırsınız? — Dronqo növbəti sualı verdi.

— Əlbəttə. Əri ilə birlikdə Allanı da, Oleqi də. Mən hər ikisinin toyunda olmuşam. Ona görə Fyodor Qriqoryeviçin ölümü bizim ailə üçün böyük sarsıntı idi.

— Onunla tez-tez ünsiyyətdə olurdunuz?

— Yox. Axır vaxtlar gec-gec. Təəssüf ki... Mən işdə çox məşğul oluram. Ona görə onunla nə danışmaq, nə də görüşmək imkanım olurdu. Düzü, öldüyü gün mən ona zəng vurmuşdum. Bizdə bir məsələ var idi, onunla məsləhətləşmək istəyirdim. Prokurorluğun müstəntiqləri ilə bu haqda danışmışam. Bilmirəm onlar nə işlə məşğul olur, siz nə işlə məşğul olursunuz. İstənilən halda, gizlədiləsi bir şey yoxdur. Mənim zənglərimi asanlıqla yoxlamaq olar. İki dəfə zəng etmişəm — günorta və axşam. Həmin gün daha danışmamışıq. Heç ağlıma da gəlməzdi ki, hər şey belə bitəcək.

— Siz onun evində olmusunuz?

— Demək olar ki, yox. Mən həftənin yeddi günü, sutkada 16-18 saat işləyirəm. Elə onun da belə yüklü qrafiki var idi. Bizim hər ikimizə ünsiyyət üçün vaxt udmaq çətin olurdu. Hərçənd, mən həmişə onun özünü necə hiss etdiyini öyrənməyə çalışırdım. Birinci arvadının ölümü Fyodor Qriqoryeviçə çox pis təsir etmişdi. Yaxşı ki, Veronika Andreyevna ona dəstək ola bildi.

— Mən sizin arvadınızı onun evində gördüm.

— Əlbəttə. Başqa necə ola bilərdi ki?! Arvadımla biz Veronika Andreyevnanın yanına getməyi özümüzə borc bildik...

Yuxarıdan yenə qadın səsi gəldi. Lopatin qaşlarını çatdı. Sonra pilləkəndə addım səsləri eşidildi. Lopatin burnunun altında üzrxahlıq edərək ayağa durub koridora çıxdı.

— Nə olub? — qadın səsi gəldi. — Gələn kimdir?

— Onlar mənimlə danışmaq istəyir, — Lopatin arvadının gəlişindən açıq-aşkar narazı idi.

— Yenə müstəntiqlər? — o bərkdən

soruşdu. – Bu artıq biabırçılıqdır! Yoxsa onlar elə düşünür ki, sən Qluşkovu öldürə bilərsən?

– Belə bərkdən danışma, – əri ona təpindi.

Dronqo ayağa durub qonaq otağından çıxdı. Ər-arvad pilləkəndə dayanmışdı. O gələndə hər ikisi başını ona tərəf çevirdi. Lopatinin arvadı ipək xələtdə idi. Gəlincik kimi üzündə ifrat dərəcədə kosmetika vardı.

– Bağışlayın, – Dronqo burnunun altında dedi, – mən sizin arvadınızla da danışmaq istərdim, Mixail Nikolayeviç. Əlbəttə, sizin icazənizlə.

Lopatinin arvadı təəccüblə ərinə baxdı. Əri ondan 1520 yaş böyük olardı. Qadın onun qərarını gözləyirdi.

– Başa düşmürəm, arvadımın bura nə dəxli, – Lopatin dedi, – o dincəlmək istəyirdi.

– Mənim ona cəmi 3-4 sualım var, – Dronqo israr etdi.

– Yaxşı, – Lopatin razılaşdı. – Nelli, bizim yanımıza gəl, danışaq. Amma xələtdə yox. Əynini dəyiş.

Arvadı başını tərpədib yuxarı çıxdı. Dronqo və Lopa tin qonaq otağına girdilər.

– Sizi nə maraqlandırır? – Lopatin qaşqabaqla maraqlandı.

– Əhəmiyyətli heç nə. Mən baş verənlərin ümumi rəsmini qurmalıyam. Arvadınız sizin fikir vermədiyiniz bəzi xırdalıqları sezə bilər.

– O, nə sezə bilər? Düşünürsünüz ki, həmin axşam o, Qluşkovun evində olub?

– Əlbəttə, yox. Amma adətən, qadınlar xırda detallara kişilərdən daha çox diqqətcil olurlar. Özünüz dediniz ki, həmin axşam evin ətrafında gəzişirdiniz. Ola bilsin, o kimisə görüb...

– Əgər o kimisə görsəydi, mənə deyərdi, – Lopatin onun sözünü kəsdi. – Ümumiyyətlə, biz heç kimi görmə ınişik. Biz bir az gəzişdik, hava alıb qayıtdıq. O da bunu təkrarlayacaq.

– Bağışlayın, Mixail Nikolayeviç, – Potapov söhbətə qarışdı, – ınənim kolleqam hərdən nəzakətsiz olur.

– Görürəm, – Lopatin qaşqabaqla dedi. – Əlbəttə, ba şa düşürəm ki, siz cinayəti təhqiq etməlisiniz. Anıma be lə yox ki! Doğrudanmı, elə düşünürsünüz ki, qatil bağın harasındasa gizlənib?

— Yox, — Dronqo cavab verdi, — amma biz Romanovski ilə danışmışıq. O, dünən Qluşkovun evinə gedib.

— O, qatili görüb?

— Yox. Amma maraqlı çox şey danışdı. Yeri gəlmişkən, qatil kifayət qədər nadir model olan "Bernardelli P-18 kompakt" tapançasından istifadə edib. Hər qatildə belə silah olmur.

Lopatin gülümsədi:

— İndi Moskvada silah problemi yoxdur. Arzu etsən, hətta tank və təyyarə də ala bilərsən. Bunu sizə Gömrük Komi-təsinin sədri kimi deyirəm. Sərhəddən nəyi keçirib ölkədə nələri həyata keçirmək istədiklərini bir bilsəy diniz! Ağlasığmazdır.

Pilləkəndə yenə addım səsləri gəldi. Otağa Lopatinin arvadı girdi. Hər üç kişi ayağa durdu. Qadın belə bir diqqətdən çox məmnun qalmışdı. O əynini dəyişib effektli mavi don geyinmişdi. Bu ilin dəbi - parıltılı don geyinməyi tələb edirdi. Onun sinəsində də şəklə oxşar nəsə var idi. Ərinin yanında oturub ona şokoladlı likör süzməsini gözlədi.

— Mənimlə nə haqda danışmaq istəyirdiniz? — Nelli bir qədər süzgün və şıltaq səslə soruşdu.

Görünür, bu qadın bütün şıltaqlıqlarının yerinə yetiril məsinə alışmışdı. O, çox gözəl idi və kişilər üzərindəki öz cazibədarlığı və hökmünü hiss etmək onun xoşuna gəlirdi.

— Siz Qluşkovun ailəsini tanıyırdınız?

O, təəccüblə əvvəl ərinə, sonra Dronqoya baxdı.

— Əlbəttə, tanıyırdım. Siz ki məni onun evində görmüşdünüz!

— Siz onları yaxından tanıyırdınız? — Dronqo dəqiq ləşdirdi.

— Çox yaxından, — Lopatina təəccüblə davam etdi, — onlar bizim bağ qonşularımızdır. Biz Qluşkovun oğlunun ailəsi ilə də dostluq edirik...

— Biz çoxdan tanışıq, — Lopatin dedi. — Mən dedim axı!

— Siz bilirdiniz ki, Qluşkov sikkə kolleksiyası yığır?

— Hə, — qadın gülümsədi. — Yeri gəlmişkən, Mişa bir dəfə bizim qonşumuza qızıl sikkə hədiyyə etmişdi. Çox bahalı. Sən ona hansı sikkəni hədiyyə etmişdin?

— Perqam çarlığının sikkəsini, — Lopatin

könülsüz izah etdi. Arvadının danışqanlığı onun heç xoşuna gəlmirdi. – Fyodor Qriqoryeviç götürmək istəmirdi, deyirdi ki, bu çox bahalı hədiyyədir. Amma onda onun 55 illik yubileyi idi.

– Siz onlara qonaq gedirdiniz?

– Mən sizə dedim: biz az ünsiyyətdə olurduq, – Lo patin arvadının yerinə cavab verdi. – Düşünmürəm ki, Nelli başqa cür cavab verəcək.

– Hə, – Nelli dedi, – bağda bizim vaxtımız olmurdu. Mişanın o qədər işi olur ki! Hərdən bağa gəlməyə imkan tapmayanda şəhər evində gecələyir. Onda mən burda tək qalmamaq üçün onun yanına gedirəm.

– Siz Veronika Andreyevna ilə tez-tez ünsiyyətdə olursunuz?

– Hərdən. O da tez-tez tək olurdu, amma bağa gəlməyi xoşlamırdı. Kutuzov prospektindəki evləri onun daha çox xoşuna gəlirdi.

– Həmin axşam siz heç nə eşitməmisiniz?

– Əlbəttə, yox, – Nelli təəccübləndi. O, ərinə nəzər salıb gülümsədi. – Bu çox nadir hallarda olsa da, biz bağın ətrafında gəzişirdik. Sonra evə qayıtdıq. Və dərhal da yatdıq. Yataq otağımız ümumidir, biz heç hara çıxmamışdıq, – o utanmadan əlavə etdi.

– Aydındır, – Dronqo gülümsədi. – Daha iki sual. Siz başqa qonşuları tanımırsınız ki?

– Tanıyırıq, – o, yenə ərinə baxdı. – Romanovskilər və Perelmanlar. Biri xarici işlər nazirinin müavinidir, digəri isə Elmlər Akademiyasının vitse-prezidenti. Romanovskinin arvadı xəstədir, oğlu bu yaxınlarda Avstriyadan gəlib. Akademiklərdə də hər şey qaydasındadır – daim müxtəlif fondlara pul dartan aktiv qızlarını nəzərə almasaq.

– Bunu sizə Veronika Andreyevna deyib? – Dronqo maraqlandı.

– Nə fərqi var. Öz bildiyim kifayətdir.

– Axırıncı sual: qonşunuzun öldüyünü sizə kim xəbər verdi?

– Səhər Mişa işə getdi, mənsə onun maşınını gözləyirdim. O, səhər saat 10-da arxamca gəlməli idi. Amma mən qəfil səs-küy, qışqırıq səsləri eşitdim. Evdən çıxanda Qluşkovun öldüyünü dedilər. Qonşular bu qəribə xəbəri bir-birinə ötürürdü. Mühafizəçilərdən kimsə bu haqda bizim sürücüyə

deyibmiş. Mişa isə mənə evə getməyi tapşırdı. Sonra müstəntiq gəldi. Mən ona dedim ki, heç nə görməmişəm və heç nə eşitməmişəm. Axşam biz Mişa ilə bağa gəldik və burda öyrəndik ki, Qluşkov öldürülüb. Hər iki müstəntiq bizimlə söhbət etdi. Çox nəzakətli cavan oğlanlar idi.

— Ən azından onlar bizdə sizdən az qaldılar, — Lopatin işarə ilə qeyd etdi.

— Başqa sualım yoxdur. Narahat etdiyimiz üçün bağışlayın.

Dronqo ayağa durdu. Potapov da qalxdı. Onlar çıxışa tərəf yönəldilər. Lopatinlər də onların ardınca çıxdı. Qadın ərinin çiyninə sığındı.

— Bazar ertəsi Qluşkovun dəfnidir, — Potapov vidalaşarkən xatırlatdı. — Narahat etdiyimiz üçün üzr istəyirik.

— Biz mütləq gələcəyik, — Nelli həm əri, həm də öz yerinə vəd etdi.

Dronqo və Potapov küçəyə çıxdı. Çiskin yağış yağırdı. Dronqo əlini yağış damcılarının altına tutdu. O, həmişə yağışlı havanı sevirdi.

— Maraqlı müşahidə istəyirsiniz? — Dronqo gözlənil mədən soruşdu. — Mən Veronika Andreyevnanın ərini Nelliyə nəyə görə qısqanmadığının və Alina Perelmana niyə ehtiyatla yanaşdığının səbəbini bilirəm. Qadınlar adətən hər şeyi, intuitiv olaraq kişilərdən daha yaxşı hiss edirlər. O görüb ki, Lopatinin arvadı gözəl və axmaq dişidir. Əvəzində Alina Perelman onun ərini maraqlandıra biləcək intellektual qadındır. Veronika Andreyevna özünü varlı ər axtaran ovçu ilə boşanmış, qürurlu Alina Perelmandan daha rahat hiss edirdi.

— Lopatinin arvadı haqda hardan bilirsiniz? — Potapov təəccübləndi. — Biz dosyeni təzəlikcə almışıq.

— Lopatin onun ikinci əridir? — Dronqo gülümsündü.

— Üçüncü, — general çiynini çəkdi. — 25 yaşına kimi o üç dəfə ərdə olmağa macal tapıb. Veronika Andre yevna kimi. Hərdən mənə elə gəlir ki, siz ekspertanalitikdən daha çox müşahidə edirsiniz. Amma biz öz təhqiqatımızda hələ ki, irəliləməmişik.

— Dosye, — Dronqo xatırlatdı. — Mənə bütün dosyelər lazımdır. Bir də siz öyrənınəlisiniz ki, Qluşkov sonuncu gün kimlərlə danışıb. Düşünürəm

ki, sabah axşam sizə qatilin adını deyəcəyəm. Bütün telefon zənglərinin siyahısını da mənə verin. Görək, həmin gün akademik kimlərlə danışıb.

# XII HİSSƏ

Dronqo evə axşam saat 10-da gəldi. İki saatdan sonra kuryer general Potapovdan dosyeləri və həmin mənfur axşam Qluşkovun danışdığı telefon nömrələrinin çıxarışını gətirdi. İki dəfə Gömrük Komitəsi sədri Lopatinlə, üç dəfə oğlu ilə, bir dəfə də Romanovski ilə danışıb. İki dəfə də Alina Perelmanla. Özü də birinci dəfə qız özü zəng edib, ikinci dəfə Qluşkov. Hökumətdən, Fransa səfirliyindən və Dövlət Dumasından daha bir neçə telefon zəngi vardı. İki dəfə özü zəng edib. Bir dəfə İngiltərəyə köhnə tanışına, bir dəfə də akademik Alekseyevə. Siyahıda Qluşkova gələn zənglər və onun özünün etdiyi zənglər saat və dəqiqə ilə göstərilmişdi. Dronqo diqqətlə siyahıya baxdı, bəzi qeydlər etdi. Sonra dosyedən bəzi çıxarışları oxumağa başladı. Qeyri-adi heç nə, heç bir ipucu yox idi. Qluşkovun karyerası iqtisadçıların birinci plana keçdiyi qəliz 90-cı illərdə sürətlə qalxan və ehtiyac duyulan hala gəlmiş cavan alimin irəliləyişi idi. Romanovskinin əməkdar diplomat kimi uzun və şərəfli bioqrafiyası vardı. İki dəfə səfir işləyib və iki dəfə xarici işlər nazirinin müavini təyin olunub. Oğlunun qısa, amma kifayət qədər dolu karyerası var. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirən kiçik Romanovski Almaniya Demokratik Respublikasına, sonra isə Almaniya Federativ Respublikasına təyinat alıb. Bir müddət İsveçrədə işləyəndən sonra Avstriyaya göndərilib. Dronqo gülümsədi. O, MDBMİ-ni bitirən məktəb yoldaşlarından birinin qərb və şərq bölgüləri arasındakı fərqi necə izah etdiyini xatırladı. Birinciyə istisnasız halda, diplomatların və Siyasi Büro üzvlərinin uşaqları düşdüyü halda, ikinciyə bu prestijli instituta qəbul olmağı bacaran digərləri düşürdü.

Perelmanın bioqrafiyasını oxumamaq da olardı. Onun xidmətlərinin, dərəcələrinin, elmi nailiyyətlərinin siyahısı dörd səhifə tutmuşdu. İşlədiyi yerlər haqda məlumat isə bir neçə sətrə yerləşmişdi. Bunlar iki institut idi. Burda o, Elmlər Akademiyasının vitse-prezidenti və Elmi Tədqiqat İnstitutunun direktoru olana qədər irəliləyib. Qızı isə o zamanlar üçün dəbli filoloq peşəsini seçib karyera qurmuşdu. O, Moskva Dövlət Universitetini

bitirəndən sonra Almaniyada işləmişdi. Dronqo onun orada Romanovskinin oğlu ilə görüşə biləcəyini nəzərə alaraq bu faktı qeyd etdi.

Nelli Lopatinanın daha "əməkdar" bioqrafiyası var idi. Birinci əri caz-ansamblın rəhbəri olub. Ona ərə gedəndə on altı yaşında imiş. İl yarımdan sonra boşanıb. İyirmi yaşında hansısa gözəllik müsabiqəsində iştirak edib və qalib gəlib. Elə o zaman model agentliyinin rəhbərinə ərə gedib. Bir il sonra Afrikada keçirilən prestijli müsabiqədə bir daha qələbə qazanıb. Daha bir il sonra ikinci ərindən də boşanıb. Nəhayət, 23 yaşında, arvadını və iki uşağını Nelli Çurkina ilə evlənmək üçün tərk edən Gömrük Komitəsi sədrinə ərə gedib. Və sonda, Nelli Lopatinanın bioqrafiyasından az fərqlənən Veronika Andreyavna. Qluşkov Veronika Andreyevnanın üçüncü əri olub, amma Lopatindən fərqli olaraq, o dul idi.

"Deyəsən, Moskvada bir neçə dəfə sərfəli ərə getməyi bacaran "peşəkar" arvadlar sinfi meydana gəlir", – Dronqo düşündü.

O, qadınlara qarşı həmişə nəzakətli davranışı ilə fərqlənən atasının ailə həyatının sirlərini məşhur atalar sözü ilə izah etdiyini xatırladı: "Bir arvad – həddən artıq çoxdur, iki arvad – həddən artıq azdır. Bir ər – həddən artıq çoxdur, iki ər – həddən artıq azdır".

Dosyenin oxunmasını bitirib bəzi lazımlı məlumatları kompyuterə daxil etdi. Yeni heç bir fakt öyrənə bilmədi. Gecə ikinin yarısında Potapovun mobil telefonuna zəng etdi. Telefon açıq idi.

— Yatırdınız? — generaldan soruşdu. — Narahat etdimsə, üzr istəyirəm.

— Elə bilirsiniz, yata bilərəm? — Potapov hətta incidi də. — Sabah sonuncu gündür, hələ heç nə aydın deyil. Əlbəttə, yatmırdım. Nəsə olub?

— Siz Qluşkovun uşaqlarına aid dosyeni göndər məmisiniz.

— Göndərməmişəm, — Potapov təsdiqlədi. — Çünki onlar sizə lazım olmayacaq. Düşünürsünüz ki, onun qızı İsveçdən gəlib atasını öldürüb, sonra da Stokholma qayıda bilərdi? Oğlunu da yoxlamışıq. Təmiz alibisi var. Atası ölən zaman o bağda olmayıb.

— Mən demirəm ki, onlar atalarını öldürüb, — Dronqo etiraz etdi. — Amma mənim

praktikamda dəfələrlə elə hallar olub ki, kimsə miras almaq üçün yaxın adamının qətlini sifariş verib.

— Sizcə, onlar belə bir şey edə bilər? — Potapov inanmadı. — Sizin faktınız var?

— Hələ yox. Amma səhər onların dosyesi mənə lazım olacaq. Ümid edirəm ki, növbəti gün bugünkündən daha əhəmiyyətli olacaq.

— Buna çox ümid edirəm, — Potapov ah çəkdi. — Sağ olun. Sizə heç rahat gecə keçirməyinizi də arzu edə bilmirəm. Mənim belə bir gecəm dəqiqliklə olmayacaq.

Potapov heç ehtimal da edə bilməzdi ki, onun bu sözləri necə peyğəmbərcəsinə deyilib və mühafizəçilər sabah səhər ona hansı dəhşətli xəbəri verəcək. Dronqo telefonu söndürərkən düşündü ki, yəqin FTX artıq təkcə onun deyil, eləcə də general Potapovun telefonunu dinləyir. O adəti üzrə səhər saat 5-də yatdı. Saat 10-da gələn qəfil zəngə oyandı. O diqqət kəsildi. Avtocavablayıcı işə düşdü. General Potapovun həyəcanlı səsini eşitdi:

— Dəstəyi qaldırın, Dronqo, təcili dəstəyi qaldırın!

O, digər böyrü üstə çevrildi. Generalın belə isteriya halına düşməsi çox qəribədir. Nəticə etibarilə, onların hələ bir günü var. Növbəti səhərə hələ çox qalır. Onunsa təmiz başla işləmək üçün yuxuya ehtiyacı var. Amma yenidən gələn zəng ona yatmağa imkan vermədi.

— Dəstəyi götürün, — Potapov az qala qışqırdı. — Bizdə bədbəxt hadisə baş verib.

Dronqo ayağa qalxıb tələsmədən telefona yaxınlaşdı. Elə bu an onun mənzilini aşağıdakı mühafizə ilə bağlayan daxili telefon da səsləndi.

— Nə olub? — Dronqo daxili telefonun dəstəyini qaldırdı.

— İndi sizə şəhər telefonundan zəng edəcəklər, — mühafizəçilərdən biri dedi.

Dronqo bu evdə yaşadığı müddət ərzində mühafizəçi ona birinci dəfə idi zəng vururdu. Özü də bu gün bazar günü idi. Şəhər telefonu zəng çaldı. O, dəstəyi götürdü.

— Dronqo! — Potapov qışqırdı. — Bütün səhəri sizə zəng etmişəm. Bizdə bədbəxt hadisə baş verib. Təcili Jukovkaya gəlin. Mən artıq qəsəbədəyəm. Sizin arxanızca maşın göndərmişəm. Mümkün qədər tez gəlin. Burda faciə baş verib.

– Nə olub?

– Daha bir qətl, – Potapov çətinliklə deyə bildi, – Qluşkovun qətlinə çox oxşayır. Yarım saat sonra Baş prokuror bura gələcək. Artıq Baş nazirə məruzə olunub. Bilmirəm, başımıza nə gələcək, amma yaxşısı budur, gələsiniz...

– Kimi öldürüblər?

– Lopatini. Onu səhər tapıblar. Öz evində öldürülüb. Yanında silah olmayıb. Qərəz, hər şey birinci dəfə olduğu kimidir. Bir atəş və yenə də tapança yoxdur. Qatil də yoxdur. Təcili gəlin, mən belə şeyləri telefonda danışa bilmirəm. Belə bir adamı öldürdülər! Siz məni başa düşməlisiniz...

Dronqo karıxmış halda dəstəyi qoydu. Nə baş verdiyini izah etmək lazımdırmı?! Cüinə axşamı ciddi qorunan hökumət bağ evləri qəsəbəsində keçmiş Baş nazir müavini, akademik Qluşkov güllələnib. Bazar günü isə elə həmin qəsəbədə, qonşu evdə, Gömrük Komitəsi sədri oxşar şəraitdə öldürülür. Bu heç qalmaqal da deyil, bu bütün xüsusi xidmət orqanlarının dəhşətli səhvidir. İndi Potapovu yalnız möcüzə xilas edə bilərdi. Amma onun kolleqası olan FTX generalı Zemskov da hadisələrdən kənarda qala bilməzdi. Əgər cəzalandırmağa başlasalar, Qluşkovun qətlinin təhqiqatına rəhbərlik edən Zemskov da işdən atılmağa, eynən Potapov kimi, namizəd olacaq.

"Niyə mən öz versiyalarımda qalmışam və xüsusi xidmət orqanlarının əlbirliyi ehtimalına inanmıram? – Dronqo düşündü. – Belə qətlləri hüquq-mühafizə orqanları əməkdaşlarının təşkil etdiyini ehtimal etmək daha ınəntiqlidir. Axı FTX üçün Mühafizə Xidmətini aciz və heç nəyə yaramayan idarə kimi göstərmək sərfəlidir. Onda bu idarəni yenidən əks-kəşfiyyata birləşdirmək kimi bir məsələ qaldırmaq olardı. Onlar Qluşkovu qəsdən öldürə bilərdilər. Öz növbəsində Mühafizə Xidməti də özünə nə yollasa bəraət qazandırmalı idi. Özü də dünən general Potapovla Gömrük Komitəsi əınəkdaşları arasında insident baş vermişdi. Potapovun idarəsində belə qərara gələ bilərdilər ki, Lopatin cavab zərbəsi endirmək üçün ən uyğun fiqurdur. İndi artıq FTX-nin özünün səmərəli təhqiqat aparması ehtimalı şübhə altındadır. Maraqlı situasiyadır. Əgər Zemskov axmaq deyilsə, Lopatinin qətlinin ona baha başa gələcəyini başa düşməlidir. Və bu dəfə o, Dronqonu birinci dəfə olduğundan daha xoş üzlə

qarşılamalıdır".

Jukovkaya üz tutan maşında oturarkən o, mobil telefonla Edqar Veydemanisə zəng etdi.

— Sabahın xeyir, — tutqun halda dedi. — Hərçənd, deınəliyəm ki, o qədər də xeyirli deyil.

— Səsindən anladım, — Edqar dedi. — Bu gün bazardır, sənsə belə erkən zəng etmisən. Deməli, doğrudan da ciddi nəsə olub.

— Lopatin öldürülüb.

— Kim? — Veydemanis anlamadı.

— Ölkənin Gömrük Komitəsinin rəhbəri Qluşkov kimi Jukovkadakı bağında qətlə yetirilib. Bircə atəş açılıb. Yenə heç bir iz yoxdur. Nə tapança, nə də qatil.

— Sən indi hardasan? — Edqar açıq-aşkar həyəcanlandı.

— Bağa gedirəm. Potapov məni çağırıb.

— Belə də bilirdim. Moskvaya qayıt.

— Düşünürsən ki, ora getməsəm yaxşıdır?

— Əminəm. Sabah Qluşkovun dəfnidir. Əgər onlar gözləməyib federal naziri aradan götürməyə qərar veriblərsə, deməli, iş bizim düşündüyümüzdən daha pisdir, Dronqo. Geri qayıt.

— Mənə elə gəlir ki, səhv edirsən. Bunun siyasi məsələ olmadığına, demək olar ki, əminəm.

— Ola bilsin, mən səhv edirəm, — Edqar razılaşdı. — Amma yenə də sən evə qayıtsan, daha yaxşı olar. Sən ora getməməlisən. Belə hallarda tək adam heç nə edə bilməz. Bu, iki xüsusi xidmət orqanının savaşıdır. Və yaxşısı budur, sən onda iştirak etməyəsən.

— Qayıda bilmərəm, — Dronqo ah çəkdi. — Potapova söz vermişəm və indi o, bağda məni gözləyir. Görünür, mən onun sonuncu, bəlkə də yeganə şansıyam. Ona görə ora gedirəm.

Veydemanis situasiyanı götür-qoy edərək susdu.

— Ehtiyatlı ol, — nəhayət dedi. — Bəlkə də sən səhv edirsən və bu siyasi cinayətdir. Əgər mən haqlıyamsa, səni böyük təhlükə gözləyir. Bəlkə səninlə gedim?

— Hər ikimizi öldürsünlər deyəmi? — Dronqo kədərlə soruşdu. — Yox, yaxşısı budur, evdə otur. Ən azından bilərəm ki, yaxınlarımın qeydinə qalan var. Qərəz, məni əvvəlcədən basdırmaq lazım deyil.

O, telefonu yığışdırdı. Edqar, əlbəttə ki, haqlıdır. Jukovkadakı ikinci qətl, sadəcə, qətl deyil. Bu, meydan oxumaqdır. Doğrudanmı, xüsusi xidmət

orqanları əməkdaşları belə bir şey edə bilər? Oxşamır. Onlar axı intihar etmək istəməzlər. Belə oyunların nə ilə nəticələnəcəyini bilməlidirlər. Onda belə çıxır ki, Jukovkada təklikdə fəaliyyət göstərən psixopat var. O, evlərə girib məmurları öldürür. Birinci halda o, üstəlik, sikkələri də oğurlayıb. Bəs ikincidə? O, Lopatinin evindən nə aparıb? Onun bahalı içkilərini? Yoxsa divankreslo-sunu? Əgər hər iki qətl xüsusi xidmət orqanlarının əlbirliyi və ya manyak tərəfindən törədilmiş cinayət deyilsə, onda onları kim törədib?

Dronqo gözlərini yumub başını oturacağa söykədi. Onun beynində ayrı-ayrı fraqmentlər ümumi rəsm əmələ gətirirdi, amma hər iki cinayətin necə törədildiyi aydın deyildi.

Qəsəbəyə yaxınlaşanda Mühafizə Xidməti və FTX əməkdaşları maşını saxladılar. General Zemskovun əmri ilə qəsəbəyə heç kimi buraxmırdılar. Zemskov və Potapovu tapana kimi bir saat keçdi və onlar Dronqoya Lopatinin evinə kimi piyada getməyə icazə verdilər. İki FTX əməkdaşı onu müşayiət edirdi. Evin yanında müxtəlif idarələrin iyirmiyə yaxın əməkdaşı yığışmışdı.

Evin kandarında birdən 50 yaşlarında, göy rəngli prokuror formasında, iri gövdəli bir kişi peyda oldu. Ətrafındakılara qəzəblə nəsə deyərək maşına oturub getdi. Dayananların içində Dronqo iki generalı tanıdı. Onların çaşqın üzlərindən görünürdü ki, Baş prokurorun qışqırıqları hər şeydən əvvəl, təhqiqata məsul olan FTX generalı Zemskova və Jukovkanın mühafizəsinə cavabdeh general Potapova ünvanlanıb.

Dronqo yaxına gəldi. Hər iki general heç nə demədən ona tərəf döndü. Hər ikisi qanıqara idi. Dronqonu görən Zemskov üzünü turşutdu. Onun arıq bədəninə yaraşmayan böyük başı, nazik dodaqları və domba gözləri vardı.

— Gəldiniz? — o salamlaşmaq əvəzinə dedi. — Bizi işdən qovmalarına tamaşa etmək istəyirsiniz? Lopatinin ölümünü axı sizin axtarışlarınız yetişdirdi. Mən buna əminəm.

— Dronqonun bura nə dəxli var? — Potapov onu müda fiə etdi. — Biz onunla dünən axşam Lopatinin evin-də olmuşuq. Onun əla əhval-ruhiyyəsi vardı. Kim bilə bilərdi ki, hər şey belə bitəcək?

— İndi əmin oldunuz ki, mən

haqlıyaın? — Zemskov təslim olmurdu. — Sizin eksperti dəvət etmək lazım deyildi. O, onsuz da heç nə etməyib!

Potapov kədərlə susurdu.

— Sizin ınəni burdan qovmağa hələ vaxtınız olacaq, — Dronqo sülhsevərliklə dedi, — amma bir halda ki, burdayam, bəlkə nə baş verdiyini mənə danışasınız?

— Niyə? — Zemskov çiynini çəkdi. — Evdə FTX və prokurorluğun ən yaxşı mütəxəssisləri, iki ekspert qrupu işləyir. Siz elə düşünürsünüz ki, bu qədər peşəkarın məşğul olduğu cinayəti təkbaşına araşdıra bilərsiniz? Təklikdə işləyənlərin zamanı keçib, Dronqo, çoxdan keçib. İndi on doqquzuncu əsr deyil, heç iyirminci əsr də deyil. İndi iyirmi birinci əsrdir. İndi kompyuter əsridir.

— Demək istəyirsiniz ki, baş işlətmək vaxtı keçib? — Dronqo dəqiqləşdirdi. — Mən belə düşünmürəm. Məhz indi heç bir kompyuterin əvəz edə bilməyəcəyi başla işləmək lazımdır. Hələ ki, kompyuterlər intuisiya, müşahidə qabiliyyəti və təcrübəni yarada bilmir. Mən evdə nə baş verdiyini, Lopatinin necə öldürüldüyünü bilməliyəm, — o, qətiyyətlə dedi.

— Dronqo bizə mane olmur, — Potapov qaşqabaqla kənara baxaraq dedi.

— Necə bilirsiniz, elə də edin, — Zemskov əlini yellədi, — mənimçün artıq fərqi yoxdur. Sabah səhər bizim hər ikimizin paqonlarını sökəcəklər, general. Və bizə nə mənim müstəntiqlərim, nə də sizin ekspertiniz kömək edəcək. Buna əminəm.

Bu vaxt qonşu evdən qışqırıq səsləri eşidildi.

— Tapıldı! Tapıldı! — eyni vaxtda bir neçə nəfər qışqırırdı.

— Nə olub? — Zemskov yanından qaçan zabiti saxlayaraq soruşdu.

— Qatili tapıblar, — FTX əməkdaşı izah etdi. — Onu tapançanı gizlətməyə çalışarkən tutublar.

Zemskov təbəssümünü saxlaya bilmədi. O, qalibiyyətlə əvvəl Potapova, sonra isə Dronqoya baxdı.

— Bəlkə sizin doğrudan da bəxtiniz gətirdi, — o, gümrah səslə dedi. — İndi bilərik, görək Qluşkovu və Lopatini güllələyən bu yaramaz kimdir.

# XIII HİSSƏ

Onlar qonşu evə getdilər. Orda naməlum adamı yaxalayan və tapançasını alan həyəcanlı FTX əməkdaşları vurnuxurdu. Zemskov və Potapov ora gələndə FTX əməkdaşlarından biri tapançanı rəhbərinə verdi.

— Yaxalanan vaxtı götürülüb, — qısaca məruzə etdi.

— Bernardelli sisteminin tapançası, — Zemskov silahı Potapova göstərərək gülümsədi. — Təbrik edirəm sizi, Leonid Aleksandroviç. Sizin əməkdaşlarınız qatili bu dəfə də əldən qaçırıblar. Görünür, o hər iki dəfə hasarın üstündən aşıb və bu nadir silahdan istifadə edib.

Dronqo Zemskovun sözlərinə fikir vermədən saxlanılana baxmaq üçün geri çevrildi. Və gülüşünü saxlaya bilmədi. Saxlanılanı görən Potapov da gülümsədi.

— Deyirdiniz ki, biz kənar adamı buraxmışıq? Cənab Zemskov, qarşınızdakı Rusiyanın Avstriyadakı səfirliyinin müşaviri, irsi diplomat, xarici işlər naziri Vsevolod Vitalyeviç Romanovskinin bu evdə yaşayan oğlu Sergey Vsevolodoviç Romanovskidir, — Potapovun səsində təntənə hiss olunurdu.

Zemskov dodağını dişlədi. Romanovski ota, yarpaqlara və xırda zir-zibilə bulaşmış məşq kostyumunda idi. Görünür, tapançasını əlindən alıb rəhbərliyə sevindirici xəbəri vermək üçün adam göndərərkən onu yerə yıxıb uzun müddət elə saxlamışdılar. Saxladıqları adamın kimliyini eşidən FTX əməkdaşlarının əli boşaldı, onlar bir addım geri çəkildi. Zemskov qaşqabaqla əvvəlcə onlara, sonra isə saxlanılana baxdı. Bir neçə dəqiqə əvvəlki şən əhval-ruhiyyəsindən əsər-əlamət qalmamışdı.

— Siz doğrudan, diplomatsınız? — o, Romanovskidən soruşdu.

O, üstünün zir-zibilini çırpmağa başladı.

— Əgər sizin pəzəvənglər məni üzüüstə yerə yıxmasaydılar, mən onlara hər şeyi başa salardım, — Sergey Romanovski hirslə dedi. — Mən yarım saat əvvəl qalxmışam və evin ətrafında bir az qaçmaq istəyirdim. Üçüncü dairəni gedəndə evimizin yanındakı kolların arasında nə yinsə parıldadığını

gördüm. Yaxına gələndə bunun silah olduğunu gördüm. Akademik Qluşkovun ölümü haqda bildiyimdən qərara gəldim ki, bu, həmin silahdır. Əyildim ki, onu götürüm. Onun bizim evin yanında olmağı mənə xoş deyildi. Özü də dünən bizə gələn cənablar mənim və atamın ünvanına xoşagəlməz işarələr edirdilər. Sanki biz qonşumuzun ölümündə maraqlıyıq. Mən tapançanı qaldırıb ona diqqət yetirəndə arxada səslər eşitdim. Sonra məni yerə yıxdılar. Silahı dərhal əlimdən aldılar. Səsküy qopdu. Mənim nəsə izah etmək cəhdlərim bir nəticə vermədi. Məni bir neçə dəqiqə yerdə saxladılar. Sonra isə sizin gəlişinizdən az əvvəl qalxmağa icazə verdilər.

— Bu sizin tapançanız deyil? — Zemskov ciddi tərzdə soruşdu.

— İlahi, əlbəttə ki, yox! Məndə belə bir silah hardan ola bilər ki? Dedim axı, onu kolluqdan tapmışam.

— Siz onu doğrudan, tanıyırsınız? — Zemskov hər ehtimala qarşı Potapov və Dronqoya müraciət etdi.

Potapov başıyla təsdiqlədi.

— Onun atası bu evdə yaşayır, — o, yaxın evi göstərdi. — Biz içəri girib hər şeyi yoxlaya bilərik.

— Buna vaxt olacaq, — Zemskov əlini yellədi. — Siz səhərlər məhz bu cığırla qaçırsınız?

— Əlbəttə, yox, — səfirlik müşaviri əsəblə dedi. — Mən atamın yanına cəmi bir neçə günlüyə gəlmişəm. Evimdə təmir gedir, anam ağır xəstə olduğundan xəstəxanada yatır. Ona görə atamla bağda qalıram. Bu cənablar hər şeyi çox gözəl bilir, onlar dünən bizdə olub, — o, Potapovla Dronqonu göstərdi.

— Hə, — Dronqo təsdiqlədi, — hər şey doğrudur.

— Sizdən soruşmurlar, — Zemskov qəzəblə onun sözünü kəsdi. — Cənab Romanovski, siz Moskvaya nə vaxt gəlmisiniz?

— Üç gün əvvəl. Əgər Qluşkovun qətli zamanı burda olub-olmadığımı bilmək istəyirsinizsə, hə, burda idim. Sizin müstəntiqlər məni artıq dindiriblər. Cinayət anında mən yatırdım.

— Akademik Qluşkovun nə vaxt öldürüldüyünü hardan bilirsiniz? — Zemskov tutqun halda maraqlandı.

— Atam onun yanına gedib, amma tapmayıb, — Romanovski belə bir informasiyanı

gizlətməyin mənasız olduğunu anladığından izah etdi. – Daha sonra isə qonşu qız da onun yanına gedib və görüb ki, o ölüb. Daha doğrusu, öldürülüb. Ona görə cinayətin nə vaxt törədildiyini təqribən bilirəm.

Zemskov Potapova nəzər salıb başını buladı.

– Siz müstəntiqlərdən belə vacib informasiyanı gizləmisiniz, – sakitcə dedi.

– Heç nə gizləməmişik, – Potapov acı-acı dedi. – Biz özümüz dünən axşam hər şeyi öyrənmişik. Hələ o da sizin sevmədiyiniz ekspertin sayəsində oldu.

– Gedək evə, – nəhayət, Zemskov icazə verdi.

Onlar Romanovskilərin evinə yollandılar. Qışqırıq səslərindən və oğlunun uzun müddət yoxluğundan narahat olan atası evin kandarında dayanmışdı. Yaxınlaşan adamları görərkən eynəyini taxdı və izahat gözləyərək başını qaldırdı.

– Salaın Vsevolod Vitalyeviç, – Zemskov nəzakətlə salam-laşdı. – Bağışlayın, amma sizi narahat etməyə məc-buruq. Oğlunuzla bağlı balaca bir insident olub. Və biz sizinlə danışmaq istərdik.

– Nə olub? – atası oğluna diqqət yetirərək onun üstbaşının bulaşdığını görüb daha çox narahat oldu. – Ümu miyyətlə, nə baş verir?

– İçəri keçmək olar?

Zemskov nazir müavini ilə əməkdaşları və ya saxlanılandan fərqli olaraq daha nəzakətlə danışırdı.

– Keçin, – böyük Romanovski əl jesti ilə onu dəvət etdi. – Deyəsən, biz sizinlə XİN-dəki iclas zamanı qarşılaşmışıq.

– Hə, – Zemskov başını tərpətdi. – Mən FTX-nin direktor müavini general Zemskovam.

– Bir bifşteksdə bu qədər general! – Böyük Roma novski burnunun altında dedi.

Potapov və Dronqonun arxasınca kiçik Romanovski də evə girdi. FTX-nin və mühafizə idarəsinin qalan əmək-daşları evin qabağındak-ı küçədə qaldılar.

– Bifşteksin bura nə dəxli? – Potapov anlamayaraq Dronqoya baxdı.

– Raykinin belə bir yumoru var idi, – Dronqo izah etdi. – Orda deyirdi: “Bir bifşteksdə bu qədər törəmə”.

– O hələ bir bizə gülür də, – Potapov üzünü turşutdu.

— Ola bilər, — Dronqo təbəssümünü gizlədərək dedi.
Beşi də masanın ətrafında oturdu.
— Oğlunuzu, böyük ehtimal ki, Qluşkovun öldürüldüyü tapançanı əlində tutarkən saxlayıblar, — Zemskov ev sahibinə müraciətlə izah etdi.
— Tapança? — Vsevolod Vitalyeviç heyrətləndi. — Nə tapança? Bizim evdə tapança hardandır?
— Mən onu təsadüfən tapdım... — oğlu izah etməyə çalışdı.
— Kəs səsini, — atası onun sözünü qətiyyətlə kəsdi. — Mən əvvəlcə, qonaqlarımızı dinləmək və nə baş verdiyini anlamaq istəyirəm.
— Oğlunuzu evinin yanında əlində silah tutarkən saxlayıblar, — Zemskov davam etdi. — Bizim əməkdaşlar bütün ətrafı yoxlamaq əmri aldıqlarından sizin oğlunuzu tapıblar. Hərçənd, o deyir ki, evin ətrafında qaçırmış və kolluqda gördüyü silahı təsadüfən tapıb.
— Ola bilər, — böyük Romanovski dedi. — Başa düşmü rəm, ona nəyə görə inanmırsınız? Yoxsa sizə elə gəlir ki, belə bir ranqın diplomatı adicə bir qətl törədə bilər? Biz Fyodor Qriqoryeviçə hörmət edirdik, bir-birimizi yaxşı tanıyırdıq. Təbii ki, oğlum doğru deyir.
— Oğlunuz evdən nə vaxt çıxıb? — Zemskov soruşdu.
— Yarım, yaxud bir saat əvvəl. Bunun nə əhəmiyyəti var? Əsas odur ki, o doğrudan da səhərlər evin ətrafında qaçır. Və əlbəttə ki, kiminsə atdığı və qonşumuzun öldürüldüyü tapançanı təsadüfən tapıb. Mən buna əminəm.
— Hansı qonşu? — Zemskov çəpəki gülümsədi.
— Necə yəni hansı? — Romanovski anlamadı. — Qluşkov! O üç gün əvvəl öldürülüb.
— Bu gün səhər sizin başqa bir qonşunuzun öz evində ölüsü tapılıb. Ölkənin Gömrük Komitəsinin rəhbəri Mixail Nikolayeviç Lopatin. Onu da Qluşkov kimi sizin oğlunuzun tapdığı silahdan öldürüblər. Ölənin yanında tapançanı tapınadıq.
— İlahi! — Sergey Romanovski qəfil çökən sükutda pıçıldadı. — Deməli, onu da.
Böyük Romanovski daha tutumlu reaksiya göstərdi. Diplomatik sahədə uzun illər işləməyi öz

sözünü deyirdi. O, dodaqlarını sıxdı, qaşlarını çatdı, eynəyini çıxardı. Əlləri əsə-əsə eynəyini silib sonra yenə taxdı.

— Onu öldürüblər... — o sakitcə təkrarladı. — Deməli, indi də digər qonşumuzu öldürüblər.

— Hə, — Zemskov təsdiqlədi, — ümid edirəm, hər şeyi biləndən sonra bizim əməkdaşları başa düşərsiniz. Onların şübhəliliyini də, gördükləri işi də.

— O tapançanı niyə götürürdün ki? — atası oğluna nəzər salaraq soruşdu.

Oğlu çiyinlərini çəkərək gülümsəməyə çalışdı. Amma dodaqları titrədiyindən təbəssümü yöndəmsiz alındı.

Otaqda oturanların hər biri situasiyanın qəlizliyini dərk edirdi. Məsələ heç tapılmış tapançada da deyildi. İndi kiçik Romanovskinin karyerası əsl qatilin nə vaxt tapılacağından asılı idi. Səfirlik müşaviri bu və ya digər şəkildə qalmaqala düşmüşdü. Nazir səviyyəsində olan federal məmurun ölümü inanılmaz olay idi və hamı bunu yaxşı başa düşürdü.

— Nə etməyi düşünürsünüz? — böyük Romanovski maraqlandı. — Oğlumu həbs edəcəksiniz?

— Hələ yox, — Zemskov cavab verdi, — amma heç hara çıxmamaq haqda dilindən iltizam alacağıq.

— Bu onun karyerasının sonu deməkdir, — atası dedi.

— Heç nə edə bilmərəm, — Zemskov əlini yellədi. — Ona Avstriyaya getməyə icazə verməyə, sadəcə olaraq, ixtiyarım yoxdur. Lopatinin ölümündən sonra bura Baş prokuror da gəlmişdi. Düşünürəm ki, Lopatinin ölümü haqda artıq prezident də bilir. Siz başa düşməlisiniz ki, hər şey mənim səlahiyyətimdə deyil.

Böyük Romanovski başını aşağı salıb eynəyini çıxardı. Sonra qəfil Zemskova baxdı.

— Bəs əgər bu mənim tapançamdırsa? — o, xırıltılı səslə soruşdu.

— Lazım deyil, — Dronqo kədərlə dedi. — Onsuz da sizə inanmayacaqlar. Bu, daha böyük qalmaqal yaradar. XİN müavini keçmiş baş nazir müavinini və Gömrük Komitəsi rəhbərini güllələyir. Buna keçərli səbəb lazımdır. Çox keçərli. Özü də bundan sonra oğlunuz böyük ehtimalla işini itirəcək. Düşünürəm ki, hamı sizin günahı niyə öz üzərinizə

götürdüyünüzü anlayacaq.

— Gedin, — Vsevolod Vitalyeviç gözlərini yumaraq xahiş etdi.

— Mənim sualım var, — Dronqo gözlənilmədən dedi. — Deyin görüm, Perqam çarlığının sikkəsi çoxmu dəyərlidir?

Romanovski gözlərini açdı. Maraqlanmış kimi qonağına baxdı.

— Sizin numizmatikadan başınız çıxır? — o, zəif səslə soruşdu.

— O qədər də yox. Amma onun qiyməti mənə maraqlıdır.

— Mən indi sizə belə məsələlərlə bağlı məsləhət ver mək hayında deyiləm, — Vsevolod Vitalyeviç dedi.

— Sikkələrin bura nə dəxli? — Zemskov hirslə soruşdu. — Siz ondan nə istəyirsiniz?

— Bunun cinayətin araşdırılmasına dəxli var, — Dronqo izah etdi. — Deyin, Perqam dövlətinin sikkəsi çoxmu dəyərlidir? — o, yenə soruşdu.

Romanovski maraqla ona baxdı. Sonra başını buladı:

— II Evmenin hakimiyyət illərinin çiçəklənmə dövrünə aid gümüş sikkələr yox, çünki onlar nadir deyil. I Evmen və Attalanın sikkələri də var. Onlara da tez-tez rast gəlinir. Çar Filiterin dövrünə aid sikkələr az tapılır. Amma gümüş sikkələri tapmaq olar. Amma I Attalanın qalatlar üzərində qələbəsinin şərəfinə təsviri zərb olunmuş qızıl sikkələri tapmaq praktik olaraq mümkün deyil. Belə dəyərli qızıl sikkələr dünyada cəmi bir neçə ədəddir. Üz tərəfində çarın, digərində isə eramızdan əvvəl təqribən III əsrdə çarın qalatlar üzərində olan qələbəsinin şərəfinə ucaldılmış Zevsin məbədinin təsviri var.

— Belə sikkənin dəyəri nə qədər olar?

— Əlli min dollar. Bəlkə də yüz. Və ya ondan bir qədər az. Dəqiq bilmirəm. Belə sikkələr bir neçə ədəddir. Onlardan biri Fyodor Qriqoryeviçdə idi. Bəs niyə məndən bu haqda soruşursunuz?

— Çox sağ olun, — Dronqo dedi. — Mən bu günün nə ilə bitəcəyini bilmirəm, amma oğlunuz evdə oturub heç hara çıxmasa yaxşı olar.

— Deyin görək, nə baş verir? — Zemskov həyəcanlandı.

— Artıq heç nə. Sergey Vsevolodyeviçə son sualım qaldı. Deyin, siz Almaniyada işləyərkən Alina Perelmanla qarşılaşmısınız?

— Onun Kölndə işlədiyini bilirdim. Mənsə yaxında, Bonnda işləyirdim. Biz hərdən görüşürdük.

— Aydındır, — Dronqo ayağa qalxdı, Potapov və Zemskova nəzər salıb qəfil dedi: — İndi isə mənə sizin izahatınız lazım olacaq.

— Siz Qluşkovun qətlinə görə məndən şübhələnir siniz? — general Zemskov istehza ilə maraqlandı. — Ya da Lopa-tinin qətlində.

— Yox, — Dronqo güldü. — Gedək, general, onları nəha yət ki, tək qoymaq lazımdır.

Dronqo və generallar evdən çıxanda Potapov sakitcə maraqlandı:

— Bəlkə izah edəsiniz, bu sikkələr sizi niyə belə maraqlandırır?

— Hələ vaxtı deyil, — Dronqo cavabdan yayındı. — Nəhayət, danışa bilərsiniz, ekspertlər Lopatinin evində nə tapıblar?

— Bilmirəm, — Potapov cavab verdi, — orda FTX əməkdaşları işləyir. Mühafizə Xidmətinin funksiyalarına təhqiqat işlərinin aparılması daxil deyil.

Dronqo Zemskova baxdı.

— Heç vaxt! — Zemskov kükrədi. — Sizi evə buraxmayacağam! Mən, ümumiyyətlə, sizin qəsəbədən çıxarılmağınızı ənır edəcəyəm. Bəsdir! Artıq aydındır ki, siz sayıqlayırsınız və heç nə edə bilmirsiniz. Nə qədər ki sizi, vacib faktları istintaqdan gizlədiyinizə görə ittiham etməmişəm, yaxşısı budur, burdan gedin. Gedin!

— Getməyəcəyəm, — Dronqo qəti dedi. — Üstümə də qış-qır-mayın. Zəhləm gedir kiminsə mənə qışqırmağından. Əsasından başlayaq. Qəsəbədə yüksək vəzifəli mə mur-lar öldürülür. Özü də eyni üsulla — eyni silahdan ürə-yə atəş açmaqla. Məncə, artıq bəzi nəticələr çıxarmaq olar.

— Hansı nəticələr? — Zemskov anlamadı. — Biz Sergey Romanovskini həbs etməliyik. Yaxşı olar ki, bu gün axşam. Yekunu sabah səhər prezident özü vuracaq. O həm məni, həm də sizin dostunuz Potapovu qovacaq. Özü də elə qovacaq ki, bizi heç sirkə keşikçi də götürməyəcəklər. Əgər səhlənkarlığa görə həbs etməsələr.

— Dayan! — birdən Dronqo dedi. — Deyəsən, biz vacib bir detalı unutmuşuq.

— Hansı detalı? — Zemskov başa düşmədi.

— Telefon. Qluşkov öldürüldüyü gün bir çox

adamla danışıb. Akademik Alekseyevə də zəng edib.

— Nə olsun ki? Akademiklər arasında onun çoxlu dostları vardı, — Zemskov anlamadı.

— Ola bilsin, o təsadüfən zəng edib, — Dronqo başını yellədi, — amma yoxlamaq lazımdır. Mən telefon nöm rəsini yadımda saxlamışam. Əgər icazə versəniz, ona zəng edərdim.

— Sizdə maniyadır, — Zemskov qəti olaraq bildirdi. — Sizin özündənrazılığınız məni heyrətə gətirir.

Dronqo kənara çəkilib bir nömrə yığdı. Demək olar ki, dərhal tanış səs eşidildi.

— Bağışlayın, — Dronqo dedi, — akademik Alek seyevdir?

— Hə, siz mənim mobil nömrəmi yığmısınız. Mən şə hər kənarında dincəlirəm. Danışan kimdir? Mənim telefon nömrəm sizdə hardandır?

— Bağışlayın, — Dronqo bir daha dedi. — Bəlkə siz məni xatırlayırsınız. Bir dəfə mən MDU-da elmi məruzə ilə çıxış etmişdim. Siz isə seminara rəhbərlik edirdiniz. Mənə adətən Dronqo deyirlər, amma mən sizə əsl adımı deyə bilərəm.

— Lazım deyil, — Alekseyev gülümsədi. — Sizi xatırladım. Kolleqalarım sizin haqqınızda mənə danışıb. Deyirlər ki, siz ölkənin və ya dünyanın ən yaxşı xəfiyyəsisiniz. Sizə necə müraciət edəcəyimi bilmirəm.

— Şayiələr həmişə şişirdilir, — Dronqo etiraz etdi. — Sizi narahat etdiyim üçün üzr istəyirəm. Siz akademik Qluşkovun ölümü haqda eşitmisiniz?

— Əlbəttə. Biz yaxından tanış deyildik, amma prinsipiallığına və praktik fəaliyyətinə görə Fyodor Qriqoryeviçə böyük hörmətim var idi. Elan olunub ki, o, sabah dəfn olunacaq. Mütləq gələcəyəm. Siz buna görə zəng etmisiniz?

— O qədər də yox. Üç gün əvvəl, keçən cümə axşamı o sizin mobil telefona zəng edib. Nəzərə alsaq ki, sizin fərqli fəaliyyət sferalarınız var və özünüz dediyiniz kimi demək olar ki, yaxın tanış olmamısınız, onda bilmək istərdim ki, o sizə nəyə görə zəng edib?

— Deməli, doğrudur ki, Qluşkov ölməyib, onu öldürüblər?

— Hələ ki, bunu sizə deyə bilmərəm. Buna ixtiyarım yoxdur. Siz deyə bilərsiniz, o, niyə zəng etmişdi?

— Bizim söhbətimizi sirrə çevirməyin mənası yoxdur. O, məndən Dövlət Dumasının qəbul etdiyi iki yüz birinci maddənin Cinayət Məcəlləsinə daxil edilməsi haqda soruşurdu. Vəzifə səlahiyyətindən sui-istifadə etməklə bağlı. O, bəzi xırdalıqları dəqiqləşdirmək istəyirdi. Söh bə-timiz o qədər də uzun çəkmədi, cəmi bir neçə dəqiqə. Məncə, o bir qədər həyəcanlı idi. Amma söhbətin təfər rüatını artıq xatırlamıram. Mənim yaşımda belə bir qüsur başa düşüləndir.

— Çox sağ olun, — Dronqo dedi. — Siz mənə çox kömək etdiniz! Çox sağ olun.

Telefonu söndürüb generallara yaxınlaşdı. Onlar ona sınayıcı nəzərlərlə baxırdılar.

— Bircə məni dayandırmağa cəhd edin! — Dronqo bərkdən dedi. — Mən Lopatinlərin evinə gedirəm ki, nəhayət, öz təhqiqatımı bitirim.

— Nə?! — Potapov və Zemskov eyni vaxtda səsləndi.

— Mənə mane olmayın, — Dronqo xahiş etdi. — Yoxsa biz, doğrudan da, heç vaxt heç nə öyrənməyəcəyik.

# XIV HİSSƏ

Onlar üçlükdə Lopatinlərin evinə tərəf yönəldi. Evin ətrafında getdikcə daha çox sayda hüquq-mühafizə orqanları əməkdaşları toplaşırdı. İndi onların sayı əllidən az olmazdı. Hamı dayanıb sakitcə iki general və bir hündürboylu kişinin zabit və xüsusi xidmət orqanları işçilərinin yanından keçib evə girmələrinə baxırdı. Əslində cəmi on nəfər işləyirdi. Prokurorluq və FTX-nin ən böyük gücləri Gömrük Komitəsi sədrinin ölümünün səbəblərinin təhqiqatına cəlb olunmuşdu.

Zemskov birinci daxil olub ev sahibi kimi ətrafa boylandı. Stul çəkib oturdu. Yanında daha iki stul vardı. Onları Potapov və Dronqoya göstərdi. Onlar oturandan sonra Zemskov əməkdaşların birindən ciddi tərzdə soruşdu:

– Mərhumun arvadı hanı?

– Öz yataq otağında. Onun halı xarab olmuşdu, biz hətta "Təcili Yardım" çağırmışdıq.

– O danışa bilər? – Zemskov maraqlandı.

– Bilmirəm, – zabit çiyinlərini çəkdi.

Zemskov ikrahla Dronqoya, sonra isə zabitə baxdı. Sonra yenə Dronqoya nəzər saldı.

– Sizi nə maraqlandırır? – o soruşdu.

– Qətlin necə baş verdiyi haqda nə məlumdur? – Dronqo yorğun halda soruşdu.

– Təqribən iki saat əvvəl, – zabit izah etdi, – onlar yataq otağında olublar. Sonra Lopatin aşağı düşüb. Arvadı deyir ki, səs və guppultu eşidib. Amma nə baş verdiyini anlamayıb. Aşağı düşəndə onu dəhlizin döşəməsində görüb. Yanında heç kim olmayıb. Qapı açıq olub. Gördüyünüz kimi, hər şey təkrar olunub. Yenə bir atəş və yoxa çıxan qatil. Amma bu dəfə ekspertlər tapançanın lüləsinin mərhumun bədəninə dirəndiyinə diqqət yetiriblər.

– Qatil yenə yaxına gəlib, – Potapov anladı. – Niyə o, hər dəfə belə riskə gedir?

– O, başqa heç nə xatırlamır. O qışqırıb və mühafizə əməkdaşlarına zəng edib. Sonra halı pisləşib, o, yataq otağında yatırdı.

– Onu tapança ilə güllələyiblər? – Dronqo maraqlandı.

– Hə, Bernardelli sistemi, – zabit cavab verdi. – Qısa lüləli italyan modeli. Həmin bizim

tapdığımız. Onun möhkəm zərbə-buraxıcı mexanizmi, bağlanmış rəzəsi və patronlarının iki sırada yerləşdiyi unikal darağı var.

— Başqa heç nə?

Dronqo zabitdən əlavə informasiya gözləyirdi. O Zemskova nəzər saldı. General güclə hiss olunacaq şəkildə başını tərpətdi. İndi onun üçün hər şeydən vacib olan Dronqonun təhqiqatı davam etdirməsi idi. Onda heç olmasa, bir şans qalırdı.

— Tapançanın üstündə nəm torpaq qırıntıları tapılıb, — zabit izah etdi, — Hərçənd, şübhəlinin yaxalandığı yer kifayət qədər qurudur, orda ancaq ağac və kolluqlar bitib. Yağış da yağmayıb. Bundan başqa, biz üstündə torpaq və sürtkü yağı olan dəsmal tapmışıq. O, kirli paltar qalağından tapılıb. İndi evdən tapdığımız bütün barmaq izlərini yoxlayırıq. Birinci mərtəbəni artıq yoxlamışıq, — zabit qürurla bildirdi, — kənar adamların izləri var, indi onları öz kartotekamız üzrə yoxlayırıq.

— Burda mənim əl izlərim də qala bilər, — Dronqo gülümsədi. — Biz general Potapovla dünən axşam burda idik, hətta ev sahibi ilə birlikdə içdik də.

— Dəhşətdir, — Potapov riyakarlıqla ah çəkdi, — gör kəmli təşkilatçını itirdik.

— Dəsmal... — Dronqo təkrar etdi. — Onsuz da əvvəlaxır Lopatinin arvadı ilə danışmalı olacağıq. Bəlkə biz yuxarı qalxaq? Və ya o düşsün.

— Mən onu dəvət edərəm, — FTX əməkdaşı bunu deyib otaqdan çıxdı.

Potapov Dronqoya baxdı.

— Bircə o qadına zülm verməyin, — xəbərdarlıq etdi, — onsuz da heç nə bilmir.

— Mənim məqsədim həqiqəti tapmaqdır, — Dronqo söz güləşdirdi, — sadistlik meyilləri isə məndə heç vaxt olma-yıb. Qoy aşağı düşsün, danışaq. Ola bilsin ki, mən onun ərinin qatilini daha tez taparam. Onun təsəvvür etdiyindən xeyli tez.

Bir dəqiqə sonra pilləkəndən dikdaban səsləri gəldi. Bu dəfə Nelli Lopatina tünd rəngli don geyinmişdi. Başında qara yaylıq var idi. Otağa girib hamı ilə sakitcə salamlaşdı və masa arxasında oturdu. Xoşagəlməz sükut çökdü. Hər iki general gözlərini bir-birindən qaçırırdı. Nelli Lopatina Dronqoya baxdı. Onun hissiyyatlı dodaqlarında eyni

zamanda həm aciz, həm də həris təbəssüm göründü.

— Siz nə istəyirsiniz? — o, kədərlə soruşdu. — Mişanı öldürdülər və mən tək qaldım.

— Başınız sağ olsun, — Dronqo dedi.

— Dünən biz bir yerdə idik, — xatırlatdı. — Hər şey elə qəfil alındı ki, — qonaq otağına göz gəzdirdi. — O daha yoxdur.

— Üzr istəyirəm, — Dronqo hüznlə dedi, — sizin vəziy yətinizi anlayıram, sizə əziyyət vermək istəmirəm. Bu gecə, bizim gedişimizdən dərhal sonra qeyri-adi heç nə sezmədiniz? Bəlkə o həyəcanlanırdı? Və ya kiməsə zəng edirdi?

— Yox, nə həyəcanlanırdı, nə də zəng edirdi, — qadın ah çəkdi. — Biz, demək olar ki, dərhal yatdıq. Səhər oyananda gördüm ki, o, aşağı düşüb. Sonra isə mən atəş və cəld addım səsləri eşitdim. Aşağı qaçdım, amma burda artıq heç kim yox idi, Mişa isə yerdə qalmışdı, — onun səsi titrədi.

— Onun əynində nə var idi?

— Yalnız alt paltarları. Ətraf bütün qan içində idi. Elə qorxmuşdum ki, bir neçə dəqiqə yerimdən tərpənə bilmədim, — o içini çəkdi, — sonra qışqırdım. Dərhal telefona əl atdım. Bir dəqiqə sonra Mühafizə Xidmətinin əməkdaşları, sonra da digərləri gəldilər.

— Sizin telefonunuz yuxarıdadır, yoxsa aşağıda?

— Yuxarıda da var, aşağıda da, — o cavab verdi. — Bir neçə mobil telefonumuz da var, amma şəhər telefonu həın yataq otağındadır, həm də qonaq otağında.

Qapı arxasında bərkdən səslər gəldi. Kimsə evə gir ınək istəyirdi, amma onu buraxınırdılar. O, mərhumun qardaşı olduğunu deyirdi. Nelli mübahisəni eşidib yenə ah çəkdi, amma susdu.

— Akademik Qluşkov ölən axşam nə baş verdiyini xatırlaya bilərsiniz? — Dronqo ınaraqlandı.

— İndi mən artıq heç nə xatırlamıram, — o etiraf etdi.

— Xatırlamağa çalışın. Cümə axşamı idi. Siz evdə tək idiniz. Axşam əriniz gəldi və siz onunla evin yanında gəzməyə çıxdınız. Səhər isə öyrəndiniz ki, Fyodor Qriqoryeviç öldürülüb. Dünən siz belə deyirdiniz.

— Deməli, hər şey belə də olub. Dəqiq xatırlamıram.

— Siz ərinizlə evin yanında tez-tez gəzirdiniz?

— Çox nadir hallarda, — o içini çəkdi. — Daha bu

gəzintilər heç vaxt olmayacaq, – Nelli yanağı ilə aşağı axan göz yaşlarını sildi.

Zemskov dərindən ah çəkib məzəmmətlə Dronqoya baxdı.

– Sizin ərinizin işlərindən xəbəriniz var idi? – Dronqo davam etdi.

– Mixail mənə, demək olar ki, heç nə danışmırdı, – o etiraf etdi. – O, qadının ərinin işlərinə qarışmağını sevmirdi. Son vaxtlar biz az-az görüşürdük. O, sutkalarla işdə qalırdı. Mən hətta onu dilə tuturdum ki, məzuniyyətə çıxsın. O, çox yorulurdu. Evə gecə gəlirdi, hərdənbir şəhərdə qalırdı. Onda mən onun yanına gedirdim. Bu haqda sizə artıq demişəm.

– Əriniz deyirdi ki, Fyodor Qriqoryeviçin ailəsini yaxşı tanıyır.

– O, Qluşkovu öz himayədarı sayırdı, – Nelli Lopatina başını tərpətdi. – Ümumiyyətlə, ona həmişə böyük hör mətlə yanaşırdı. İndi belə alındı ki, onlar bərabər getdi. Bir-birinin ardınca. Kim düşünə bilərdi ki, hər şey bilə bitəcək...

O, mövzudan açıq-aşkar yayınırdı və yenə ağlamağa hazırlaşırdı.

– Siz onun uşaqlarını da yaxşı tanıyırdınız?

– Biz ki sizinlə bu haqda danışmışdıq, – o, göz yaşları içində dedi. – Hamını tanıyırdıq. Hamı da bizi tanıyırdı. Haını onu sevirdi...

– Bəlkə bəsdir? – Zemskov dözmədi.

– Yox, – Dronqo etiraz etdi, – mənim daha bir neçə sualım var.

– Siz necə də nəzakətsizsiniz, – Zemskov donquldandı.

Potapov qarışmaq istəməyərək susurdu.

Bu an qapının ardından yenə səslər gəldi. Qapı açıldı. Dikdaban səsləri gəldi. Potapov gələni qarşılamaq üçün ayağa qalxdı və duruxub qaldı. Bu, Veronika Andreyevna idi. O, tünd göy məxmərı kostyum geyinmişdi. Öz ətrinin şirin dalğasını yayaraq kişilərin yanından ötüb keçdi.

– Salam! – deyərək onu görərkən yerindən duran Nelliyə yaxınlaşdı.

Hər iki qadın qucaqlaşıb bərkdən ağladılar. Dronqo anladı ki, Qluşkovun dul arvadını dayandırmağa FTX əməkdaşlarının, sadəcə olaraq, cəsarəti çatmayıb. Vero nika Andreyevna boş stul götürüb kişilərə fikir vermədən rəfiqəsinin yanında

oturdu.

— Dəhşətdir! — o köks ötürdü. — Biz necə ölkədə yaşayırıq?! Hər gün kimisə öldürürlər. Artıq nazirləri və baş nazir müavinlərini öldürməyə başlayıblar. Özləri də cəzasız qalırlar.

— Biz təhqiqatla məşğuluq, — Potapov ürəksiz halda etiraz etdi.

— Görürük, necə məşğulsunuz! — Veronika Andreyevna onu acıladı. — Bircə o qalıb ki, bizi öz evlərimizdə zorlayıb öldürsünlər. Bizi artıq mühafizə olunan qəsəbələrdə belə güllələyib qarət edirlər.

— Bu dəhşətdir, Veronika Andreyevna, — Nelli ah çəkdi.

— Başa düşürəm, — Qluşkovun dul arvadı həssaslıqla dedi. — Sabah bizdə dəfndir. Mən Fyodor Qriqoryeviçin sənədlərinə yenidən baxmaq üçün bağa gəlmişdim və bu dəhşətli xəbəri eşitdim. Səni görmək üçün bütün işlərimi atdım.

— Ərinizin sənədlərinə təklikdə baxırdınız? — Dronqo söhbətə qarışdı.

— Yox. Onun müavini və katibəsi Zoya Pavlovna da gəlib. Olanlar ona elə təsir edib ki, heç danışa bilmir. Alla və Oleq də burdadır. Onlar öz atalarının sənədlərinə baxmaq istəyirdi, mən də etiraz edə bilmədim.

— Mənsə Mişanın işləri haqda heç nə bilmirdim, — Nelli Lopatina köksünü ötürdü.

— Siz öz suallarınızı bitirdiniz?

Zemskov həyəcanlanırdı. İki dul qadının olduğu otaqda oturmaq ona xoş deyildi. General mümkün qədər tez havaya çıxmaq istəyirdi. Ona elə gəlirdi ki, Jukovkada törədilən hər iki cinayətlə şəxsən ona meydan oxuyurlar. Və o nəsə etmək istəyirdi. Amma Dronqo inadla yerindən durmurdu.

— Son üç sual, — o dedi.

Nelli Lopatina ağlamağı dayandırıb təəccüblə ona baxdı. Deyəsən, ekspertin inadkarlığı onu ehtiyatlandırdı. Veronika Andreyevna qaşlarını qaldırsa da, etiraz etmədi. Potapov ümidsiz bir görkəmdə bir kənarda oturub əlini yellədi. Bir daha düşündü ki, sabah istefa ərizəsi yazacaq. Hətta möcüzə baş versə və onlar qatili tapsalar belə, Lopatinin qətlini ona bağışlamayacaqlar.

— Dünən siz ərinizin akademik Qluşkovun yubileyinə bağışladığı sikkə haqda danışmışdınız. Siz hardan bilirdiniz ki, o qiymətlidir? Sizə bunu əriniz

demişdi?

Veronika Andreyevna heyrətli baxışlarını rəfiqəsinə yönəltdi.

— Nə sikkə? — o çaşqınlıqla soruşdu. — Fyodor Qriqoryeviçin sikkələrinin bura nə dəxli?

— Biz Mişanın Fyodor Qriqoryeviçin yubileyində ona verdiyi hədiyyə haqda danışmışdıq, — Nelli göz yaşlarını silərək izah etdi. — Sikkə haqda mənə Mişa demişdi. O, sikkənin çox qədim və dəyərli olduğunu vurğulayırdı. Ümid edirdi ki, hədiyyə Fyodor Qriqoryeviçin xoşuna gələcək. Hərçənd, Qluşkov sonradan zəng edib demişdi ki, belə bahalı hədiyyəni qəbul edə bilməz. Amma Mişa israr etdi.

— Siz bu haqda bilirdiniz? — Dronqo Veronika Andre yev-nadan soruşdu.

— Birinci dəfədir eşidirəm, — o, ev sahibəsinə təəccüblə baxaraq etiraf etdi, — amma bunda qeyri-adi heç nə görmürəm. Fyodor Qriqoryeviçin əxlaqi prinsipləri hamıya məlum idi. Sikkəni isə xatırlamıram. Görünür, belə bir şey olub, amma mənim yadımda deyil.

— Əriniz kimlə daha çox dostluq edirdi? — Dronqo ikinci sualı verdi. — Sizə kim daha tez-tez gəlirdi — böyük Qluşkov, yoxsa oğlu Oleq?

Veronika Andreyevna təlaşla Nelliyə baxdı və başını buladı.

— İfadələrində ehtiyatlı olmalısan. Bu yırtıcılar səni ilişdirib üstəlik günahkar da çıxararlar.

— Mən Veronika Andreyevna ilə dostluq edirəm, — Nelli dedi, — ərimin isə onun rəhmətlik ərinə və ailəsinə qarşı çox yaxşı münasibəti vardı.

— Amma Oleqlə ailəlikcə görüşürdünüz?

Nelli qonağına ehtiyatla baxıb başını aşağı saldı.

— Deyəsən, hərdən görüşürdük, — o dedi.

— Sonuncu sual. — Dronqo söhbətin bütün iştirakçılarının necə narahatlıq keçirdiyini görürdü. Qadınlar da, kişilər də. Hamı gərgin halda onun sualını gözləyirdi. Sanki bu çox vacib bir şeyi həll edəcəkdi. — Sizin əriniz birinci nikahından olan uşaqları ilə görüşürdü?

— Nə? — Nelli Lopatina heyrətləndi. O, bundan başqa hər sualı gözləyirdi.

— Birinci nikahından olan uşaqların bura nə dəxli? — Veronika Andreyevna kükrədi. — Siz bu yöndəmsiz suallarla ona əziyyət vermək istəyirsiniz?

— Gedək, — Zemskov ayağa durdu. — Mən daha

bu tamaşada iştirak etmək istəmirəm.

— Siz mənim sualıma cavab vermədiniz, — Dronqo yerindən durmadan dul qadının gözlərinə baxaraq davam edirdi.

— O... onlar... o... — o karıxmış halda Veronika Andre yev-naya baxdı. Sanki ondan dəstək gözləyirdi.

— Əlbəttə, görüşürdü, — daha təcrübəli Veronika Andreyevna onun köməyinə yetişdi. — Atanın öz uşağını görmək istəməməsi qəribədir. Sizin Mixail Nikolayeviçin adını ləkələmək cəhdləriniz isə...

— Görüşüb, yoxsa yox? — Dronqo hələ də Lopatinanın gözlərinə baxaraq Veronika Andreyevnanın monoloqunu nəzakətsizliklə kəsdi. — Onlar burda olublar?

— O, uşaqları ilə Moskvada görüşürdü! — o acıqla qışqırdı. — Siz məndən nə istəyirsiniz? Onlar burda olub, ya yox... Bunun onun ölümünə nə dəxli var?

— Çox sağ olun, — Dronqo ayağa duraraq dedi. — Daha sualım yoxdur.

— Gedin! — Lopatina birdən qışqırdı. — Və bir də gəlməyin!

Dronqo, onun ardınca da Potapov və Zemskov çıxışa tərəf yönəldi.

— Qadını nə hala gətirdiniz, — general Zemskov mə zəm-mətlə dedi. — Siz doğrudan da sadistsiniz. Onun, de mək olar ki, gözlərinin qarşısında ərini öldürüblər, siz isə onun birinci ailəsi ilə bağlı yersiz suallar verirsiniz. Bu heç yaxşı iş deyil.

– "Demək olar ki", – Dronqo generalın sözlərini təkrarladı.

— Nə? — Zemskov soruşdu. — Yenə xoşunuza gəlmir? Düşünürsünüz ki, ərini o özü öldürüb? Aşağı düşüb və güllələyib? Qluşkovu da? Ya da Veronika Andreyevna ilə sözləşiblər ki, öz ərlərini öldürsünlər. Coşqun fantaziyanız var, amma bu heç kimin işini asanlaşdırmır.

Zemskov Potapovla sağollaşdı və onlar yollarına davam etdilər.

— Bircə Fyodor Qriqoryeviçin katibəsinə bir sualım var, onda hər iki cinayətin necə baş verdiyini deyə bilə cəyəm, — birdən Dronqo gedənlərin arxasınca dedi.

Generallar ayaq saxlayıb bir-birinə baxaraq Dronqoya tərəf çevrildilər.

— Siz nə dediniz? — Potapovun səsi titrədi.

— Mən hər iki cinayətin necə törədildiyini bilirəm, — Dronqo cavab verdi. — Bircə Zoya Pavlovnadan bir faktı dəqiqləşdirmək qalıb. Ondan sonra hamını yığa bilərsiniz, mən nə baş verdiyini danışaram.

— Yenə sizin nağıllarınız... — Zemskov üzünü narazılıqla turşutdu. — Öhdənizə necə bir məsuliyyət götürdüyünüzü başa düşürsünüz? Qadınları ağladırsınız, insanları məsxərəyə qoyursunuz. Məncə, yaxşısı budur, siz qəsəbə ərazisini tərk edəsiniz.

— Hamını bir yerə yığın, — Dronqo inadla təkrar etdi. — Mən sizə hər iki cinayətin necə törədildiyini danışacağam, — o, yenə təkrar etdi.

— Yaxşı, — Zemskov saata baxdı, — yarım saat sonra Romanovskinin evinə yığışarıq. Düşünürəm ki, Vsevolod Vitalyeviç sizin danışdıqlarınızı eşitməyə şad olacaq. Əlbəttə ki, əgər Lopatini onun oğlu güllələməyibsə. Ora gedirəm. Mən hələ protokol sənədləşdirməliyəm.

— Danışdıq.

Dronqo Qluşkovun evinə tərəf getdi. Potapov təşvişlə onun ardınca baxdı.

— O anormaldır, — Zemskov dedi. — Əminəm ki, onda heç nə alınmayacaq.

— Baxarıq, — Potapov burnunun altında dedi. — Hərdən o, başqalarının görə bilmədiklərini görür.

Dronqo Qluşkovun evinə yaxınlaşdı. Burda iki müha fizəçi dayanmışdı. Onlardan biri Çislov idi. Dronqo onunla köhnə tanışıymış kimi salamlaşıb evə daxil oldu. Kabinetdən səslər gəlirdi. İkinci mərtəbəyə qalxarkən o bayırda sənədlərə baxan Alla və Oleqi gördü. Onların yanında 60 yaşlarında bir qadın dayanmışdı. Gözlərindən ağladığı bilinirdi. Dronqo anladı ki, bu, Qluşkovun katibəsi Zoya Pavlovnadır. İçəri girəni görüncə Oleq diksinib əlindəki kağızı yerə saldı. O, qonağa artınaqda olan dəhşətlə baxırdı.

— Salam, — o arxasında tanış səs eşitdi və Dronqo acza kənara çəkildi. Kabinetə Boris Arsenyeviç Tumanyan daxil oldu. — Fyodor Qriqoryeviçin kağızlarını səliqəyə salırıq, — o, kədərlə izah etdi.

— Siz nəsə aydınlaşdırdınız? — Alla soruşdu.

— Demək olar ki, hər şeyi, — Dronqo onun

qardaşına baxaraq cavab verdi. – Mən yalnız Zoya Pavlovnadan bir detalı dəqiqləşdirmək istərdim. Öldüyü gün Qluşkov səhər işə gəlmişdi. Zəhmət olmasa, xatırlamağa çalışın, onun əlində hansısa paket və ya albom yox idi ki?

– Yox, – Zoya Pavlovna cavab verdi.

– Siz buna əminsiniz?

– Tamamilə. Səhər institutda seminarı var idi. Əvvəl ora getmişdi, sonra isə işə gəldi. Onun əlində heç nə yox idi. Yoxsa onu sürücü vasitəsilə qəbul otağına göndərərdi.

– Hə, – Tumanyan təsdiqlədi, – mən onu aşağıda qarşıladım. Əlində heç nə yox idi.

– Aydındır.

Dronqo Oleqə müraciət etdi:

– Siz mənimlə gələ bilərsiniz? – o xahiş etdi.

Onlar aşağı düşdülər.

– Analığınız atanızın kabinetinə baxmağınıza etiraz etmədi? – Dronqo soruşdu.

– Özüm də Veronika Andreyevnanın bizi buraxdığına təəccübləndim, – Oleq çaşqın görünürdü. – Mənə elə gəlirdi ki, atamın ölümündən sonra o bizim heç birimizi evə buraxmayacaq.

– O, kifayət qədər ağıllı qadındır, – Dronqo etiraz etdi. – Siz demişdiniz ki, son zamanlar onunla münasibətləriniz- o qədər də yaxşı deyil. Bilmək olar, bu nə ilə bağlıdır?

– İşlə, – Oleq azca qızardı, – bunun bizim işinizə aidiyyəti yoxdur.

– Siz ərzaq gətirirsiniz, – Dronqo xatırlatdı. – Problem lər onun gətirilməsi ilə bağlı yaranmışdı? Xahiş edirəm, sualıma cavab verin. Atanız öldürüldüyü gün o sizinlə bir neçə dəfə telefonla danışıb. Və mən əmin deyiləm ki, bu, sadəcə, mehriban ata-oğul ünsiyyəti olub.

– Belə danışmaq lazım deyil, – Oleq xahiş etdi. – Hə, bizim bəzi ərzaqlar yüksək keyfiyyətli olmadığına görə bəzi problemlərimiz yaranırdı.

– Bu nə deməkdir?

– Ərzağı bəzi... qanun pozuntuları ilə gətirirdik.

– Necə?

– Bəzi ərzaqların vaxtı keçmişdi. Ətin isə sertifikatı yox idi.

– Və bu, atanızın xoşuna gəlmirdi, – Dronqo anladı.

– Ola bilər. Bunun onun ölümünə nə dəxli var?

Oleq əlləri əsə-əsə eynəyini düzəltdi. Üst dodağında tər damcıları göründü.

— Məncə, siz danışdığınızdan daha çox şey bilirsiniz, — Dronqo əminliklə qeyd etdi. — Bir neçə dəqiqə sonra son günlər Jukovkada nə baş verdiyini anlatmağa çalışacam.

O, qapıya tərəf bir addım atdı.

— Gözləyin, — Oleq onu saxladı. — Siz nə demək istəyirsiniz? Sizcə, atamın ölümünü mən təşkil etmişəm?

— Məncə, yox. Amma sizə daha bir sualım var. Nəzərə alın: yalan danışmağa dəyınəz. Mən yoxlaya bilərəm. Düzünü deyin, bu gecə Lopatinlə danışmısınız?

Oleq susurdu.

— Hə, ya yox? Bunu yoxlamaq çox asandır, — Dronqo xatırlatdı.

— İki dəfə, — Oleq sakitcə dedi. — Sizə bunu Nelli deyib?

— Yox. Mənim daha sualım yoxdur.

Dronqo evdən çıxdı. Çislov astanada dayanmışdı.

— Hamını yığın, — Dronqo icazə verdi. — Mən nə baş verdiyini danışacağam.

# XV HİSSƏ

Romanovskinin evinə çox adam toplaşmışdı. Zems kov kənar adamların içəri keçməsinə icazə ver-məmişdi. Ev onun əməkdaşları ilə əhatəyə alınmışdı. General Dronqonun deyəcəklərini səbirsizliklə gözləyirdi. Əlbət tə ki, hər iki cinayətin açılması onun üçün çox vacib idi. Amma onu daha çox ekspertin özü maraqlandırırdı. "O kimdir? – Zemskov düşündü. – Avantürist? Dahi? Anormal? Yəni doğrudanmı, o, cəmi üç günə Qluşkovun, bir günə də Lopatinin qətlini aça bilib? Doğrudanmı, o qeyri-mümkün olanı edib?"

Dronqo otağa ən axırıncı girib orda olanlara diqqət yetirdi. Perelmanlar divanda yerləşmişdilər. Özü də kişi arvadının əlini tutmuşdu ki, onu bir qədər sakitləşdirsin. Yanlarındakı stulda Alina Perelman oturmuşdu. Nelli Lopatina kresloda oturmuşdu. Gözləri ağlamaqdan şişmişdi. Yanındakı kresloda Veronika Andreyevna oturmuşdu. Oleq və Alla masanın arxasında oturmuşdu. Ata və oğul Romanovskilər masanın o biri tərəfində idilər. Zemskov qapının yanında oturmuşdu, sanki kiminsə otaqdan çıxmağının qarşısını almaq istəyirdi. Potapov onun yanında stulda oturmuşdu. Hamı Dronqonun izahatını gözləyirdi.

— Mən başa düşürəm ki, danışacaqlarım həddən artıq inanılmaz və qeyri-mümkün görünə bilər, — Dronqo başladı. — Hamını səbirli olmağa çağırıram və məni sona qədər dinləməyinizi istəyirəm.

O bu gün güclü sarsıntı keçirmiş Sergey Romanovskinin dilxor sifətini gördü. Onun atasının da üzü gərgin idi. Alina Perelmanın da həyəcan keçirdiyi hiss olunurdu. O heç bir xırdalığı buraxmamağa çalışaraq danışmağa başladı.

— İki gün əvvəl general Potapov mənim yanıma gələndə artıq Fyodor Qriqoryeviçin ölümü haqda bilirdim. Akademik və keçmiş baş nazir müavininin ölümü haqda səbəbini bildirmədən bütün televiziya kanalları məlumat vermişdi. Aydın idi ki, o, qəfil ölüb. General Potapov şübhələrimi təsdiqlədi. Fyodor Qriqoryeviç Qluşkov öldürülüb. Kifayət qədər nadir tapılan Bernar delli sistemindən olan tapançadan güllələnib. Tapança tapılmayıb. Öldürülmüş

akademiki yazı masasının yanında tapıblar. Diqqət yetirin: o məhız kabinetdə öldürülüb. Əgər o özünü güllələmək istəyirdisə, ikinci mərtəbəyə çıxmağın nə mənası vardı? Bundan başqa, o heç bir yazı da qoymayıb. Ən vacibi yanında tapança olmayıb.

— Unutmayın, — general Zemskov xatırlatdı, — Mixail Nikolayeviç Lopatin öldürüləndə də silah tapılmamışdı.

— Yox, mən heç nəyi unutmamışam. Amma xahiş edi-rəm, məni sona qədər dinləyəsiniz. Beləliklə, Qluş kov ölüb və silah tapılmayıb. Mən bura gələndə nə öl dürülənin — cəsədi, nə də cinayətin izləri var idi. FTX və prokurorluq müstəntiqləri artıq hər yerə baxmağa və şəklini çəkməyə macal tapmışdılar. Bir tərəfdən mənim işim həmişəkindən daha çətin olmuşdu. Çünki cəsədi görməmiş və cinayət yerini öyrənə bilməmişdim. Aınma digər tərəfdən heç bir doqmatik versiyalarla əlim-qolum bağlanmadığından ən ağlagəlməz ehtimalları irəli sürə bilirdim. Beləliklə, Qluşkovun qətlindən başlayaq. Dediyim kimi, o Bernardelli sistemindən olan tapançadan öldürülüb. Model “P-18 kompakt” — bu tapançanın qısa lülə ilə təkmilləşmiş hərbi versiyasıdır. FTX əməkdaşının dediyinə görə tapança olduqca möhkəm imiş. Onun özünün zərbə-buraxıcı mexanizıni var. Barmaqlar üçün buraxıcı dəstəyi isə tapança iki əllə tutulduğu halda istifadə edirlər. Yanımda indi tapança yoxdur, amma düşünürəm ki, siz mənim sözlərimə inanarsınız.

— Siz nə demək istəyirsiniz? — Vsevolod Vitalyeviç Romanovski başa düşmədi. — Tapançanın markasının bura nə dəxli?

— Bu, son dərəcə nadir modeldir, — Dronqo izah etdi. — Amma indi tapança bizdə olduğu üçün daha konkret nəticələr çıxara bilərik. Qatil Qluşkova çox yaxın gəlib və bir dəfə atəş açıb. Güllə akademikin ürəyindən dəyib. Qluşkov bir güllədən sonra ölüb. Mən hələ onda düşünmüşdüm ki, bu, adi qarətçi olmayıb. O, qurbanına bu qədər yaxın gələ bilməzdi, heç arxasınca Qluşkovun kabinetinə də çıxmazdı. Fyodor Qriqoryeviç qüvvətli kişi olub. Qatil isə ona bu qədər yaxınlaşmaqdan qorxardı. Əlbəttə ki, əgər o, akademiki, sadəcə, qarət etmək istəyirdisə. Yəqin ki, qatil atəş açmazdı. Atəş səsini mühafizənin eşitməyindən qorxardı. Ev sahibi ilə onu çox yaxına gəlməklə güllələmək üçün ikinci mərtəbəyə çıxan

qarətçinin varlığına inanmaq son dərəcə çətin idi.

— Bəlkə qarətçi Fyodor Qriqoryeviçi tapança ilə təhdid edərək ikinci mərtəbəyə qalxmağa məcbur edib? — Zemskov dedi.

— Ola bilər, — Dronqo razılaşdı, — bəs qarətçi niyə qurbanına bu qədər yaxınlaşır? Qluşkov tapançanı ondan ala bilərdi.

Zemskov duruxub susdu.

— Gördüyünüz kimi, sizin versiyanızı yoxlamağa dəyməz, — Dronqo davam etdi. — Faktlara söykənərək davam edək. Beləliklə, Qluşkovu kimin və niyə öldürdüyünü anlamaq lazım idi. Burda onun numizmatikaya olan həvəsi mənfur rol oynadı...

— Bu, qarətçi idi, — Alla dedi, — biz ən əvvəldən belə düşünürdük.

— Bu, qarətçi deyildi, — Dronqo etiraz etdi. — Məsələ burasındadır ki, mən sizin atanızın həmin günkü telefon zənglərini yoxladım. Həm evdən, həm də bağdan. O bir neçə dəfə sizin qardaşınız Oleqlə, iki dəfə də Mixail Nikolayeviç Lopatinlə danışıb. Bir dəfə kitablarından mənim də bəhrələndiyim məşhur hüquqşünas akademik Alekseyevə zəng edib. İş burasındadır ki, mən Alekseyevi şəxsən tanıyıram. Ona görə onların cümə axşamı akademiklə nə danışdığını zəng edib soruşmağa ərinmədim. Sizin atanız, Alla, spesifik bir maddə ilə maraqlanıb. Daha dəqiq, yeni Cinayət Məcəlləsinin iki yüz birinci maddəsi ilə. Bu, vəzifəsindən sui-istifadə etməklə bağlı olan maddədir. Nədənsə, məhz o gün bu maddə haqda soruşmaq üçün Alekseyevə zəng edib. Bizim bir neçə versiyaınız vardı. Bir tərəfdən Qluşkov qadınların xoşuna gələn əzəmətli, yaraşıqlı kişi idi. Qonşu bağlarda iki gənc və kifayət qədər cazibədar qadın — Nelli Lopatina və Alina Perelman yaşayırdı. Çox ola bilər ki, Qluşkov qısqanclıq səbəbi ilə öldürülüb. Axı Lopatin bizə arvadı ilə evin ətrafında gəzişdiyini demişdi. Mən ehtimal etdim ki, o öz arvadını Qluşkovun evindən aparıb və evi tərk etməzdən əvvəl akademiki güllələyib.

— Siz nə danışırsınız? — Nelli Lopatina ah çəkdi. — Onun öldürülməyi sizə azlıq edir?

— Üzr istəyirəm. Bu, sadəcə olaraq, versiyalardan biridir. Digər versiya da mövcud olmaq haqqına malik idi. Məsələn, Alina Perelman bizə öldürülmüş Qluşkovu gördüyünü demişdi. Amma o,

həqiqəti deməyə də bilərdi. O, akademiki sağ da görə bilərdi. Evi necə tərk etdiyini danışan Alina atasına rast gəldiyini demişdi. Ola bilsin, o düz deyib. O da ola bilər ki, qonşusunun davranışlarından qəzəblənən atası onun yanına münasibətləri ayırd etməyə və onu öldürməyə gedib. Onda qızın niyə bizi aldatdığını anlamaq olar...

— Mənim atamda tapança yoxdur, — Alina yorğun halda dedi. — Və onun yaşında kimisə öldürməyə qərar vermək mümkün deyil.

— Mənim yaşımda hər şey etmək olar, — Perelman onun sözünü kəsdi. — Əgər kimsə Alinanı incitsə, mən rahat şəkildə o adamı öldürə bilərəm. Buna hələ ki, gücüm çatar. Amma mən Fyodor Qriqoryeviçi öldürməmişəm və o, Alinanı incitməyib. Əksinə, onlar dostluq edirdi.

— Mənə də elə gəlir, — Dronqo razılaşdı. — Amma qatil sizdən az əvvəl evdə olmuş Vsevolod Vitalyeviç Romanovski də ola bilərdi. O kifayət qədər yaxına gəlib Qluşkova atəş aça bilərdi. Daha sonra isə onun sikkə kolleksiyasını oğurlayardı.

— Sizi ixtisasınızdan məhrum edəcəklər, — böyük Romanovski qaşqabaqla dedi. — Şəxsən özüm qayğısına qalacam ki, sizi heç bir yerə işə götürməsinlər.

— Sizin oğlunuzda tapança tapdılar və biz belə bir versiya ilə razılaşa bilərdik, — Dronqo davam etdi. — Əslində isə hər şey başqa cür olub. Bu müəmmanın aradan qalxması üçün açar Qluşkovun Alekseyevlə söhbəti oldu.

— Nə olsun ki? — Alla həyəcanlandı. — O kimə oldu zəng edə bilərdi. Onun qətlinə bu söhbətin nə aidiyyəti var ki?!

— Həmin gün sizin atanız işdən gedərkən ona zəng edənlərdən birinə deyib ki, onunla evdə danışacaq. Daha doğrusu, bağda. O, bağa gələrkən ona birinci zəng edən adam sizin qardaşınız Oleq olub.

Oleq eynəyini düzəldib qurumuş dodaqlarını yaladı.

— Bircə deməyin ki, mən öz atamı güllələmişəm!

— Deyəcəyəm, — birdən Dronqo dedi.

Hamı diksindi.

— Siz özünüzü nə hesab edirsiniz? — Alla qardaşının müdafiəsinə qalxaraq qışqırdı. — Belə bir şeyi heç düşünməyə də cürət etməyin!

— O, bağda ola bilməzdi, — Potapov dedi, — heç cür ola bilməzdi. Biz hər şeyi yoxlamışıq.

— O doğrudan da bağda olmayıb, — Dronqo razılaşdı və Allaya üzünü tutdu. — Amma məhz sizin qardaşınız bilmədən və ya qəsdən atanızın ölümünə şərait yaradıb. İş burasındadır ki, qardaşınızın rəhbərlik etdiyi firma çoxdan Almaniya və Polşadan ərzaq gətirilməsi ilə məşğuldur. Bu, vaxtı keçmiş ərzaqların topdan qiymət lərlə alışı üzərində qurulmuş, yaxşı təşkil olunmuş biznesdir. Ticarət şəbəkəsinə düşən bu ərzaqlar göstərilən müddətdən xeyli gec satılırdı. Bu da alıcılar üçün təhlükəsiz deyildi. Əlbəttə ki, işlərin belə gedişi atanızı hiddətləndirirdi. O bunu fırıldaqçılıq hesab edirdi. Lopatinlərin və Oleq Qluşkovun ailələrinin dostluq etdiyini öyrənmək mənim üçün çətin olmadı. Dünən bunu Nelli Lopatina da təsdiq etdi. Amma mən onun sözlərinin ərinin xoşuna gəlmədiyini sezdim. O bu haqda təfərrüatı ilə danışmağa çalışanda əri onun sözünü kəsdi. Buna baxmayaraq, Lopatin özünün, onun Gömrük Komitəsinə — əvvəlcə müavin, sonra isə rəhbər təyin edilməyinə görə Fyodor Qriqoryeviçə minnətdar olduğunu deyə bilmişdi.

Dronqo otaqdakılara göz gəzdirdi.

— Lopatin öz himayədarının oğlunun fırıldaqlarını ört-basdır edirdi, — Dronqo qəddarcasına davam edirdi. — Həmin gün məhz Qluşkova hər şeyi danışmaq üçün zəng etmişdi. Buna görə o, nəhayət, bütün fikir ayrılıqlarına son qoymaq üçün Fyodor Qriqoryeviçin yanına gəlir. O, Qluşkovun evinə yaxınlaşanda kamerada qeydə alınır. İş ondadır ki, ondan sonra Romanovski və Alina da evdə olublar. Vsevolod Vitalyeviç kabinetə qalxmayıb və həmin an Qluşkovun öldüyünü bilə bilməzdi. Amma Alina yuxarı qalxıb və cəsədi görüb.

Hamı Alinaya baxdı. O, rəngi ağarmış halda tərpənmədən oturmuşdu.

— Lopatin bizi əmin edirdi ki, həmin gecə evin yanında gəzişirdi. Arvadının isə ağzından qaçdı ki, onlar, demək olar ki, heç vaxt birlikdə gəzmirlər. Amma məhz həmin axşam Lopatin qayıdıb özünə alibi təmin etmək üçün arvadı ilə gəzintiyə çıxır. Mən lap əvvəldən nə təsadüfi qarətçi, nə də naməlum cinayətkar versiyasına inanmamışdım. Oğlunu ərzaq gətirilməsindəki fırıldaqçılığa görə danlayan Qluşkov, görünür, Lopatini də yanına çağırıb. Onun

keçmişdə irəli sürdüyü adamın oğluna himayədarlıq etməsi akademikə xoş gəlməyib. Özü də o, yubileyində ona bağışlanmış çox bahalı sikkəni də xatırlayırdı. Qluşkov belə bir hədiyyənin əsl dəyərini anlamaq üçün kifayət qədər ağıllı və təcrübəli numizmat idi. Lopatin həmin uğursuz gündə akademik Qluşkovla iki dəfə danışdığını gizlətmirdi. Dünən səhər biz pilləkəndə qarşılaşanda mən Lopatinin Qluşkov haqqında dediyi sözlərə diqqət yetirdim. Fyodor Qriqoryeviçi xarakterizə edərkən onun işlətdiyi birinci söz "cəsarətli" olmuşdu. Mən qəsdən onun göründüyü videoyazı haqqında danışanda onun həyəcan keçirdiyini sezdim.

Biz Lopatinlərin evində olanda ev sahibi arvadının istintaqına hər cür mane olmağa çalışırdı. O, tez-tez arvadının sözünü kəsirdi. Xüsusən, onların ailəsinin Qluşkovun oğlunun ailəsi ilə dostluğundan danışarkən. Beləliklə, Lopatin Fyodor Qriqoryeviçin yanına öz tapançası ilə gəlir. Görünür, onların arasında ciddi söhbət olub. Məncə, Lopatin akademikə atəş açmaq istəməyib. Hətta düşünürəm ki, Lopatin özü özünü güllələyəcəyi ilə təhdid edib. Qluşkov isə tapançanı ondan almağa çalışıb. Yəqin Fyodor Qriqoryeviç Lopatinə istefa verməsini təklif edib. O, tapançanı gətiribmiş ki, özünü güllələyə biləcəyinə qərarlı olduğunu göstərsin. Bununla öz himayədarını bir qədər yumşaltmağa çalışırmış. Gömrük Komitəsindəki fırıldaqlar hamıya məlumdur. Və Qluşkov onu ört-basdır etməzdi. Qeydiyyatdan keçməmiş tapança isə yalnız Gömrük Komitəsi sədrində ola bilərdi. Belə bir "oyuncağı" ona kimsə hədiyyə edə bilərdi.

Görünür, bu "tamaşa" Qluşkovun xoşuna gəlməyib və o, tapançanı qonşusundan almağa çalışıb. Lopatin üçün həyatın bütün anlamı karyerada və onun gətirdiyi rifahda idi. Təmin olunmuş həyat, bahalı içkilər, təmiz işlədiyi yüz il müddətinin maaşına bərabər maşın, gözəllik müsabiqəsinin qalibi olmuş gənc arvad, ona verə biləcəyi ağlasığmaz qiymətdə olan bahalı hədiy yələr... Eyni zamanda o, birinci nikahından olan uşaqları ilə görüşməyə boş vaxt tapa bilməyib. Razılaşın ki, bu Lopatinin xeyrinə deyil.

— Bəsdir! — Nelli Lopatina qışqırdı. — Onun haqqında bu tonda danışmayın!

— Davam edin, — birdən Zemskov quru tərzdə

tələb etdi. Lopatina ona baxaraq susdu.

— Görünür, Lopatin Qluşkova öz qərarlılığını göstər mək üçün tapançasını çıxarıb. O, ümumiyyətlə, bir qədər nazsatan olub. Biz artıq o dəhşətli səhnənin təfərrüatlarını heç vaxt öyrənə bilməyəcəyik. Yəqin Qluşkov tapançanı ondan almaq istəyib. Mən məhz belə düşünmək istəyirəm. Amma tapançadan qəfil atəş açılıb və Qluşkov ölüb. Qorxmuş Lopatin onun evini tərk edib və öz evinə gələrək arvadından tələb edib ki, onunla gəzməyə çıxsın. Diqqət yetirin, onun arvadı etiraf etmişdi ki, onlar əvvəllər, demək olar ki, heç vaxt gəzməyə çıxmayıblar. Həmin axşam isə gəzintiyə məhz əri israr edib. Çünki Qluşkovla olan uğursuz görüşdən sarsılmışdı. Tapançanı evin yaxınlığında gizlədib və bu günə qədər də ona toxunmayıb. Tapançanın üstündə yaş torpaq qalıqları tapılıb. Dünən biz qəsəbədən gedəndə yağış yağırdı.

— İndi siz həlak olmuş Mixail Nikolayeviçə böhtan atmağa hazırsınız, — Veronika Andreyevna hirslə dedi. — O, artıq sizə cavab verə bilməyəcək, ona görə ağlınıza nə gəlirsə, uydurursunuz.

— Bunlar uydurma deyil, — Dronqo kədərlə cavab verdi. — Dünən biz Lopatingildə idik və onlara bir neçə sual vermişdik. Məncə, Mixail Nikolayeviç hiss etmişdi ki, mən əvvəl-axır cinayətin necə baş verməyini anlayacağam. Təkcə telefon zənglərini yoxlamaq kifayət idi. Son iki ay ərzində Qluşkov və Lopatin bir dəfə də danışmayıblar. Qətl günü isə iki dəfə danışıblar. Özü də Fyodor Qriqoryeviçin oğlu ilə bəzi danışıqları Qluşkovun öldüyü gün onun nədən narahat olduğunu aydın göstərir. Nəhayət, onun Alekseyevə etdiyi zəng. Görünür, Qluşkov daha sonra Lopatinə “vəzifədən sui-istifadə etmənin” nə demək olduğunu izah edib.

Lopatin bütün gecəni yatmayıb və anlayıb ki, onu rüsvayçılıqdan yalnız intihar xilas edə bilər. O, evdən çıxaraq tapançanı axtarıb tapıb. Qayıdandan sonra çətin qərar verib. Silahı ürəyinə dayayaraq çətinliklə atəş açıb. Arvadı atəş səsini eşidib. O aşağı düşərkən ərini yerdə görüb. Düşünürəm ki, Nelli Lopatina nə baş verdiyini dərhal anlayıb. Bundan başqa, mənə elə gəlir ki, cümə axşamı əri qəfildən evin ətrafında gəzişməyə israr edəndə o artıq hər şeyi başa düşmüşdü. Qadınlar tez-tez kişilərdən daha kəskin hiss edirlər. Ən azından növbəti gün o

hər şeyi anlamalı idi. Axı onun sözlərinə görə, onlar əvvəllər bu xiyabanda heç vaxt gəzişməyiblər. Yalnız özünə alibi təmin edərkən həmin uğursuz cümə axşamını saymasaq, heç vaxt.

Lopatina nifrət dolu gözlərlə Dronqoya baxdı, amma etiraz etməyə cəsarəti çatmadı. O davam etdi:

– Nelli Lopatina birdən başa düşdü ki, hər şeyi itirə bilər: axı onun ərini Qluşkovun ölümündə ittiham edə bilərdilər. Tapançanı götürüb dəsmala bükə rək Romanovskilərin evinin yanındakı kolluğa atır. Orda da onu kiçik Romanovski tapır. Diqqət edin: dəs malın üstündə silahın izləri qalmışdı. Lopatin özünü güllələməyə qərar veribsə, onu dəsmala bükməyin nə mənası? Bütün hekayət bundan ibarətdir. Lopatinin intiharı onun günahını qəti şəkildə təsdiqləyir. Bəlkə də o öz əməlini izah etdiyi yazı da qoyub. Amma gənc arvadı onu məhv edə bilər.

– Yalan deyirsiniz! – birdən Nelli qışqırdı. – Heç bir yazı yox idi. Mən istəmirdim ki... istəmirdim ki, o rüsvay olsun... – O hönkürdü. Potapov su gətirməyə tələsdi. Ha mı sarsılmışdı. Potapov ona bir stəkan su gətirəndə onu əlindən alacaqlarından qorxurmuş kimi birnəfəsə içdi.

– Sübutunuz var? – Veronika Andreyevna müdaxilə etdi. – Bunlar hamısı əsassız ehtimallardır. Dəsmal da hələ sübut deyil.

– Ola bilər, – Dronqo razılaşdı, – amma Nelli Lopatina ərinin ölümü haqda danışarkən bir detalı unudub. Onun əri gecə bir neçə dəfə Oleq Qluşkova zəng etmişdi. Amma nədənsə, o bu haqda susub. Ölüm anında Lopatin alt paltarında olub. Razılaşın ki, bu görkəmdə çətin ki, qonaq qəbul etmək üçün qapı açsın. Ərinin ölümündən sarsılmış arvadı isə ona şalvar geyindirməyi unudub. Nəhayət, ən vacib sübut: Biz dünən Lopatinlərin evində olarkən onun addım səslərini yalnız pilləkəndə eşitdik. İkinci mərtəbədən addım səsləri eşidilmir. Bu gün isə guya baş verən qətl haqda danışarkən bizi inandırırdı ki, qaçan qatilin ayaq səslərini eşidib. O, yataq otağından addım səslərini eşidə bilməzdi. Bu, mümkün deyil.

Nelli üzünü əlləri ilə tutub yenə hönkürdü. Hamı sarsılmış vəziyyətdə susurdu.

– Bəs sikkələr? – böyük Romanovski birdən soruşdu.

O, əsl numizmat və kolleksiyaçı idi. Ona görə oğlunun taleyindən, Qluşkovun qətlindən və Lopatinin intiharından başqa, onu itmiş sikkələr də maraqlandırırdı.

— Sikkələrin işi asandır, — Dronqo dedi. — İş bundadır ki, Fyodor Qriqoryeviç onları adətən, evdəki seyfdə saxlayırmış. İstisna hallarda bağa gətirirmiş. Bu haqda mənə özünüz demişdiniz. Onun arvadı demişdi ki, o, həmin gün səhər özü ilə iki albom götürüb. Amma o bilmirdi ki, həmin gün Qluşkovun institutda seminarı var idi. Əvvəlcə ora, sonra işə getmişdi. Gələndə onu aşağıda Tumanyan qarşılayıb. O, akademikin əlindəki albomlara mütləq diqqət yetirərdi. Elə Qluşkovun katibəsi Zoya Pavlovna da onun əlində heç nə olmadığını xatırlayır.

— Siz onlara məndən çox inanırsınız? — Veronika Andreyevna qəzəblə soruşdu.

— Yox, — Dronqo dedi, — amma bir nüans var ki, siz ona fikir verməmisiniz. Siz həmin gün məşğul olmusunuz, əriniz isə evə nahar etməyə gəlib. Hətta əgər razılaşsam ki, onları səhər götürüb, siz niyə bu qədər əminsiniz ki, günorta onları yerinə qoymayıb? Axı o, nahara gələndə siz evdə olmamısınız. Və ən vacibi — sizə onun öldüyünü xəbər verəndə siz bağa gəlib dərhal ən qiymətli albomların itdiyini bildirdiniz. Siz niyə əmin idiniz ki, onlar bağdadır? Axı onları evə gətirə bilərdi? Nəticə birmənalıdır. Ərinizin ölümü haqda xəbər tutan kimi siz onun ən qiymətli sikkələri olan iki albomunu gizlətmisiniz. Axı onlar çox qiymətlidir. Görünür, rəfiqəniz Nelli Lopatina sizə Perqam çarlığının qızıl sikkəsinin necə dəyərli olduğunu danışıb. Və siz anlamısınız ki, ərinizdə ən dəyərli əşya sikkə kolleksiyasıdır. Bu, Fyodor Qriqoryeviçin övladlarının hər hansı bir iddiası zamanı sizin sığortanız olub. Bundan sonra siz çarəsiz dul qadın görkəmində bağa gəlmisiniz.

— Mən sizi dinləmək istəmirəm! Siz yaramazsınız! Yaramaz! — o, yerindən sıçradı.

— Qluşkovun övladlarına atalarının kabinetində sə nəd-ləri araşdırmağa məhz buna görə icazə vermisiniz, — Dronqo əminliklə dedi. — Siz axı dəqiq bilirdiniz ki, ən qiy-mətli əşyanı onlar tapmayacaq. Amma siz səhv hesablamısınız. Sizi az da olsa tanıyan istənilən adam sizin altruist olduğunuza inanınaz. Siz özünüzü sığortalamaq qərarına gəlmişdiniz, amma bununla özünüzü biixtiyar ələ

vermiş oldunuz. s

— Susun! — Veronika Andreyevna qəzəbindən az qala boğulacaqmış kimi bağırdı.

Sonra ayağa durub sakitcə otaqdan çıxdı.

Yaranmış sükutda Alla qardaşından azca aralanıb birdən dedi:

— Mən artıq heç nəyə təəccüblənmirəm. O belə bir yaramazlığı etməyə tamamilə qadirdir. Özü də sikkələrin oğurlanmasını tamamilə qatilin ayağına yazmaq olardı.

— Bu da son, — Dronqo boş stulda oturaraq dedi. — Lo-patin təsadüfən Qluşkovu güllələyib, sonra isə ifşa olunmaqdan qaça bilməyəcəyinə əmin olduğundan intihar edib. Eyni tapança ilə. Bağdan bağa gəzən, insanlara eyni tapançadan atəş açaraq sonra da onu kolluqların arasında itirən cinayətkarla bağlı fantastik versiyaya inanmaq mümkün deyil. Özü də Lopatinin öldüyü vaxt onun arvadı evdə olub. Elə mühafizə də naməlum adamı buraxmazdı.

Sükut çökdü. Oleq eynəyini çıxardı. Tez-tez göz-lə rini qırpır, göz yaşlarını saxlayaraq dodaqlarını dişlə yir-di. Potapov qaşqabaqla Dronqoya baxırdı. Bü-tün deyilənlərə necə reaksiya verəcəyini bilmirdi. Bir tərəf dən Dronqo sözünün üstündə durub cinayəti açmışdı. Digər tərəfdənsə hər şey çox inanılmaz və təhlükəli görünürdü. Gömrük Komitəsinin rəhbəri keçmiş baş nazir müavininə atəş açır, sonra da özünü öldürür. Bununla yanaşı, onun arvadı tapançanı, digərinin arvadı isə sikkələri gizləyir. Belə bir ifşa üçün general paqonlarından məhrum olmaq olardı.

Zemskov da sakit oturmuşdu. O başa düşürdü ki, belə bir qalmaqaldan jurnalistlər xəbər tutmamalıdır.

— Siz bizə dəhşətli hekayə danışdınız, — birdən Abram Moiseyeviç Perelman dedi. — Mən həmişə əmin olmuşam ki, böyük pullar, haram gəlirlər insanları korlayır, bədbəxt edir. Amma daha bu səviyyədə! Lopatinin quraşdırdığına bir bax... Və ya Veronika Andreyevna. Axı o anlayırdı ki, kolleksiya onunla mərhumun övladları arasında bölünəcək. Yenə Nelli Lopatinanı hardasa anlamaq olar. O, rüsvayçılıqdan qaçınaq istəyirdi. Aınma digərləri... Bu bizim cəmiyyətimizə qoyulmuş diaqnoz kimidir. Bu, yekun diaqnozdur.

— Pul, — Dronqo düşüncəli tərzdə dedi. — Bilirsiniz, sizə nə deyəcəyəm... Pul — insan

həyatında ən önəmli ünsürlərdən — biridir. Bu, həyat üçün talon kimidir. Amma ondan artıq yox. Onlar xoşbəxt olmağa təminat vermir. Heç kimə və heç vaxt... Pul xoşbəxtlik üçün talon ola bilməz. Bunu mən artıq çoxdan anlamışam.

— Hə, — Perelman razılaşdı, — və ən kədərlisi odur ki, bir çoxları belə sadə bir həqiqəti heç vaxt başa düşməyəcək. Ömrünün sonuna kimi.

O, arvadına nəzər salıb onun əlini sıxdı. Qadın da ona gülümsədi. Alla kiçik qardaşına baxıb birdən onu qucaqladı və bərkdən hönkürdü.

— İlahi! — Alina Nelli Lopatinanın qalxıb otaqdan çıxmasını seyr edərək pıçıldadı. — Onlar hamısı eynidir!

Lopatina qapını bərk çırpıb evdən çıxdı. Zemskov ayağa durdu.

— Mən hər şeyi başa düşdüm, — o, qəti şəkildə dedi. — Lopatin öz yeni tapançasını Qluşkova göstərərkən təsa düfən ona atəş açıb. Sonra da vicdan əzabından intihar edib. Doğrudur?

— Ümumiyyətlə, hə, — Dronqo razılaşdı.

— Biz belə də məruzə edərik, — Zemskov razılaşdı. O, maraqla Dronqoya nəzər saldı. — Siz qeyri-adi insansınız, — əlavə etdi. — Sizin beyniniz başqalarınkından daha fərqli işləyir. — Bu onun ağzından çıxan ən güclü tərif idi.

— Onlar eynidirlər, — Alina Perelman evi tərk edən iki qadını nəzərdə tutaraq bir daha acı-acı dedi.

— Mərhumlar hər ikisinin üçüncü ərləri olub, — Dronqo hüznlə bildirdi. — Belə uzun müddət axtaranda əldə etdiyin xoşbəxtliyi nəyin bahasına olursa olsun, əldə saxlamaq istəyirsən. Günahkar təkcə onlar deyil. Sizin qəsəbənizdə hökm sürən əxlaqsızlıq atmosferinin özü onları belə bir yalan danışmağa vadar edib. Biri ərinin sikkələrini gizlədib, digəri ərini biabırçılıqdan xilas etmək üçün tapançanı tullayıb. Hər ikisi ərlərinin reputasiyasından daha çox öz gələcəklərini düşünüb. Onların nə yaşadıqlarını, davranışlarının anatomiyasını anlamaq lazımdır.

— Anlamaq — bağışlamaq deməkdir, — Perelman cavab verdi. — Hərdən mənə elə gəlir ki, indiki zamanda biz artıq ölkəmizdə baş verənləri anlamırıq.

Dronqo Potapova nəzər saldı.

— Mən bitirdim, — o dedi. — Siz burda baş verənlər haqda prezidentə məruzə edə bilərsiniz.

Müxbirlərin maraqlarını da təmin edə bilərsiniz.

— Yox! — Potapov cavab verdi. — İndi jurnalistlər üçün yenə hekayə uydurmalıyam. Biz həqiqəti onlara heç vaxt deyə bilmərik. Heç vaxt!

— Sağ olun, — Dronqo ayağa qalxaraq dedi. — Mən bütün işlərimi bitirdim.

— Gözləyin! — birdən Oleq Qluşkov onu saxladı.

O ayağa qalxıb eynəyini taxdı. Sonra hansısa ümidsiz qətiyyətlə Potapova müraciətlə dedi:

— Hər şey belə də olub. Hər şey məhz cənab Dronqonun danışdığı kimi olub. Bu gün səhər Lopatin mənə zəng vurub hər şeyi danışdı. Bu, təsadüfi atəş olub. O istəməyib... O, atama göstərməyə çalışıb ki, rüsvayçılıqdan qaçmaq üçün hətta özünü öldürməyə hazırdır. Amma atam ona inanmayıb.

— Sağ olun, — Dronqo bir daha sağollaşdı.

O, küçəyə çıxıb göy üzünün buludlarla örtüldüyünü gördü. "Deyəsən, tezliklə yağış yağacaq" – Dronqo düşündü. Onu şəhərə aparmalı olan maşını onlar heç xatırlamayacaq. Evə qayıtmaq istəmirdi. Yaxalığını qaldırıb darvazaya tərəf addımladı.

# Atlantik okeanı üzərində qətl

*Şübhə mənə bildiklərim qədər həzz verir.*
***Aligyeri Dante***

## Tanışlıq

Təyyarə uçuşlarını pis keçirən insanların ən çox sevmədiyi şey Atlantik və Sakit okeanların üzərindən uçmaqdır. Bu sınaq əsəbləri zəif olanlara görə deyil. İllüminatordan, sanki Böyük Daşqın zamanı bütün quru sahəsi su ilə örtüldüyü kimi, saatlarla ucsuz-bucaqsız su səthi görünür. Sakit okeanın səthinə Antarktida da daxil olmaqla, bütün materikləri yerləşdirmək olar və Yer üzündə ən böyük okeanın miqyasını düşünmək istənilən səyahəti dözülməz edir.

O, əvvəllər heç vaxt Sakit okean üzərindən uçmamışdı və bundan sonra da bunu etmək fikrində deyildi. Bunun üçün Avstraliyaya və ya Polineziyanın hansısa adasına getmək lazım idi. Hərçənd, səyahətlərə çox böyük həvəsi olsa da, belə bir marşrutu düşünən kimi əhvalı pozulur və qəti bilirdi ki, belə bir uçuşa razılıq verməyəcək. Bəlkə də elə buna görə o heç vaxt nə Avstraliyada, nə Antarktidada, nə də Sakit okeanın hansısa adasında olmuşdu. Amma dünyanın başqa yerlərində Dronqo dəfələrlə olmuşdu.

Artıq yetkin yaşında o bəzi səfərlərini xatırlayırdı. Məsələn, Anqola və Əfqanıstandan çıxıb getmək üçün yük təyyarələri ilə necə risk etdiyini. Bir dəfə o, Kəlküt təyə Moskva-Daşkənd-Karaçı-Kəlküttə marşrutu ilə gedirdi. Bundan sonra Vyetnama uçmalı olan təyyarə vyetnamlıların böyük pambıq tayaları, yeşikləri və qutuları ilə ağzınacan dolmuşdu. Bu, doxsan birinci ilin oktyabrında olmuşdu.

Qərəz, xatırlansa ki, o müxtəlif aviahadisələrin içinə düşüb, iki dəfə isə onun uçduğu təyyarə yanıb, hesab etmək olar ki, onun, sadəcə, bəxti gətirib. Heç nəyə baxmayaraq, o, təyyarə ilə uçmağa nifrət edirdi. Amma il ərzində bunu otuz-qırx dəfə etməyə məcbur olurdu.

Bu dəfə onlar Cillə birlikdə Britaniya aviaşirkətinin 115-ci reysi, dünyanın ən böyük

təyyarəsi olan “Boinq-747” ilə Nyu-Yorka uçurdular. Bu sinfin təyyarə lərini hava “Titanikləri” adlandırmaq olar. Onların bortunda on dörd yer birinci klass, təqribən yetmiş biznesklass və üç yüzdən çox turist yeri olurdu. Özü də onların, bir qitədən digərinə uçan bir çox avialaynerlər kimi iki yox, üç səviyyəsi olurdu. Biznes-klassın iyirmi yeri üçüncü səviyyədə, pilotların kabinəsinin arxasında yerləşirdi.

Birinci klass pilot kabinəsinin altında yerləşməklə, sərnişinlər üçün heyrətamiz mənzərə təmin edirdi. Dronqo nadir hallarda birinci klassla uçurdu. O, belə hesab edirdi ki, bu şərtlərdə uçmağı yalnız hədsiz zəngin adamlar, şou-biznes ulduzları, Hollivud aktyorları özünə rəva görə bilər. Buna baxmayaraq, Cil Nyu-Yorkdakı əmisi qızından dəvət və birinci klassa iki bilet almışdı. İmtina etmək olmazdı, başqa reyslə də uçmaq axmaqlıq idi. Buna görə Dronqo Cillə görüşmək üçün Londona gəlməyə, ordan da onunla birlikdə Nyu-Yorka uçmağa təəssüflə razılıq verdi.

Xitrounun dördüncü terminalında birinci klassın sərnişinləri üçün salon eniş sahəsindən xeyli uzaqda idi. Xoşbəxtlikdən onların vaxtı var idi. Ona görə Dronqo və Cil divanda əyləşərək özləri üçün portağal şirəsi sifariş verdilər. Dronqo onun zövqünün tez-tez Cilin zövqü ilə üst-üstə düşməsinə təəccüblənirdi. Bir tərəfdən bu xoş idi, digər tərəfdən, belə bir “eynifikirlilikdən” qorxuya düşürdü. Çünki onunla hər dəfə ayrılmağın necə çətin olacağını düşünürdü.

Tənhalığa öyrəşdiyindən özünə başqa cür həyat tə səvvür – edə də bilmirdi. Hərçənd, eqoizmə görə özünü hərdən haqlı olaraq qınayırdı. Amma Cil son illər ərzində onun həyat tərzinə, vərdişlərinə, qəribəliklərinə alışmışdı. Və onları yalnız sevən qadının bağışladığı kimi bağışlayırdı.

Bu gün Cil özünə yaraşan tünd rəngli dəst geyinmişdi. Dronqo qəzet oxuyurdu. Bu zaman gözləmə zalına girən kiminsə bərkdən səsini eşitdi:

– Axır ki, çatdırdıq! Tez gəl, Luiza, yoxsa biz uçuşdan qabaq dincələ bilməyəcəyik.

Naməlum adam çox böyük ölçülərə sahib idi. Dronqoya nəzər salaraq, növbətçi piştaxtaya yaxınlaşıb biletlərini göstərdi. Yanında qırx yaşlarında qadın var idi. Normal bədən quruluşuna malik olsa da, yekəpər kişinin yanında nərmənazik

görünürdü. Qadının əlində "Şanel"dən dəbdəbəli, sırıqlı çanta var idi. Əynində elə həmin firmanın loqotipi olan açıq rəngli kostyum var idi. Qadın gülümsəyərək zala keçdi.

— Cənab Frederik Kremer, — yekəpər bərkdən dedi, — bu isə arvadım Luizadır. Biz Nyu-Yorka uçuruq: nəhayət ki, onu bu səyahət üçün dilə tuta bildim.

— Arvadınız heç vaxt Amerikada olmayıb? — piştaxta arxasında oturan və "Britiş Eyrueys"in stüardessalarına məxsus qırmızıtəhər güllü don geyinmiş növbətçi qız gülümsəyərək soruşdu.

— Heç vaxt! — Kremer də gülümsəyərək təsdiq etdi. — O, okeanın üstündən olan uçuşlardan qorxur və mən onu yalnız indi yola gətirə bilmişəm. Qızımız ərə gedir və biz onun toyuna gedirik.

— Təbrik edirəm, ser Kremer, — növbətçi qız pasportu və biletləri sərnişinə qaytararaq gülümsədi. — Sizi miniyə dəvət edəcəyik.

— Ümidvaram, — Kremer də gülümsədi.

O, ingiliscə Avstriya ləhcəsi ilə danışırdı. Dronqo Kremerin portfelinin üstündə məşhur Avstriya bankı olan "Kreditanştalt Bankferayn"ın inisiallarını sezdi.

Onlar zalın dərinliyinə doğru keçdilər. Bundan dərhal sonra zala asiyalılara məxsus xarakterik göz quruluşlu ortaboylu kişi daxil oldu. Nabələd adam üçün bütün asiyalılar eynidir. Əslində isə koreyalını çinlidən və ya yapondan fərqləndirmək çətin deyil. Əlbəttə ki, əgər siz bir müddət Asiyada yaşamısınızsa. Dronqo Bakıda doğulmuşdu və Asiyanın bir çox ölkələrində dəfələrlə olmuşdu. Bundan əlavə, hüquq fakültəsində onunla birlikdə oxuyan Vyetnamdan və Laosdan olan tələbələr də var idi. Zahirən bir-birinə oxşayan asiyalıların fərqinə hələ o zamanlar diqqət yetirmişdi.

— Cənab Kim Qvan Su? — növbətçi qız onun pasportuna nəzər salaraq gülümsədi. — Siz Amerika vətəndaşısınız?

— Hə, — sərnişin başını tərpətdi, — mənə viza lazım deyil. Siz məndən viza haqda soruşmaq istəyirdiniz?

— Yox, — qız cavab verdi. — Hər şey qaydasındadır. Zala keçə bilərsiniz. Minik başlayanda sizi dəvət edəcəyik.

Koreyalının əlində noutbuk üçün qara portfel

var idi. Ciddi tərzdə başını yelləyib masa arxasına keçdi ki, kompyuterində son məlumatlara baxsın. Dronqo oxumağına davam etməyə cəhd göstərirdi ki, salona otuz beş yaşlarında, tünd-narıncı rəngli don geyinmiş qadın daxil oldu. Qara saçları, iri gözləri və hissiyyatlı almacıq sümükləri var idi. Ətrafa boylanarkən Dronqoya baxdı. O, ayağını ayağının üstünə aşıraraq oturduğundan bahalı ayaqqabısını sezməmək mümkün deyildi. Artıq uzun illər idi ki, eyni – "Balli" firmasının məhsullarına üstünlük verirdi. Dronqo oturmasına baxmayaraq, zala girən qadın onun basketbolçulara məxsus hündür boyuna, ağıllı, istehzalı gözlərinə, nazik dodaqlarına və başının keçəlləşməyə başladığına diqqət yetirdi. Özlüyündə onun "Valentino"dan olan eleqant kostyumunu dəyərləndirib gülümsədi. O da naməlum qadına gülümsəyərkən Cilin qaşlarının çatıldığını sezdi. Cil ona yaxınlaşıb pıçıldadı:

— Mən, əlbəttə ki, qısqanmıram, amma ümid edirəm ki, uçuş zamanı sən bu gözəlçəyə baxmayacaqsan.

— Deyəsən, sən qısqanırsan! — Dronqo gülümsədi.

— Mersedes Bonilya, — qadın yenə Dronqo tərəfə boylanaraq bərkdən dedi.

Dediyinin kimə ünvanlandığı aydın deyildi: Dronqoya, yoxsa piştaxta arxasındakı növbətçiyə.

— Çox məmnun oldum, senyora Bonilya. Siz Meksika dansınız?

— Si. Mexiko-siti.

— Nyu-Yorkda təyyarənizi dəyişəcəksiniz?

— Yox, mən bir neçə gün şəhərdə qalacağam.

Senyora Bonilya bir daha Dronqoya baxdı və dodağında istehzalı təbəssüm göründü. O, Dronqo və Cilin bir-birinə nəsə dediyini görüb Dronqonun yanında oturan gənc qadının onun qızı olmadığını anladı.

"Maraqlı kompaniya olacaq", – Dronqo düşündü.

Adətən, birinci klass salonlarında az sayda sərnişin olur. Biletlərin ağlasığmaz dərəcədə bahalığı və bu səviyyədə olan sərnişinlərin imkanları özünü göstərirdi. Onlar Nyu-Yorka "Konkord"larda uçur və ya şəxsi təyyarə sifariş verirdilər.

— Nə haqda düşünürsən? — Cil maraqlandı. — Mənimlə birlikdə uçduğuna görə təəssüflənirsən? Mənə elə gəlir ki, bu alovlu meksikalı uçuş zamanı

vaxtını məmnuniyyətlə məhz səninlə keçirərdi. Yoxsa elə deyil?

— Mən uçuş vaxtı qorxudan impotent oluram, — Dronqo yarızarafat burnunun altında dedi, — və sən bunu çox gözəl bilirsən. Təyyarədə uçmağa nifrət edirəm, xüsusən, okeanın üstündən.

— Belə uçuşların neçə dəfə olub? — Cil hiyləgərliklə soruşdu.

— Sakit okean üzərindən birinci dəfədir, — o ah çəkdi. — Ümumiyyətlə — isə dəfələrlə uçmuşam. Xatırlamasam yax-şıdır.

Bu zaman qapı açıldı və otağa daha iki nəfər girdi. Onların əlli yaşı olardı. Kişinin əynində dəbdəbəli qara kostyum var idi. Onun hansı firma tərəfindən tikildiyini anlamaq üçün bircə baxış kifayət idi. Onun biçimində “Klod Bonuççi”nin stili hiss olunurdu. Qadın “DolçeQabbana”dan zümrüd rəngli gözəl don geyinmişdi. Çanta və ayaqqabısı “Salvatore Ferraqamo”dan idi. “Fer ra-qamo” şöhrətin zirvəsinə müharibədən sonrakı illərdə-çatsa da, bu firmanın dəri məmulatlarının zərifliyi bü-tün dünyada dəyərləndirilirdi.

Qadının əlində tutduğu çantadan qara rəngli kral pudelinin xoşagəlimli başı göründü. Balaca qara gözlər Dronqonun üstündə dayandı. O, itə baxaraq gülümsədi.

— Bizim pasport və biletlərimiz, — kişi yavaşdan dedi.

— Cənab və xanım Striton, — növbətçi qız oxudu. — Sizin Amerikaya it aparmağa icazəniz var? Karantin haqda məlumatlısınız?

— Əlbəttə, — Striton gülümsədi. — Bu, peyvəndlər haqda sənəddir. Bu da veterinar xidmətin icazəsi. İtin pasportu. Biz artıq Avropadan Amerikaya və geriyə iki dəfə səyahət etmişik və o, hər zaman bizimlə olub.

— Siz onu salonda aparmaq istəyirsiniz? — növbətçi dəqiqləşdirdi. — Bizim qaydalarımız...

— Birinci klassın sərnişinləri üçün deyil, — Striton onun əvəzinə cümləni tamaınlayıb gülümsədi.

— Siz xüsusi icazə almalı idiniz, — növbətçi hələ də şübhə edirdi.

Onun tipik ingilis qadınlarına məxsus sifəti var idi – böyük çənə ilə tamamlanan azca uzunsov üz.

— Bizim icazəmiz var, — xanım Striton da söhbətə qoşuldu. — Budur, əzizim. — O, icazə kağızını çıxarıb növ bətçiyə uzatdı.

— Əyləşin, — növbətçi onlara zaldakı masaları göstərdi. — Biz tezliklə sizi miniyə dəvət edəcəyik.

Striton razılıqla başını tərpədib Dronqo ilə yanaşı divana keçdi. Arvadı əlində pudeli ilə birgə onun ardınca getdi. Dronqo bir daha sevimli itə göz vurdu.

Bu an zalda daha bir cütlük peyda oldu. Yaşları heç otuza çatmayan gənclər zala girərək qorxa-qorxa ətrafa baxırdılar. Biri kürən saçlı, üzündə gülməli çilləri ilə gənc qadın idi. Əynində cins və açıq rəngli gödəkcə vardı. Oğlan isə hündürboy idi. Şabalıdı rəngli qəşəng saçlarını gelin köməyilə daramışdı. Həssas, azca göyərmiş dodaqları və nəcib siması vardı. Belə sifətlər adətən, dəbdə olan jurnallar üçün poza verən modellərdə olur. Gözlərinin altında, böyrək xəstələrində olduğu kimi tünd dairələr gözə dəyirdi.

— Bağışlayın, — növbətçinin adi sərnişinləri birinci klassın sərnişinlərindən fərqləndirə biləcək qədər iti gözləri vardı. — Bu zal birinci klassın sərnişinləri üçündür. Sizin biletləriniz birinci klassadır?

— Hə, — cavan oğlan qürurla cavab verərək biletlərini uzatdı.

O, əlində tünd rəngli çanta tutmuşdu. Eynisi rəfiqə sində də vardı.

— Bağışlayın, cənab Nilson, — növbətçi qız sərnişinlərə gülümsəyərək dedi. — Bu xanım Nilsondur?

— Hə... Yox... Hə, — gənc qadın qorxmuş halda yol yoldaşına baxdı.

— Biz hələ evlənməyə macal tapmamışıq, — cavan oğlan qıyqacı gülümsündü, — ona görə pasportda o hələ miss Melani Leksorpdur. Biz birlikdə uçuruq.

— Siz Böyük Britaniya vətəndaşlarısınız? — növbətçi dəqiqləşdirdi.

— Pasportlarımızda hər şey göstərilib, — Nilson cavab verdi. — Mən Samuel Nilsonam, bu isə gələcək həyat yoldaşım.

Onun ağzında saqqız olduğundan çənəsi tərpənirdi.

— Əyləşin, cənab Nilson.

Onun cazibədar görünüşü növbətçidə heç bir təəssürat yaratmadı.

— Bu qədər, — növbətçi qız kiməsə zəng etdi. — Bugünkü reysə on nəfər var. Başqa heç nə. Hə. Çox sağ olun. İki dəqiqədən sonra onları miniyə dəvət edəcəyəm.

"Nə maraqlı kampaniyadır, – Dronqo bir daha düşündü. – Avstiyalı Kremerlər, koreyalılar, meksikalı qadın, — in-gi-lis Nilson və rəfiqəsi Melani, amerikalıların ailə cütlü yü və Cillə mən. Dünya sivilizasiyasının kiçik modeli".

— Cənablar, biz sizi miniyə dəvət edirik, — növbətçi qız adəti üzrə gülümsəyərək elan etdi. Dronqo qəzeti yığışdırıb divandan qalxdı.

# Uçuş. Qarət

Birinci klassın sərnişinləri təyyarəyə pilotların kabi nə-sinin yanında yerləşən keçiddən girirdilər. Kremer çətinliklə təzə qəzetlər olan arabacığın yanından keçə bildi. Arvadını qabağa buraxıb bir neçə qəzet götürdü. Onun arxasınca keçən Dronqo da bir neçə qəzet götürüb Cili önə buraxaraq salona keçdi. Onların ardınca Nilson və yol yoldaşı keçdi.

Birinci klassın salonunda beş kreslo bir-birinin ardınca təyyarənin bir tərəfində, beşi də digər tərəfində yerləşirdi. İki cüt kreslo isə salonun dərinliyində dördüncü və beşinci sırada yerləşirdi. Məhz bu iki cüt kreslodan dördüncü sıradakılar Dronqo və Cil, beşinci sıradakı isə Kremerlər üçün nəzərdə tutulmuşdu. Qalan sərnişinlər isə salonun kənarlarında, illüminatorlara yaxın yerlərdə yerləşdilər. Soldan birinci və ikinci sırada Stritonlar oturdu. Xanım Striton pudel olan çantanı yanına qoydu. Belə görünürdü ki, ona sahibəsinin yanında olmaq xoşdur. Soldan beşinci sırada koreyalı oturdu. Sağ tərəfdə birinci və ikinci sırada Nilson və rəfiqəsi, onların arxasında isə senyora Bonilya əyləşdi. O, Dronqo ilə qonşuluqdan məmnun qalaraq ona şən-şən göz vurdu.

"Britiş Eyrueyz"in təyyarələrində birinci klassın salonlarında yerlər elə təşkil olunub ki, onlar asanlıqla rahat kreslo-çarpayılara çevrilə bilirlər. Hər sərnişinə menyu və əla şərablar təklif olunur. Hər kreslonun yanında televizor quraşdırılıb və sərnişin özü seçdiyi kinofilmə baxa bilər. Nəhayət, sərnişinlərə yatmaq üçün pijama, şapşap, səhər və axşam təmizliyi üçün lazımi aksesuarlar verilir.

Salonda iki stüard menyu, şampan və şirələri paylamağa başladı. Dronqo kresloda rahat oturaraq düşündü ki, onun üçün ən yaxşısı buradır. Burdan illüminatorlardan hüdudsuz su səthi görünmürdü. Başını kresloya söykəyərək Cilin əlini sıxdı.

— Uçuşlar niyə sənə belə təsir edir? — o, çaşqınlıqla soruşdu.

— Təyyarələr bütün normal adamlara pis təsir edir, — Dronqo mızıldandı. — Bu yeganə situasiyadır ki, mən özümü tamamilə aciz hiss edirəm. Hərçənd, başa düşü rəm ki, avtomobillə səyahət etmək təyyarədən daha təhlükəlidir. Ümumiyyətlə,

yaşamaq təhlükəlidir...

Axırıncı cümləni eşidən senyora Bonilya gülümsədi. O, artıq bir qədəh şampan içdiyindən əhval-ruhiyyəsi yaxşılaşmışdı. Onun ətəyi bir qədər yuxarı qalxdığından dizləri görünürdü. O, bir daha Dronqoya baxdı.

— Belə vulqar qadınları bura kim buraxır? — Cil pıçıldadı. — Onların hansı pula səyahət etdikləri anlaşılmazdır...

— Sən onun üzüyünə bax, — Dronqo sakitcə etiraz etdi. — Bu, əsl "Pyaje"dir. Saatı da həmin firmanındır. Şərfi və ey nəyi isə "Korloff"dandır. Onun aksesuarları indi çox dəb dədir və çox da bahalıdır.

— Sən qadın dəbini hardan bilirsən? — Cil heyrətləndi. — Yoxsa qadın jurnallarını oxuyursan?

— Əlbəttə, oxuyuram, — Dronqo çəkinmədən cavab verdi. — İnsanı düzgün tanımaq üçün onun haqqında çox şey bilməliyəm — nə geyinib, hansı bəzək əşyalarını taxıb, hansı ayaqqabıları sevir. Detallar həmişə vacibdir, onlar insan haqqında sözlərdən daha çox şey deyir.

— İstənilən halda bu vulqar qadın tərəfə baxmaq vacib deyil, — Cil güldü. — Ümumiyyətlə, əgər sənə güvən məsəydim, xahiş edərdim ki, mənimlə yerini dəyişəsən.

— Bu, zəiflik əlaməti olardı, — Dronqo etiraz etdi.

— Kimin tərəfindən? — o başa düşmədi.

— Sənin, — Dronqo gülümsündü. — Qonşumuz dərhal anlayardı ki, sən qısqanırsan.

— Sən bunu qəsdən deyirsən ki, biz yerimizi dəyişməyək, — Cil güldü.

Təyyarə yüksəklik yığırdı. Dronqo gözlərini yumaraq yenə başını kresloya söykədi. On dəqiqə sonra artıq yüksəklik yığılmışdı. Sərnişinlər hərəkətə gəldilər. Cil də öz yerindən qalxdı.

— Ayaqyoluna gedirəm, — dedi. — Ümid edirəm, səni tək qoymaq olar.

O, salondan çıxdı. Senyora Bonilya Dronqoya yenə göz vurdu. Yanında çox gənc xanım olan bu maraqlı kişini qıcıqlandırmaq onun xoşuna gəlirdi.

— Sən bizim bütün əşyalarımızı deklarasiyaya daxil etmişdin? — Dronqo arxadan Luiza Kremerin səsini eşitdi.

— Əlbəttə. Hər şey qaydasındadır.

— Mənim bəzək əşyalarımı da?

— Niyə məndən bu haqda soruşursan? — əri narazılıqla soruşdu.

— Axı özün dedin ki...

— Bəsdir. Çatandan sonra danışarıq. Doğrudanmı başa düşmürsən — ki, sənin qorxuların heç kimi maraqlandırmır?

— Mən düşünürdüm ki...

— Sənin nə düşündüyün vecimə deyil, — Kremer açıq-aşkar həyəcanlanırdı. — Bəsdir vurnuxdun! Başa düşmürəm, — sən niyə qıcıqlanmısan? Pis heç nə olmayacaq. Bizim qonşumuza bax. O, bütün brilyant içindədir. Qolundakı saatın 20-30 min dollar qiyməti var. Və ya qabaqda oturan amerikalı qadına bax. Onun üstündə gör nə qədər bəzək-düzək var! Əsəbiləşmə. Bizim lazım bildiyimiz hər şeyi daşımaq hüququmuz var. Biz qanundan kənar heç nə etmirik.

Dronqo gözlərini yumdu. Cil qayıdandan sonra da ərarvad bir neçə dəqiqə pıçıldaşdı. O, çaşqınlıqla dönüb onlara baxdı.

— Deyəsən, onlar nə haqdasa mübahisə edir, — Cil qeyd etdi.

— Görürsən, adi ailə həyatı nə ilə bitir, — Dronqo zarafat etdi.

— Mən hər şeyi başa düşdüm, — Cil gülümsədi.

Stüardlar sərnişinlərin nə istədiklərini qeyd etdikləri menyuları yığınağa başladılar. Dronqo dəniz sahilində böyüməsinə baxmayaraq, nədənsə, əti balıqdan daha çox xoşlayırdı. Amma bu dəfə Cillə həmrəylik göstərərək, xərçəng və çaxırda omar sifariş verdi.

Stüardlar yüngül qəlyanaltılar gətirib sərnişinlərin qarşısındakı masalara düzdülər. Dronqo Nilson və rəfi qə-sinin təəccüb və heyranlıqla ətrafa boylandıqlarını sezdi. Görünür, onlar belə yüksək klassın salonunda birinci dəfə idi ki, uçurdular. Stüardların hər gəlişində gənc qadın yavaşcadan içini çəkirdi. Sanki o, milyonçuların İngiltərədən Amerikaya uçuşu zamanı necə yaşadıqları ilə bağlı mövzusunda muzeydəki tanışlıq ekskursiyasına düşmüşdü.

Təyyarə komandiri yaxşı hava olacağını və yalnız Amerika sahillərində bir qədər burulğan gözlənildiyini elan etdi. Bildirdi ki, onlar yeddinin yarısında Kennedi aeroportuna enəcəklər. Dronqo koreyalının ayaqyolundan qayıdarkən əynini dəyişib verilən pijamanı geyindiyinə diqqət etdi. Koreyalı

kreslonu açıb onu kənar gözlərdən gizli çarpayıya çevirərək stüardı çağırdı və xahiş etdi ki, onu narahat etməsinlər. O, noutbuk olan çantasını xüsusi qandalla əlinə bənd edib yerinə uzandı. Dronqo yeməyini kifayət qədər cəld yeyib məmnuniyyətlə ənənəvi ingilis çayından içdi. Bundan sonra bir qədər açılışmaq üçün ayağa qalxdı.

Biznes-klassın salonunda çox az adam var idi. Bir qədər də irəliləyib biznes-klass sərnişinləri üçün olan salona aparan pilləkənin yanında dayandı.

"Təyyarələrin necə uçduğunu heç vaxt anlamamışam, – Dronqo düşündü. – Görünür, belə elementar şeyləri ba-şa düşmək üçün mənim nə savadım, nə də fantaziyam ça-tır. Hərçənd, atam deyirdi ki, Ayda olan astronavtların təs virinin necə ötürüldüyünü anlaya bilmir. Yəqin elə şeylər var ki, adi insanlar üçün əlçatmazdır. Aydındır ki, hər şeyi izah etmək olar. Amma təyyarə, içində beş yüz nəfər adam və bir neçə ton yüklə havaya qalxanda adama elə gəlir ki, möcüzənin həyata keçirilməsində iştirak edirsən".

Öz salonuna tərəf dönəndə senyora Bonilyanı gördü. Qadın ona tərəf gəlirdi.

— Deyəsən, sizin mən tərəfə baxmağınız xanımınızın xoşuna gəlmir, — qadın nazla dedi.

— Niyə elə düşünürsünüz ki, bu xanım mənim arvadım deyil? — Dronqo soruşdu.

— Sizin miniyə necə dəvət edildiyinizi eşitdim. Əvvəl sizin soyadınızı dedilər, sonra onun. Deyəsən, senyora Valdano idi. O italyandır. Bəs siz də İtaliyadansınız?

— Demək olar ki!

O, hardan gəldiyini dəqiqləşdirmədi. Deyəsən, bu, həmsöhbətini heç maraqlandırmırdı da.

— Məni adətən, tək buraxmırlar, — senyora Bonilya qürurla dedi. — Ərim qısqanclıqdan ağlını itirir. Ona görə həmişə birlikdə səyahət edirik. Biz istirahət edirdik, amma onu təcili Mexikoya çağırdılar. İndi mən tək qayıtmağa məcburam.

— Bəs niyə Nyu-Yorkdan? — Dronqo təəccübləndi. — Siz dərhal Mexikoya uça bilərdiniz.

— Oğlumuz Nyu-Yorkda oxuyur. Ümumiyyətlə, NyuYork arzular şəhəridir.

— Hə, — Dronqo razılaşdı, — bu, doğrudan da belədir.

— Siz "ED" klubu haqda eşitmisiniz? — birdən o

soruşdu.

Dronqo yaxın dayandığından onun ətrinin şirin rayihəsini duyurdu.

– “ED”? – Dronqo soruşdu. – Deyəsən, eşitmişəm. Əgər səhv etmirəmsə, “Ekstremal duyğular” klubudur.

— Hə, — senyora Bonilya ona yaxınlaşaraq dedi. — Təy-yarələrdə bu, adətən, havada seks anlamına gəlir. Ba-şa düşürsünüz? Biz yuxarı qalxa bilərdik. Buna çox da böyük vaxt lazım deyil.

“Rəzalət”, – Dronqo düşündü.

Əlbəttə ki, onun qarşısındakı gözəl, hətta möhtəşəm qadın idi. Və bəlkə də başqa bir vaxtda o belə bir dəvəti qəbul edərdi. Amma Cili belə alçaq və rəzil bir şəkildə aldada bilməzdi. Aldatmaq istəmirdi. Cil onun üçün həddən artıq dəyərli idi. Ona görə hətta bu qadınla bir araya gəlməyi özünə rəva görməzdi.

— Bağışlayın, senyora Bonilya, — Dronqo mızıldandı, — sizin dəvətinizə cavab verə bilməyəcəyəm.

— Qorxdunuz? — o güldü. — Gənc rəfiqənizi qısqandırmaqdan qorxursunuz?

— Heç də yox, — o, rədd cavabı ilə qadını təhqir etdiyini anladığından daha münasib cümlə axtarırdı. — İş ondadır ki, mən alkoqolizmdən müalicə olunuram, — o əlüstü uydurdu. — Xüsusi həblər qəbul edirəm. Həkimlər mənə iki həftə müddətində içməyi və sekslə məşğul olmağı qadağan ediblər. Əgər siz öz telefonunuzu versəniz, mən məmnuniyyətlə Nyu-Yorka çatandan sonra sizə zəng edərəm.

— Bu necə kədərlidir! — o dedi. — Əlbəttə, mən öz nöm-rəmi sizə verəcəyəm. Xəstəliyinizə görə də narahat olma-yın. İndi elə klinikalar var ki! “Anonim alkoqoliklər cəmiyyətinə” — zəng edin, onlar sizə kömək edər. Orda Hollivudun — bir çox ulduzları müalicə olunur. Bəs siz nə işlə məşğulsunuz?

— Hüquqşünasam, — o məhz nə işlə məşğul olduğunu demədi.

— Hansı sahədə? — qadın əl çəkmədi.

— Beynəlxalq.

— Əgər siz birinci klassla uçursunuzsa, müştərilərinizin kimliyini təsəvvür edirəm. Düzünü desəm, ərimlə biz həmişə biznes-klassla uçuruq. Amma o qəsdən mənim üçün bileti birinci klassa götürdü ki, salonda tək olum. Adətən, belə

salonlarda, əsasən, iki-üç sərnişin olur. Əksəriyyəti də bizim koreyalı kimi biznesmenlərdir. Gəlirlər, yeməkdən və içkidən imtina edirlər, dərhal yatırlar, enişə az qalmış oyanırlar. Yazıqlar. Onları başa düşürəm, axı onların işi belə qurulub. Uçuşlar, görüşlər, yenə uçuşlar.

— Hə, — Dronqo razılaşdı.

— Necə düşünürsünüz, Nilsonun neçə yaşı var? — birdən o soruşdu.

"Deyəsən, bu xanım "ED" klubunun fəxri üzvü olmaq istəyir, – Dronqo düşündü. – Ərinin onu niyə belə qısqandığı aydındır".

O, doxsan səkkizinci ilin aprelində Londonun ən dəbdəbəli oteli olan "Dorçester"də baş tutan inanılmaz görüşü xatırladı. O, gec gəlmiş və bir qədər içməyə imkan tapmışdı. Yaxşı əhval-ruhiyyə ilə zala girərkən orda əyləşən qırx beş yaşlarında çox gözəl bir qadın gördü. O, Dronqonu görərkən ona gülümsəmişdi. Dronqo da ona təbəssümlə cavab vermişdi. O, liftə yaxınlaşarkən bir daha geri çevrilib gülümsədi. Qadın birdən ayağa qalxıb ona tərəf yönəldi. Dronqo gözlərinə inanmadı. Qadın liftin qabağında dayanıb sakitcə soruşdu ki, onun nömrəsinə qalxmağa dəyərmi? Bu qadın fahişə ola bilməzdi. Bu, sadəcə olaraq, macəra arzusunda olan hörmətli bir xanım idi. Amma o, belə bir şeyə hazır olmadığından ürkmüş halda başını buladı. Liftin qapıları bağlandı. Daha sonralar hər dəfə bu insident haqda düşünəndə qadının bozarmış üzü gözlərinin qarşısına gəlirdi. "Belə situasiyalarda imtina etmək razılaşmaqdan daha betər ədəbsizlikdir", – o, həmin hadisəni xatırlayarkən hər dəfə bunu düşünürdü.

— Nilsonun otuz yaşı olar, — Dronqo azca düşünərək cavab verdi. — Əgər istəyirsinizsə, ona bu salona gəl məyini deyə bilərəm.

— Əlbəttə, — o gülümsədi. — Mən sizdən bunu xahiş etmək istəyirdim.

— Mütləq.

"Nəticə etibarilə nə edəcəyinə Nilson özü qərar verməlidir. Öz rəfiqəsi ilə qalsın, yoxsa seksual anlamda bir qədər sərsəmləyən daha yetkin matronanın yanına getsin. Bəlkə onun əri işi ilə arvadından daha çox maraqlanır?" – Dronqo düşündü.

Samuel Nilson və rəfiqəsi nə haqdasa mübahisə edirdilər. Deyəsən, qız oğlandan incimişdi. Dronqo

yaxına gəldi.

— Bağışlayın, — dedi, — bizim sərnişinlərdən biri ikinci salondadır. Bəlkə siz çıxasınız? O sizinlə söhbət etmək istəyir.

— Çıxmaq lazımdır? — Samuel Nilson təəccübləndi.

— Gedək, — Melani sevindi. — Bəlkə orda maraqlı nəsə var?

Onlar salondan çıxdılar. Dronqo onları istehzalı baxışlarla yola saldı. "Senyora Bonilya məni öldürəcək, – düşündü. – Əlbəttə ki, əgər üçlükdə seksi sevmirsə". O yenidən kreslosunda oturdu. Cil yanında yarımuzanıqlı vəziyyətdə gözlərini yummuşdu. Dronqonun səsini eşidib gözlərini azca açdı, ona başını yelləyib yenə yumdu. Və bu vaxt kimsə çığırdı...

# Cİnayət

Dronqo karıxmış halda ətrafa baxdı. Kremerlər arxasında yox idi. Koreyalı başını kreslodan qaldırmışdı. Səs-küy onu oyatmışdı. Ayağa qalxıb portfelini çıxardı. Qışqırığa birinci sıradan cənab Striton tələsdi.

— Nə olub? — o, həyəcanla soruşdu.

— Mənim bütün qiymətli əşyalarım itib! — Luiza Kremer qışqırdı. — Mənim boyunbağımı oğurlayıblar!

— Onun boyunbağısını oğurlayıblar, — keçidə çətinliklə sığan Frederik Kremer gur səslə arvadına dəstək verdi. — Mən bilmirəm, bunu kim edib, amma boyunbağı hələ təyyarədədir. Onu tapmaq lazımdır...

— Gözləyin! — Dronqo işə qarışdı. — Belə həyəcan lanmaq lazım deyil. Nəsə etməyə çalışarıq.

Senyora Bonilya Sem Nilson və Melani ilə birgə salona gəldi. Gənclərin bir qədər karıxmış görkəmi vardı. Senyora Bonilya isə qəzəbli baxışlarını Dronqoya sarı tuşlamışdı.

Artıq onlara bir stüard yaxınlaşırdı. Bu, otuz beş yaşlarında, keçəltəhər kişi idi. Çığırtıları eşidib situasiyanı çözməyə ümid edərək ora tələsdi.

— Nə baş verib, xanım Kremer? — stüard qorxmuş halda soruşdu.

Birinci klassın salonlarında stüardlar sərnişinlərin soyadını bilməyə borcludurlar.

— Boyunbağım itib, — o bərkdən dedi. — Mən yuyunmaq üçün ayaqyoluna getdim. Daha sonra isə çantamı orda unudaraq çıxdım. Düz bir dəqiqədən sonra xatırlayan kimi qayıtdım. Amma boyunbağım artıq orda yox idi.

— Biz onu tapacağıq, xanım Kremer, — stüard onu inandırdı. — Öz yerinizə keçin. Biz mütləq sizin boyunbağınızı tapacağıq.

— Mən sizdən şikayət edəcəyəm! — Frederik Kremer qəzəblə bildirdi. — Siz birinci klassın salonlarında sər nişin-lərin təhlükəsizliyini təmin etməyə borclusunuz. Bu təyyarə deyil, quldur yığıncağıdır.

Baş stüardın müşayiətilə avialaynerin komandiri gələnə qədər o daha bir neçə dəqiqə nalayiq sözlər və sanksiyalarla təhdid edərək qışqırdı. Bu, ortaboylu, kök, sallaq sifətli, peşəkar pilota oxşamayan, qırx yaşlarında adam idi. Görkəmcə daha çox bar

piştaxtası arxasına və ya mətbəxə yaraşırdı. Amma o təcrübəli komandir idi. Kremerlərin çığırtılarını dinləyəndən sonra üz-gözünü turşudaraq izah etdi ki, sərnişinlərin üstündə axtarış aparmağa ixtiyarı yoxdur. Bu zaman ərzində məlum oldu ki, ikinci salonun sərnişinlərindən heç kim birinci salona girməyib və salonlar arasında daim iki stüard olub.

— Əsəbiləşməyin, cənab Kremer, — komandir hirsindən kükrəyən sərnişini sakitləşdirməyə çalışdı. — Biz olay barədə Nyu-York polisinə bildirərik və onlar öz təhqiqatlarını aparar. Narahat olmaya bilərsiniz, biz mütləq sizin boyunbağınızı tapacağıq. Əgər o hələ də təyyarədədirsə, onda yoxa çıxmayacaq. Biz birinci klassın sərnişinlərinin hamısının yükünü yoxlayıb rentgenə alacağıq. Hər şey qaydasında olacaq.

— Heç bir qayda-qanun yoxdur və olmayacaq, — Kremer xırıldadı. — Məni daha heç nə təəccübləndirmir. Əgər birinci klassın salonunda əşyalar itirsə, bircə şəxsi təyyarədə səyahət etmək qalır.

Stüard yenidən şampan paylamağa başladı.

— Boyunbağının dəyəri nə qədərdir? — mübahisədən yorulan komandir soruşdu.

— Əlli min dollardan çox, — Kremer qəzəblə dedi. — Və sizə elə gəlir ki, bu pulu mənə qaytaracaqlar? Sizin şirkətiniz qaytaracaq?

— Bilmirəm, — komandir bütün bu xoşagəlməzliklərin məhz onun növbəsində baş verməsindən açıq-aşkar əsəbiləşirdi. — Boyunbağınız heç olmasa, sığorta olunub?

— Əlbəttə, — Kremer qızararaq qışqırdı. O, dəsmal çıxa-rıb alnını sildi. — Yəni düşünürsünüz ki, belə də yərli əşyanı sığortalamazdıq? Bizim salonun hər bir sərnişininin yükünü yoxlamaq lazımdır. Şəxsi yükünü.

— Cənab, biz sərnişinlər üzərində axtarış apara bilmə rik, — komandir etiraz etdi. — Amma sizə söz veri-rəm, qarət haqda Nyu-Yorka çatmazdan qabaq polisə bil diriləcək.

— Mən sizdən şikayət edəcəyəm! — Kremer təslim olmurdu.

Komandir əlini yellədi.

Dronqo öz yerində oturmuşdu. Cil ona tərəf əyildi:

— Siz bu haqda nə düşünürsünüz, cənab detektiv? Boyunbağını kim əkişdirə bilər?

— Kim oldu, — Dronqo cavab verdi. — Bu kampaniyada istənilən adam. Amma mən fala baxa bilmirəm. Mənim hələ ki, faktlarım çox azdır.

Sərnişinlər bir-birinə qıyqacı baxırdılar. Salonda şüb hə-lilik və inamsızlıq atmosferi hökm sürməyə başladı. Stüardlar şampan və müxtəlif içkilər paylamaqda davam edirdilər.

— Mən onlara göstərərəm! — Kremer sakitləşmirdi. — Elə bilirlər, hər şey ötüb keçəcək. Yəqin biznes-klassın salonundan kimsə keçib boyunbağını oğurlayıb.

— Orda stüardlar dayanıb, — Dronqo ona tərəf dönərək eti-raz etdi. — Ordan heç kim hiss olunmadan keçə bilməz-di.

— Onda kim? — Kreıner qeyzləndi.

— Mənim üzüyüm də itib, — arvadı bildirdi.

— Mənim üstümə qışqırmaq lazım deyil, — Dronqo dedi. — O nə üzükdür elə?

— Paris zərgəri Jana Mikadan olan kiçik bir üzük, — xa nım Kremer izah etdi. — Çox təəssüf ki, o itdi. Biz onu qızı-mızın toyuna hədiyyə aparırdıq. Boyunbağını isə mə rasim zamanı taxmaq istəyirdim. Mən nə biləydim ki...

— Çox təəssüf, — Dronqo mızıldandı.

— Hörmətli sərnişinlər! — kapitanın səsi eşidildi. — Xahiş edirik, sakitliyə riayət edəsiniz. İki saatdan sonra biz Nyu-Yorkun Con Kennedi adına olan hava limanına enirik.

— Hələ nəsə deməyə cəsarət edir... — Kremer qəzəblə deyindi.

Elə bu an xanım Stritonun çantasındakı qara pudel bərkdən hürdü. Hamı başını itə tərəf çevirdi. Amma pudel qəfildən çantadan sıçrayıb salonun sonuna tərəf qaçdı.

— Cerri! — xanım Striton qışqırdı. — Cerri, bura gəl!

Amma pudel artıq birinci salondan çıxırdı. Xanım Striton yerindən sıçrayıb onun ardınca qaçdı. Əri onun köməyinə tələsdi. Samuel Nilson kreslodan durub qaçanları göstərərək bərkdən güldü:

— Dovşan kimi qaçırlar.

Melani onu kresloya oturtmaq üçün ayağa durdu. Samuel itin ardınca tələsərkən az qala koreyalının üstünə yıxılacaqdı. Burnunun altında

üzrxahlıq edib yoluna davam etdi. Amma ər-arvad pudeli ikinci salonda yaxalaya bildiklərindən digər girişdən öz yerlərinə qayıdırdılar. Öz dostuna çatan Melani onu yerinə oturtdu. Onun içdiyi aydın görünürdü. "Qəribədir, – Dronqo düşündü, – axı o spirtli içkiyə demək olar ki, toxunmurdu".

Bu an Kremer yenə ayağa durdu.

— Birinci klasın bütün sərnişinlərinin şəxsi yükünü yoxlamaq lazımdır, — o, yenə başladı. — Sakit ol, Luiza, — ağlayan arvadına müraciət etdi. — Biz mütləq sənin boyunbağını qaytaracağıq, kefini pozma. Özü də unutma ki, o sığorta olunub.

O, salondan çıxdı. Hamı onun ardınca baxırdı. Koreyalı başını bulayıb nəsə mızıldadı. Daha sonra qarşısındakı portağal şirəsi olan qədəhi iki qurtumda başına çəkdi. Birdən onun rəngi ağardı, boğazını tutub xırıldayaraq yanı üstə yıxıldı.

— Həkim! — Luiza Kremer dəhşətdən rəngi ağarmış halda çığırdı. — Qətl törədilib! Həkim çağırın!

Cil qorxmuş halda içini çəkdi. Dronqo yerindən sıçrayıb onun üstünə atıldı. O xırıltılı və ağır-ağır nəfəs alırdı. Onun bütün bədəni qıc olmuşdu. Birdən o süstləşərək sakitləşdi. Dronqo onun nəbzini yoxlayandan sonra dedi:

— O öldü.

— Gəlin onu qaldıraq, — xanım Striton təklif etdi. — Mən həkiməm, ona baxmaq istəyirəm.

— Ona daha kömək lazım deyil, — Dronqo etiraz etdi.

— Siz həkimsiniz? — o sərt halda soruşdu. — Əgər deyilsinizsə, mane olmayın. Onun çantasını və qandallarını açın. Ona kömək etməyə çalışaq.

Dronqo onun ciblərini yoxlayaraq açar tapdı. Çantanı onun qandallarından ayırıb kreslonun üstünə qoydu. Özünü isə yerə uzatdı. Xanım Striton onun üzərinə əyildi. Hamı onun başına toplaşdı. Nilson axmaqcasına gülümsəməyə davam edirdi.

— Ona nə olub, Codi? — əri soruşdu.

— O ölüb, — qadın yerdən duraraq bildirdi.

Senyora Bonilya dua oxumağa başladı.

— Bilirdim ki, hər şey belə qurtaracaq! — Melani birdən dostuna müraciətlə qışqırdı. — Mən bilirdim ki, biz uçmamalıyıq, Sem. Sənə bu haqda demişdim.

— Sakit ol, — ayaq üstə güclə dayanan Nilson mızıldandı. — Sən nə haqda danışırsan?

— Sənə dedim axı biz bu uduşu götürməməliyik. Bu mənim heç xoşuma gəlməmişdi, Sem, — Melani ağladı.

Cil onun çiyinlərini qucaqladı.

— Ağlamaq lazım deyil, — o, gənc qadını sakitləşdirməyə çalışdı.

Kremer və avialaynerin komandiri gəldilər.

— Axı demişdim, burda cinayətkar dəstə fəaliyyət göstərir! — Kremer qəzəblə bildirdi. — Mən israr edirəm: bütün sərnişinlərin yükünü yoxlamaq lazımdır.

— Bizim sərnişində ürəktutması ola bilərdi, — komandir etiraz etdi. — Amma ən doğrusu, Nyu-Yorka çatandan sonra məlum olacaq. İndi isə hamıdan sakitləşməyi xahiş edirəm.

— Yenə kimisə öldürmələri üçün?! — Kremer artıq özünü idarə edə bilmirdi. — Siz bunu istəyirsiniz?

— Bura iki stüard göndərin, — kapitan əmr etdi. — Qoy onlar hər an bu salonda olsunlar. Təəssüf ki, mən daha heç nə edə bilmərəm, cənablar.

— Hər bir sərnişinin şəxsi əşyalarını yoxlamaq lazımdır, — Kremer israr etdi.

— Yalnız Nyu-York polisinin nümayəndələri borta qalxandan sonra, — komandir qəti şəkildə bildirdi.

İki stüard mərhumun cəsədini koridora çıxarıb üstünə mələfə örtdülər. Daha sonra isə mühafizəçi kimi salonun qapısında dayandılar. Cil Melaninin yanında oturtdu. O titrəyirdi. Dronqo Nilsona yaxınlaşdı. Elə onun da vəziyyəti pis idi.

— Özünüzü necə hiss edirsiniz? — Dronqo ondan soruşdu.

— Eybi yox, — Sem dedi, — indi bir qədər yaxşıyam. Çox sağ olun.

— Siz narkotik maddə qəbul etmisiniz... — Dronqo duyuq düşdü.

— Biz Melani ilə Hollandiyada yaşayırıq, orda isə buna icazə var, — Nilson çiyinlərini çəkdi.

— Çoxdan ordasınız?

— Artıq dörd ildir.

— Bəs Londona necə düşmüsünüz?

— Biletləri lotereyada udmuşuq, — Nilson gülümsəyərək izah etdi.

— Necə yəni udmusunuz?

— Beləcə. Bir xeyriyyə lotereyasının biletini

Kitabsevərlər
2 new messages
14:29
REPLY
MARK AS READ

— Əlbəttə. Bu xeyriyyə lotereyası idi və bütün nöm rələr yazılırdı. Nəsə qeyri-adi bir mükafat olacağı gözlə nilirdi. Və belə bir mükafat bizə düşdü.

— Təbrik edirəm, — Dronqo gülümsədi. — Doğrudan da əladır.

Yenə Kremerin qəzəbli səsi eşidildi:

— Mənə nə vaxt su gətirəcəklər? Yoxsa mən də bu sərnişin kimi susuzluqdan ölməliyəm ki, məni xatırlasınlar?

Stüard əlində su stəkanı ilə hirsli Kremerə tərəf qaçdı. O, suyu birnəfəsə içdi.

— Ehtiyatlı olun, — Dronqo sakitcə məsləhət verdi. — Bizim qonşumuz şirə içəndən sonra qəfildən öldü.

Kremer dəhşətlə içini çəkdi. Dronqo baxaraq:

— Siz nə danışırsınız? — dedi.

— Sadəcə olaraq, ehtiyatlı olmağı məsləhət görürəm. Əgər boyunbağınız sığortalanmışdısa, məncə itkiniz o qədər də böyük olmayacaq. Amma su ilə ehtiyatlı olmaq lazımdır.

Kremer əlini yelləyib ağlayan arvadına baxdı. Senyora Bonilya əlini yellədi.

— Reysin sonuna kimi ınən nə yeyəcəm, nə də bir şey içəcəm. Kimin ağlına gələrdi ki, burda adam öldürə bilərlər?.. Sizcə, onu öldürüblər?

— Mən hələ heç nə bilmirəm, senyora, — Dronqo sakitcə cavab verdi. — Amma siz düz qərar vermisiniz. Yaxşısı budur, Nyu-Yorka enənə kimi heç nə yeyibiçməyəsiniz.

Melani onun yerini tutduğundan Dronqo boş kreslolardan birində oturdu. Gözlərini yumaraq düşünürdü ki, deyəsən, o, cinayətləri özünə sarı çəkir. Bəs bütün bunlar təsadüf ola bilməzdimi? O onların reysinə minik başlayan andan etibarən baş verənləri hafizəsində götürqoy etməyə başladı. Birdən yanında kiminsə tərəfindən atılmış qəzet gördü. Qəzet... O, yenə gözlərini yumdu. Hər şey bir zəncirə düzülməyə başladı. Bircə boyunbağı çatmırdı. Onda bu zəncir bağlanmış olacaqdı.

almışdıq. Və udduq. Biletlərimizdən biri uğurlu oldu. Əvvəlcə bizə London-Nyu-York marşrutu üzrə birinci salona aviabilet udduğumuz bildiriləndə inanmadıq. Ona görə biz Nyu-Yorka uçmağa qərar verdik. Belə bir imkanımız daha nə vaxt olacaq ki?

— Dediniz ki, bildirəndə, — Dronqo başa düşmədi. — Sizə uduş haqda demişdilər?

— Əlbəttə. Bu xeyriyyə lotereyası idi və bütün nöm rələr yazılırdı. Nəsə qeyri-adi bir mükafat olacağı gözlə nilirdi. Və belə bir mükafat bizə düşdü.

— Təbrik edirəm, — Dronqo gülümsədi. — Doğrudan da əladır.

Yenə Kremerin qəzəbli səsi eşidildi:

— Mənə nə vaxt su gətirəcəklər? Yoxsa mən də bu sərnişin kimi susuzluqdan ölməliyəm ki, məni xatırlasınlar?

Stüard əlində su stəkanı ilə hirsli Kremerə tərəf qaçdı. O, suyu birnəfəsə içdi.

— Ehtiyatlı olun, — Dronqo sakitcə məsləhət verdi. — Bizim qonşumuz şirə içəndən sonra qəfildən öldü.

Kremer dəhşətlə içini çəkdi. Dronqo baxaraq:

— Siz nə danışırsınız? — dedi.

— Sadəcə olaraq, ehtiyatlı olmağı məsləhət görürəm. Əgər boyunbağınız sığortalanmışdısa, məncə itkiniz o qədər də böyük olmayacaq. Amma su ilə ehtiyatlı olmaq lazımdır.

Kremer əlini yelləyib ağlayan arvadına baxdı. Senyora Bonilya əlini yellədi.

— Reysin sonuna kimi ınən nə yeyəcəm, nə də bir şey içəcəm. Kimin ağlına gələrdi ki, burda adam öldürə bilərlər?.. Sizcə, onu öldürüblər?

— Mən hələ heç nə bilmirəm, senyora, — Dronqo sakitcə cavab verdi. — Amma siz düz qərar vermisiniz. Yaxşısı budur, Nyu-Yorka enənə kimi heç nə yeyibiçməyəsiniz.

Melani onun yerini tutduğundan Dronqo boş kreslolardan birində oturdu. Gözlərini yumaraq düşünürdü ki, deyəsən, o, cinayətləri özünə sarı çəkir. Bəs bütün bunlar təsadüf ola bilməzdimi? O onların reysinə minik başlayan andan etibarən baş verənləri hafizəsində götürqoy etməyə başladı. Birdən yanında kiminsə tərəfindən atılmış qəzet gördü. Qəzet... O, yenə gözlərini yumdu. Hər şey bir zəncirə düzülməyə başladı. Bircə boyunbağı çatmırdı. Onda bu zəncir bağlanmış olacaqdı.

# İfşa

Bir saat sonra təyyarə Kennedi hava limanında yerə endi. Polis və FTB əməkdaşları sərnişinlərə təyyarəni tərk etməyə icazə verdilər. Yalnız birinci klassın sərnişinlərindən başqa. Koreyalının cəsədinə hətta ön baxışdan belə məlum olurdu ki, Kim Qvan Su zəhərlənib. Məlum oldu ki, mərhum məşhur zərgərlik şirkətini təınsil edirmiş: o, şirkətin Böyük Britaniyadakı agenti imiş.

Təyyarədən çıxan birinci klass sərnişinlərinin hər birini metalaxtaranla yoxladılar. FTB əməkdaşları Sem Nilsonun çantasından boyunbağı və üzərində “Ana və atasından əziz qızına” sözləri yazılmış üzük çıxardı. Nilson həbs olundu. Onun əlinə qandal keçirdilər. Bundan sonra FTB-nin xüsusi agenti və polis kapitanı sərnişinlərə zala toplaşmağı təklif etdi. Mənfur reysin heyət üzvləri də burda idi. Qolu qandallı Nilson dilxor vəziyyətdə küncdə oturmuşdu. İki polis onun keşiyini çəkirdi. Melanini onun yanına buraxmırdılar. Ona görə o bir qədər aralıda ağlayırdı.

— Biz sizin boyunbağınızı tapmışıq, cənab Kremer, — polis kapitanı boyunbağı və üzüyü yuxarı qaldıraraq bildirdi. — Görünür, qonşunuz cənab Nilson arvadınızın səhlənkarlığından istifadə edib. Siz təsdiq edirsiniz ki, bu əşyaların hər ikisi sizə məxsusdur?

— Əlbəttə! — Kremer qışqırdı. — Mən ki demişdim: biz qızımızın toyuna gedirdik. Nikah mərasimi bu gün ax şanı olacaq. Ümid edirəm, əşyalarımızı götürməyə icazə verərsiniz. Səhər isə biz qayıdıb ifadə verə bilərik. Bu yaramaz yəqin bizim qonşumuzu da öldürüb. Amma səbəbi məlum deyil.

— Məlumdur, — kapitan etiraz etdi. — Biz Kim Qvan Sunun çantasında onun portmanatını tapmışıq. Qərəz, hər şey aydındır. Sizin əşyalarınızı qaytaracağıq. Amma sonra onları məhkəmə araşdırması üçün əşyayi-dəlil kimi təhvil verməli olacaqsınız.

— Mütləq qaytararıq, — Kremer arvadına nəzər salaraq təsdiq etdi.

O, başını tərpətdi. Gözləri yenə yaşlı idi.

Xanım Striton itini özünə sıxıb başından öpdü.

Cənab Striton polis kapitanının hər iradına quru şəkildə başını tərpədirdi. Onun yanında oturan Mersedes Bonilya Nilsona ehtiyatla nəzər salaraq dua oxuyurdu. Tanrıya şükür edirdi ki, onu qatillə bir araya gətirməyib. Melani Cilə sıxılmışdı.

Birdən Dronqo ayağa durub FTB əməkdaşına yaxınlaşaraq onu nəyəsə inandırmağa başladı. O, çaşqınlıqla Dronqoya baxdı. Amma görünür, sonra onun dəlilləri ilə razılaşaraq başını yellədi və otaqdan çıxdı. Polis kapitanı boyunbağı və üzüyü cənab Kremerə qaytararaq onun əlini sıxdı.

— Jurnalistləri çağırmaq lazım idi, — əhvalı korlanmış senyora Bonilya dedi.

— Mən həmişə Amerika ədalətinə inanınışam, — cənab Kremer pafosla deyərək alnının tərini sildi.

— Bağışlayın, — Dronqo Kremerlərin zaldan çıxmağa hazırlaşdığını görərək dedi. — Mən daha bir neçə dəqiqəliyə sizin vaxtınızı alacam.

— Nə olub? — Kremer anlamadı.

— Gözləyin, — Dronqo dedi. — Mən bəzi müşahidələrim haqda sizə danışmaq istəyirdim.

Birinci sıranın qabağındakı boş sahəyə çıxaraq orda olanlara nəzər saldı.

— Biz hələ gözləmə zalında olarkən mən diqqət yetirdim ki, adətən, birinci klassla uçan sərnişinlərdən başqa orda qəribə bir cütlük — Samuel Nilson və Melani Kelsorp peyda oldular. Onlara bircə baxışla nəzər salmaq kifayət idi ki, Amerikaya birinci klassla uçmaq üçün külli miqdarda pulu tapmaq onlara necə çətindir. Şübhələrimi Nilson təsdiq etdi. O mənə iki aviabilet udduqları xeyriyyə lotereyası haqda danışdı. Ən maraqlısı o idi ki, onlara kimsə zəng edib uduş barədə bildirib. Və düşündüm ki, kimsə bu cütlüyün məhz bu reysə düşməsində maraqlı olub. Nilson və rəfiqəsinin narkotiklərə aludə olmağı, görünür, bu şounu təşkil edənlərə məlum olub. Məni təəccübləndirən həm də o idi ki, senyora Bonilyanın da dediyi kimi adətən iki-üç sərnişin olan bu salonda on nəfər var idi. Məni xüsusən ailəvi cütlüklər maraqlandırırdı.

Frederik və Luiza Kremerlər məndən arxada oturub boyunbağı barədə mübahisə edirdilər. Elə bərkdən mübahisə edirdilər ki, onları yalnız mən və Cil deyil, senyora Bonilya da eşidirdi. Sonra qəfildən

məlum oldu ki, boyunbağı və üzük itib. Hər şey elə hesablanmışdı ki, bu əşyalar reallığı adekvat təsəvvür edə bilməyən Nilsonun çantasından çıxsın. O, elə bir vəziyyətdə idi ki, çətin ki, bu əşyaları oğurlayıb çantasına qoya biləydi. Bu fırıldağı düşünənlərin planına məhz bu daxil idi.

Senyora Bonilya fırıldaqçılara lazımsız "xidmət" göstərib. O məndən Nilsonu ikinci salona çağırmağımı xahiş etdi. Hərçənd, yanında Melani var idi. Əlbəttə ki, o, Samuellə birlikdə yola düşməklə, cinayətkarların bəzi planlarını pozmuş oldu. Cənab Kremer hər şeyi düzgün hesablamışdı: əvvəlcə, onlar bərkdən guya gömrük deklarasiyasına daxil edilmiş və ya edilməmiş qiymətli əşyalardan danışırdılar. Mən hətta ehtimal edirəm ki, daxil edilmişdi. Əslində isə onlarda saxta boyunbağı ola bilərdi. Onu daha sonra salonda hardasa gizlədə və ya ata bilərdilər. Onları tamam başqa boyunbağı maraqlandırırdı: qandalla Kim Qvan Sunun əlinə bağlanmış çantadakı boyunbağı. Yatmazdan əvvəl o, noutbuk olan çantanı əlinə bağlamışdı. Görünür, orda kompyuterdən başqa, bahalı boyunbağı da olub. Mən onun oyanan kimi çantasına tərəf atıldığına diqqət yetirdim. Əgər orda yalnız noutbuk var idisə, niyə bədbəxt koreyalı belə həyəcanlanırdı? Axı çantaya baxanda bilinirdi ki, kompyuter ordadır. Deməli, orda indi cənab Kremerə verilmiş boyunbağı var imiş.

Belə bir əməliyyatı keçirmək üçün bir cütlük azlıq edərdi. Cənab Kremer öz çığırtıları ilə sərnişinlərin diqqətini çəkirdi. Arvadı isə ona kömək edirdi. Buna baxmayaraq, mən bizim sevimli pudeli xatırladım. Bütün uçuş boyu sakit oturan it birdən hürərək qaçmağa başladı. Məhz bu vaxt Stritonlar öz itlərinin ardınca qaçarkən onlardan biri Kim Qvan Sunun stəkanına zəhər tökdü. Diqqət edin: onlar salona digər tərəfdən qayıtdılar və Nilsonun oturduğu kreslonun yanından keçdilər.

Məncə, cəsarətlə demək olar ki, bizim salonda olan iki cütlük Kim Qvan Sunun Nyu-Yorka apardığı boyunbağını oğurlamaq üçün onun qətlini düşünüb və həyata keçirib. Əminəm ki, əgər bizim sərnişinləri axşama kimi saxlasanız, öldürülmüş koreyalıda olan əşyaların dəyərini bilərik. Samuel və Melani isə hədəf rolunu oynadılar. Cinayətkarların fikrinə görə, koreyalının qətlini və əşyaların oğurlanmasını onların üzərinə yıxmaq olar.

Hər şey xırdalıqlara qədər düşünülmüşdü. Amma fırıldaqçılar gözləmirdi ki, burda senyora Bonilya, mən və Cil ola bilər. Amma cənab Kremer bizdən şahid qismində istifadə etmək qərarına gələrək arvadına tamaşa göstərməkdə kömək etdi. Buna baxmayaraq, cənab Kremer improvizasiyada o qədər güclü olmadı. O bir əsaslı səhv buraxıb.

— Hansı səhvi? — Kremer qızarmış halda xırıldadı.

O donmuş halda Dronqonu dinləyirdi, sanki hipnoz edilmişdi.

— Öz dəyərli əşyalarınız haqda danışarkən siz ingilis cə danışırdınız, — Dronqo izah etdi, — amma sizin portfe linizdə Avstriya bankının loqotipi var. Bundan başqa, sizin pasportlarınız da Avstriya pasportudur. Razılaşın ki, öz sirləriniz haqda ingiliscə yox, almanca danışmağınız daha məntiqlidir. Mən, Cil və senyora Bonilya ingilis dilini bilirik. Mənim yadımdadır ki, minik vaxtı mətbuat arabacıqlarının yanından keçərkən siz alman və ingilis dillərində olan qəzetlər götürdünüz. Daha sonra mənim hansı qəzetləri götürməyimə diqqət yetirərək hansı dili bildiyimi təyin etdiniz.

— Bunlar yalnız ehtimallardır, — cənab Striton sakitcə etiraz etdi. — Sizin sübutunuz yoxdur.

— Doğrudur, — Dronqo razılaşdı. — Bu, yalnız mənim müşa-hidəmdir. Hərçənd, mənə elə gəlir ki, qətlin əsas təş-ki-latçısı və icraçısı məhz sizsiniz. Yeri gəlmişkən, sizin arvadınız zəngin, amma bir qədər qəribə geyinib. "Fer-raqamo"dan olan ayaqqabı ilə "DolçeQabbana"dan olan paltarı geyinmək olmaz. Bu, moveondur, cənab Striton. — Birinci klassla uçan adamlar isə bu haqda yaxşı bilir.

— Bütün bunlar həyasız yalanlardır, — öz əlbirinin susqunluğundan ürəklənən cənab Kremer bərkdən dedi.

Bu vaxt FTB əməkdaşı zala daxil oldu.

— Bağışlayın, cənab Kremer, — o gülümsəyərək dedi. — Mən elə indicə Vyana ilə, əsl cənab Kremerlə danışmışam. Onun heç ağlına da gəlmir ki, Amerikada qızı var. Düşünürəm ki, siz bütün dəyərli əşyaları təhvil verib bir müddət bizimlə qalacaqsınız.

— İlahi! — Melani pıçıldadı.

— Cənab Nilsonun qandallarını çıxarın, — polis kapitanı tapşırıq verdi.

Hamı Stritona baxdı. O, mükəmməl tikilmiş kostyumda oturub karıxmış halda gülümsəyirdi.

— Belə xırdalıqlar... — o kədərlə pıçıldadı. — Siz beş il ərzində düşündüyüm dahiyanə kombinasiyanı pozdunuz. Beş il — və belə xırdalıqlar... Bu dişinin xoşuna gələn bədbəxt narkoman, almanca danışmağın lazım olduğunu anlamayan axmaq Kremer. Və mənim belə qəliz geyinmiş arvadım. Siz hər şeyi aça bildiniz. Deyin görək, buna görə kimə minnətdar olmalıyıq?

— Adətən, məni Dronqo deyə çağırırlar, — o azca baş əydi. — Məncə, sevimli pudelinizi kiməsə verməli olacaqsınız. O heç nədə günahkar deyil.

Dronqo ona baxan və hamının Londondan onlarla birgə uçan bu sərnişinə niyə belə gərginliklə qulaq asdıqlarını anlamayan itə göz vurdu.